# AZƏRBAYCAN

**5’2025**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN
AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**



**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini: Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**

**Şöbə müdirləri:** **Məmməd ORUC,
Qəşəm NƏCƏFZADƏ,
Mübariz CƏFƏRLİ,
Azad YAŞAR**



**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya* –
498-78-10
493-75-81

*Mühasibat* –
493-29-41



**Çapa imzalanıb:**
30.04.2025
**Sifariş 791**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
12 çap vərəqi
17,2 şərti çap vərəqi



**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
**www.azyb.az**



**Qiyməti
2 manat**

**Bakı şəhəri, “Azərbaycan”
nəşriyyatının mətbəəsində
ofset üsulu ilə çap olunur**



**Dərc olunmuş yazılar qəbul edilmir.
Əlyazmalara rəy verilmir və qaytarılmır.
Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:

### RƏSUL RZA -115

RƏSUL RZA – Babayam! (şeir)....................................................................................3
SEVİNC MÜRVƏTQIZI – Zamanın yaddaşına yazılan bədii ritorik vəsiyyət... ......5
YAŞAR QASIMBƏYLİ – Rəsul Rza və Yeni Azərbaycan poeziyası .......................9
RƏSUL RZA – İki buynuzlu İskəndər... (şeir) ........................................................22

### MAKSUD İBRAHİMBƏYOV – 90

İSA HƏBİBBƏYLİ – Bütün yaxşılıqlara görə – əbədiyyət ....................................23
MAKSUD İBRAHİMBƏYOV – Püstə ağacı (tərcümə edən: Azad Yaşar).............29
ELMİRA AXUNDOVA – "Heydər Əliyev Azərbaycanda heç kəsə dissident damğası vurulmasına yol verməmişdi" (tərcümə edən: Azad Yaşar) ...........................................34
MURAD İBRAHİMBƏYOV – Ekranlaşdırma (tərcümə edən: Azad Yaşar) ..........45
RÜSTƏM KAMAL – Maksud İbrahimbəyov: Yaddaşın üslubu .............................57

### VAQİF BƏHMƏNLİNİN 70 YAŞI

VAQİF BƏHMƏNLİ – Yeni şeirlər .........................................................................62

### NƏSR

MÜBARİZ CƏFƏRLİ – Ağacda alma (roman) .......................................................81

### TÜRK DÜNYAMIZ

ADİL CƏMİL – Alıkul poeziyasında Vətən sevgisi, yurd məhəbbəti ...................151

### POEZİYA

FAİQ BALABƏYLİ – Şeirlər ....................................................................................158
XURAMAN HÜSEYN – Şeirlər ...............................................................................168
OKTAY ŞAMİL – Şeirlər .........................................................................................174
ZÖHRAB MEHDİ – Şeirlər .....................................................................................184
ELDAR HƏSRƏT – Şeirlər .....................................................................................188

### ƏDƏBİ PORTRETLƏR

VÜSAL NURU – Qənimət Adam ............................................................................165

KİTAB RƏFİ ..............................191

# Rəsul Rza – 115



## BABAYAM!

Nə uzun, ağ saqqalım var, nə belim bükülüb.
Qucağımda nəvəm – buz baltası!
Yanımda atamın nəvəsi – nəvəmin atası!
Gedirəm. Günəş həsədlə mənə baxır;
Özü baba deyil axı!
Ayaqlarıma döşənib dəniz; övladsız, nəvəsiz.
Sığallayır saçımı külək;
dünyaya yalqız gəlib, yalqız gedərək.
Küçələrə nəğmə, gülüş yayılıb
dəstə-dəstə, çiçək-çiçək!
Yollara sünbül-sünbül
İşıq çıldırı tökülüb.

Babayam! Nə gözlərim nurdan düşüb,
Nə yaddaşım sökülüb,
Gedirəm Bakı boyu;
Neçə-neçə təbəssümdən, salamdan,
xoş baxışdan, qibtədən keçə-keçə.
Dostlarım çoxdur;
xırda-xuruş istəməyənlərim də yox deyil;
Hamısının adını bilməsəm də.
Bu gün hamıya səadət, xoş gün,
insana layiq həyat arzum var;
köksüm içində asılmış
“ürək” adlı – dörd gözlü kisəmdə.
İstəyirəm yer üzünü dolaşam
səhər şəfəqlərilə;
Təbrik edim dünyadakı babaları, nənələri.
İstəyirəm alım qollarıma
dəstə-dəstə çiçək kimi bütün nəvələri.



***Sevinc MÜRVƏTQIZI***



# Zamanın yaddaşına yazılan bədii ritorik vəsiyyət...

...Zahirdə parıldayan hər şeyin əslində göründüyü kimi olmadığı bir illüziyanın içində, səthi hay-küylə ovunduğumuz həyatımızda sükutun dərin, batini dilini anlamaqda bəzən çətinlik çəkirik. Kənardan alovuna həsəd apardığımız gur tonqalların sonunda bir ovuc kül taleyinə təslim olduğunu isə bədii sözün gücüylə zamanın ədəbi hafizəsinə həkk edilən şeirlərdən anlayırıq...

Azərbaycan poeziyasına özünəməxsus avanqard nəfəs gətirən Rəsul Rza hələ 1964-cü ilin soyuq yanvarında yazdığı bir şeirində bəhs etdiyimiz gerçəkləri əslində cavabını bildiyi ritorik suallarla həm “Soruş”ub, həm də duyğudan düşüncəyə keçid edərək cavablayıb...

***Od nə çəkdi,***
***küldən soruş!***

Şeirin ilk misrasındaca oxucunu düşünməyə vadar edən poetik-intellektual ab-hava nəfəslik kimi açılır görə bilmədiyimiz həqiqətlərə... Minimal təqdimatda dərin və mənalı misralar keçmiş iztirabları, əsl kədəri, ürəkdəki yanğınların yaxıb-qovuran gücünü və nəhayət, yaşanmışlıqların sondakı sükutunun əsl dəyərini anladır. Odun özündən soruşsan, ola bilsin ki, hələ də alışıb-yandığı üçün danışa bilməz. Amma soruşsan, soruşmağa cəsarətin çatsa, hər şeyi yaşamış, bitirmiş, sönmüş və sus(durul)muş kül – hər şeyi deyə bilər...

***Baş nə çəkdi,***
***dildən soruş!***

Bu misralarda isə fikrin yolu haçalanıb iki məna aləminə aparır. Bir yandan xatırladır ki, “deməsəm ölləm” inadı ilə dilimizin ucbatından ömrümüz boyu nələr-nələr gəlir başımıza... Mənanın digər tərəfindən baxanda isə, başımızı bəlaya salan da, o dərdləri anladan da dildir. Allah dərdi də, dərmanı da özümüzə verib əslində... Susası yerdə danışan, dinəsi yerdə susan dilimizdən başımızın nələr çəkdiyinin cəmi beş sözlük misra ilə son dərəcə lakonik, bədii təsviri verilib.

Məntiqi olaraq bütün bunlardan sonra kədərin və həsrətin estetik təsviri gəlir:

***İşə susuz barmaqların***
***kədərini insan bilir.***
***Nəğmələrin həsrətini***
***bir qırılmış teldən soruş!***

“Barmaqların susuzluğu” qeyri-adi simvolikasında insanın ümumən mənəvi təşnə halı həssaslıqla öz əksini tapır. İnsanın yaşadıqlarını təkcə dil anlatmır, bəzən əlləri də həyat hekayəsini “danışır”, həyat yolunun səssiz salnaməçisi kimi çıxış edə bilir. Əllərin hər qırışında bir keçmiş, hər çatında yaşanmış ağrı, hər qabarında zəhmətin, əməyin izi yaşayır. Barmaqların da yaddaşı var, onlar insanın nə qədər çalışdığını, nələrdən keçdiyini, kimlərə toxunub kimlərdən imtina etdiyini söyləyər. Bir də qırılmış tellərin nəğməsi var… “Ömür tarı”nın telləri deyil təkcə, ruhumuzun tarıma çəkilib qırılan sarı simləri də o metaforanın içində gizlənib. Oxunmamış, ya da elə oxunarkən yarım qalan neçə nəğmə saxlanılır o qırıq tellərin yaddaşında… Şair “soruş” deyir, amma ən əlacsız, ən ağrıdıcı özünüifadə elə qırılmış telin dillənməyidir… Rəsul Rza sanki bütün mümkünsüzləri soruşmağa da, oxucu vasitəsilə soruşdurmağa da niyyətlidir. Və sükutdakı bütün cavablar əvvəlcədən bəllidir, sadəcə, oxucunun səbri, hafizəsi, düşüncə dünyası, sözün yaxşı mənasında, sınağa çəkilir. Ardınca daşa ləpir salacaq qədər qüvvətli iradə gücünün poetik tablosu şeirə naxışlanır:

***Ömrün çətin yollarında***
***daşa ləpir salsa ayaq,***
***gün nə çəkdi,***
***ildən soruş!***

Həyatın keşməkeşli, ağrılı, sınaqlarla dolu mərhələlərini adlayan yorğun bir səyyahın məkan (yol) və zaman (gün, il) birləşməsində yaşadığı bu dörd misralıq ömür hekayəsində hər şey var: mübarizə, səbir, yıxılmaq, qalxmaq... Daşa ləpir sala bilən inadkar, iradəli, əzmli ayaqların izi illərin yad(daş)ına da silinməz şəkildə həkk olunur, çünki heç nə izsiz-soraqsız yox olub gedə bilməz! Bu, insan mübarizəsinin kəlmələrlə çəkilən rəsmidir...

***Zülmətliyin möhnətini***
***kor söyləsin!***

Qaranlığın acı “təcrübələrini” işıqdan məhrum qalan kordan yaxşı kim bilər ki?! Buradakı zülmət – sadəcə fiziki qaranlıq deyil, həm də ruhun qaranlığıdır, ümidin itib getdiyi məqamdır, çıxış yolu tapmayanda sıxışıb qaldığımız çarəsizliyin digər adıdır. Hər birimizin yolu hansısa dönəmdə ya zəlzələdən, ya vəlvələdən o zülmətdən keçib, bəsirət gözümüz bağlanıb, kor kimi qaranlığın ortasında əl-qol atıb işığı gözləmişik... “Kor” – obrazlı mənada yalnız dünya işığını görməyən insan deyil, taleyin işığını itirən, həyatın içində bəsirəti tutulmuş, sönmüş insan obrazıdır. Və bəlkə də elə buna görə qaranlığın onu necə udduğunu, necə ağrıtdığını sözə çevirmək haqqı yalnız ona məxsusdur...Təcrübə ilə bilginin fərqi də burada meydana çıxır: Kənardan zülmət haqqında danışmaq, əlbəttə, asandır. Amma onu yaşamadan, o qaranlıq möhnətin “məzarına” gömülmədən onun gerçək mahiyyətini izah etmək qeyri-mümkündür. Şairin hər fürsətdə demək istədiyi budur: Danışmağa haqqı çatanlar – od-alovun, möhnətin, zülmətin içindən keçib daşın köksündə iz açmağı bilənlərdir...

***Bəm xalların fəryadını***
***zildən soruş!***

“Bəm” və “zil” – musiqi terminləri ilə mənəvi ağrının müqayisəsi edilib. Əvvəlki misralarda “zülmət-kor” metaforaları oxucunun vizual estetik duyumunu canlandırırdısa, “bəm-zil” təzadları isə akustik zövq yaşadır. Bu gözəçarpan bədii paralellərlə şair duyğuların müxtəlif səviyyələrini səs və işıqla birləşdirir. Bu poetik birləşmədə “zilə qalxmaq” istədiyimiz nə qədər yerdə əslində bəmlərin içində susdurulmağın, yaxud yüksələn tək bir zildə nə qədər bəmlərin “basdırılmağının” fəlsəfəsi uyuyur. Bunu isə yalnız zil anlada bilər, bəmin dinməsini kim eşidəcək ki?.. Və “bəm-zil” qarşılaşdırması sadəcə ilk baxışda fərqli təəssürat yaradır, əslində, istənilən melodiyada ikisi də var, nəğmələr hər ikisinin iştirakı ilə bütövləşir. Şair sonrakı misralarda bu həyati təzadlarla barışdığını qələmə alıb. Axı ölüm-itimin olduğu dünyada əksliklər də, əskikliklər də bəzən kölgədə qalır:

***Mən kölgəsiz bağ görmədim,***
***El dərditək dağ görmədim,***
***Gözlərimi yumub açdım***
***neçə dostu sağ görmədim.***

Bayatı kimi axıcı dillə yazılan və dərinlərdə insani bir ağrını gizlədən bu bənddə sanki xəlqi poeziya ab-havası ilə avanqard lirika qovuşur: Heç bir gözəllik (bağ) qüsursuz (kölgəsiz) deyil. Bu, bir həyat fəlsəfəsidir: heç bir gözəllik mütləq deyil, heç bir işıq kölgəsiz olmur. İnsan bu gerçəyi qəbul etdikcə həm Yaradanın hikmətini anlayır, həm də həyata daha real gözlərlə baxmağa başlayır.

“El dərditək dağ” misrasında isə kollektiv yaddaş və ictimai ağrı bədii obrazla təqdim olunur. Eyni anda sinəyə çəkilən çalın-çarpaz dağ da yada düşür, yığılıb dağ boyda olan dərd də. Çək çəkə bildiyincə...Və zaman sıçrayışında – bir göz qırpımı qədər sürətlə keçən vaxtın içində itirilən dostlar, bəlkə də dostluqlar... Çünki sağ qalmaq təkcə fiziki deyil, həm də mənəvi məhfumdur. Dostların itirilməsi ilə bağlı bu misralar şairin “Qızılgül olmayaydı” poemasının sarsıdıcı təsirini də yada salır. Şairin qırmızı terrora – repressiyaya qurban gedən dostlarını, qələmdaşlarını – Müşfiqləri, Cavidləri, Cavadları boğazımızda düyünlənən qəhərlə bir daha anırıq. Bunlar təkcə dost itkisi deyildi, bir elin dağ boyda dərdi idi və bu dərdi Rəsul Rza hər fürsətdə şeirlərində bəzən iztirabla, bəzən peşmanlıqla, bəzən kədərlə xatırlayırdı, xatırladırdı... Sonrakı misralar isə sanki o dövrün ziyalılarını qarşısına alıb aparan çılğın selə bənzər repressiyanın dəhşətlərini tamamlayır:

***Nələr çəkdi çaylaq daşı***
***seldən soruş!***

Dövrün, taleyin sərt gedişatında əzib üstündən keçdiyi çaylaq daşının nələr çəkdiyini gurlayan sel yaxşı bilir, amma burda danışmalı olan məhz çaylaq daşıdır, əgər seldən aman tapa bilsə! Burada peşmanlıq da var, ağrı da, selin qarşısıalınmaz qüdrəti qarşısında əzilmişlik və çarəsizlik duyğusu da... Çayın yatağında sakitcə öz ömrünü yaşadığını sandığımız neçə “çaylaq daşı”nın üzərindən dövrün selləri keçib. Amma ən önəmli, bəlkə də sevindirici cəhət həm də odur ki, sel keçib-gedib, çaylaq daşı isə öz sabitliyində çayın sabit axışına xidmət etmək üçün qalıb, qalmaqdadır...

***Yollar uzun, mənzil uzaq.***
***Sərt daşlara dözmür ayaq.***
***Dözsün gərək.***
***Dözsün gərək.***
***Kim zirvəyə qalxar, deyin,***
***Yollar boyu hər pilləni***
***birgünləri, yüzilləri***
***qəlbimizlə,***
***beynimizlə***
***ömrümüzlə***
***doldurmasaq.***

Zirvəyə qalxmaq asan deyil, bu, daxili zəhmətin, əzabın və mənəvi iradənin bəhrəsidir. İki dəfə işlədilən "dözsün gərək" poetik vurğusu da təsadüfi deyil, yalnız səbir, dözümlə bu yolu qət edib uzaq mənzilə varmağın mümkünlüyü təkrarlanır. Hər bir uğur, qələbə, sadəcə fiziki mübarizə ilə deyil, insanın beyni, qəlbi və ömrü – yəni bütün varlığının iştirakı ilə yoğrulub əldə olunur. Ömür pillələrini qalxmaq üçün can qoyulmalıdır... Burada motivasiya da var, çağırış da: zirvələrə qalxmaq üçün yeri gələndə keçmişin peşmanlığına, bu günün zəhmətinə və gələcəyin ümidinə sarılmaq lazımdır...

***Mən yolçuyam,***
***Od nə çəkdi,***
***küldən soruş!***
***hansı şerim,***
***hansı sözüm***
***yaşayacaq məndən sonra?***
***Mən bilmirəm,***
***eldən soruş!***

...Yol davam edir və yolçu yolda gərək... Bu bənddəki fikrin özəyi klassik ədəbiyyatdakı seyri – sülük səyahətinin (mənəvi-ruhani yolçuluq) modern poeziyadakı versiyasıdır. Şair oxucunu da, qədimi sufi dərvişlər sayağı, bu səfərə dəvət edir, təcrübəni yaşayandan öyrənməyə çağırır.

"Hansı şeirim, hansı sözüm yaşayacaq məndən sonra? Mən bilmirəm, eldən soruş!" misraları həm təvazökarlığın göstəricisidir, həm də hər bir yaradıcı insanın əbədi qorxusu və ümididir. "Eldən soruş" deməklə o, sözün taleyini xalqın yaddaşına əmanət edir, həmçinin, ədəbiyyat, tarix və xalq qarşısında cavabdehlik hissini göstərir.

Şeirdə tarixi yaddaş, mənəvi iztirablar, həmçinin poetik, fəlsəfi, ritorik suallar və məcazlarla zəngin üslub ön plandadır. Ancaq bu üslub quruca fəlsəfə ilə təqdim edilmir, burada əvvəldən axıradək minimalist tərzdə duyğu ilə düşüncə, qəlblə zəka bir araya gətirilib, sözə ruh, nəfəs "üfürülüb". Bu baxımdan "Soruş" sadəcə poetik nümunə kimi deyil, həm də bir dövrün ictimai yaddaşı, insan təcrübəsinin bədii arxivi kimi romantik lirika ilə intellektual poeziyanın qovuşduğu mətnlərdən biridir. Şairin "Soruş" deyə başladığı bu lirik sorğulama – təkcə cavab axtarışı deyil, gələcəkdə də kollektiv yaddaşı oyatma cəhdidir. Və elə bu səbəbdəndir ki, bu şeir həm də bədii ritorik suallarla zamanın yaddaşına yazılan poetik vəsiyyətdir. Vəsiyyətlər isə unudulmur...

*Yaşar QASIMBƏYLİ*



# RƏSUL RZA VƏ YENİ AZƏRBAYCAN POEZİYASI

***“Altmışıncıların” bir pleyada kimi özünəməxsusluğunu onların güclü ictimai-siyasi təsir-təzyiqlər və bu prosesə qarşı yönəlmiş qayğı-dəstəklər qovşağında fəaliyyət göstərməsi də səciyyələndirirdi. Bu poetik nəslin bütün mühüm əsərlərinin, xüsusən də ədəbi-siyasi mühitin müqavimətinə rast gələn yaradıcılıq nümunələrinin, zamanla uyğunlaşmayan və uzlaşmayan kitablarının çap olunmasında ustad Rəsul Rzanın əməyi və xidmətləri bu gün də heyrətlə anılmaqdadır. Hələ 60-cı illərdə mübariz gənclik öz mənəvi liderinə və kumirinə ilhamlı şeirlər həsr etmişdi. Əli Kərimin məşhur “Şair” ithafından tutmuş, Xəlil Rza Ulutürkün tarixi “Şeirimizin Babəki” coşqun poetik xitabına qədər onlarla gözəl bədii nümunələr yaranmışdı. Bu şeirlər və başqa ədəbi-bədii nümunələr Rəsul Rzanın 60-70-ci illərin poetik prosesindəki nüfuzunu və rolunu parlaq şəkildə təsdiq edir. Bu cəhətdən təcrübəli ədəbiyyatşünas alim və tənqidçi Vaqif Yusiflinin aşağıdakı analitik fikirləri əsaslıdır: “...Rəsul Rza Azərbaycan poeziyasında yaranan yeni meyil və istiqaməti hamıdan qabaq duydu və belə demək mümkünsə, bu prosesdə həqiqi bayraqdar rolunu üzərinə götürdü. Rəsul Rzanın 60-70-ci illər yaradıcılığında nəzərə çarpan fəlsəfi notlar, insan amilini təkcə sosioloji amil kimi deyil, fəlsəfi, psixoloji, geniş mənada isə bəşəri müstəvidə nəzərə çarpdırmaq meyli həmin illərin cavan şairləri üçün bir təcrübə oldu”.[1]***

***– I –***

50-ci illərin ikinci yarısından və 60-cı illərdən etibarən gənc istedadların, ədəbiyyata özündən sonra gələnlərin qayğısına qalan Rəsul Rza onlarla qələm sahibləri, o cümlədən, Bəxtiyar Vahabzadə haqqında da ürək sözlərini yazıb gələcək nəsillərə yadigar qoyub getmişdir. Ustad sənətkarın Bəxtiyar Vahabzadəyə həsr olunmuş ədəbi düşüncələri, məqalə və ədəbi-tənqidi çıxışları Bəxtiyar Vahabzadəşünaslığın ilk və sarsılmaz təməl daşları kimi bu gün də mühüm əhəmiyyət kəsb etməkdədir.

Bəxtiyar Vahabzadəyə münasibəti Rəsul Rzanın XX yüzil Azərbaycan ədəbiyyatı haqqındakı fikir və düşüncələrini öyrənmək baxımından mühüm əhəmiyyətə ma-

likdir. Xüsusi qeyd etməyə dəyər ki, R.Rzanın öz ədəbi yaşıdları və ən yaxın müasirləri arasında yüksək qiymətləndirdiyi şairlərdən biri S.Vurğun, M.Müşfiq və B.Vahabzadə idi. Ədəbi prosesə və ümumən, ədəbiyyat tariximizə yüksək meyarlar və tələbkarlıqla yanaşan R.Rzanın B.Vahabzadə yaradıcılığına bu cür münasibəti təsadüfi deyildi. Söz sənətinin əsil bədii dəyərlərə və sərt, amansız ictimai həqiqətlərə sədaqətini hər şeydən yüksək tutan R.Rza bunların estetik inikasını B.Vahabzadə yaradıcılığında müşahidə etdiyinə görə cavan və mübariz həmkarının ədəbi axtarışlarını qiymətləndirməyi sanki özünə borc bilirdi. R.Rza məhz buna görə də sabiq ümumittifaq mətbuatında və milli nəşrlərdə çap etdirdiyi məqalələrində 60-cı illərin ən canlı və döyüşkən şairlərindən biri kimi yeri gəldikcə B.Vahabzadəyə müraciət edir, onun poetik uğurlarını və cəsarətli bədii yeniliklərini müdafiə edirdi.

B.Vahabzadənin R.Rza yaradıcılığına və onun ədəbi şəxsiyyətinə münasibəti də diqqətəlayiqdir. O, novator şairin mübarizələrdə və gərgin sənət döyüşlərində cilalanmış, bərkimiş və milli həqiqətlərə sadiq poeziyasını yüksək qiymətləndirir, özünün və yaşıdlarının, hətta daha sonra ədəbiyyata gələnlərin uğurla irəliləməsində R.Rzanın misilsiz xidməti olduğunu dərindən anlayırdı. Məhz buna görə də altmışıncıların mənəvi qardaşı və yoldaşı Bəxtiyar Vahabzadənin "Ey şair, sən haqlısan" (1960) şeirində R.Rza sənətinin mahiyyəti və taleyi ilə bağlı səslənən əhəmiyyətli fikirlər ümummilli dəyərə malikdir. Müəllifin düşüncələri, xüsusən o illər üçün, təzəcə başlanmaqda olan poetik epoxanın estetik maraqları nöqteyi-nəzərindən çox qiymətlidir. Şeirin yazıldığı tarix çox önəmlidir. Azərbaycan ədəbiyyatı, ümumən, o dövrdəki çoxmillətli sovet ədəbiyyatı tarixində 50-ci illərin sonu və altmışıncıların əvvəlləri köhnə ədəbi epoxanın başa çatması və yeni poetik eranın başlanması dövrü kimi səciyyələnir. Gənc Bəxtiyar Vahabzadənin ustad Rəsul Rzaya həsr etdiyi şeirində məhz zamanın həmin keyfiyyəti və ab-havası diqqət mərkəzinə çıxarılıb. Şeirin R.Rzaya xitabən yazılması da təsadüfi deyil. Müəllif sevdiyi və pərəstiş etdiyi poeziya ustadlarından məhz R.Rzanı seçib, ona müraciət edirdi. Bunun səbəbi isə ondan ibarət idi ki, dəyişməkdə və yenilənməkdə olan milli poeziyanın əsaslana biləcəyi, söykənə biləcəyi əsas ədəbi zirvələrdən biri məhz R.Rza idi. Zamanın günbəgün yeniləşən ideya-estetik ehtiyaclarına R.Rza şeirinə güvənmədən cavab vermək çox çətin idi. O dövrün ədəbi gəncliyi və bədii yaradıcılığında yeni bir mərhələnin başlanğıcına qədəm qoymuş, atəşin istedad sahibi B.Vahabzadə öz mənəvi-estetik məqsədlərinə və hədəflərinə çatmaq üçün necə şeir yaratmağı arzulayırdı? R.Rzaya həsr olunmuş şeirdə məhz bu cür konkret və kəskin suallar qoyulur, onlara israrla cavab axtarılırdı. Şeirin əvvəlində ənənəvi və köhnə şeir modelini şərti şəkildə misal gətirərək, müəllif aşağıdakıları söyləyirdi: "Bu sözlərin nə canı, nə isti nəfəsi var. Ancaq bir parıltısı, bir də küylü səsi var. Fişəng kimi gurlayır, aləmə düşür səsi, Ancaq bir sərçəni də öldürə bilməz onun bər-bəzəkli gülləsi. Vəzni sözlə doldurub Qafiyə ilə oynamaq, Daz başa nahaq yerə, Daraq çəkməkdir ancaq! Sənət gülüstanına elə sözlər əkək ki, Orda alaq olmasın. Qafiyən çolaq olsa, zərəri yoxdur, təki Fikrin çolaq olmasın". Şeirdə təkcə bədii məzmunun yeni və həyati olması şərti irəli sürülməyib. Yeni ədəbi nəslin yeni bədii yollardan getmək arzusunu da müəllif irəli sürür. Yəni köhnə bədii

vasitələrlə yeni ədəbiyyat yaratmaq mümkün deyil. Zamanın ritminə, sürətinə uyğun yeni estetik ölçülər və biçimlər də zəruridir. Bu keyfiyyətləri də yetişməkdə olan ədəbi nəsil məhz R.Rza irsində tapır, onun yaradıcılığında yeni bədii forma və üsulların mövcud olduğuna səmimi-qəlbdən inanırdılar. Yeni lirik "mən" məhz bu ovqatla ustad sənətkara müraciət edir: *"Min illik şeirimizdə təzə cığırlar açan Mənim məslək yoldaşım, Açdığı təzə yolda hələlik tək yoldaşım! Deyirlər: – Vəznin sənin tez-tez dəyişkən olur. Deyirlər: – Bu vəzndə fikrin yolu gen olur. Vəzn gərilməlidir dövrün əsəbi kimi. Qoy o tez-tez dəyişsin əsrin tələbi kimi... Deyirsən: – Zaman ötür, bir yerdə saymaq olmaz. Deyirlər: – Nizamiyə, Füzuliyə bax, barı. Deyirsən: – Sizdən artıq mən sevirəm onları. İstəyirəm əsrimi, zəmanəmi mən duyam: Mən də onlar tək axı öz əsrimin oğluyam. Deyirlər: – Misraları bölmə belə tən yarı, Axı onda çox olur sətrin dolanbacları. Deyirsən: – Şeirim mənim öz əsrimə baş əyir, Vəznim də öz əsrimin yollarına bənzəyir".* Göründüyü kimi, şeirdə R.Rzanın poeziyamız tarixində bir islahatçı kimi fəaliyyəti və xidmətləri vurğulanır. Zamanın yeni bədii ifadə vasitələrində inikası Rəsul Rza şeirinin əsas nailiyyətlərindən biri kimi təqdim olunur. Həmişə yeni olmağa can atan və öz mahiyyətini, varlığını təzə, orijinal ifadə yolları ilə əks etdirməkdə maraqlı olan gənclik üçün Rəsul Rza poeziyası bu mənada hava və su kimi zəruri idi. "Şair, sən haqlısan" şeirindəki bu mühüm qayə, qeyd etməliyik ki, R.Rzaya həsr olunmuş başqa şeirlərdə də qabarıq surətdə nəzərə çarpır. Ustad poeziyasına yenilikçi və yeni dövrün poetik bələdçisi statusundakı yanaşması ilə Bəxtiyar Vahabzadə R.Rzaya həsr olunmuş başqa şeirlərin də ideya-estetik istiqamətinə və pafosuna müəyyən dərəcədə təsir göstərmişdi. Bir çox başqa "altmışıncılar" da Rəsul Rzaya həsr etdikləri şeirlərdə B.Vahabzadə mövqeyini və münasibətini uğurla davam etdirdilər. "Şair, sən haqlısan" şeirinin son misraları, həqiqətən, yeni poetik epoxanın istək və arzularını aydın şəkildə və sərrast ifadə edirdi: *"Ey Rəsul, sən haqlısan, Çünki sən öz əsrinə Daha artıq bağlısan. Sənət gülüstanına Qədəm basandan bəri O köhnə ölçüləri Cəsarətlə sən atdın. "Məna", "məna" – demədin, Sən mənalar yaratdın".*

XX yüzilin bədii yeniliklərinin, xüsusən bədii inikas şəkillərinin zənginləşməsində Rəsul Rzanın zəhmətləri əvəzsizdir. Ədəbiyyata təzə gələnlər, təbii olaraq, yaradıcılıqda novatorluq nümayiş etdirənlərə daha çox müraciət edirlər. Gəncliyin yeni görünmək həvəsi onları orijinal ədəbi ünvanlara yönəldir və meyilləndirir.

Əli Kərimin Rəsul Rza haqqındakı məşhur şeirində ustad sənətkarı *"Əsrin ahəngi, vəzni"* deyə səciyyələndirməsi, Bəxtiyar Vahabzadənin *"O köhnə ölçüləri Cəsarətlə sən atdın"* deməsi ustad Rəsul Rzanın islahatçı sənətkar olmasına işarədir. Elə bu səbəbdən də "altmışıncılar" Rəsul Rzanı sevir, onu özlərinin ədəbi kumiri sayırdılar.

Böyük şairin milli ədəbi mühitimizdəki hər bir yeniliyə həssas münasibəti ədəbiyyat aləmində kifayət qədər məlumdur. Bu səbəbdən R.Rzanın B.Vahabzadəyə münasibəti də istisna deyil. Özü bütün cavan qələm dostlarına dayaq olduğu kimi, R.Rza 50-ci illərin ikinci yarısında kəskin ədəbi və siyasi hücumlara məruz qalan gənc B.Vahabzadədən də öz köməyini və qayğısını əsirgəməyib. Məhz həmin illərdə qələmə aldığı və gənc şairin Moskvada nəşr olunmuş

kitabında dərc edilmiş “Bəxtiyar Vahabzadə” məqaləsində ustad yazırdı: *“Bəxtiyar Vahabzadə sözün əsil mənasında şairdir. Onun poetik fırçasının çəkdiyi lövhələr rəngarəng və maraqlıdır. Dili şirəli və koloritlidir. B.Vahabzadənin poeziyası – düşüncələr poeziyasıdır. Bu düşüncələr bəzən həyatın üst qatlarına toxunsa da, şeirlərinin bir qismində ayrı-ayrı motivlər təkrar olunsa da, ümumiyyətlə, B.Vahabzadənin poeziyası müasir Azərbaycan ədəbiyyatının maraqlı hadisələrindəndir. Şair ən yaxşı şeir oxucuları ilə məhrəmanə söhbət edir. Adama elə gəlir ki, o, daha bir şeir yazmaq istəməmiş, öz dəruni fikirlərini ən yaxın dostları – oxucuları ilə bölüşməyi arzulamışdır. Şairin ovqatı qeyri-ixtiyari olaraq sizə sirayət edir, sizi sevinc, kədər bürüyür. Siz əvvəllər, bəlkə də qəlbinizdə bu cür emosiyalar doğurmayan şeylərin, hadisələrin mənası haqqında düşünməyə başlayırsınız. İndi isə həmin şeylər, hadisələr dəqiq tapılmış şairanə sözlərin gücü ilə qat-qat mühüm əhəmiyyət kəsb edir. Onlar sizi fəaliyyətə, məhəbbətə, nifrətə çağırır...”.*

## *– II –*

Altmışıncıların bədii amalını onların Rəsul Rzaya münasibətini təhlil etmədən anlamaq çətindir. 60 il bundan əvvəl şeiriyyət aləminə qədəm qoymuş gənc qələm sahibləri R.Rzadan çox şey öyrənmişdilər. Birinci növbədə insan və şair olaraq formalaşarkən onlar gözləri önündəki və canlı ustad şairə nümunə kimi yanaşırdılar. Bu gənclər M.Müşfiqi də, S.Vurğunu da ürəkdən sevirdilər. Amma, təbii ki, taleyin hökmü ilə yalnız Rəsul Rza ilə bir müəllim kimi real və həyati ünsiyyətə girmək mümkün olmuşdu.

“Altmışıncıların” ustad R.Rzaya hörmət və məhəbbətinin dərinləşməsinin bir çox səbəbləri vardır. Həmin səbəblərdən biri və bəlkə də ən əsası böyük sənətkarın öz cavan həmkarlarına səmimi-qəlbdən yanması və yanaşması ilə bağlı idi. Təsadüfi deyil ki, R.Rza 50-60-70-ci illərdə ədəbiyyata gələn bir çox ciddi istedadlar barəsində həqiqəti söyləməkdən çəkinməyən çox az görkəmli sənətkarlarımızdan biri idi. Onun az qala 60 il, 70 il bundan öncə yazdığı məqalələr həmin nöqteyi-nəzərdən hələ də öz qiymətini və aktuallığını hifz etməkdədir. “Şair Əli Kərim” məqaləsi də 60-cı illərdə yazılıb. Amma bu gün də həmin məqalə Əli Kərimsevərlər tərəfindən çox maraqla və məhəbbətlə oxunmaqdadır. Ustad şair öz sevimli şagirdlərindən biri haqqındakı məqaləsinə aşağıdakı sözlərlə başlayır: *“Mən Əli Kərimi çoxdan tanıyıram. Məndən soruşsalar ki, Ə.Kərimin şairlik tarixi, günü, ili hansıdır? Deyə bilərəm ki, mən onu şair görmüş, şair tanımışam. Mənə elə gəlir ki, o həmişə şair olmuşdur. Mən deyərdim ki, o, hər həqiqi sənət əsəri olan şeiri ilə yenidən doğulur, yenidən həyata başlayırdı. O, hər zaman öz xarakterinə, öz manerasına, öz şairlik simasına sadiq qalırdı. Lakin hər prinsipial şeirində, yeni rəng ahəngində, yeni bir təsir gücündə, yeni poetik nəfəsdə təzələşirdi. Şair var ki, yüksəliş pillələrini dayana-dayana, tövşüyə-tövşüyə, yazdığını təkrarlaya- təkrarlaya qalxır. Şair də var ki, öz-özü ilə yarışda, hər əsərində bir pillə qalxır, özünü, özgəni təkrarlamaq faciəsindən uzaq olur. Əli Kərim ikincilərdəndir. O, deyə bildiklərinin, demək istədiklərinin az, çox az bir hissəsini dedi. Bu az hissə də şair Əlinin çox böyük imkanlarını aydın göstərir”.*

Ustad Rəsul Rzanın obrazını şeirə gətirənlər də “altmışıncılar” olmuşlar. Əli Kərim bir çox mövzuları və dərdləri şeirə ilk dəfə gətirdiyi kimi, Rəsul Rzaya müraciətdə də birinci idi. Rəsul Rza ədəbi məktəbinin potensial imkanlarını və qüdrətini təsəvvür etmək nöqteyi-nəzərindən, həqiqətən də, “altmışıncıların” ustad haqqında fikir və düşüncələri diqqətəlayiqdir. M.Araz, F.Qoca, X.R.Ulutürk, V.Səmədoğlu, İ.İsmayılzadə, Ə.Salahzadə və başqalarının böyük şairə həsr edilmiş əsərləri poetik tariximizin qürur oyadan səhifələridir. Akademik Bəkir Nəbiyev ustad sənətkarın gənc ədəbi qüvvələrlə qarşılıqlı əlaqələrini dərindən təhlil edərək aşağıdakıları vurğulamışdır: *“Müraciət etdiyim nümunələrdən də bir daha aşkar göründüyü kimi, poeziyamızda o vaxtadək sovet şeirində görünməyən insan dərd-səri, qayğı və həyəcanları, ağrı-acıları məhz Rəsul Rzanın əsərlərində ardıcıl olaraq canlandı və bu proses ara vermədən davam etdi. Azərbaycan ədəbiyyatına gələn yeni qüvvələr, altmışıncılar isə təkcə poeziyada deyil, nəsrimizdə də onun davamçıları oldular. Elə buradaca qeyd edim ki, bu istiqamət poeziyada Qabil,*



*X.Rza, Ə.Kərim, F.Qoca, M.Araz, N.Həsənzadə, F.Sadıq, Ə.Salahzadə, M.İsmayıl, S.Rüstəmxanlı, A.Abdullazadə, İ.İsmayılzadə, N.Kəsəmənli, nəsrdə S.Əhmədov, Anar, Elçin, İ.Məlikzadə, F.Kərimzadə, S.Azəri və başqalarına öz orijinal istedadlarını bütün özəllikləri və təravətilə meydana qoymağa kömək etdi.”*[2]

Ə.Kərimin ustadına həsr etdiyi şeirdə gənc nəslin şair ömrü haqqındakı düşüncələri əks etmişdir: *“Şair var ki, ömrünü Başlamamış bitirir. Cansız əsəriylə bir Ömrünü də itirir. Şair var ki, ümidi Qafiyəyə, vəznədir. Şair var ki, özünü Başqasına bənzədir”.* Düzdür, elə şairlər olub, bundan sonra da olacaq. Amma onlar nəsillərin yaddaşında qalmır. Yeni gənclik belə şair ömürlərini qəbul və etiraf etmirdi. Onların arzu etdikləri yaradıcılıq yolu – Rəsul Rza yoludur. Əsil şair ömrü deyəndə təzə nəsillər ustadın həyat və mübarizə yolunu düşünürdülər. Şeirin və şairin ölməzliyini elə-yurda sədaqətlə xidmət etməkdə, vətənə namuslu oğul olmaqda görürdülər. Poeziyanın keyfiyyətini – onun zamana münasibətin-

dən çıxış edərək həssaslıqla müəyyənləşdirməyi əsas şərtlərdən biri kimi dərk edirdilər. R.Rzanın sırf bədii kəşfləri, estetik yenilikləri isə xüsusi dəyərləndirməyə layiqdir. Yeni lirik "mən" orijinal şair kompleksi barəsində ciddi götür-qoy edərkən hər şeyi ideal poeziya tərəzisində çəkir, hökm verməyə tələsmirdi. Onlar poetik idealın əyani görüntülərini və təcəllisini həyatda, mühitdə tapıb, təsbit etməyə can atırdılar: *"Amma şair də var ki, Zamanın doğma oğlu. İdrakın zirvəsindən, Hissin yanğınlarından Keçir şeirinin yolu. Əsrin ahəngi-vəzni... Müqəyyəd qafiyəsi. Belə şair də vardır: Onun ömrünün yolu Bir əbədi yazadır. O, sözlər sərkərdəsi Şair Rəsul Rzadır".*

Rəsul Rzanın "Əli Kərim haqqında söz" məqaləsi yazıldığı vaxtdan yarım əsrdən çox keçsə də, Əli Kərim həqiqətlərini sərrast ifadə etdiyinə görə bu gün də təzə və təravətli səslənir: *"Əli Kərim haqqında danışmaq o qədər də asan deyil, çünki bu həqiqi sənətkar, böyük şair o qədər təvazökar idi ki, onun yazılarını, şeirlərini oxuyanda düşünürdüm ki, bu şeirləri bu sakit adam, Əli Kərim yazırmı? Çünki onun xasiyyətində də, şeirlərində də təmtəraq, gurultu, parıltı yox idi. Lakin bu şeirlərdə olan daxili enerji, onların məna yükü o qədər böyük idi ki, adam bu şeirlərə qulaq asanda, doğrudan da, heyran qalırdı. Əli Kərimin şeirlərində soyuq misralar, biganə parçalara rast gəlmək mümkün deyil. Bu, doğrudan da, həqiqi sənətkar xüsusiyyətidir. Əli Kərim az bir ömür sürdü, lakin indi onun qoyub getdiyi irsə baxanda təəccüb eləyirsən ki, az müddətdə nə qədər böyük, nə qədər geniş sahədə fəaliyyət göstərmək olar. Onun şeirlərində nə müəyyən mövzuya bağlılıq və onun çərçivəsində qalmaq, nə bir formanı, ancaq onu tapıb, onu tutub davam etmək vardır. Onun yaradıcılığı son dərəcə geniş və mürəkkəbdir. Çox maraqlıdır ki, Əli Kərimin vəfatından sonra onun əvvəllər yazmış olduğu şeirlərindən iki-üç qat çox çap olunmamış şeirləri ortaya çıxdı. Bu da onu göstərirdi ki, Əli Kərim çap olunmaq, məşhur olmaq, tanınmaq üçün yazmırdı. O, daxili bir ehtiyac hissi ilə yazıb-yaradırdı və çox zaman da yazdığı şeirlərin tənqidçisi özü olurdu və bəzilərini bir tərəfə qoyurdu, get-gedə daha yaxşısını yazırdı, pillə-pillə sənətkarlıq yolu qalxırdı.*

*Əli Kərim böyük bir irs qoyub getmişdir. Çox təəssüf ki, biz bu gün ona irs deyirik. Ancaq o, bu şeirləri, bu əsərləri ilə bu gün də yaşayır. Mən Əli Kərim haqqında danışanda keçmiş zaman formasına müraciət etmək istəmirəm. Çünki o, canlı şair kimi, insan kimi bu gün də yaşayır. Əgər şairin yaşamağı, varlığı onun sənəti ilə, onun əsərləri ilə ölüçülürsə, onunla müəyyən olunursa, deməli, Əli vəfat etməmişdir, Əli sağdır, Əli bu gün də bizim sıralarımızdadır".*

## – III –

Xəlil Rza Ulutürkün ilk lirikasında da Səməd Vurğun və Rəsul Rza şeiriyyəti yeni lirik başlanğıcın əsas mənəvi mənbələrindən biri kimi tərənnüm edilmişdir. Gənc şair ürəkdən sevdiyi ustadlarının əsərlərini və şəxsiyyətini özünün, eyni zamanda, yaşıdlarının poetik idealı kimi, ən ülvi məqsədi kimi ilhamla vəsf edirdi. X.R.Ulutürk ustadları S.Vurğuna və R.Rzaya bir neçə şeir həsr etmişdir. S.Vurğunun obrazı yaradılmış "Şairin cavabı" (1956) şeirində böyük xalq şairinə ümumxalq məhəbbəti səmimiyyətlə ifadə olunmuşdur. "Səməd Vurğuna"

(1956) adlanan başqa bir şeirdə isə müəllif S.Vurğun sənətinin böyüklüyünü və əzəmətini qələmə almışdır:

***Xoş bir nağmə qoşum, deyirəm, ona!***
***Bu an dilə gəlir sinəmdə ürək:***
***Vurğunun haqqında şeir yazmağa***
***Vurğunun özütək bir şair gərək!***[3]

Əvvəldən axıra kimi coşğun və büllur bir sevgiylə, son dərəcə səmimi bir şagird hiss-həyəcanı ilə yoğrulmuş bu şeirdə müəllif öz heyrətlərini sanki cilovlamaq istəmir:

***Tutsun yer üzünü şərəfin, şanın,***
***Ey böyük şairi Azərbaycanın.***[4]

Öz ustadının ümumdünya şöhrətindən hədsiz qürur duyan, sevinc və iftixar hissləri qəlbinə sığmayan gənc müəllif ideal bildiyi sənətin qələbəsindən və təntənəsindən vəcdə gəlir. Sanki təkcə öz nəslinin və zamandaşlarının deyil, bununla birgə, onu sevərək doğulacaq insanların, Vətən torpağında inamla addımlayacaq gələcək nəsillərin də sevgi və heyrətlərini böyük şairə çatdırmaq istəyir.

X.R.Ulutürkün Rəsul Rzaya həsr etdiyi şeirlər də ehtiraslı və qaynar ilhamın məhsuludur. Başqa nəsildaşları kimi, o da R.Rza sənətini yüksək bir ideal kimi ürəkdən sevir, bu sənət məbədinə pərəstiş edir. Eyni zamanda, R.Rza yaradıcılığının təkcə sənət və ədəbiyyat sərhədlərinə də sığmadığını, misilsiz milli dəyərə və örnəyə çevrildiyini təsirli lirik üslubda vurğulayır. "Şeirimizin Babəki" (1978) şeirində oxuyuruq: "Dinlədikcə duydum ki, qüdrət çağlayır qanda, Bilmədim salondayıq, ya sonsuz kəhkəşanda. – Odur – dedim – bu nəfəs Zəlzələ dağı yerdən bəlkə qopara bilər, Sənətkarı xalqından heç nə ayıra bilməz! Misralar – bulud yırtan qızıl ildırım təki, Aman, nə tez qocaldı şeirimizin Babəki".

"Rəsul Rza həsrəti" (1983) şeiri yalnız Xəlil Rza Ulutürk yaradıcılığında deyil, ümumən, müasir poeziyamızda ustad sənətkar haqqındakı ən gözəl və ən səmimi poetik nümunələrdən biridir. Şeir R.Rza itkisindən cəmi iki il sonra yazılıb. Amma bu şeirdəki yaşantı və iztirabların, hərarətli həsrətin yaşı sonsuzdur. Müəllif ən əziz, ən doğma və məhrəm adamı üçün hədsiz darıxdığını, bu həsrətin göynərtisini emosional bir poetik təhkiyə vasitəsilə oxucuya çatdırır: *"Bir möcüzə umuram: Səhər evdə əyləşib şeir yazdığım çağda, Haray çəkə telefon. Qaldıranda dəstəyi Şadlıqdan, iftixardan üzüm alışıb yana: – Salam, Rəsul müəllim! Hara, bizim Salyana? Aman, nə gözəl səfər! Yaman sevinəcəklər!".* Müəllif öz duyğu və yaşantılarının xəyali-psixoloji təsiri ilə bu fövqəladə – xəyali səfəri özünün və bizim gözlərimiz önündə canlandırmağa başlayır: *"Maşın gələ bir azdan, Öndə sürücü Fikrət, yanında Fikrət Qoca, Mən ustadla yanaşı əyləşəm arxadaca. Kimsə maşınla gedə, qanadlarla uçam mən, Rəsul xəzinəsini yavaş-yavaş açam mən. Yollar boyu şairi əzbər deyəm özünə, Hərdən baxam, göz qoyam nurlu təbəssümünə. Xəzərmi, Göygölmüdür uzun kirpikli gözlər? Bir cüt gözdə yerləşə sonsuz mavi dənizlər".* X.R.Ulutürkün bir ədəbi şəxsiyyət və sənətkar kimi mənəvi saflığı və kamilliyi bu misralarda nə qədər səmimiyyətlə əks edib. Ustad R.Rzaya olan sonsuz mehr, onunla qürur və iftixar duyması bizim qəlbimizə də sirayət edir. Həqiqətən də, sabiq sovet dövründə ədəbi ictimaiyyətin və mühitin R.Rza

kimi qüdrətli və mükəmməl şəxsiyyətlərə çox böyük ehtiyacı vardı. Ümumən, ədəbi mühitdə mənəvi təmiz və öz millətinə, söz sənətinə sadiq insanlara hədsiz ehtiyac duyğusu "altmışıncıların", xüsusən, erkən şeiriyyətində daha çox diqqəti cəlb edir. Əli Kərim, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəriman Həsənzadə, Ələkbər Salahzadə, Vaqif Səmədoğlu, Fikrət Qoca, Fikrət Sadıq və başqa bu nəslə mənsub şairlərin yaradıcılığında həmin mənəvi ehtiyacın təzahürlərini görmək olar. Yəni ürəkdən dərdləşmək, səmimi-qəlbdən söhbət etmək, öz sevinc və kədərini bölüşmək üçün, yaradıcılıq arzularını və məqsədlərini bir qardaş kimi müzakirə etmək üçün qələm sahiblərinə məhrəm qələm dostları və yoldaşları ilə fikir mübadiləsi həmişə zəruri bir ehtiyac olub. Amma 20-50-ci illərin qanlı repressiyaları və təqibləri dövründə cəmiyyətin bütün nümayəndələri kimi, ədəbiyyat adamları və qələm əhli də belə bir mənəvi sərbəstlikdən məhrum idi. X.R.Ulutürkün "Rəsul Rza həsrəti" şeirində müəllifin bu yöndəki yaşantıları və duyğularının məzmununu daha dərindən dərk etmək gərəkdir. Çünki ilk baxışda bu şeirdə sanki ustadla görüşün şadyanalığı, sevinci əks edib. Ancaq şeiri təkcə bu hisslərin ifadəsindən ibarət bir bədii mətn kimi qəbul etmək olmaz. Zira, aşağıdakı misralardakı sevinc və mənəvi səadətin hüdudları, miqyası daha genişdir: *"Qərənfil bükümündən bala sığırçınadək hamı xoşbəxt, hamı şad. Yavaş-yavaş qalxanda daş pilləkəndən ustad, Dünyada ən uca ev bizim evimiz ola. Haray düşə Salyana, Qucaq-qucaq qızılgül çıxa bağlardan yola. – Rəsul Rzadır gələn! Bu misilsiz xəbərdən Bağrı yanıq çöllərə bulaq suyu süzülə... Rəsul Rzadır gələn! Eşidib bu xəbəri çinarlar qalxa bir boy, Hər tərəfdə bayram, toy".*

Bu şeirdə nəzərə çarpan bir cəhəti də qeyd etmək zəruridir. 60-80-ci illər poeziyasında milli qürur mənbəyi olan Mirzə Ələkbər Sabir, Mirzə Cəlil, Məhəmməd Hadi, Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun, Mikayıl Müşfiq və Rəsul Rza kimi böyük ədəbi şəxsiyyətlərə həsr edilmiş əsərlərin ideya-estetik məzmunu daha geniş idi. Bu mövzudakı poetik nümunələrdə ədəbi arzular, mənəvi-estetik problemlərlə yanaşı, milli dərdlər və mətləblər də öz əksini tapırdı. Onların həsrətini altmışıncılar həm də milli varlıq və arzuların, milli sərbəstlik və azadlığın tərənnümünə çevirməyi bacarırdılar: "Rəsul Rza həsrəti" şeirində də biz o cür şair məharətinin və həssaslığının mənalarını duyuruq:

***Xəzər döş vura Kürə, Kür bir az Xəzərləşə,***
***Bənd üstünə bir çıxaq.***
***Yumruq boyda qəlbimdə***
***dörd okean yerləşə.***
***Bir Rəsul həsrəti qəlbimdən keçir,***
***Əcəlin zülmündən yaman asıyam.***
***Kişi bir ustadın, qoca bir gəncin,***
***Bir şair mehrinin tamarzısıyam.***

## *– IV –*

Məmməd Araz zahirən Rəsul Rza ədəbi məktəbindən uzaq görünən qələm sahiblərindən biridir. Amma onun poeziyasının bətnində və mahiyyətin-də Rəsul Rza şeirinin ruhu canlı idi. Məmməd Araz şeiriyyəti çoxnövlü, çoxjanrlı və

çoxşəkilli bir poetik yaradıcılıqdır. Sərbəstə də, hecanın az işlək və geniş istifadə olunmayan biçim və ölçülərinə də Məmməd Araz müraciət edib. Bu rəngarəngliyə və bədii forma zənginliyinə baxmayaraq, təbii ki, Məmməd Araz daha çox ənənəvi ifadə tərzinə, klassik inikas vasitələrinə sadiq şairdir. Lakin mənsub olduğu ənənəvi və milli poetik yolu ən çox genişləndirmək, zənginləşdirmək və dəyişdirmək istəyən qələm sahiblərindən biri də məhz Məmməd Arazdır. Xüsusən, heca vəzninin sərbəstlə sintezini yaratmaq sahəsində onun bədii fəaliyyətini ayrıca qeyd etmək zəruridir. Ümumən, çağdaş Azərbaycan şeir mədəniyyəti və poetik texnologiyalarının dinamik inkişafında, cilalanmasında Məmməd Arazın xidmətləri müstəsnadır. Təbiətən və qəlbən Səməd Vurğun şeir məktəbinə bağlı olan Məmməd Araz öz poetik dünyasını ərsəyə gətirərkən Rəsul Rza təcrübəsinə müntəzəm olaraq müraciət edib. Məmməd Araz şeirinin kəsərliliyi və kəskinliyinə, sərtliyinə və ötkəmliyinə Rəsul Rzanın həm şəklən, həm də məna cəhətindən çox sərbəst və azad olan poetik mətnləri qüvvətli təsir göstərib. İkinci bir tərəfdən, Rəsul Rzanın özünün Məmməd Araz haqqındakı fikirləri və məqalələri ustad şairlə bağlı, guya onun yalnız «sırf sərbəstçi»ləri müdafiə etməsi haqqındakı həqiqətə uyğun olmayan və mifik təsəvvürləri kökündən inkar edir.

Altmışıncıların yaradıcılığında Rəsul Rza obrazından bəhs edərkən ustad sənətkar haqqında Məmməd Arazın məşhur şeirindən söz açmamaq çətindir. Yeni poetik epoxanın liderinin və yeni ədəbi nəslin böyük hamisinin vaxtsız ölümü ədəbiyyatımızın və mədəniyyətimizin misilsiz itkisi idi. Həmin şeirdə milli mənəviyyatımızın dərin sarsıntı və iztirabları səmimiyyətlə əks etdirilib. Həqiqətən, Məmməd Arazın “Gəlmədi Rəsul” (1981) şeirində böyük insanın ölümü ədəbiyyatımızın ölçüyəgəlməz itkisi kimi dəyərləndirilir. Azərbaycan poeziyasının yüksəlişində misilsiz xidmətlər göstərmiş ustad sənətkarın cismən yoxluğu şeiriyyətə zərbədir. Onun əbədiyyətinə və mənəvi həyatının sonsuzluğuna isə söz ola bilməz. Bu poeziya planeti təbiətin özü qədər yaşarıdır. Bəlkə də bu şeiriyyət səyyarəsi bir də doğulmayacaq. Amma onun nurlu izləri, yadigar şəfəqləri minnətdar nəsillərin gözlərində ömür boyu parlayacaqdır.

***Bu il “Sabir günləri”nə gəlmədi Rəsul,***
***Hər ocağa bu xəbərin ayazı yetdi.***
***Avazıdı qara torpaq, qaraldı ağ su,***
***Zaman bir də çətin doğa o planeti.*** [5]

R.Rza Vətənin bənzərsiz bir övladı, onun adını ucaldan vətəndaşı idi. Vətən torpağının sinəsində sadəcə seyr edib gəzənlərdən yox, əksinə, Vətən torpağını göyərdənlərdən – ölməzlik və yaşarılıq ehtirası ilə onu yoğurub-yapanlardan, təzədən yaradanlardan idi: “Ölçülərə boy verməzdi əyilməzliyi, Boz qranit qayalara duruşu təndi. Göyərtdiyi ölməzliyin, yenilməzliyin, Əkinçisi Rəsul idi, barı Vətəndi.”[6] Bütün şeirin fikir axarında müəllifin R.Rza şəxsiyyətinin özünəməxsusluğuna həssaslıqla yanaşdığını, onu hissə-hissə, lay-lay, qat-qat təhlil etmək istədiyini duyuruq. Şair öz nəslinin etiqad və inanc ünvanlarından birinə üz tutduğunu da yaxşı anlayır:”Bu hikmətə yerin, göyün özüdür şahid, O, ölümü dəfn elədi özündən qabaq. Söz yaşadan ünvanlarda yaşayır şair, Yaşayıbsa, “yaşamışdı” yazılmayacaq...”

“Altmışıncıların” ümumi estetik əlamətlərindən biri də öz mənəvi mənbələrinə sədaqəti, sevgi və sayğıları idi. “Rus altmışıncıları” A.Axmatova və A.Tvardovskini,

"özbək altmışıncıları" Aybək və Mirtemiri, A.Qəhhar və M.Şeyxzadəni eynən o cür məhrəm bir sevgiylə sevirdilər. Azərbaycan "altmışıncılarının" pərəstiş etdikləri poeziya məbədlərindən biri isə R.Rzanın şeir dünyası idi. Məhz buna görə də M.Arazın şeirində R.Rzaya emosional və hərarətli duyğuların ünvanlanması təəccüblü görünməməlidir.

M.Araz yaradıcılığında R.Rza obrazının uğurlu ifadəsindən söhbət açarkən ustad sənətkarın gənc həmkarına qayğısından da bəhs etmək yerinə düşər.

60-70-ci illərdə M.Araz pleyadasına və şəxsən gənc müəllifin özünə həsr etdiyi məqalələrində R.Rza onun özünəməxsusluğunu ayrıca vurğulamışdı. Xüsusən, "Duyğuların izi ilə" adlanan məqalədə M.Araz yaradıcılığının uğurlarından və potensial imkanlarından geniş bəhs edilir. Bu gün də M.Araz poeziyası haqqındakı ən yaxşı məqalələrdən biri olan həmin yazıda şair fərdiyyətinin mühüm tərəfləri, təkrarsız cəhətləri əks etmişdi: "Məmməd Araz oxuculara yaxşı tanışdır: şeirlərini oxuyurlar, əzbərləyirlər. O, artıq püxtələşmiş, yolunu, yönünü tapmış, mövzu dairəsini müəyyənləşdirmiş şairdir. Doğrudur, Məmməd Arazın mövzuları bir çərçivədə məhdudlaşıb qalmayıb. Həyatın müxtəlif səhifələri, müxtəlif bəlirləri onun yaradıcılığında poetik deyimini tapmışdır. Bütün bunları təsdiq etməklə yanaşı deməliyəm ki, şairin əsas mövzusu kənd, kənd adamları, kənd həyatıdır". Göründüyü kimi, ustad sənətkar cəmi bir neçə cümlədə Məmməd Araz poetik dünyasının əsas əlamətlərini və cəhətlərini ümumiləşdirməyə nail olub. Şairin bədii aləminə maraq göstərənlər bu cümlələri oxuyarkən sevdikləri müəllif barəsində gərəkli və qiymətli informasiyaya malik olurlar.

Rəsul Rza ilə Məmməd Arazın və ümumən, altmışıncıların mənəvi əlaqələrindən bəhs edərkən, estetik mənşə cəhətdən də onların daha çox yaxın olduqlarını nəzərə almaq lazımdır. Gənc qələm sahibləri R.Rza şeirindən öyrənir və təsirlənirdilər. Xüsusən, ustadın bədii arsenalı, poetik texnologiyası cavanlar üçün maraqlı və cazibədar idi. Onların bədii düşüncə tərzinə qüvvətli təsir edən şairlərdən biri və birincisi Rəsul Rza idi. Təkcə sərbəst vəznə meyilli yazıçılar yox, elə heca yolunda sabit addımlayanlar da R.Rzanın şeir "emalatxana"sından çox şeyləri əxz eləmişdilər. R.Rza poeziyasından gəncliyə sərbəst şeir təcrübəsi ilə yanaşı, sərbəst düşüncə tərzi də sirayət edirdi.

## – V –

Rəsul Rza ədəbi məktəbinə mənsub olan özünəməxsus şairlərdən biri kimi Fikrət Sadığın ustadla yaradıcılıq əlaqələri münbit və zəngin olub. Böyük sənətkarın yadda qalan və təkrarsız müasirlərindən biri kimi Fikrət Sadıq, xüsusən, erkən yaradıcılığında onun mənəvi dəstəyini həmişə hiss edib. 60-70-ci illərdə ədəbi gənclik barəsində bildirdiyi mülahizələrdə və ədəbi çıxışlarında R.Rza çox vaxt Ə.Kərim, M.Araz, X.R.Ulutürk, F.Qoca, A.Abdulla, İ.İsmayılzadə, V.Səmədoğlu, Ə.Salahzadə və başqaları ilə bir sırada F.Sadığın da adını dəfələrlə vurğulayıb. 60-cı illərdə geniş rezonans doğurmuş "Ümid və arzular" (1963) məqaləsində R.Rza yuxarıda adlarını çəkdiyimiz və çəkmədiyimiz bir sıra gənclər haqqında səmimi mülahizələrini irəli sürür: "Fikrət Qoca, Fikrət Sadıq imzaları oxucularımıza yaxşı tanışdır. İ.İsmayılzadə, Ə.Salahzadə isə daha gəncdirlər. Bu cavanların yazıları bir-

birinə bənzəmir. Onların poetik ifadə vasitələri, dil boyaları, şeirlərinin ritmik naxışları bir-birindən ayrılır. Bu, yaxşıdır, onların ümumi cəhəti – yaradıcılıq nigaranlığı, axtarış və müasir şeirin ən ümdə keyfiyyəti olan poetik fikirdir. Bu, yaxşıdan yaxşıdır". Altmışıncıların poetik taleyində mühüm rol oynamış və onları sözün əsl mənasında ilhamlandırmış həmin məqalədə ədəbi gəncliyin yaradıcılıq çətinliklərini aradan qaldırmaq və onların gələcəyini, uğurlu gələcəyini yaxınlaşdırmaq nöqteyi-nəzərindən bir sıra mühüm fikirlər və tövsiyələr səslənmişdi.



Aradan təxminən 60 ilə yaxın bir vaxtın keçdiyini və bu böyük zaman məsafəsini təsəvvürümüzə gətirib düşünərkən, ustad sənətkarın ürək genişliyi və uzaqgörənliklə, hətta bir qədər yanğı və iztirabla bildirdiyi estetik düşüncələrin təkcə ədəbi yox, həm də ümummilli əhəmiyyətə malik olduğunu dərk edirik: "Şeir yazan cavanlar arasında ilhamla, istedadla ədəbiyyata gələnlər olduğu kimi, həvəsə düşüb gələnlər də var. Doğrudur, elə bir tənqidi termometr icad olunmamışdır ki, gənclərin poetik istedadını ölçüb, dərəcəsini müəyyən etmək mümkün olsun. Adətən, gənclik insanın mövcud bacarıq və istedadının qüvvətlə üzə çıxdığı zamandır. Bu istedadın formalaşması, təcrübə ilə zənginləşməsi illərlə sürür. Lakin ilk şeirlərini, hekayələrini yazmış, ilk musiqi əsərini bəstələmiş, ilk lövhəsini çəkmiş gənclərdən həqiqi istedada malik olanlarını görüb seçmək mümkündür. Haqqında bəhs etdiyim gənclərin şeirləri mənim diqqətimi daha artıq cəlb etmişdir. Onların yaradıcılığı birinci növbədə məni yeni şeir nöqteyi-nəzərindən maraqlandırır. Bu şeirləri oxuyanda düşünürəm. İllərlə görüb yanından keçdiyim şeylər gözümdə yeni rənglərlə canlanır. Bu şeirləri oxuyanda özümü daxilən əvvəl olduğumdan artıq zənginləşmiş hiss edirəm. Bəzi detallar gözümdə böyüyür, yeni məna kəsb edir. Onlar məndə riqqət ya təəssüf, həsrət ya ümid dolu xatirələr oyadır. Əgər şair qardan yazmışdırsa – qarda, ağacdan yazmışdırsa – ağacda, gözlərdən yazmışdırsa – gözlərdə nə isə bu vaxta qədər duyub dərk etmədiyim, yeni çalarlar, qoxular, rənglər duyur, görürəm. Məncə, həqiqi poeziyanın yolu budur. Həqiqi poeziya insanın mənəvi aləmini işıqlandırır, yaşamağa, yaratmağa, duymağa, sevməyə, mübarizəyə yollar göstərir, bizə qüvvət verir".

Rəsul Rza Fikrət Sadıq yaradıcılığına ayrıca bir məqalə də həsr edib. Həmin yazı "Şair təcrübəsi" adlanır. Ustad bu məqaləsində gənc həmkarının yaradıcılığına onun öz yaşıdlarının bədii axtarışları müstəvisində nəzər salır: "50-ci illərin sonu, 60-cı illərin əvvəllində Azərbaycan poeziyasına gənc və istedadlı şairlər nəsli gəldi. Yeni forma axtarışları, mövzu diapazonunun genişliyi, trafaret obraz, qafiyə və metaforaların inkarı – çox şey onları birləşdirdi. Yeni, məhz bu illərdə formalaşmış nəslin tarixi təcrübəsi də onları birləşdirən amillərdən oldu. Axı təcrübə yalnız yetkinliyin imtiyazlarından ibarət deyil; gəncliyin təcrübəsi də eyni dərəcədə qiymətli və təkraredilməzdir. Bu şairləri birləşdirən cəhətlər sevindirici oldu. Ən sevindiricisi bu oldu ki, ideya və estetik mövqelərinin şəksiz ümumiliyi, müasir Azərbaycan poeziyasının müəyyən cərəyanına mənsubluğu ilə yanaşı, onların hər biri parlaq fərdi xüsusiyyətlərə malik, müxtəlif, bir-birinə bənzəməyən şairlər idi".

R.Rzanın Fikrət Sadıq və onun ədəbi yaşıdları haqqındakı bu mülahizələri analitik dərinliyi və ümumiləşdirici pafosu ilə bu gün də öz elmi-estetik əhəmiyyətini saxlamaqdadır. Təcrübəli şairin Fikrət Sadığın erkən yaradıcılığı barəsindəki müşahidə və fikirləri də müasir oxucular və ədəbiyyat mütəxəssisləri üçün aktualdır: "Bu şairlər içərisində həm yaşına, həm də istedadına görə ön sırada gedənlərdən biri Fikrət Sadıq idi. Onun ilk şeirlərini xoşladım. Bu şeirləri çoxları bəyəndi. İndi mən həmin şeirləri yenidən oxuyanda, onlar mənim o qədər də xoşuma gəlmir. Ötən on ildə Fikrət elə poetik inkişaf yolu keçmiş, elə müvəffəqiyyət qazanmışdır ki, onun ilk şeirləri bir qədər sonra yazılmış şeirləri ilə müqayisə edilə bilmir. Lakin Fikrət poetik "mən"inə sadiq qalmışdır. O, ilk şeirlərində də rüşeym halında olan dünyanı poetik dərk və izah etmək xüsusiyyətini həmişə inkişaf etdirir, dərinləşdirir, kamilləşdirir".

"Şair təcrübəsi" məqaləsində R.Rza Fikrət Sadıq poeziyasının mənbəyi və mənşəyi barəsində də qiymətli mülahizələrini irəli sürməyə müvəffəq olmuşdu. Ustad gənc şairin poetik uğurlarını güvənc və qürur hissi ilə təhlil edərək yazırdı: "Təkcə qədim poeziyamızın ənənələrindən deyil, eləcə də təsviri sənətimizin min illik ənənələrindən – orta əsr miniatürçülərinin rəsmlərindən gələn zəriflik, poetik dünyagörüşününün zərgər incəliyi Fikrət Sadıq istedadının başlıca xüsusiyyətidir. Fikrətin bir sıra şeirlərində poetik dəst-xəttin kalliqrafik nəfisliyi duyulur. Fikrət poeziyasının başqa xüsusiyyəti ondadır ki, həqiqətən milli, yəni bütün köklərlə xalqının tarixi həyat tərzi, onun etik və estetik görüşləri, folklor obrazları aləmi ilə bağlı olan, Azərbaycan dilinin nəfəsini, ətrini və ritmini təbiiliklə və dərindən duyan şair olmaqla bərabər, o, müəyyən coğrafi məkanda, məhəlli və mənəvi məhdudluqda qalmır". Etiraf etməliyik ki, Fikrət Sadıq haqqında söylənmiş bu qiymətli fikirlər, yarım əsr keçsə də, nəinki köhnəlməyib, əksinə, özünəməxsus milli şairimiz haqqında, bəlkə də, ən gözəl və ən müdrik müşahidələr olmaqla, öz liderliyini qoruyub saxlamaqdadır.

Fikrət Sadığın heca şeir mədəniyyətini sərbəst şeir təcrübəsi ilə birləşdirmək, onların poetik sintezini yaratmaq işində arxalandığı əsas ədəbi-estetik mənbələrdən biri R.Rza poeziyası idi. Ə.Kərim və F.Qoca şeiriyyətində də heca poetikasına meyillilik nəzərə çarpır. Fikrət Sadıq ustad təcrübəsinə və nümunələrinə, ilkin sərbəst şeir modelinə üstünlük verməsi ilə diqqəti çəkir. "Altmışıncıların" ideya və məzmun yenilikləri ilə həmrəylik də Fikrət Sadıqda güclüdür. Xüsusən,

Rəsul Rzadan gələn və gəncliyin sevimli mövzuları olan milli azadlıq motivlərini gənc Fikrət Sadığın yaradıcılığında müşahidə etmək çətin deyil.

"Şair təcrübəsi" məqaləsində poetik gəncliyin bədii təcrübəsindən bəhs edilir. R.Rza "gəncliyin təcrübəsi" istilahına vurğu verərək yazır: "Mən söylədim ki, Fikrət Sadığın şeirlərində gənclik təcrübəsi var. Bəlkə bu bir qədər yanlışdır. Şairin toplusunu yenidən oxuyub inandım ki, onun şeirlərinin çoxunda gənclik təcrübəsi yetkinlik təcrübəsi ilə təkmilləşir. Mən gənc şairə uzun illər səmərəli iş arzulamaq istəyirəm ki, ona bütün yaşların təcrübəsini, o cümlədən qocalığın təcrübəsini də ifadə etmək müyəssər olsun, zira, şairin bu qocalığı da poeziyanın gəncliyidir". Ustadın bu fikirlərini yenidən oxuyarkən, səmimi söyləyim ki, bütün qəlbimi heyrət hissi bürüdü. Müdrik sənətkarın uzaqgörənliyi və öncəgörməsini dərk etdikcə heyrətləndim. "Altmışıncılardan" cəmi bir neçəsinə, o cümlədən F.Sadığa da "bütün yaşların təcrübəsini, o cümlədən qocalığın təcrübəsini də" ifadə etmək müyəssər olduğuna, onun "qocalığı da poeziyanın gəncliyi"nə çevrildiyinə görə və ədəbiyyatımızın böyük müəlliminin, misilsiz ustadının dahiyanə düşüncələrinə görə heyrətləndim.

Ümumilikdə, "altmışıncılar" şair ömrünün eniş-yoxuşlarını, baharını və qışını küll halında ondan öyrənirdilər. Şairlik qismətinin sevinc və iztirablarını, əzab və qürurunu onlar R.Rza misalında görüb dərk edirdilər. F.Qoca, F.Sadıq, Ə.Salahzadə, V.Səmədoğlu, A.Abdulla, İ.İsmayılzadə, Ç.Əlioğlu və başqalarının R.Rzaya ithaflarında biz bu dərin bağlantıları hiss edirik.

Buradaca qeyd edək ki, yetmişincilər də R.Rzaya sevgi və ehtiramla yanaşır, onu əsas ədəbi-mənəvi mənbə hesab edir, söz dünyalarına son dərəcə yaxın və məhrəm bilirdilər. Bu cəhətdən Vaqif Yusiflinin elmi düşüncə və müqayisələri diqqəti çəkir: "Təbii ki, Rəsul Rzanın şeirə gətirdiyi bu sərbəst düşüncə tərzi 60-cı illərin cavan şairləri üçün örnək oldu. Lakin, Rəsul Rzadan öyrənmək heç də təqlidə çevrilmədi. Əli Kərim, Fikrət Qoca, Fiktər Sadıq, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Vaqif Səmədoğlu, Abbas Abdulla, Çingiz Əlioğlu, Vaqif Cəbrayılzadə, Camal Yusifzadə, Tofiq Abdin, Azər Abdulla poeziyada öz yollarını çox tez bir zamanda bəlirləyə bildilər. Onlar Rəsul Rza tərəfindən təməl daşları qoyulan, ancaq hələ tam hazır olmayan sərbəst şeirin binasını yeni naxışlarla, hörgülərlə bəzədilər, bu binanı həm milli, həm də Avropa qaydası ilə – sinxron şəkildə Azərbaycan poeziya ərazisində ucalda bildilər"[7].

Yuxarıdakı mülahizələri ümumiləşdirərək əminliklə söyləmək mümkümdür ki, Rəsul Rza və yeni Azərbaycan poeziyası yaxın gələcəkdə də ədəbi – estetik fikrimizin əsas elmi – nəzəri məqsədlərindən və hədəflərindən biri kimi diqqəti cəlb edəcəkdir.

---

*[1] – Vaqif Yusifli. Rəsul Rza və müasir Azərbaycan poeziyası. Bakı, "Letterpress", 2010, səh. 50-51*
*[2] – Bəkir Nəbiyev. Şeirimizin klassiki və müasiri. Bax: Rəsul Rza: Ömrün birinci yüzili. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2011, səh. 32*
*[3] – Xəlil Rza. Sevən gözlər. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1959, səh. 18.*
*[4] – Xəlil Rza. Sevən gözlər, səh. 19.*
*[5] – Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə. III cild, səh. 89*
*[6] – Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə. III cild, səh. 90*
*[7] – Vaqif Yusifli. Rəsul Rza və müasir Azərbaycan poeziyası. Bakı, "Letterpress", 2010, səh. 52-53*

*Rəsul RZA*

## İKİ BUYNUZLU İSKƏNDƏR, SİRLİ TÜTƏK VƏ DOLU ÜRƏK HAQQINDA

Deyirlər çox qədimdə, bir gün
sirrini quyuya deyib dəllək,
sirrini deyib ki, partlamasın
sinəsində ürək.
Bir qarğı göyərib, qalxıb quyudan.
Bu qarğını kəsib
tütək qayırıb çoban.
Hamı bilir, danışmaz qarğı;
quru ola, yaş ola.
Ancaq bu qarğı danışıb.
Səslənib tütək.
Deyib: "Buynuzu var İskəndərin".
Beləliklə, böyük sərkərdənin
sirri faş olub.
Nə buynuzlu adam görmüşəm,
nə danışan tütək.
Bəs neyləyək
dolu olanda ürək?!
Bilmirəm, İskəndərin
buynuzu vardı, yoxdu.
Ancaq yer üzündə
cavabı müşkül suallar
indi də var,
onda da çoxdu.
Yaxşı olmazmı,
onları deyək biz,
İskəndərsiz.
Çobansız.
Quyusuz.
Tütəksiz.

***1962***



# Bütün yaxşılıqlara görə – əbədiyyət

Azərbaycan ədəbiyyatının inkişafına özünəməxsus mühüm xidmətləri olan Maksud İbrahimbəyov ədəbiyyatımızın əllinci illərin ədəbi nəsli ilə məşhur «Altmışıncılar» arasında olub, hər iki yazıçılar nəslinin yaradıcılıq xüsusiyyətlərini özündə əks etdirib, orijinal əsərlər yaradan görkəmli sənətkardır. Fikrimizcə, Maksud İbrahimbəyov ədəbi-ictimai dünyagörüşü etibarilə əllincilər ədəbi nəslinə, yaradıcılıq baxımından isə «Altmışıncılar»a aid istedadlı yazıçıdır. Belə ki, altmışıncılara aid yazıçıların hamısından yaşca böyük olan Maksud İbrahimbəyov Sovetlər İttifaqının Stalin dövrünün hadisələri və proseslərini daha əyani şəkildə yaşamış, keçmiş sovet ideologiyasının təzahürlərini ayıq-sayıq müşahidə edə bilmişdi. Bununla belə, atası – coğrafiya elmləri doktoru, professor Məmməd İbrahim İbrahimbəyovun dövrünün tanınmış ziyalılarından biri olması, qardaşı Rüstəm İbrahimbəyovun neft-kimya və kibernetika üzrə təhsil alıb çalışması, özünün Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsini bitirib, Tikinti Nazirliyi sistemində işə başlaması onun dövrün ictimai-siyasi prosesləri içərisindən elmi-ədəbi mühitə doğru daha fəal meyil etməsini şərtləndirmişdir. Beləliklə, XX əsrin altmışıncı illərində 25 yaşında olan, 37-ci ilin repressiyaları haqqında məlum hadisələri şahidlərdən eşidən Maksud İbrahimbəyov Stalinin şəxsiyyətinə pərəstişi aradan qaldırmağa həsr edilmiş XX qurultayın qərarlarından sonra ictimai-siyasi həyatda baş vermiş dəyişiklikləri dərk

olunmuş şəkildə yaşamışdı. Altmışıncı illərə qədər tələbə ikən təhsil aldığı ali məktəbin «Politexnik» qəzetində kiçik məqalələr çap etdirməklə ilk qələm vərdişlərinə də yiyələnmişdi. Bütün bunlar «Əllincilər» dünyagörüşünə malik olan Maksud İbrahimbəyovu ədəbiyyatda «Altmışıncılar» sıralarına gətirib çıxarmışdır. Heç tərəddüd etmədən demək olar ki, Maksud İbrahimbəyov Azərbaycan ədəbiyyatında «Altmışıncılar» ədəbi nəsrinin görkəmli nümayəndələrindən biridir. Məlum olduğu kimi, Azərbaycan ədəbiyyatının «Altmışıncılar»ı əsasən Azərbaycandilli yazıçı və şairlərdən ibarət idi. Onların əksəriyyəti, dövrün digər gəncləri kimi, rus dilini yaxşı bilir, hətta bəziləri yeri gəldikdə rus dilində də müəyyən ədəbi-publisist məqalələr, esselər yazırdılar. Lakin «altmışıncılar»ın mütləq əksəriyyəti əsərlərini Azərbaycan dilində yazır, Azərbaycan auditoriyasına xitab etməyə üstünlük verirdilər. Maksud İbrahimbəyov isə əsərlərini rus dilində yazmaqla çoxmillətli Azərbaycan mühitində "altmışıncılar"ın oxucu auditoriyasındakı boşluğu doldurmuşdur. Yəni, rus dilində yazdığı bədii əsərləri ilə "altmışıncılar"ın sənət ideallarını ölkəmizin rusdilli oxucu auditoriyasına çatdırmaqla yeni ədəbiyyatın təsir dairəsinin miqyasını genişləndirmişdir.

Maksud İbrahimbəyovun 1963-cü ildə çapdan çıxmış «Katastrofa» adlanan ilk kitabı həyatın adi əhvalatlarını və sadə adamlarını təsvir edən hekayələrdən ibarətdir. Bu hekayələri Maksud İbrahimbəyovun ilk sənət pasportu hesab etmək olar. Cavan yazıçı «Katastrofa»ya daxil olan hekayələrində ictimai mövzulara toxunmadan həyatın seçdiyi mühitdən o zamana qədər diqqətdən kənarda qalmış tərəflərini göstərmiş, hətta neqativ hallara da müəyyən işıq salmışdır. Rusdilli ədəbiyyat vasitəsi ilə cavan bir yazıçının bir qədər gərgin həyat səhnələrini oxuculara çatdırması birmənalı qarşılanmasa da, o, tənqidlə üzləşməli olsa da, gənc müəllif ədəbiyyatdakı mövqeyindən geri çəkilməmişdir. Beləliklə, Azərbaycan ədəbiyyatında Böyük Vətən müharibəsi dövründə Bakı məhəllələrində baş verən, yaşanılan hadisələrin təbii, real əks-sədası olan bədii əsərlər meydana gəlmişdir. Maksud İbrahimbəyovun əsərlərində həm Bakının müharibə dövrünün özünəməxsus koloriti, həm də o dövrün adamlarının real mənəvi aləmi, psixologiyası əks-səda tapmışdır.

Qeyd etmək lazımdır ki, Maksud İbrahimbəyovun ilk hekayələrindən seçdiyi Bakı mühiti yaradıcılığının bütün dövrlərində onun bitib-tükənməz mövzusuna çevrilmişdir. O, əsərlərində paytaxt şəhərimizin mənəvi həyatının məhəllə mühitinin timsalında heç cür məhəlli olmayan, dövrün tipik və ümumiləşdirilmiş xarakteristikasını vermişdir. Həyatın bu tərəfi Xalq yazıçısı Anarın yaradıcılığında daha çox şəhərin ədəbi-mədəni, ziyalı mühitinin hadisələri və adamlarının təsviri ilə təqdim olunmuşdur. Xalq yazıçısı Elçin bu mövzuya unikal Abşeron motivləri gətirmişdir. Maksud İbrahimbəyov isə, Bakının müharibə dövrünün məhəllə adamlarının adi həyat həqiqətlərini qələmə almaqla, heç kəsi təkrar etmədən bənzərsiz əsərlər yaratmağa müvəffəq olmuşdur. Bu yolla hamının daha çox geniş küçələr, bulvar, prospektlər, heykəllər, işıqlı mağazalar və muzeylər şəhəri

kimi qəbul və təsəvvür etdiyi paytaxt şəhərinin ilk baxışda görünməyən və ya az nəzərə çarpan məhəllə əhvalatları və adamları böyük ədəbiyyatın süjetləri sırasına daxil edilmişdir. Maksud İbrahimbəyov Bakının məhəllə həyatını və mənəvi mühitini Azərbaycan ədəbiyyatı səviyyəsinə qaldırmışdır. O, ədəbiyyatın daha çox kənd həyatında canlandırdığı milli xarakteri şəhər məişəti fonunda da yaratmağın reallığını isbat etmişdir. Maksud İbrahimbəyov əsərlərindəki milli xarakterə malik obrazları ilə ədəbiyyatdakı şəhərin kosmopolit həyatı haqqındakı təsəvvürləri dağıtmışdır.

Müşahidələr göstərir ki, şəhər həyatından yazan bir çox yazıçılardan və elm adamlarından fərqli olaraq, Maksud İbrahimbəyovun yaradıcılığında həm də nə urbanizasiya və nə də reurbanizasiya problemlərindən bəhs edilir. Maksud İbrahimbəyovun əsərlərində əsas diqqət şəhərin məişət mühitinin mənəvi aləminə yönəlmişdir. Bu baxımdan o, bir tərəfdən, şəhərin küçə və dalanlarında baş verən əyri-kondələn hadisələri, digər tərəfdən, yanlış yolda olan cavanları, həm də bütün bunlardan ucada duran «Bizim Cəbiş müəllim»ləri, müdrik nənələri, fədakar anaları, sədaqətli dostları da oxucuların diqqətinə çəkməklə təsvir etdiyi «dünyanın» hərtərəfli mənzərəsini canlandırmışdır. Maksud İbrahimbəyovu düşündürən və narahat edən heç də quruculuq proseslərinin gedişatı, yaxud kənddən – şəhərə axın motivləri və ya şəhərlə kənd arasında süjet deyildir. Yazıçının diqqəti şəhər həyatının mənəvi problemlərini bütün reallıqları ilə təsvir etməklə qaranlıq cizgiləri və narahat məqamları aradan qaldırmağa yönəlmişdir. Bu məqamda Maksud İbrahimbəyovun həyatın dibini görmək və mühitin «qurbanları»nın iç dünyasını olduğu kimi göstərmək istedadı onun yazıçı kimi fərqini və özünəməxsusluğunu müəyyən etmişdir.

Son nəticədə isə, Maksud İbrahimbəyovun əsərlərində katarsisin tam bənzərsiz bir şəkildə oxucuya aşılanması da onun yazıçılıqdakı məharətinin daha bir təzahürüdür. Ümumiyyətlə, müşahidə olunur ki, Maksud İbrahimbəyovun əsərlərində nəinki tərbiyəvi bir yekun qənaət, hətta ümumiyyətlə bədii sonluq yox dərəcəsindədir. Onun əsərlərini bitdiyi yerdən yenidən davam etdirərək, süjeti bir daha şaxələndirmək və genişləndirmək, hətta həmin mövzuda yeni bir əsər də yazmaq mümkündür. Fikrimcə, yazıçının bir neçə əsərinin silsilə təşkil etməsinin bir səbəbi də onun yaradıcılığındakı mövzu yaxınlığından daha çox bu xüsusiyyəti ilə əlaqədardır. Yazıçının yaradıcılığında biri – digərinin davamı, kulminasiya nöqtəsi, razvyazkası, epiloqu ola biləcək ayrı-ayrı əsərlər mövcuddur. Bunlar ayrı-ayrılıqda Maksud İbrahimbəyovun müxtəlif vaxtlarda yazılmış konkret əsərləridir. Ümumilikdə həmin əsərlər külliyyatı Maksud İbrahimbəyovun yaradıcı şəxsiyyət və ictimai xadim kimi özünü ifadə edir, yaxud da yaradıcılığının bütövlüyünü, tamlığını meydana qoyur. Ona görə də Maksud İbrahimbəyovun ayrı-ayrı əsərlərindən çıxarılan nəticə də biri – digərini tamamlayır və möhkəmləndirməyə xidmət edir. Onun hər hansı bir əsərindən bəzən bir yox, bir neçə nəticə çıxarmaq olur. Maksud İbrahimbəyov səhvlərin, yanlışlıqların labirintlərinin dərinliklərində olan bəlalara,



**Heydər Əliyev və Maksud İbrahimbəyov**

çatışmazlıqlara işıq salmaqla və onları doğuran səbəbləri göstərməkdən çəkinməməklə yazıçı kimi yalnız bir məqsədə – inkişafa mane olan problemi kökündən göstərmək, qazıb çıxarıb atmaq amalına xidmət edir. Ona görə də Maksud İbrahimbəyovun oxucusu onun əsərlərinin zahiri təsvirlərində ilişib qalmamalı, yazıçının dərin qatlardakı estetik idealının mahiyyətini dərk etməli və oradan tərbiyəvi nəticə çıxarmağı bacarmalıdır.

Bütövlükdə Maksud İbrahimbəyovun cəlbedici süjeti və təkrarsız obrazları olan hər bir əsəri onun yaradıcılıq təkamülünün pillələridir. Amma Maksud İbrahimbəyovun əsərlərində pillə ilə astananı, mərtəbəni müəyyən etmək çətindir. Yaradıcılığının birinci mərhələsində 1968-ci ildə yaranmış «Uşaqlığın son gecəsi» povesti ilə ədəbi fəaliyyətinin sonrakı dövrlərində meydana çıxmış «Xeyirxah sonluqlu tarix» povesti (1983) sanki eyni səviyyədə bədii istedadla, dərin ictimai düşüncə ilə yazılmış və bütün dövrlərə xitab edə bilən fərqli əsərlərdir. Bu mənada Maksud İbrahimbəyov sanki Bakı həyatının çoxseriyalı filmlərini yaratmış yazıçıdır. «Uşaqlığın son gecəsi» həmin ədəbi silsilənin proloqu, «Bizim Cəbiş müəllim» təsvir edilən hadisələrin gedişi prosesi, «Bütün yaxşılıqlara görə – ölüm» kulminasiya nöqtəsi, «Bir gözəl gün» isə epiloqdur. Bu cür möhkəm və möhtəşəm vəhdət Maksud İbrahimbəyovun yazıçı üçün çox zəruri olan bədii ümumiləşdirmə imkanlarının mükəmməlliyini nəzərə çatdırır. «Uşaqlığın son gecəsi» povesti şəhər həyatının realizmini ifadə edən, tipik şəraitdə tipik obrazları diqqətə çatdıran ibrətamiz əsərdir. Fikrimizcə, eyni adlı film də uğurlu alınmış mükəmməl kino sənəti nümunəsidir. «Uşaqlığın son gecəsi» filminin böyük sənət ustadı Polad Bülbüloğlu tərəfindən yazılmış musiqisi Maksud İbrahimbəyovun sərt realizminin dərin qatlarındakı işığı açmağa, göstər-

məyə şərait yaradan əhəmiyyətli bədii vasitədir. Ümumiyyətlə, «Gəl, ey səhər!» mahnısı Maksud İbrahimbəyovun yazıçı idealını çox dolğun şəkildə ifadə edir. «Gəl, ey səhər!» mahnısı «Tikan içində gül», duman içində günəş kimi dərin mənaları diqqətə çəkir.

Maksud İbrahimbəyovun «Bakının nağılları» əsəri xalq yazıçısının Bakı epopeyasıdır. Bakının adi əhvalatlarının və sadə adamlarının nağılı geniş mənada Azərbaycan həyatının ritmləri kimi ifadə olunur.

Maksud İbrahimbəyovun «Mezozoy əhvalatı» pyesi (1976) Azərbaycan ədəbiyyatının möhtəşəm sənət uğurudur. Bu əsərin SSRİ Mədəniyyət Nazirliyinin ən yaxşı pyeslər üçün keçirdiyi müsabiqədə birinci yeri qazanması Azərbaycan ədəbiyyatına şərəf gətirmişdir. «Bayquş gəldi» və «Bütün yaxşılıqlar üçün – ölüm» əsərlərinin Azərbaycan Dövlət Mükafatına layiq görülməsi həm yazıçının və həm də ədəbiyyatımızın uğurudur.

Azərbaycanda kinematoqrafiyanın inkişafında da Maksud İbrahimbəyovun mühüm xidmətləri vardır. Moskvada Ali Ssenariçilər Kursunu (1962-1964) və Ali Rejissorluq Kursunu (1971-1973) bitirmiş Maksud İbrahimbəyov mahir ssenarist kimi qəbul olunur. O, keçmiş SSRİ məkanında yazdığı ssenarilər əsasında ən çox film çəkilmiş nadir yazıçılardandır. Tam olmayan məlumata görə, onun ssenariləri əsasında 26 sənədli və bədii film çəkilmişdir. Ən başlıcası isə, Maksud İbrahimbəyovun filmləri ölkəmizlə yanaşı, yaxın və uzaq xarici ölkələrdə də uğurla nümayiş etdirilmişdir. Bir cəhəti də xüsusi qeyd etmək lazımdır ki, Maksud İbrahimbəyovun filmlər üçün yazdığı ssenarilərin pyes və ya povest variantları da vardır. Yazıçının ssenariləri əsasında filmlər çəkildiyi kimi, pyes, yaxud povest kimi meydana çıxan əsərləri də kitab halında nəşr edilmişdir. Bu mənada Maksud İbrahimbəyovun ssenariləri kino sənəti ilə bədii əsərləri arasında möhkəm körpü funksiyasını yerinə yetirir. Onun "Bakı. Müharibə illəri", "Ən vacib müsahibə", "Mezozoy əhvalatı", "Uşaqlığın son gecəsi", "Yarımçıq qalmış mahnı" və sair filmləri Azərbaycan kino sənətini zənginləşdirən uğurlu sənədli və bədii filmlər kimi yaddaşlara yazılmış, ədəbi-ictimai mühitdə dərin izlər salmışdır.

Milli Məclisin deputatı kimi Maksud İbrahimbəyov ölkəmizin ictimai-siyasi həyatında yaxından və fəal iştirak etmişdir. Azərbaycan Respublikası Sülh Komitəsinin sədri, Əsilzadələr Məclisinin sədri, Azərbaycan Pen-klubunun sədri kimi də ölkəmizdə və beynəlxalq miqyasda geniş iş aparmışdır. O, beynəlxalq tədbirlərdə Azərbaycan Respublikasını yüksək səviyyədə təmsil etmişdir. Görkəmli yazıçı və ssenarist kimi tanınan Maksud İbrahimbəyov ictimai xadim kimi də xalqımıza və ölkəmizə ləyaqətlə xidmət etmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyev Maksud İbrahimbəyovun bədii istedadının parlaması və inkişaf etməsi üçün həm böyük dayaq olmuş və həm də mühüm xilaskarlıq missiyasını həyata keçirmişdir. Məhz Ulu Öndər Heydər Əliyevin siyasi dəstəyi ilə Maksud İbrahimbəyovun bir çox əsərləri Bakıda və Moskvada çap olunmaq,

ssenariləri isə filmə çəkilmək imkanı qazanmışdır. Əgər vaxtında Heydər Əliyevin müdaxiləsi olmasaydı, «Bizim Cəbiş müəllim» filminin üzə çıxması bəlkə də qeyri-mümkün ola bilərdi. Bu addımları ilə görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan ədəbiyyatı və milli mədəniyyətimizi, ictimai fikrimizi böyük maneələrdən xilas edərək inkişaf etdirmişdir. Sovet hakimiyyəti illərində hakim ideologiyanın ən güclü vaxtında Azərbaycanda yaranan milli mədəniyyətin və ədəbiyyatın arxasında Heydər Əliyevin tarixi imzası vardır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Maksud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında»kı 13 fevral 2025-ci il tarixli Sərəncamı yeni tarixi dövrdə ədəbiyyata verilən yüksək qiymətin və göstərilən böyük diqqət və qayğının əməli ifadəsi kimi mühüm əhəmiyyətə malikdir.

Maksud İbrahimbəyovun ədəbiyyat sahəsində və kino sənətinin inkişafındakı xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Respublikasının Xalq yazıçısı və Əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülmüş, Azərbaycan Respublikası Prezidentinin Fəxri təqaüdünü almışdır. Sovet hakimiyyəti dövründə "Qırmızı Əmək bayrağı" ordeni, müstəqillik illərində isə "İstiqlal", "Şöhrət" və "Dostluq" ordenləri ilə təltif olunmuşdur.

Yazıçı və ictimai xadim Maksud İbrahimbəyov həyatda və ədəbiyyatda azərbaycançılıq idealına məsuliyyətlə və əməli fəaliyyətlə xidmət etməyin nümunəsini göstərmişdir. Hazırda müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmdə söz sahibi olan dövlətlərdən birinə çevrilməsi, paytaxtımız Bakı şəhərinin dünyanın ən gözəl şəhərlərindən biri kimi tanınması Xalq yazıçısı Maksud İbrahimbəyovun uğrunda mübarizə apardığı ideallların gerçəkləşməsinin real təntənəsidir. Maksud İbrahimbəyov əsərləri ilə, ölməz sənət idealları ilə dövlət müstəqilliyimizin inkişaf edib möhkəmlənməsinə xidmət etmişdir. Yazıçının arzu etdiyi "Bir gözəl gün" artıq müstəqil ölkəmizdə gözəl dövranlara çevrilmişdir. Maksud İbrahimbəyovun bir vaxtlar yalnız bədii əsərlərində ifadə edə bildiyi ideallar indi ədəbiyyatdan gerçək həyata keçərək təsdiqini tapmışdır. Yazıçı və ictimai xadim Maksud İbrahimbəyovun xatirəsi də adının əbədiləşdirildiyi ünvanlarda və qədirbilən oxucularının qəlbində yaşamaqdadır...



Xalq yazıçısı Maksud İbrahimbəyov "Bütün yaxşılıqlara görə – əbədiyyət" qazanmağın nümunəsinə çevrilmişdir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti,***
***akademik***

*Maksud İBRAHİMBƏYOV*

# PÜSTƏ AĞACI



Bunda çətin nə varmış axı?! Bax, bu maşa ilə qırmızı alovda cızıldayan arı gövdəsini xatırladan yandırıcı bombanı götürüb, elə burada, yəni damda hazır dur - muş su çəlləyinə salır və az sonra çəlləkdən buxarın necə yüksəldiyinə baxırsan. Həm də bu işi həyəcan siqnalları, zenit qurğularının atəşləri və projektorların səmada ora-bura uçuşan işıq zolaqları da müşayiət eləməlidir. Eh!.. Amma müharibə vaxtı Bakıya bombalar yağmadı. Bircə dənə də. Bizdən başqa, yəni məhəlləmizin uşaqlarını çıxmaq şərtiylə, deyəsən, şəhərdə heç kəs buna görə təəssüf hissi keçirmədi. Çünki o vaxt yandırıcı olmasın ey, hətta adi bombanı da suya gömmək arzusuyla yaşayırdıq biz. O xəyallarımızın hamısı puça çıxdı.

Gecədən keçənə qədər damda durub, növbəti hava hücumunu gözləməmiz hədər getdi. Nəinki maşalar, hətta qarmaqlar ilə baltalar da lövhədə boş-boşuna asılıb qaldı. Divara bərkidilən təlimat lövhəsində hücum vaxtı necə davranmaq lazım gəldiyi ətraflı yazılmışdı. Biz də o mətni artıq əzbərləmişdik. Amma əbəs yerə! Bütün müharibə ərzində o qoruyucu vasitələr həmin lövhədə eləcə asılı durdu. Boşuna. Sanki upravdom (evlər müdiri) da, sırf məzə olsun deyə, ayda bir kərə gəlib, çəlləyin suyunu təzələyib, gedirdi. Çəlləkdəki suyun rəngi tünd yaşıla, hətta qaramtıla çalırdı və evlər müdiri elə hey bizi inandırırdı ki, guya suda çömçəquyruqları əmələ gələcək. Amma sonradan bu söhbət də yalan çıxdı. Görünür, onlar da əmin idi ki, gec-tez çəlləyin suyu dəyişdiriləndə işləri fırıq olacaq.

Ümumiyyətlə götürəndə, upravdom yaxşı adam idi. Heç bir işimizə qarışmazdı. Hətta həyətdə ordu qərargahı tikdiyimiz zaman da gəlib, onun yan-yörəsində fırlanmış, ayağı ilə divarların möhkəmliyini yoxlayandan sonra xahiş eləmişdi ki, heç bir halda bu tikilinin üstünü damla örtmək niyyətinə düşməyək, çünki o dam çökərsə, həm aramızdan kimlərsə zərər çəkər, həm də buna icazə verdiyi üçün onun, yəni evlər müdirinin başı ağrıyar. Biz də dam vurmaq fikrindən daşındıq. Heç ona sən deyən bir ehtiyacımız da yox idi. Axı sırf hərbi müşavirələr keçirəndən-keçirənə biz o qərargahda toplaşır, silahlarımızı isə zirzəmidə saxlayırdıq.

Silahlarımız da cürbəcür idi. Qılıncları özümüz düzəltmişdik: çəlləyin tənəkə qurşağını açıb, dümdüz şəklə salandan sonra kəski ilə kəsmiş, dəstək qisminə də əski parçası sarımaqla, kefin istəyən qılınc hazırlamışdıq. Qılınclardan başqa,

qundaqsız tüfənglərimiz, güllə barabanı olmayan bir cüt tapançamız və alman istehsalı dəbilqələrimiz vardı. Bunların hamısını Salyan kazarmasının böyründəki zibillikdən yığmışdıq. Oradakı çəmənlikdə hər cür silah növləri, zenit toplarının lülələri, qumbara ucluqları təpə şəklində qalaqlanmışdı. Tırtılsız tanklardan əlavə, xaç nişanlı iki təyyarə də vardı orada. Eşitdiyimizə görə, orada ərinmədən eşələnən birisi nəinki sipərli pulemyot, hətta tank əleyhinə mina da tapa bilərmiş. Amma nə qədər axtarsaq da, biz nə mina tapmışdıq, nə də pulemyot. Hərçənd bir xeyli patron yığmışdıq. Bir o qədər də fitilsiz qumbara. İçinə patron yığdığımız boş konserv qutularını zirzəmidə qaladığımız tonqalın üstünə düzəndən sonra adətimiz üzrə çıxıb, həyətdə gözləyirdik ki, görək içəridə hansı mərəkə qopacaq.

Hər səfər nəticə eyni olurdu: qutulara yığılan patronlar partladıqca, zirzəmidə qorxunc atışma effekti yaranırdı. Təlaşa qapılan qonşular qapıdan boylanır, ancaq nə baş verdiyini anlamaqda acizlik çəkirdilər. Biz də, təbii ki, özümüzü heç o yerə qoymurduq. Bir müddət sonra Suri xala bir şayiə yaydı ki, bəs zirzəmidə hansısa möhtəkirlər məskunlaşıb və gecələr bir-birlərinə güllə yağdırırlar. Hətta qonşulardan bəziləri onun dediklərinə inanmağa da başlamışdı.

Ancaq bir gün yenə zirzəmidə partapart başlananda, qaçaraq ora gələn patrul dəstəsi şübhələndiyi üçün bizi qovarağa saldı. Patronları məhz bizim partlatdığımızı o vaxt patrulların necə fəhm etdiyini, düzü, mən hələ də anlamram. Axı bu, əsil fokusu xatırladırdı! Təbii ki, bizi yaxalaya bilmədilər, ancaq oxuduğumuz məktəbə xəbər verəcəkləriylə hədələdilər. O gündən etibarən patron partlatmağı tərgitdik. “Dava-dava” oynamağımızdan isə əl çəkmədik.

Yaşadığımız bina öz əzəmətiylə göz-könül oxşayırdı. Bu ikimərtəbəli binanın üst qatı boyu sıra ilə balkonlar uzanırdı. Həyətdə isə iri bir püstə ağacı qol – qanad açmışdı: çətiri necə geniş idisə, yayda ikinci mərtəbə həmişə kölgədə qalırdı. Hər barədə əlverişli ağac idi. “Kəşfiyyatçı” oyunu zamanı biz onun qol - budağının arasında gizlənirdik və elədə kiminsə bizi tapması mümkün görünmürdü. Bakının heç bir həyətində onun kimi iri ikinci püstə ağacı tapmazdın. Payızda ağac bar verəndə yığdığımız püstələri biz bütün qonşular arasında bərabər şəkildə bölürdük. Toplanan barı qərargaha daşıdığımız vaxt orada iri bir təpəcik yaranırdı. Sonra hər mənzilə düşən payı ayrıca iri bir külaha yığmaqla, qapı-qapı düşüb, qonşulara paylayırdıq. Hamıdan da təşəkkür sözü eşidirdik.

Belə götürəndə, biz əlimizə keçən hər şeyi qərargaha daşıyırdıq. Məktəbdə səhər yeməyində bizə ya vermişel kətəsi, ya da piroq verirdilər: günaşırı bunları bir-biriylə əvəzləsələr də, süfrəmizdən kisel heç əskik olmurdu. Təbii ki, kiseli məktəbdə içirdik, kətə ilə piroqu isə qərargaha gətirir, hamılıqla oradaca səhər yeməyi yeyirdik. Anamın dediyinə görə, o piroqlarla qarın doymazdı, çünki tərkibinə nişasta məhlulu qatılırdı. Ola bilsin ey, onlara nişasta məhlulu qatılırdı, ancaq istənilən halda biz onların dadından doymurduq!

Bütün işlərimizi qərargahda həll edirdik. Birimizin əlinə pul düşən kimi gedib, o Bazar küçəsindəki mağazadan poqon və ulduzlar alırdıq. Göstərilən hər hünərə görə bir-birimizi növbəti ulduzla təltif etdiyimizdən qısa müddətdən sonra həyətimizdə bir dənə də sıravi əsgər qalmadı, hamımız ya polkovnikə, ya generala, ya da marşala çevrildik. Qızlardan ikisi, Həmidə ilə Tosya isə, şəfqət bacısı kimi general rütbəsinə layiq görüldü. Qızların general ola bilməyəcəyi hamımıza yaxşı

bəlli idi, ancaq hər döyüşdən sonra alınan yaralara mütləq sarğı qoymaq lazım gəlirdi, qızlar isə bu işi təmənnasız görməkdən boyun qaçırırdılar.

Adətən, biz eyni küçəyə çıxan iki qonşu həyətdəki tay-tuşlarımızla döyüşürdük. Özü də əməlli – başlı döyüşürdük ha. Hamılıqla küçəyə çıxır və qılınc döyüşünə başlayırdıq. Həmin dəqiqələrdə həm küçə hərəkəti dayanırdı, həm də döyüşün gedişatını izləməkdən ötrü bütün qonşular pəncərələrinin önündə bitirdilər. Aramızdan kim isə bəzən hələ yara da alırdı, ancaq indiyədək biz hansısa yoldaşımızın ağladığına şahid olmamışdıq. Aramızda eləsi tapılmazdı. Döyüşdən sonra isə biz əsir və qənimətlərin dəyiş-düyüşünə başlayırdıq. Əksər hallarda bizim həyət zəfər çalırdı, çünki sıralarımızda təcrübəli sərkərdələr və cəsur döyüşçülər qat-qat çox idi. Hər gün "dava-dava" oynayır və uzaqlarda gedən həqiqi döyüşlər barədə sırf böyüklərin söhbətlərindən xəbər tuturduq deyə, onlar bizə elə də dəhşətli görünmürdü.

Sonradan həyətimizdə təzə qonşular – bir qız və bir oğlan peyda oldu. Yaşca bizdən kiçik idilər və heç adlarını da bilmirdik. Həmişə birlikdə gəzib - dolaşan bu bacı-qardaş pilləkəndə yanaşı oturar, bizim sıra keçidlərimizə və qılınclaşmağımıza maraqla tamaşa edərdilər. Birinci mərtəbədə verilən otaqda onlar analarıyla birgə yaşayırdılar.

Həyətdən çıxmayan o qadın, mən biləni, heç yerdə işləmirdi, durmadan camaşır yuyurdu. Bu işi o, adətən, püstə ağacının altında, həm də səhərdən-axşamacan görürdü. Bir hovur qəddini dikəltməklə, hərdən belini ovuşdurur, saçını səliqəyə salır, sonra təkrar ləyənin üzərinə əyilirdi. Qonşuların dediyinə görə, o, camaşırçı idi və ev şəraitində yuyacağı pal-paltar sifarişini də camaşırxanadan götürürdü. Görünür, elə belə idi, çünki yuduğu onca camaşır bir ailə hesabı ilə götürəndə, hədsiz çox idi. Yaş camaşırları qadın həyətimizdəki bütün zivələrdən asırdı, onlara dəyib-toxunanlara isə dişinin dibindən çıxanı deyirdi. Dözülməz xasiyyəti ucbatından doğma övladları da bu qadından yamanca qorxurdular. Bir sözlə, bizim həyətdə əvvəlki kimi yaşamaq artıq çətinləşmişdi. Döyüşməyə də, hisə-tüstüyə də lap tamarzı qalmışdıq: adətən bu məqsədlə biz kino lentini kağıza bükür, sonra bunu yandırırdıq. Təzə qonşu deyirdi ki, lentin yaydığı his uçub, camaşırların üstünə qonur. Paltar yumağı hələ bir yana dursun, bu qadın hər səfər ləyəndə yığılan kirli suyu da püstə ağacının dibinə əndərirdi. Ləyənin suyu isə qələvi məhlulu idi: axı müharibə illərində sabun tamam qəhətə çıxmışdı.

İlk vaxtlar camaşırdan qalan suyu o, zibilliyə tökürdü, ancaq, görünür, sonradan bu da onun üçün müşkülə döndü, çünki zibillik həyətin o biri başında, darvazaya yaxın bir küncdə idi, paltar yumaqdan isə qadının arıq əllərinin damarları qabarıb şişmişdi. Bəlkə hansısa başqa bir qadından biz köməyimizi əsirgəməzdik, bundan isə... hədsiz əsəbi olduğu üçün qorxurduq.

Anam deyirdi ki, dözülməz həyat şəraiti insanları qəddarlaşdırır: amma müharibə şəraitində guya kimin günü xoş keçir ki?! Anam özü də səhərdən-axşamacan işləyirdi, ancaq evə gələndə mənim qab-qaçağı yuyub, döşəməni sildiyimi görüncə, necə gülümsəyirdisə, gün boyu canında yığılan yorğunluğun dərhal yoxa çıxdığını hiss edirdim... Əgər hamı bu təzə qonşumuzla eyni xasiyyətdə olsaydı, onda gərək biz baş götürüb, buralardan qaçaydıq.

Balalarının daima qüssəli dolaşmasına məhəl qoymayan qadın yenə durmadan camaşır yuyur, ləyəndəki kirli suyu isə hər dəfə püstə ağacının dibinə əndərirdi. Upravdom bir kərə bununla bağlı ona irad bildirəndə qadın ləyəndən aralanıb, əllərini qurulaya-qurulaya pəsdən ona necə təpinmişdisə, möhkəm pörtən kişi dərhal ondan uzaqlaşmış, hətta sonralar həyətimizə tərəf heç baxmırdı da. Bu təzə qonşunun upravdoma nələr dediyi əslində bizə də maraqlı gəlirdi.

Sonrakı günlərdə Suri xala ortalıqda gəzib, deyirdi ki, təzə qonşunun upravdoma söylədiyi sözləri hətta dilinə gətirməyə də utanır, hərçənd bunu etmək üçün heç ona yalvarıb – eləyən də yox idi., çünki hərə öz iş-gücüylə məşğul idi, Suri xala isə hələ də kiminsə bunu ondan xahiş etməsini umurdu.

Hər şeyə rəğmən, biz şənbə günü 28 – ci həyətin uşaqlarıyla "dava-dava" oynamaq qərarına gəldik. Püstə ağacıyla bağlı bu məqam da məhz onda, həm də qəflətən ortaya çıxdı.

Həmişəki kimi dəstəylə məktəbə getməkdən ötrü uşaqlarla həyətdə toplaşanda, baxışları püstə ağacına dikilən yoldaşlarımızdan birisi dəhşətdən çığırdı. O an biz də gözlərimizi ağaca zillədik və röyadaymışıq kimi, gördüyümüzə inanmağımız gəlmədi: bircə gecənin içində bütün yarpaqlarını tökən ağac lümlüt qalmışdı, çılpaq budaqlarda isə, sadəcə, püstə topaları qaralırdı.

Həyətdə bir qalmaqal qopdu ki, gəl görəsən! Belə götürəndə, həyət əhli dava-şavaya onsuz da həvəsliydi, əsasən də yay günlərində. Hətta bir dəfə qonşu qadınlardan biri digərini "faşist" adlandıranda onlar az qalmışdı saçyolduya çıxalar. Ancaq heç onda da bu cür mərəkə qopmamışdı. Hamı bir ağızdan çığırırdı deyə, heççə nə anlamaq olmurdu. Tək eşitdiyim qonşu qadının dediyi bu söz oldu: "Axırda bu yaramaz qadın o ağacın axırına çıxdı da!" Bu qınaq təzə qonşunun ünvanına deyilmişdi. Başqa bir qadın isə təkrar – təkrar deyirdi ki, bəlkə, ağacı xilas etmək üçün bir aqronom çağıraq?!

Təzə qonşu səs-küyə bayıra çıxdı, bu danışılanlara lal-dinməz qulaq verdi – sanki bu məsələnin ona zərrəcə dəxli yox idi. Sonra isə mənzilinə girərkən qapını öz ardınca zərblə çırpdı.

Həmin gün həyətə aqronom çağırıldı. Püstə ağacını gözdən keçirən kişi dedi ki, ağac bundan belə ancaq oduna yarayar... və çıxıb getdi.

Həmin gün şənbə idi deyə, biz 28 – ci binanın uşaqlarıyla döyüşü ertələdik. O həyətdəki yaşıdlarımızın barəmizdə nə düşünəcəyi vecimizə deyildi. Hamılıqla qərargaha yığılıb, təzə qonşumuza nəyi, necə deyəcəyimizi götür-qoy elədik. Haqqında nələr düşündüyümüzü o qadına açıq-aşkar söyləmək niyyətindəydik. Deyəcəkdik ki, onun kimi qəddar və ağıldan dayaz birisinin bu binada yaşamasına qarşıyıq.

Hamılıqla onun mənzilinə yaxınlaşıb, qapını döydük. Bunu bir neçə kərə təkrarlasaq da, cavab verən tapılmadı. Belə olunca, mənzilə girdik. Özü də hamılıqla girdik.

Çarpayının üstə oturan qadın ağlayırdı. Sonrakı həyatım boyu mən bu cür için-için ağlayan ikinci insana əsla rast gəlmədim. Camaşır yumaqdan damarları göyümtülə çalan, şişmiş əlləriylə üzünü qapayan qadın bizə hər hansı məhəl qoymadan ağlamağına davam elədi. Gəlişimizi görüncə, qadının oğluyla qızı da ürkək

baxışlarını bizə dikərək, birlikdə zırıldaşmağa başladılar, sonra cəld qaçıb, analarına sığındılar.

Biz, yəni polkovniklər, generallar və marşallar isə qadının qarşısında dayanıb, susurduq. O anlarda hər kəs boğazında düyünlənən qəhəri hər vəchlə udmağa çalışsa da, bunun öhdəsindən heç cür gələ bilmirdi. Sanki biz ona demək istəyirdik ki, dünyadakı ən gözəl ağac belə bir insanın axıtdığı acı göz yaşlarına dəyməz və əgər yaşca azacıq böyük olsaydıq, çox yəqin, o qadına məhz bu cür təskinlik verərdik... Ancaq bənzər durumlarda böyüklərin nə deyəcəyini haradan biləydik axı?!

Yenə hamılıqla geriyə, qərargaha qayıtdıq. Poqon və ulduz almaqdan ötrü topladığımız bütün pulu özümüzlə götürüb, Kubinkaya yollandıq. 28 - ci binanın uşaqları da arxadan gəlib, bizə qoşuldu. Həmin məhəllədə şitillər satılan yeri uzun-uzadı soraqlaşmalı olduq. Bazar əhli bizə köynək, qaxac donuz əti, konserv və kokos yağı almağı təklif edirdi. Bildirirdik ki, bizə yumurta tozu və ya patefon valları-filan lazım deyil ey, biz püstə ağacının şitilini axtarırıq. Ən nəhayət, şitillərin bir küncdə qalaqlandığı, içi toxumla dolu bankaların isə sırayla düzüldüyü o guşəni tapdıq. Satıcıya yanaşıb, püstə ağacının şitilini istədik. Satıcı: “Necə, necə, banan ağacı?!” – deyərək, böyründəki qonşusuna göz vurdu. Püstə ağacı axtardığımızı təkrarlayıb, bütün pulumuzu ona verdik. O da yerdə qalaqlanmış şitillərin arasından birini ayırmaqla, bizə uzatdı. Satıcı əmin elədi ki, bu, kefiniz istəyən püstə ağacıdır ha, bundan yaxşısını heç axtarmağa da dəyməz, sadəcə, vaxtaşırı onu sulamanız yetərlidir. Həyətə dönənə qədər o şitili növbə ilə əlimizdə daşıdıq. Bütün günü gah şitil üçün çuxur qazdıq, gah onun ətrafındakı torpağı bellədik, gah da təzə ağacın dibinə tökmək üçün həyətə peyin daşıdıq. O ara 28 saylı binanın uşaqları da bizə qoşuldular.

Bütün bunlardan sonra dəstə ilə təzə qonşumuzgilə gedib, bildirdik ki, biz başqa bir ağac əkmişik və daha onun göz yaşı axıtması mənasızdır, yetər ki, təzə ağaca qayğı ilə yanaşsın, onun dibinə potaşlı su tökməsə, hər şey öz yoluna düşəcək.

Qadın hamımızın başını birbəbir tumarlayandan sonra dedi ki, dərhal onu tərk edək, yoxsa bir azdan kövrəlib ağlayacaq. Həmin anlarda onun səsində qəribə çalar sezilirdi, sanki gizli bir dərd qadının qəlbini yamanca sıxırdı. Üzündə ağlamsınmaq ifadəsi oxunsa belə, çöhrəsi hədsiz gözəl idi. Görünür, bayaq biz getdikdən sonra qadın yenə ağlayıbmış, ya da bu, bizə belə gəlirdi.

Axşam anam mənə dedi ki, təzə qonşumuz sayılan o qadın ərinin cəbhədə həlak olması barədə dünən “qara kağız” alıb... Həmin gündən biz həyətdə “dava-dava” oynamağa birdəfəlik son qoyduq.

Durmadan böyüməyinə davam eləyən ağacımız isə püstədən başqa istənilən ağaca bənzəyirdi. Hamılıqla onu vaxtaşırı sulayırdıq, aramızda ona ən çox can yandıran isə təzə qonşumuz idi: amma o da daha haradan “təzə” sayılaydı ki?! Axı danışdığım bu hekayətin üstündən indi düz iyirmi il ötübdür. Söhbətləşmək üçün qonşular hələ də o ağacın kölgəsinə yığışırlar. Onun püstə ağacı olub-olmaması isə daha heç kəsin eyninə gəlmir.

***1968***

***Rus dilindən tərcümə edən: Azad Yaşar***

*Elmira AXUNDOVA*

# “Heydər Əliyev Azərbaycanda heç kəsə dissident damğası vurulmasına yol verməmişdi”



## *Azərbaycanın xalq yazıçısı Maksud İbrahimbəyovla söhbət*

***Yazi müəllifinin ön sözü:***

*2024-cü ilin yayı mənim üçün Maksud İbrahimbəyovu anmaqla keçdi. Onun əsərlərini, o cümlədən sonuncu povesti “Cəhənnəmdə əsən sərin meh”i oxudum, bunların ardınca isə Nadejda İsmayılovanın “Həmişəyaşar Maksud” adlı bioqrafik kitabı ilə tanış oldum. Sözügedən kitabın adı qədər, elə özü də, yəni tərtibatı, quruluşu və məzmunu da bənzərsizdir.*

*Kitabın müəllifi istedadlı bir insandır, amma eyni zamanda əsas bir cəhət də burada odur ki, O, Maksudu ilk gənclik illərindən tanıyıb. Əminəm ki, bu kitabı oxuyanların əksər qismi tezliklə öz kitab rəflərinə və ya internetdəki ədəbi saytlara can atmaqla, sevimli müəlliflərinin bu və ya digər əsərini təkrar oxumaq niyyətinə düşəcəklər.*

*Qəribə təzaddır: öz təhsilinə, uzun müddət yad bir dil mühitində yaşamasına və yazdığı dilin ona diqtələrinə baxmayaraq, Maksud sözün yaxşı mənasında kosmopolit biri kimi qalmağı bacarıbmış. İndi belələri haqda adətən “dünya insanı” ifadəsi işlədilir. Halbuki əsərlərinin məzmunu və dünyanın dərki baxımından o, təpədən-dırnağa Azərbaycan yazıçısıdır. İnsanların, xasiyyətlərin, durumların, Abşeronun, Bakının və onun kəndlərinin məişət və əxlaqının təsvirində Maksud yüksək dəqiqliyə nail olub, bu zaman kolorit və incə məqamlara dərindən bələdlik də öz önəmli rolunu oynayıb.*

*“Ondan yaxşı qardaş yox idi” povesti, heç şübhəsiz , onun yaradıcılığının zirvəsidir. Son qələm məhsullarından sayılan “Qara paltarlı qadın gəlmişdi” povestini də şəxsən mən hədsiz dərəcədə bəyənirəm. Bu povest əsasında Aleksandr Şarovskinin quruluş verdiyi tamaşa da, böyük rəssamımız Tahir Salahovun doğma şəhərinə özünün sonuncu “əlvida”sı kimi yaratdığı heyrətamiz dekorasiyalar da könlümə yatmışdı. Düzdür, tamaşaya ağız büzənlər, “bu nə musiqi tərtibatıdır, Maksud İbrahimbəyovun o cür ciddi əsərindən Şarovski niyə belə ucuz şou yaradıb?!” deyənlər də tapılmışdı. Razıyam, pyesin birinci aktında istehza, şuxluq, mahnı və musiqi gen-bol idi. İkinci akt isə ciddi və faciəvi xarakter daşıyırdı. Bəyəm həyatımızın özü də belə deyilmi?!*

*Etiraf edək ki, hamımız ən azı bir kərə bənzər halla qarşılaşmışıq: gündüz ehsan məclisinə, axşam isə ya toya, ya da teatrda hansısa məzəli tamaşaya dəvət almışıq. Əslində, yaşadığımız bu həyat – ağlı-qaralı bir filmdir, orada eyni vaxtda həm gülür, həm ağlayırıq, üstəlik, ciddi və gülünc məqamları bir-birindən ayırmaq, ayırd eləmək də mümkün deyildir... Yeri gəlmişkən, bir çox əsərləriylə tanışlıq əsnasında sezirsən ki, bunları yazarkən Maksudun gözlərində şux bir istehza, fərqli işartı var imiş. Əsərlərindəki genişlik də, işıq da, ümid də... məhz elə bundan güc alır.*

*Hər nə qədər bənzərsiz və çoxqatlı olsalar da, yazıçının qəhrəmanlarını birləşdirən ən başlıca özəllik – onların məhz inandırıcı olmaları, hər cür saxtalıqdan uzaq olmalarıdır. Həqiqi və səmimi olmalarıdır.*

*Çünki Maksud İbrahimbəyovun özü də həyatda səmimi və ötkəm insan idi, bəzən heç bir vəchlə güzəştə getmirdi. 1990-cı illərin əvvəllərində o, öz bədii yaradıcılığına, demək olar ki, ara verməklə, publisistikaya yönəldi. Onun "Sabah gec olacaq", "Əksinqilabi etüd" və sair məqalələrini çoxlarımız yaxşı xatırlayır. Xanımı Anna İbrahimbəyova ilə söhbət zamanı ona bu sualı ünvanladım:*

*"Yaradıcı insan, xüsusilə də böyük yazar adətən "qarşıdurmaların fövqündə" dayanmağa can atır. Öz sərbəstliyini qorumaqdan ötrü o, həm iqtidar, həm də müxalifət ilə arasına bəlli bir məsafə qoyur. Sovet dövründəkindən fərqli olaraq, müstəqillik dövründə (xüsusilə də Heydər Əliyev hakimiyyətə gələndən sonra) Maksud fəal vətəndaş mövqeyi sərgiləməklə, birmənalı şəkildə iqtidarın tərəfini tutdu. Kəskin siyasi publisistika nümunələri yaratdı. O, bu yanaşmanın bir yazıçı kimi öz nüfuzuna, məşhurluğuna xələl gətirəcəyindən ehtiyatlanmırdı ki?*

**Anna:** *Aramızda bu mövzuda heç nə danışmasaq da, mən hər barədə onu dəstəkləyirdim, çünki bu məqam ondan ötrü hədsiz dərəcədə önəmli idi. Onun dinc oturmayacağını, gec-tez mübarizəyə qoşulacağını dəqiq bilirdim. Deyirdi ki, bura – mənim vətənimdir, burada baş verənləri də mən şəxsi məsələm sayıram. O, Heydər Əliyeviçin qayıtmasını dəstəkləyirdi, həm Moskvada, həm də Naxçıvanda olarkən onunla görüşmüşdü. Azərbaycanda nəyin və necə olmasıyla bağlı Maksud həmişə dəqiq vətəndaş mövqeyinə, artıq oturuşmuş baxışlara malik idi. Ona görə də barrikadanın bəri tərəfində yer almışdı.*

**E.A.** –Bəs yaradıcılıqla necə, o illərdə bədii yaradıcılıqla da məşğul olurdumu? Nəsr əsərləri yazırdımı?

**A.İ.** *–Yox. 20 il o, bir dənə də nəsr əsəri yazmadı. Sadəcə, siyasi məqalələrə kökləndi. Haradasa 2010-cu ildə nəsrə qayıda bildi, əvvəlcə "Cəhənnəmdə sərin meh əsdi" romanını, bir il sonra isə özünün sonuncu əsəri sayılan "Qara paltarlı qadın gəlmişdi" romanını qələmə aldı.*

**E.A.** – Belə çıxır ki, tanınmış bir yazıçı kimi o, öz gücünü siyasətə və siyasi qarşıdurmalara qurban veribmiş?

**A.İ.** *– O, heç nəyi qurban-filan verməmişdi. Bu, sadəcə, onun tutduğu mövqe idi, onun istəyi idi..."*

*Bu məqamda mən böyük Heydər Əliyevlə bağlı məlum bir söhbəti oxucuların diqqətinə çatdırmaq istərdim, çünki Maksud ona həmişə dərin ehtiramla yanaşırdı. Məncə, bu, Mərkəzi Komitənin birinci katibinin öz yazıçılıq fəaliyyətinə təzə-təzə başlayan Maksudu sosialist realizminin qısqanc tərəfdarlarının pəncəsindən almasıyla bağlı deyildi. Bu iki insan xislətcə hədsiz bənzəyirdi. Hər ikisinin saxtalığı, istedadsız, yaltaq insanları görən gözü yox idi və onlar doğma Azərbaycan üçün canlarından keçməyə hər an hazır idilər.*

*1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Maksud İbrahimbəyov vəzifəsindən uzaqlaşdırılmış Siyasi Büro üzvü ilə əlaqələrini hələ də üzməyən tək-tük insanlardan biri sayılırdı. Lazım gələndə, Maksud Heydər Əliyev ilə ya birbaşa zəng etməklə, ya da onun sadiq cangüdəni Aleksandr İvanovun vasitəçiliyi ilə əlaqə saxlayırdı. 1989-cu ildə öz povesti əsasında Murad İbrahimbəyovun çəkdiyi filmin Kino Evində premyerası keçirilərkən Maksud Heydər Əliyevi də tədbirə dəvət eləmiş, Rusiya kinematoqrafçıları ilə onun görüşünə nail olmuşdu. Beləcə, fəxri qonaq həm premyeranın, həm də bir sıra məşhur ssenarist və rejissorların qatıldığı ziyafətin iştirakçısına çevrilmişdi. Faktiki olaraq izolyasiya şəraitində yaşayan Heydər Əliyev üçün bu cür tədbirlərə qatılmaq təmiz hava ilə nəfəs almaq qədər önəmli idi.*

*Aradan bir neçə il ötüncə, Maksud artıq Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyevin qonağı olur və bir daha əminlik əldə edir ki, özü demişkən, "bu insan iqtidar üçün doğulubdur".*

*Sonradan da onların görüşləri baş tutur və bunların bəziləri qeyri-rəsmi şəraitdə keçdi, çünki həmin görüşlər zamanı bir-biri üçün doğmalıq və maraq kəsb edən, bərabərhüquqlu iki Şəxsiyyət qarşılıqlı ünsiyyət quracaqdı.*

*...Bu görkəmli yazıçımızın həyatının onun Azərbaycan və ingilis dillərində, həm də kütləvi tirajla çap olunan kitabları vasitəsilə, ən müxtəlif yaş qruplarından olan insanların, xüsusilə də gənclərin baş çəkdiyi Maksud İbrahimbəyov adına Yaradıcılıq Mərkəzinin fəaliyyəti çərçivəsində davam etdiyini görməkdən şəxsən mən xeyli məmnunam. Heç şübhəsiz, bu işdə İbrahimbəyovlar nəslinə aid ocağın fədakar qoruyucusu Anna İbrahimbəyovanın xidmətləri danılmazdır.*

*Bu il yazıçının 90 illik yubileyi qeyd olunur. Onun yaradıcılığına ən yığcam qiyməti isə hər halda Ümummilli liderimizin özü veribdir. Rəsmi tədbirlərdən birində Heydər Əliyev təvazökarcasına bir kənarda dayanan Maksuda yaxınlaşaraq demişdi: "Sən çox yaxşı yazırsan. Amma az yazırsan!"*

*Hə, Maksud çox da məhsuldar yazıçılardan deyildi, bu baxımdan o, nə Bernard Şou ilə rəqabətə girə bilərdi, nə də Lope de Veqa ilə. Amma yazdığı hər hansı sətir nə sağlığında, nə də sonra onu oxucuların qarşısında xəcil etməyəcəkdir . Məhz bu məqam onun yaradıcılığına nikbin yekun vurmaqdan ötrü əsas şərtdir.*

*Allah sənə rəhmət eləsin, Maksud! Sənsiz həyatımız da, ədəbiyyatımız da xeyli dərəcədə kasıb olardı...*

* * *



**Elmira Axundova:** – *5 avqust 1969-cu ilə qədər siz Heydər Əliyevi tanıyırdınız?*

**Maksud İbrahimbəyov:** – Bəli, onunla şəxsən tanış idik. Təsəvvürünüzə də gətirməzsiniz, biz onunla restoranda tanış olmuşduq. Onda o, DTK-nın sədri idi və bir neçə nəfəri qonaq çağırmışdı. Həmin süfrə arxasında Tahir Salahovun olduğu da xatirimə gəlir. Restorana yollanarkən, Heydər Əliyevin kimliyi barədə məndə ilkin təsəvvür var idi. O vaxtlar belə bir əfsanə dolaşırdı ki, bu iri cüssəli soydaşımız qoltuğunun altda adətən tapança daşıyır. Görüşə gələrkən əynində qəhvəyi rəngdə və zövqlə tikilmiş bir kostyum vardı. Zahirən adama son dərəcə xoş bir təəssürat bağışlayırdı. Bəs onun barəsində yaddaşımda həmişəlik çöküb-qalan məqam nə idi? O, həmsöhbətinin haqqında söz açdığı məqamlara həqiqətən də dərin maraqla yanaşırdı. Daima gülürdü, hətta bəzən DTK sədrinin yanında danışılmayacaq lətifələrə də gülürdü. Yemək-içməkdən də, səmimi söhbətdən də həzz alırdı. Heydər Əliyev belə insan idi. Yeri gəlmişkən, o, hələ uzun illər boyu məhz bu cür də qaldı.

**E.A.** – *O vaxt neçə yaşınız var idi?*

**M.İ.** – Cavan idim. Yaş məsələsinə gəlmişkən, deyim ki, Naxçıvandan Bakıya qayıdanda onun 70 yaşı vardı. Ahıl yaşına rəğmən, durub Gəncəyə, qiyamçıların arasına getmişdi ki, yaramazları sakitləşdirsin. Onu görcək, hamı farağat dayanmışdı.

Onun həm Kremldəki, həm də Naxçıvandakı iş otaqlarında olmuşdum. Pəncərənin o biri üzündə yaşananlara mücərrəd şəkildə yanaşsaq, bunların arasında elə ciddi fərq qalmaz. Yəni bu insanın məğzi zərrəcə dəyişməmişdi: Kremldə necə davranırdısa, Naxçıvanda da o cür idi. Ətrafına toplaşanlar da zahirən əvvəlkilərdən fərqlənirdilər – Naxçıvanda ikən bunlar azərbaycanlılar idi. Hərçənd görkəmləri – ütülü köynəkləri, qalstukları, baxımları-filanları – fərqlənmirdi.

Naxçıvandakı görüşümüz zamanı Azərbaycan ərazisini tərk etməyə hazırlaşan iki rus generalını qəbul edərkən onlara demişdi:

– Yeri gəlmişkən, sizin sərəncamınızda yüzdən çox yük maşını var. Bəs onları neyləyəcəksiniz?

– Özümüzlə aparacağıq, Heydər Əliyeviç.

Həmin söhbət əsnasında o və mən əyləşmişdik, bir cüt general isə ayaq üstə idi. Oturmağı onlara heç təklif də eləməmişdi.

– Niyə belə edirsiz?! Həmin yük maşınları Rusiyanın nəyinə gərəkdir axı?! Bizə isə onlar lazımdır. Burada texnikasız olduğumuzu özünüz də görübsünüz. Yük maşınlarını bizə verin.

Onların cavabı: “Baş üstə” – oldu.

Baxın, bu, Heydər Əliyev idi. Haraya gedirsə-getsin, öz yan-yörəsinə iqtidar nuru yayırdı. Öz fitrəti baxımından o, rəhbər olmaq üçün doğulmuşdu.

Halbuki həmin generallar rus ordusunu təmsil edirdilər və o “baş üstə”ni də ondan qorxduqları üçün dilə gətirməmişdilər. Ona dərin hörmətləri vardı. Bu səbəbdən də o, öz hədəflərinə maneəsiz nail olurdu.

**E.A.** *–1969-cu ilin yayında onun respublikamızın MK-nın birinci katibi seçilməsi sizin üçün gözlənilməz olmadımı?*

**M.İ.** – Hə, bu xəbər tamamilə gözlənilməz oldu. Amma şok effekti də doğurmadı.

**E.A.** – *Sizcə, onu niyə respublika rəhbəri təyin etdilər? Bu məsələdə həlledici faktor nə idi?*

**M.İ.** – Axı o, əsl şəxsiyyət idi.

**E.A.** – *Həmin dövrdə Azərbaycanda nələr yaşanırdı?*

**M.İ.** – Əvvəla, yuxarılarda didişmələr gedirdi. Vəli Axundovun heç bir təklifi qəbul olunmurdu. İsgəndərov hər dəfə yekəxana tərzdə öz etirazını bildirirdi: “Mən isə fərqli düşünürəm”. Əlixanov da bir başqa mövqe tuturdu. Hər ikisi Axundovun yerinə göz dikmişdi, Axundov isə buna davam gətirməkdə aciz idi. Bu idi Vəli Axundovun vəzifədən getməsinə səbəb.

**E.A.** – *Bəs niyə seçim zamanı Heydər Əliyevə üstünlük verildi?*

**M.İ.** – Məncə, bunun səbəbi – SSRİ-nin bir imperiya, Azərbaycanın isə onun tərkib hissəsi olması idi. Xüsusi vurğulayıram: bərabərhüquqlu tərkib hissəsi. Ona görə də imperiyanın rəhbərliyi respublikaya layiqli və güclü bir şəxsin başçılıq etməsində maraqlı idi.

**E.A.** – *Hər şey bir yana, bəs ölkə rəhbərliyi respublikalarda millətçiliyin baş qaldıracağından heçmi ehtiyatlanmırdı?*

**M.İ.** – Əvvəla, o vaxtlar SSRİ necə qüdrətli bir dövlət idisə, siz deyən fikirlər heç kəsin ağlına gəlmirdi. Heydər Əliyeviç hamıya xeyli dərin təəssürat bağışlayırdı. İkincisi, o, mütləq mənada dürüst bir insan idi və Moskvada da bunu bilirdilər. Onun ləyaqəti alçaldan əməllərə heç bir halda girişməyəcəyinə inanırdılar, onu dövlət idarəçiliyinin daxili məğzindən agah olan, iradəli bir şəxsiyyət kimi dəyərləndirirdilər. Ümumilikdə götürəndə, onunla söhbətdən sonra hər kəsdə belə təəssürat yaranırdı ki, bu adam hər şeydən xəbərdardır. Bu səbəbdən də həmin ərəfədə sırf DTK sədri işləməsi onun sonradan birinci katib seçilməsində təkanverici amil sayıla bilməz.

**E.A.** – *Amma o vaxta qədər bənzər hala qəti rast gəlmirik.*

**M.İ.** – O vaxta qədər Heydər Əliyev kimi birisi də olmamışdı axı. Əsas məsələ onun kommunist, həm də onların təsəvvürlərinə görə, əsil kommunist olması idi.

Heydər Əliyev ilk dəfə 1969-cu ilin avqustunda və Siyasi Maarif Evində keçirilən plenumda çıxış eləmişdi. Onda mən Ümumittifaq Radio və Televiziyasının xüsusi müxbiri qismində o tədbirə qatılmışdım. Zal insanla dolub-daşırdı.

Plenumun kürsüsündən o, elə məsələləri qabartdı ki, həmin vaxta qədər onlar barədə sadəcə mətbəxdə, həm də pıçıltıyla danışılırdı. Zaldakı hər kəs karıxmışdı, çünki cəmiyyət həyatının hamını bezdirən məqamlarını respublika rəhbəri ilk dəfə açıq tənqid atəşinə tutmuşdu. Rüşvətxorluqla bağlı durum onda həqiqətən də qorxunc miqyas almışdı. O, təbii ki, belələrini islah elədi, ancaq həyatda elə hallara rast gəlinir ki, bunların islahında nəinki Heydər Əliyev, hətta Yuli Sezar və Napoleon da gücsüzdür.

**E.A.** – *Bəs Heydər Əliyevin gəlişi ilə ədəbiyyatda, mənəvi sferada nələr dəyişdi?*

**M.İ.** – Qəribə burasıdır ki, liberal keyfiyyətlərə malik Vəli Axundovun vaxtında senzura xeyli sərt idi. Bir pyesi səhnəyə qoymazdan əvvəl ona əlli dənə düzəliş edilirdi. Bir dəfə teatra "Gecəyarı kim gələcək" adlı adi pyes təqdim eləmişdim, mənə dedilər ki, pyesinizi gözdən keçirmişik, orada bunları əlavə etmək, bunları isə çıxarmaq lazım gələcək. Əvvəlcə mən çox üzüyola apardım özümü.Deyilənləri çıxartdım, sonra isə dirəşdim: "Dayanın görüm. Neynəyirsiz belə?!"

O vaxt sözləri və cümlələri sonradan səhnə versiyasında biz təkrar bərpa elədik. Bir mətn Moskvada çap olunmayınca, onun Bakıda üşıq üzü görməsi mümkün deyildi. Heydər Əliyeviç isə dahi şəxsiyyət idi, çünki o, Azərbaycanda heç kəsə dissident damğasının vurulmasına yol verməmişdi.

**E.A.** – *Bəs bunu nə ilə izah edərdiz?*

**M.İ.** – Zəka ilə. Sırf onun zəkası ilə. O, bizə demişdi: "Siz cavanlar, çap olunmaq istəyirsinizsə, buyurun". Heydər Əliyeviç Rüstəm ilə məni qəbul elədi. O vaxtlar mən Moskvada qalır və Bakıya gəlməkdən çəkinirdim.

**E.A.** – *Yəqin bu, ideoloji məsələlərlə bağlı oktyabr plenumundan sonra baş vermişdi? Onda Heydər Əliyev demişdi: "Maksud İbrahimbəyov özünün "Günlərin bir günü" adlı hekayəsində vicdanlı rəhbər kadrların fəaliyyətinə kölgə salmağa cəhd göstərir".*

**M.İ.** – Mən cəhd göstərməmiş, onlara həqiqətən də kölgə salmışdım.

**E.A.** – *Bəs bunun altını necə, çəkdinizmi?*

**M.İ.** – Çəkdim. Məsələ burasındadır ki, Respublikanın MK-nın ideoloji iş üzrə katibi Malıy teatra, "Molodaya qvardiya" və "Sovetskiy pisatel" nəşriyyatlarına, daha haralarasa məktub yazmışdı. Onları altı ayrı ünvana göndərmişdi. Yazıb bildirirmiş ki, bizdə Maksud İbrahimbəyov kimi mövcud quruluşa qarşı pozucu və düşmənçilik fəaliyyətilə məşğul olan birisi peyda olub, siz isə oralarda onun təbliğiylə məşğulsunuz. Yadıma gəlir, "Molodaya qvardiya" nəşriyyatından Qaniçev ona belə cavab vermişdi: "Hörmətli Danil Quliyev, sizin nədən bəhs etdiyinizi anlamadıq, ancaq İbrahimbəyovun "Molodaya qvardiya" nəşriyyatına təqdim elədiyi mətnlərdə sadaladığınız o məqamlardan əsər-əlamət yoxdur". Malıy teatrdan Çaryov da cavab məktubunda bildirmişdi ki, hazırda səhnələşdirdiyimiz pyesdə

quruluş əleyhinə heç bir məqam tapmadıq... Ancaq yenə də pyes üzərində işə ara verildi. Tamaşa daha sonralar göstərildi. "Sovetskiy pisatel" nəşriyyatında da kitabımın çapı dayandırıldı.

O vaxt mən Heydər Əliyevə bir teleqram ünvanladım. Məğzi təxminən belə idi: bizə yaşayıb-yaratmaq imkanı tanımaqdan ötrü öz həddini aşan məmurlarınıza təpinin. Az sonra Moskvaya zəng vurub mənə Azərbaycana qayıtmağı təklif elədilər. Şəxsən rəhbərin özü mənimlə danışmaq istəyirdi...

Həmin axşam Rüstəmlə mən saat səkkizdə Heydər Əliyeviçin qəbuluna girdik, oradan çıxanda isə saat on ikinin yarısıydı. O cür gərgin qrafikinə rəğmən, xeyli söhbətləşdik, nələrsə danışdıq ona. Özümüz barədə yox. Bildiyimiz şeylər barədə danışdıq, o isə bizə öz gələcək planlarından söz açdı, nə qədər çamuru kürüməyə məcbur qaldığından bəhs elədi. Sonda üzünü mənə tutdu: "Qulaq as, sənin povestini oxumağa hələlik macal tapmamışam. Amma yazar həmkarlarının mətndə işarələdikləri yerləri artıq mənə təqdim ediblər". Həmin əsər barədə ona Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri məlumat ötürmüşdü. O adamın obrazını mən əsərimdə "Qurban day-day" adıyla yaratmışdım. Bir il sonra Heydər Əliyeviç də onu bu cür çağırmağa başladı... Bizə isə dedi: "Sənin Moskvada oturub, nələrdənsə ehtiyatlanman məntiqli deyil axı. Köçüb gəlin bura, biz də sizə rahat iş və yaşayış üçün hər cür şərait yaradaq". Bax, belə.

**E.A.** – *Onda belə çıxır ki, ətrafındakı o "işgüzar" məmurlar vəziyyəti gərginləşdirməklə, dissident ovuna girişibmişlər?*

**M.İ.** – Heç Yazıçılar İttifaqında da paxıl adamlar az deyildi. Onun yanına sənədlər gətirərkən barəmizdə xoşagəlməz dedi-qodular pıçıldayırdılar. Bakı şəhəri üzrə partiya iclasında "Ondan yaxşı qardaş yox idi" povestim barədə çıxış edən Nəbi Xəzri: "Bizim də öz Soljenitsınımız var və bu – Maksud İbrahimbəyovdur: o, sevimli vətənimizi bütün aləmdə biabır eləyir" – deyibmiş. Heydər Əliyevin yanına get-gəli olan başqa bir yazar isə mətnlərimdən hansınısa gətirib, ona göstərərək deyirmiş: "Heydər Əliyeviç, baxın, görün bu yaramaz nələr yazır". Elə həmin axşam Heydər Əliyev bütün o nələri zəng edib mənə dedi: "Qayıdıb gəlin bura, yazın, yaradın. Bir problemlə qarşılaşanda isə mənə zəng edin". Bu yolla o, bizimlə bağlı səngiməyən didişmələrə yekun nöqtəni qoydu.

**E.A.** – *Bəs o, sizə "Bunu elə yox, belə yazın" deyirdimi? Yəni tövsiyələr verirdimi?*

**M.İ.** – Heydər Əliyev heç vaxt bənzər məsələlərə müdaxilə eləməzdi. Bu, onun üslubuna yad cəhət idi. O, həmişə mahiyyətdən danışırdı. Həmin söhbətimiz də mənim teleqramımdan sonra baş tutdu. Rüstəmə göstərilən təzyiqlər nisbətən az idi və bunlar filmlə bağlı olurdu.

**E.A.** – *Ancaq, qənaətimcə, o, plenumlarda daha çox mərkəzdən verilən direktivlər barədə söz salırdı. Çünki ikili əxlaq göz qabağında idi və sonralar o, özü bu məqamları bizə etiraf eləmişdi.*

**M.İ.** – Bu heç də belə deyildi. O, fəaliyyət göstərirdi, fəaliyyətini isə öz diqqətinə çatdırılan məlumatlar əsasında qurmalıydı. Amma o, ədəbi tənqidçi deyildi axı. Vacib bir məqamı da unutmayım. Moskvadakı ideoloji ab-hava Azərbaycandakı və ya istənilən başqa regiondakından qat-qat yaxşı idi. Orada nisbətən, azadlıq vardı, sənətkarlar sərbəst idilər. Əliyevə qədər də belə idi, Əliyevdən sonra da. Moskvada yazılan bir çox əsərləri burada "topa tuturdular".

**E.A.** – *Amma həmkarlarınızdan Anar və Vaqif Səmədoğlu bunun tam əksini, yəni buradakı şəraitin Moskvadakından daha əlverişli olduğunu bildirirdilər. Bir çox mətnlərini onlar əvvəlcə burada, sonra isə Moskvada çap etdirmişdilər. Yəni onların mətnləri mərkəz ilə müqayisədə burada maneələri daha asanlıqla aşırdı.*

**M.İ.** – Əvvəla, o vaxt təhkimçilik hüququ mövcud idi. Bunun məğzi isə istənilən mətnin Moskvada çap olunmazdan əvvəl burada işıq üzü görməsinin vacibliyində özünü göstərirdi. Rusca yazdığım üçün mənim durumum fərqli idi. Azərbaycan dilində yazanlar üçün isə əvvəlcə Bakıda çap olunmaq məcburi şərt sayılırdı. Bakıda nəşr olunmadığı müddətcə mərkəzi nəşriyyatların heç biri o mətnin çapına əsla girişməzdi.

Heydər Əliyev isə həm özünəməxsus, orijinal və bənzərsiz gedişlərə üstünlük verir, həm də heç kəsi özünə tərəfmüqabili saymırdı. Bu səbəbdən də yenidənqurmadan sonra Azərbaycanın ideoloji ab-havasında sən deyən kəskin dəyişikliklər yaşanmadı, çünki hələ onun rəhbərliyi dövründə hər şey artıq yerbəyer olunmuşdu. Şeirdə və nəsrdə yol verdiyi sərbəstliyə görə gözümçıxdıya salınan bircə nəfərin də adını indi siz misal gətirə bilməzsiniz. Ədəbiyyat və incəsənət xadimlərinə göstərdiyi o görünməmiş qayğıya görə biz Heydər Əliyevə həmişə minnətdar olmalıyıq.

90-cı illərin ortalarında Moskvadakı Sütunlu zalda Füzulinin yubileyi qeyd olunan vaxt mənə demişdi: "Bizim yazıçıların orden və fəxri ad alması üçün mən "səylər göstərmişəm". Səncə, mən özüm bilmirdim ki, bəziləri onlara layiq deyillər?! Bununla belə, mən onları ürəynən verirdim, təki onların ləyaqət hissi daha da artsın". Onun yaradıcı işlə məşğul olan insanlara göstərdiyi qayğı həmişə dəyişməz qalırdı.

**E.A.** – *Bəlkə sənət xadimlərinə münasibətdə sərgilədiyi həssaslıq onun özünün reallaşdırmadığı daxili tələbatlarından irəli gəlirdi?*

**M.İ.** – Nə bilmək olar?.. Bu yerdə sizə maraqlı bir epizod danışmaq istəyirəm. Pambıq yığımı zamanı rayonlara səfər edərkən Heydər Əliyev adətən söz adamlarını da özüylə aparırdı.

Əsas vaqon Heydər Əliyev ilə KP MK-nın ikinci katibi Puqaçov üçün nəzərdə tutulmuşdu. İkinci vaqonda isə Mərkəzi Komitənin sənaye və kənd təsərrüfatı üzrə katiblərinə, kənd təsərrüfatı, tikinti, ticarət və daxili işlər nazirlərinə, habelə Aeroflotun respublika filialının rəhbəri işləyən, keçmiş hərbi təyyarəçi Nuru Əliyevə, Yazıçılar İttifaqının sədri İmran Qasımova və mənə yer ayrılmışdı. Üçüncü vaqonda jurnalistlər gedirdi.

Rayon mərkəzinə çatanda mətbuat nümayəndələrinin olduğu vaqonu qatardan ayırdılar, ilk iki vaqon isə yoluna davam etməklə gəlib, əsl cənnət guşəsini xatırladan bir bağda dayandı. Vaxt çox gec olsa da, təamlarla dolu süfrə artıq bizi gözləyirdi. Masa qatardan iyirmi metr aralıda, çəmənlikdə qurulmuşdu. Heydər Əliyev ilə ikinci katib gözə dəymədiyindən masa arxasında sadəcə ikinci vaqonda gedənlər toplanmışdı. Həmin gün Bakı şəhəri Lenin ordeni ilə təltif olunduğundan süfrədəki ovqat da rəsmi banketdəkindən sən deyən fərqlənmirdi.

Mərkəzi Komitənin kənd təsərrüfatına cavabdeh katibi öz çıxışında bildirdi ki, müharibənin ilk günündən ta son gününədək, həm də cürbəcür məhrumiyyətlərə baxmayaraq, ölkə üzrə hasil edilən neftin 80 faizini məhz Azərbaycan hasil edib

və bunun hesabına Sovet İttifaqı Hitler Almaniyası üzərində qələbəyə nail olub. Bundan əlavə, hər beşinci azərbaycanlı cəbhədə həlak olub. Bu baxımdan respublikamız hökumətin bu yüksək mükafatına tam layiqdir. Sonra məclisdə iştirak edən hər kəsə ayrıca söz verildi və hamı o deyilən sağlığı sözbəsöz təkrarlayıb, durdu.

Növbə, ən nəhayət, mənə çatdı. Özümdən qabaq çıxış edən yoldaşlarla tamamilə razı olduğumu bildirəndən sonra deyilənlərə öz əlavəmi elədim: "Allah göstərməsin, əgər Almaniya ilə daha bir müharibə başlansa, biz Bakını dərhal düşmənə təslim etməliyik. Çünki müharibənin elə ilk aylarında düşmənə təslim olan bir neçə şəhər "Qəhrəman şəhər" adına layiq görülübdür. Onlardan fərqli olaraq, bizə cəmi-cümlətanı bir orden qıyıblar..." Süfrə yoldaşlarımın sir-sifətlərini necə salladıqlarını görüncə, anladım ki, dediyim sağlıq heç xoşlarına gəlməyib. Kənd təsərrüfatına cavabdeh MK katibi vacib işi olduğunu bəhanə gətirməklə, əlüstü öz kupesinə yollandı. Onun ardınca digərləri də növbə ilə məclisi tərk etməyə başladılar. Masa arxasında sadəcə İmran Qasımov ilə Nuru Əliyev qaldı. Yeri gəlmişkən, Nuru Əliyev mənim mövqeyimi dəstəkləyən yeganə adam oldu:

– Maksud haqlıdır! O birilərinə qəhrəman adı veriblər, bizə isə – orden!

İmran Qasımov Nuru Əliyevə etirazını bildirərək, narazı halda mənə dedi:

– Axı sən yazıçısan və bu cür mötəbər tədbirdə Yazıçılar İttifaqını təmsil etmək üçün ilk dəfə dəvət olunmusan. Necə gözəl Ay doğduğuna tamaşa eləmək, bülbüllərin cəh-cəhinə qulaq vermək əvəzinə, başlayıbsan ki... Respublikamızın ölkənin ali mükafatına layiq görülməsinə hamı sevinir, sən isə – adətin üzrə – hər şeyi alt-üst elədin. Həm də bundan təkcə özünün ziyan görəcəyini bilə-bilə.

Ani düşünüb, ehtiyatla dedim:

– Məncə, bu oxuyan – qaratoyuqlardır axı.

– Əşşi, nə fərq edər bülbüllərdir, ya qaratoyuqlar?! Bəyəm məsələ bundadır?! Sənin atanı mən yaxından tanıyırdım, əsil ziyalı, özünü-sözünü bilən və kübar bir insan idi. Sən isə durub mənimlə söz güləşdirirsən: bülbül yox, qaratoyuqlarmış!

Bunu deyəndən sonra, o geniş ürək sahibi olan İmran Haşımoviç məyus bir şəkildə başını yırğalayaraq, yerindən durub, vaqona tərəf üz tutdu.

Peşmanlıq hissinə qapılsam da, əlimdən artıq heç nə gəlməzdi, yaranmış vəziyyəti dəyişmək mümkün deyildi.

Səhər bütün yol yoldaşlarım vaqonun yanında toplaşdı. Az keçmədən Heydər Əliyev Puqaçovun müşayiəti ilə ora gəldi, hamı ilə birbəbir, mehribancasına gülümsəyərək əl verib görüşdü.

Növbə mənə yetişəndə, təbəssümü qəfil qeybə çəkildi. Üzündəki ifadədən mənə acığı tutduğunu anladım. Əlimi sıxarkən buz kimi soyuq bir tərzdə dedi:

– Sən isə heç zarafatından qalma!

Vəssalam. Qatarla gələn bütün heyət maşınlara oturdu və biz Bərdəyə yollandıq.

Maşınlardan endiyimiz yer göz baxdıqca uzanan tarlanın tən ortası idi. Orada bizi rayon rəhbərliyi qarşıladı. Sahədə bir dənə də pambıqçı gözə dəymirdi, çünki hamı Heydər Əliyevlə görüşə axışmışdı. Onun bu insanların əksəriyyətini adbaad tanıması məni heyrətə saldı. Öz aralarında onlar təkcə məhsul yığımından söz açmır, söhbət əsnasında həm də deyib-gülür, yaxın keçmişlə bağlı xoş xatirələrini də bölüşürdülər... O söhbətdə məndən başqa hamı iştirak edirdi. Fəallığı ilə seçilən əsas qrupdan mən kənarda qalmışdım, dünənki məclisə qədər mənimlə

hər barədə nəzakətlə və ölçülü davranan vaqon yoldaşlarım isə məni görməməzliyə vururdular.

O ara içimdə elə təəssürat yarandı ki, mən hansısa çiyrindirici və yoluxucu bir dəri xəstəliyinə tutulmuşam deyə, çevrəmdəkilər məndən uzaq durmağa çalışırlar. Bir sözlə, kənd həyatı üçün əlamətdar sayılan bu tədbirdə özümü yad biri kimi hiss etməyə başlamışdım. Ona görə də başımı hər nə cürsə qatmaqdan ötrü oradan naməlum yönə üz tutdum və heç kəs bunun fərqinə varmadı. Bir az getdikdən sonra birmərtəbəli, balaca tikiliyə rast gəldim: onun divarına vurulan lövhədə lülə və tikə kabab şişlərinin, həm də orijinal ölçüdə təsviri vardı. Məlum oldu ki, həmin gün başlayandan bəri mən bura qədəm qoyan ilk müştəriyəm. Əlavə çeşid kimi məkanın sahibi mənə hələ qayğanaq da təklif elədi. Uzun isrardan və bunun aramızda bir sirr kimi saxlanacağına mən söz verəndən sonra, həm də ətrafını oğrun-oğrun süzəndən sonra bu kişi mənə hələ bir stəkan əla tut arağı da gətirdi. Mən də bol məhsul və rayonun hər sahədə daha da çiçəklənməsi barədə sağlıq söyləməklə, onu başıma çəkdim.

İçəri sərin idi. Oradan çıxdığım an sanki qızmar bir teştin içinə düşdüm. Bürkü lap dözülməz həddə çatmışdı. Tarladakı yeganə ağaca tərəf gedib, onun kölgəsində uzandım və az sonra yuxuya getdim. Bir qədər sonra kimsə məni silkələdiyindən oyandım. Ardımca göndərilən qasid təşviş içində:

– Siz hara qeyb olubsunuz?! Heydər Əliyeviç sizi soruşur, – deyəndən sonra barmağıyla həmin səmti mənə nişan verdi.

Heydər Əliyev başıaçıq, pambıq tarlasının ortasında dayanmışdı. Yarıyuxulu halda düşündüm ki, o, tarlanın kənarından ona qədərki məsafə bir neçə kilometr olar. Pambıq kollarının budaqlarına ilişə-ilişə, çəkmələrim nəm torpağa batıb-çıxaraq, mən aramızdakı bir neçə yüz metrlik məsafəni qət elədim. Yanaşdığım zaman o, yaxınlıqdakı koldan bir pambıq qozası dərdi, onu paralayıb, içini mənə göstərdi. Qozadakı bir tutam pambığın arasında bozumtul-bəyaz rəngdə balaca qurdcuq narahat halda sürünməkdə idi.

Heydər Əliyeviç dedi:

– Bax, görürsən, Maksud, bunun adı sovkadır, pambığa böyük ziyan verir.

Dərhal razılaşdım:

– Hə-ə, çox iyrənc canlıdır.

Araya sükut çöküncə, mən söhbətin bitdiyini anladım. Rəhbər heyətin yanına döndüyüm zaman mənə münasibətin qəfil dəyişdiyini sezdim. Hər kəs mənimlə, eynilə əvvəlki kimi, nəzakətli və kübar şəkildə davranırdı... Həmin gün biz daha bir neçə plantasiyaya baş çəkdik, orada da bizi pambıqçılar və kənd rəhbərliyi qarşıladı. Günün sonuna doğru hamımız yorulub, əldən düşdük.

Bu səfərdən Heydər Əliyevin razı qaldığı, məhsulun isə bol olacağı qənaətinə gəldim. Bir ay sonra, yəni nəticələr açıqlananda, təxminlərim doğruldu.

Qaldığımız yerə, daha doğrusu, vaqonun dayandığı yerdəki o çəmənliyə biz gecə ancaq qayıda bildik. Gün ərzində yorğun düşmüş yoldaşlarım yüngül şam yeməyindən sonra öz kupelərinə yollandılar. İmran Qasımovla mən isə siqaret tüstülədə - tüstülədə hələ bir müddət “perronda” ləngidik.

– Tarlada ikən onun səni niyə axtardığının səbəbini yəqin anladın?

– Bunda anlaşılmayacaq nə var ki?! Danışmaqdan ötrü. Çünki mən pambığa zərər vuran o həşəratlar barədə sadəcə eşitmişdim.

İmran Qasımovun üzündə təbəssüm dolaşdı:

– Elə sanırsan ki, Heydər Əliyeviç sənin kənd təsərrüfatı məsələləri barədə savadsızlığını fərdi qaydada aradan qaldırmaq həvəsinə düşmüşdü?! Yekəxanalıq maniyasından əziyyət çəkdiyinin mən çoxdan fərqinə varmışam. Dünən söylədiyin o sağlıqla sən məclis əhlinin kefinə soğan doğramışdın. Təkcə onların da deyil: axı sən bilirsən Heydər Əliyeviç o mükafatla necə qürrələnir. Sən isə onun bayram ovqatını korladın. Təbii ki, onun bundan incidiyinin də, sənə acığının tutduğunun da hamı fərqində idi.

Amma görəndə ki, başçılıq etdiyi heyət hamılıqla səni aşkar şəkildə gözümçıxdıya salmağa başlayıb, tarlada ikən o, səni yanına çağırdı və hamının gözü qarşısında təkbətək söhbətə üstünlük verdi. Söhbət mövzusunun isə fərqi yox idi. Bununla hamıya göstərdi ki, öz həmsöhbətini hər kəsin burunlamasına yol verməz, çünki sözügedən adam ¬– yazıçıdır. Bunları başa düşürsən də?

İmran Haşımoviç yerdən-göyəcən haqlıydı: özünün min bir qayğısına rəğmən, Heydər Əliyev öz yan-yörəsindəkilərin mənə qarşı cəbhə almasına göz yummamış və göstərmişdi ki, bu adamı özümə tərəfmüqabili sayıram.

Anlaşılmazlıq beləcə yoluna qoyuldu və axşam biz təkrar eyni masanın başında bir araya gəldik.

**E.A.** – *Hə, bu yetərincə maraqlı və ibrətamiz bir hadisədir. Bəs nə vaxtsa – sovet dövründə, ya da sonralar – o, sizə özünüzdə və ya başqa yazarlarda gördüyü hansısa nöqsanlar barədə nəsə demirdi?*

**M.İ.** –Yox, elə bir şey yadıma gəlmir. Bu mövzuda söhbətləri o, heç kəslə etməzdi, çünki hər şeyin yerini incəliklərinə qədər bilən adam idi. Ən pis halda o, yazıçılara yolunu azmış quzular kimi, adi hallarda isə maraq və rəğbət çərçivəsində yanaşırdı.

Vəfatından təxminən ilyarım əvvəl o, Poladı, Rauf Abdullayevi, Müslüm Maqomayevi, Eldar Quliyevi, Rüstəmi, Anarı və məni bir süfrə arxasında toplayıb, dedi: "Sizdən yeganə xahişim olacaq: bu gündən etibarən aranızdakı xırda umu-küsülərə son qoyun. Sizlər dost olmalı və heç vaxt unutmamalısınız ki, bizim bir vətənimiz var". O, hamımızı mənzil, pul, pensiya, ehtiyac duyduğumuz nemətlərlə təmin elədi. Başqa heç bir respublikada bunlar edilmirdi.

1970-ci illərin əvvəllərində isə Heydər Əliyev bizi sadəcə xilas eləmədi. Əgər o, müdafiəmizə qalxmasaydı, hamımız doğma yurdumuzu tərk etməli olacaqdıq. Yalnız və yalnız Əliyevin sayəsində biz vətənimizdə qaldıq.

Əgər Əliyev olmasaydı, heç şübhəsiz, formal baxımdan bizləri dissident adlandıracaqdılar. Ancaq onunla söhbətdən sonra mən özümdə təpər hiss edirdim. O, mövcud reallığı dəyişmişdi... Yazıçılara isə belə demişdi: "İdeologiya – sizin sahənizdir, onunla özünüz məşğul olun".


Qardaşlar: Maksud və Rüstəm

***Rus dilindən tərcümə edən: Azad YAŞAR***

*Murad İBRAHİMBƏYOV*

# Ekranlaşdırma



♦ *Memuar*

*Atama ithaf edirəm*

Bəzi ədəbiyyatşünasların və əsl nəsrin nə olduğunu bilən insanların qənaətinə görə, atamın "Ondan yaxşı qardaş yox idi" əsəri dünya ədəbiyyatının hadisəsi sayıla bilər. Sözügedən povest "Novıy mir" jurnalının 1973-cü il üçün onuncu sayında işıq üzü görmüşdü. O vaxt səkkiz yaşım var idi. Bu əsəri məhz mənim ekranlaşdırmamı arzulayırdı atam. Bunu dəqiq bilirdim, çünki bu barədə özü mənə demişdi.

Atamın həyatımdakı yerini dərk etdiyim andan etibarən, erkən uşaqlıq dövrümlə bağlı şüuraltımın o dərin qatlarında uyuyan görüntü və xatirələr fonunda atam Maksudu mən öz Tanrım kimi dərk eləmişdim. Bu təəssürat bütün ömrüm boyu davam elədi.

Dəqiq xatirimdədir: hələlik ayaq açıb-yerimədiyim üçün mən atamın mənzilində döşəməyə sərilən iriölçülü qrizli ayısının xəzi üzərində iməkləyirəm. Xəzdə ayının dırnaqları da var və bunların hər biri elə mənim ovcum boydadır. Qrizli ayıları çox təhlükəli heyvan sayılırlar. Bu xəzi atam şimal bölgələrinə ekspedisiya zamanı əldə edibmiş. Budur, mən atamın ov qənimətinin üzərində iməkləyirəm, şirin ətrinə alışdığım siqarın yuxarılara doğru yüksələn dalğalarının arasından isə Tanrım məni süzür.

Tanrım tamamilə bəxtəvər halda dünyanı süzür, mən isə bu xoşbəxt kosmosun bir parçasıyam: bunu dəqiq bilirəm, çünki bu barədə atamın özündən eşitmişəm.

Tanrım nəhəng birisiydi, kərgədan qədər güclüydü, Tanrımın başı daz idi, Tanrımın bığları vardı, Tanrımdan odekolon qoxusu gəlirdi, həmin odekolonun markasını mən hələ də başqalarından daha üstün tuturam.

Çevrəsini ətirli tüstü dalğalarının bürüməsinin səbəbi isə onun siqar çəkməsi idi. Tütün yarpaqlarından eşilib hazırlanan o siqarın üzərində kağızdan qurşaq var, tərbiyə görmüş birisi kimi atam növbəti siqarını yandırmazdan əvvəl adətən o qurşağı açır. Siqarın közərən ucu isə avtomobillərdəki xüsusi alışqanları xatırladır.

Şəhərimizdə atamdan başqa heç kəs siqar çəkməzdi, ən azından mən belə birisinə o vaxt rast gəlməmişdim. Adətən kovboylar və qanqsterlər siqar çəkirlər, onları isə atamın məni yanına salıb apardığı "Dənizçi klubu"nda nümayiş olunan köhnə

amerikan filmlərində görmüşdüm. Siqar qutularından ibarət kolleksiyam sinif yoldaşlarımın həsəd və qibtə hədəfinə çevrildiyindən özümü xoşbəxt adam sayırdım. Bunların arasında taxta və metal qutulara daha çox rast gəlirdik, atam siqarın ətrini tam qoruduğu üçün məhz taxta qutulara üstünlük verirdi. Onların üzərindəki təsvirlər də daha rəngarəng və gözoxşayan olurdu. Adətən orada aşiq Romeonu görərdin: o, çox hündür olmayan məhəccərin balyustradası üzərindən öz sevgilisi Cülyettaya doğru uzanırdı. Qutuların üzərində başqa mövzularda təsvirlərə də rast gəlirdik, amma bunların hamısının ətrafında bir qayda olaraq qızıl medallar düzülürdü. Bakıda buna bənzər ikinci kolleksiya əmioğlum Farikdə (Fərhad) var idi.

Cavan vaxtlarında boksla məşğul olan atam ümumiyyətlə siqaret çəkməzmiş. Tütünə sonradan qurşanıbmış.

Zərərli sayılan bu vərdiş isə onda Kuba inqilabının lideri Fidel Kastronun təsiri altında yaranmışdı. Atam yetərincə iri cüssəliydi və bu özəlliyi ilə ətrafımdakı insanların əksəriyyətindən seçilirdi. O, ağır çəkidə şəhərimizin çempionu da olmuşdu. Dəli-dolu insan sayılırdı. Kim isə öz cızığından çıxanda, həddini bildirməkdən ötrü atam onunla əlbəyaxa dalaşırdı. Hələ milis şöbəsinə də aparılmışdı. Bəzən sözügedən dalaşlar vaxtı kiçik qardaşı Rüstəm də ona qoşulurdu.

Əmim Rüstəm də ağırçəkili boksçu idi. O, atam qədər çılğın olmasa da, nadir hallarda, həm də içinə düşdüyü durumla bağlı o da, eynilə atam qədər, aqressiv davrana bilirdi. Şəhərdə kriminal durum qənaətbəxş olmadığı dövrlərdə bu iki qardaş vaxtaşırı dava-dalaşa ürcah olurdular, həm də baxmazdılar o yer dalaşmaq üçün əlverişlidir, yoxsa hansısa restoran, rəqs meydançası, qatar vaqonu, vağzal, avtobus, yoxsa adicə küçədir.

Onların arasındakı dərin bağlılıq atamın bir müddət sonra qələmə alacağı, mənim isə çox sonralar ekranlaşdıracağım kitabın personajı olacaq qardaşlar arasındakı münasibətdən zərrəcə fərqlənmirdi.

Rüstəm əmim qardaşı Maksudu və məni hədsiz dərəcədə sevirdi, atam isə qardaşı Rüstəmə və onun oğlu Farikə ürəkdən bağlı idi. Amma dünyada ən çox atam məni sevirdi. Bunu dəqiq bilirdim, çünki bunu mənə özü etiraf eləmişdi.

Bir dəfə atam, Rüstəm əmi, Farik və mən taksidə gedirdik. Aradan xeyli vaxt ötdüyündən hara və hansı məqsədlə getdiyimiz artıq yadımdan çıxıb. Onda mənim və qardaşım Farikin beş yaşımız ancaq olardı.

Dəqiq xatirimdədir: ipindən tutduğum qırmızı şar maşının pəncərəsindən bayıra uzanmaqla, havada ora-bura yellənirdi.

O narahatlıq dolu dövrdə şəhərin küçələrində hər cür avara-xuliqan dəstələri dolaşırdı. İmkanlı adamlardan pul qoparan bu nakəslərə heç kəs baş qoşmurdu. Həmin gün mənim üfürmə şarım da o cür dəstələrdən birinin hədəfinə çevrildi. Mindiyimiz taksi işıqforun qırmızı işığında dayananda, dediyim o avaragor cavanlardan biri yolu keçərkən yaxınlaşıb, siqaretini mənim şarıma toxundurdu və şar... partladı. Hər halda bu qaba hərəkətdə gülməli bir məqam gördükləri üçün həmin dəstədən qəflətən, həm də ədabaz bir hırıltı qopdu.

Amma bu hırıldaşma çox sürmədi. Maşınımızın qapıları açıldı, ön oturacaqda əyləşən atam ilə sürücünün arxasındakı yerdə oturan Rüstəm əmim maşından düşdülər. Atam hələ də siqarını tüstülədirdi və burularaq havaya qalxan ətirli

tüstü kino çəkilişlərində istifadə olunan saxta tüstünü xatırlatdığından yaşanan bu mənzərəyə xüsusi gözəllik, təkrarsız ovqat qatırdı. Atam siqarını ağzından çıxarmadan o həriflərə üç dənə sərrast nokaut zərbəsi, Rüstəm əmi isə bir təmiz nokaut və iki dənə də dərin nokdaun zərbəsi endirdi.

Bu qısa müddətdə baş verən olaya mən sanki rapid rejimdə tamaşa eləyirdim. Tezliklə qırmızı işıq sarı ilə əvəzləndi, yaşıl işıq yanana qədər isə bu iki qardaş tələsmədən geri qayıtdı, üzərinə azacıq qan sıçramışdı. Taksidə öz yerlərini tutdular və biz yolumuza davam elədik. Xuliqanlar isə onlar üçün nəhs sayılacaq o yol kəsişməsində, asfaltın üstündə tirtap düşüb qaldılar. Əmioğlum Fariklə birlikdə biz sonralar bu heyrətamiz olaydan bir-birimizə ağızdolusu, həm də dönə-dönə bəhs edəcəkdik.

Həmişə atama oxşamağa çalışırdım, hətta onun yerişini də yamsılamaqla, qəddimi bir az önə əyir, dirsəklərimi gövdəmdən aralı tuturdum, çünki güclü bazularımın onları məhz o şəkildə tutmama imkan verəcəyindən tam arxayın idim. Bu davranışlarım Farikin mənimlə vaxtaşırı məzələnməsinə, məni yamsılamasına əsas verirdi, hərçənd buna görə mən ondan zərrəcə inciməzdim: axı əmioğlum Farik mənim ən yaxın həmdəmim idi. Sonralar mən də, atam kimi, boksla məşğul oldum və o, özü məni “Dinamo” cəmiyyətinin boks seksiyasına apardı, orada atamın dostu, “Yakut” ayamalı keçmiş boksçu Yevgeni Ni-kolayeviç məşqçi işləyirdi.

Mən hələ yeniyetmə olanda bu “Yakut” altmış kiloqrama qədərki idmançılar arasında SSRİ prizinə layiq görülübmüş və parlamağa başlayan bir boks ulduzu sayılırmış. Amma avtoqəza zamanı aldığı xəsarət təkrar rinqə çıxmasına maneçilik törətdiyindən o, məşqçi olmaq qərarına gəlibmiş. “Yakut” şəhərimizin əsl boks əfsanəsi idi və mənə, öz dostunun oğluna yumruq savaşının sirlərini öyrə-dirdi. Amma mən idmanda sən deyən böyük uğurlar qazanmadım: nəinki atam kimi şəhər çempionu oldum, hətta şəhər miqyaslı yarışlara da qatıla bilmədim. Bundan hədsiz dərəcədə məyus olduğumu görüncə, mənə təsəlli vermək üçün atam müdrik sözlərini işə saldı.

Olimpiya növlərindən sayılan bu qədim və nəcib idmanın ən başlıca cəhəti ondadır ki, məşqlər əsnasında idmançının üz-gözünə vaxtaşırı endirilən zərbələr gələcəkdə, həm də gündəlik həyatda alacağı digər zərbələrə qarşı onun psixoloji dirənişini artırır. Boksla məşğul olan adam sifətinə endirilən zərbədən əsla sarsılmır və həmişə cavab zərbəsi üçün hazırlıqlı olur. Bu fikri də mənə atam özü aşılamışdı.

Sonralar üz-gözümə nə qədər zərbələr vurulsa da, mən heç vaxt pisikmədim: əlbəttə, dərin nokauta düşdüyüm məqamları çıxmaq şərtiylə – həmişə, hər yerdə qarşımdakının cavabını verdim.

Rüstəm əmim deyirdi ki, atamı görüncə, mən bir Toplan qədər xoşhallanıram. Heç şübhəsiz, ona bir Tanrı qədər tapındığımı vurğulamaq daha doğru olardı, amma Rüstəm əmimin gəldiyi qənaət də haqlı sayılmalıydı.

Rüstəm əmimin qardaşına bəslədiyi sonsuz sevgi və ehtiram bir baxıma atamın yazdığı və mənim də ekranlaşdırdığım “Ondan yaxşı qardaş yox idi” povestində Simurqun böyük qardaşı Cəlil müəllimə bəslədiyi hisslərdən əsla fərqlənmirdi. Başqa cür ola da bilməzdi.

Atam qadınları qiymətləndirməkdə misilsiz sərraf və bilici idi! Çoxşaxəli qadın təbiətiylə bağlı dərin bilikləri sayəsində atam Venesiyada keçirilən gözəllik müsabiqəsində hətta xüsusi mükafat da almışdı. Bunun necə baş verdiyini mən dəqiq bilirəm, çünki bu barədə atam özü mənə danışmışdı.

Bir dəfə Venesiyada ikən atam gözəllik müsabiqəsinin jüri üzvü olmaq barədə təklif alır. Suların qoynunda salınmış bu əsrarəngiz şəhərin ən gözəl, ən ləyaqətli qızının güzəştsiz bir şəkildə seçilməsi barədə qərar çıxarmaq tapşırılmışdı. Venesiya öz gözəlləriylə ad çıxardığından bu xüsusda dəqiq bir qərara gəlmək çətin məsələ imiş, çünki yerli xanımlar öz zahiri görkəmləriylə yanaşı, parlaq zəkalarıyla da tanınıblar, onlar ədəbiyyat, coğrafiya və dəqiq elmlər barədə də yetərincə geniş bilikləriylə seçilirlər.

Mərhələlər üzrə keçirilən yarışmada hər dövrənin sonunda xanımlara sıfır ilə on arasında dəyişən xallar verilirmiş.

Gözəllik müsabiqəsinin başlanğıc mərhələsi "İntuitiv söhbət" adlanırmış, burada xanımın oxuduğu mətnə və ən müxtəlif suallara cavab verərkən onun səsində yaranan çalara görə jüri heyəti həmin iddiaçının hansı daxili gözəlliyə sahib olduğuna qərar verməliymiş.

Təbii ki, xanım daxili məntiqə əsaslanıb, suallara cavab verməliydi, bu isə hər iştirakçıya nəsib olmurmuş. Xanımlardan biri, həm də hədsiz göz-könül oxşayanı özünə ünvanlanan sualların heç birinə cavab verə bilmir. Çünki deyib-gülməyi sevən bu qız hər müraciət zamanı qapıldığı isterik qəhqəhələr ucbatından sualları cavabsız buraxırmış. Elə bu səbəbdən də tezliklə o, yarışmanı tərk etməyə məcbur qalır. Qalan iyirmi doqquz qız isə sınaqlardan çıxmağı bacarır və təxminən eyni səviyyədə xal toplayır. Jüri üzvləri onların çıxışlarını dörd ilə altı arasında dəyişən xallara layiq görür.

Konkursun bu ilk dövrəsində atam iştirakçılardan birini ən yüksək xal sayılan on bala layiq görür. Qadın gözəlliyinin tanınmış biliciləri və qiymətləndirmədə obyektivliyi hər vəchlə qorumağa çalışan jüri üzvləri atamın bu gözlənilməz hərəkətinə heyrətlənir və qismən çaşqınlıq da keçirirlər.

Müsabiqə isə davam edir. Yarışma iştirakçıları növbəti mərhələdə musiqi müşayiəti olmadan öz vokal bacarıqlarını jüri və tamaşaçılar qarşısında nümayiş etdirməli, təkbaşına qısa bir rəqs ifa etməli, uzun ətəkli ziyafət geyimində podium boyunca şəstlə var-gəl eləməli, sonra isə bədənlərindəki ən cüzi qüsuru da ortaya çıxaracaq bikinidə səhnədən keçməli idilər.

Atamın hələ ilk mərhələdə, əsl uzaqgörənliklə bəyəndiyi iştirakçı qız yarışın bütün mərhələlərini geridə qoyaraq, qalib seçildiyi zaman oradakı hər kəs dərin heyrət hissinə qapılır. Yaşanan güclü təəssüratın təsiriylə jüri üzvləri mövcud reqlamenti pozaraq, "Jürinin ən sərraf üzvü" adlı xüsusi mükafat təsis etməklə, atamı ona layiq görürlər.

Jüri heyətindən birisi aşkar qibtə hissiylə ondan soruşur:

– Axı siz italyanca bilmirsiniz?

Atam gülümsəyərək:

– Siz bu qənaətdəsiniz?! – deyir. O, bilirdi ki, intuitiv söhbətə qoşulmaq və yarışmanın qalibini öncədən, sırf fəhmlə təyin eləməkdən ötrü italyan dilinə aşina

olmaq vacib sayılmaz. Yeri gəlmişkən, elə mən də, atam kimi, heç bir xarici dil bilmirəm.

O vaxt çəkilən fotoların birində Venesiya şəhərinin həmin o gözəl qızı, əyninə mini ətək geyinən, çiyninə "Venesiya gözəli" titulu yazılan lenti salan o sarı saçlı, iri gözlü xanım atama öz səmimi təşəkkürünü bildirir, çünki məhz onun seçimi həm jürinin yekun rəyini, həm də şəkildəki qızın taleyini fərqli bir məcraya salmışdı.

Üzərinə latın dilində "Daxili məğzi görənə" sözləri yazılmaqla, al qırmızı rəngli Venesiya şüşəsindən hazırlanmış kuboku da atama məhz o qız təqdim eləyibmiş.

Onda cəmi üç yaşım varmış. Həmin kuboku atam öz kitab rəfində saxlayırdı. O cür mükafata layiq görülməyi mən bütün ömrüm boyu arzulamışam!

Həmin əhvalatın məğzində mənim kino sənətinə marağım və şüuraltı səviyyədə ona can atmam dayanırmış. Bununla bağlı mən atama səmimi etirafımı elədim, o da mənə söz verdi ki, peşə-sənət seçimində hansısa ötəri məqamlara əsaslanmaq ayıb-filan sayılmır və bu cür həvəslənmə, heç şübhəsiz, gec-tez öz bəhrəsini verəcək. Hə, atamın özü məni əmin eləmişdi!

Böyüyüncə, Venesiya festivalının "Gümüş şir" ödülünü aldığım zaman Rüstəm əmim buna hədsiz dərəcədə sevinmiş və demişdi ki, artıq özümü dünya kinematoqrafiyasının xadimi saya bilərəm. Atamın da sevincinin həddi-hüdudu yox idi, ancaq özümə toxtaqlıq vermədiyim üçün mən niyə qızıl yox, məhz gümüş mükafata layiq görüldüyümü onlardan soruşdum. Atam ciddi görkəm aldı. Özümə onunla haqq qazandırdım ki, qısametrajlı bir filmə olsa-olsa, gümüş ödül düşər də. Atam bildirdi ki, əgər bu sahədə yetərincə çalışıb, can qoysan, nə vaxtsa elə qızıl ödülü də alarsan.

Uşaqlıqdan bəri atamı sevindirməyə can atdığım üçün böyüyəndən sonra da kino sahəsində aldığım mükafatları hər dəfə mütləq gətirib, ona göstərirdim.

Atam özü də inanırdı ki, "Ondan yaxşı qardaş yox idi" povesti onun yazdıqlarının ən uğurlusudur.

Atamla əsla mübahisə eləməzdim, amma onun əsərlərindən mənim ən çox bəyəndiyim "Truskavetsə kim gedəcək" idi. Həmin əsərdə atam küçədə qızla necə maneəsiz tanış olmağın üsulunu, bundan öncə isə asan ələ gələn qızın özəlliklərini öz oxucusuna öyrədirdi. Bu baxımdan əmioğlum Farik ilə mən sözügedən povesti əyləncəli, cinsi mövzuda bir əsər kimi dəyərləndirirdik.

O povesti hələ də sevgi haqqında oxuduğum ən təsirli əsər sayıram. Mən kino çəkməyin sirlərini öyrənənə qədər o povesti başqaları ekranlaşdıracaqdı.

Sonralar anladım ki, atam haqlı imiş. "Ondan yaxşı qardaş yox idi"ni özünün ən önəmli əsəri saydığı üçün mən povest əsasında çəkdiyim filmi ona göstərsəm də, bəzən buna görə heyifsilənirəm. Atam da, eynilə kitabın qəhrəmanı Cəlil kimi, öz kiçik qardaşı Rüstəmi sevir, onun uğurlarına ürəkdən sevinirdi, Rüstəm əmim isə, əsərdəki Simurq qədər, öz böyük qardaşı Maksudu sevir, onunla öyünürdü. Qardaşlar heç vaxt öz oğullarını unutmur, həmişə onların qeydinə qalırdılar. Hər ikisinin eyni vaxtda ölmə ehtimalını nəzərə alaraq, onlar öz aralarında bir razılığa gəlmişdilər və onun şərtlərinə həmişə, istənilən şəraitdə, həm də qeyd-şərtsiz riayət eləmişdilər. Fariklə mən başsız qalmayaq deyə, atamla Rüstəm heç vaxt eyni təyyarədə uçmazmışlar, yəni aralarındakı razılaşmanı pozmurmuşlar. Heç vaxt eyni aviareysə bilet almayan bu qardaşlar vaxtaşırı harayasa uçurmuşlar.

Onların həyat tərzləri böyük bir səyahəti xatırladırdı, pyesləri onlarla teatrda oynanılırdı, ssenariləri ən müxtəlif kinostudiyalarda ekranlaşdırılırdı, roman və novellaları ədəbi jurnallarda və ya ayrıca nəşrlər şəklində çap olunmaqla yanaşı, hələ xarici dillərə də tərcümə olunurdu. Tale bu qardaşlara çox nemət bəxş eləmişdi, ancaq onlar da talelərinə heç borclu qalmamışdılar.

Atamla Rüstəm əmi “Qoca və dəniz” əsərini çox bəyənir, bu povesti yüksək sənət əsəri sayırdılar. O hekayətdə xeyli iri bir balıq ovlayan ahıl balıqçıdan və ondan balıqçı peşəsinin sirlərini öyrənməklə, özü də nə vaxtsa eynilə bu cür iri balıq tutmağı arzulayan oğlandan bəhs olunur. Sözügedən povesti ilk dəfə oxuduğum zaman mən onun dərin mahiyyətini tam anlamaqda çətinlik çəkmiş, adları qarışdırmış, hətta atamla söhbət əsnasında əsərin adını təhrif edərək, “Qoca və balıq” şəklində dilə gətirmişdim.

Atam buna bir xeyli gülmüşdü, bu məqamı Rüstəm əmiyə və Farikə də anlatdığı zaman onlar da uğunub getmişdilər. Mən də Farikə irad tutmuşdum ki, özün “Qoca və dəniz”i oxumamısan, ona görə də əsəri oxuyan, amma sırf yadında qalmadığı üçün onun adını fərqli şəkildə deyən dostuna gülməyə sənin haqqın çatmır. O da mənə dedi ki, sən də indiyədək “Kventin Dorvard”ı oxumamısan, ona görə də şotland atıcısı Kventinin gözəl qrafinya de Kruaya bəslədiyi sevgidən yerli-dibli xəbərsizsən. Mən isə söz altında qalmayıb, Farikə dedim ki, hələ də “Kapitan Bladın macəraları”yla tanış olmadığı üçün o, cəsur pirat Bladın Arabella Bişopu necə hərarətlə sevdiyindən agah deyil.

Heminquey dünyadan köçəndən bir neçə il sonra atam Havanaya səfərə gedibmiş. Orada yazıçının yaşadığı evi görmək istəyib, ancaq Kubada inqilab təzəcə qələbə çaldığından həmin ev hələlik milliləşdirilməyibmiş və orada heç kəs yaşamırmış, yəni ev boş imiş. Sonralar atam vaxtaşırı təkrarlayırdı:

– Hə-ə, o vaxt mən tərəqqipərvər amerikan yazıçısı Ernest Heminqueyin yaşadığı həmin evi görməyi hədsiz dərəcədə arzulayırdım.

Kubada ünsiyyət qurduğu hər kəs bu məsələdə ona yardım edəcəyini vəd edərkən, bir qayda olaraq “manyana” sözünü işlədirmiş: bu isə ispanca “sabah” mənasına gəlir. Amma səhəri gün verilən vədlər unudulub-gedirmiş, heç nə dəyişmirmiş, təkrar yazarın evini görmək barədə arzusunu dilə gətirincə, atam yenə o “manyana” sözünü eşidirmiş. Əslinə qalsa, atam görməli yerlər və xatirə guşələriylə tanışlıq üçün sən deyən sinov da getməzdi, ancaq qarşılaşdığı belə biganəlikdən ürəyi yamanca sıxılırmış. Artıq səfər müddəti bitmək üzrəymiş, amma atamın başını hələ də vərdiş elədiyi “manyana” vədiylə qatırmışlar.

Vətənə dönməzdən bir gün əvvəl Moskvadan gələn yazıçılarla Fidel Kastronun rəsmi protokol üzrə planlanan görüşü keçirilib. Görüş vaxtı çəkilən fotoları bəlkə qəzetlərdə görmək olar, ancaq həmin rəsmi qəbulda yaşanan kiçicik bir epizod barədə mətbuat heççə nə yazmayıb.

Görüşün sonunda sırf nəzakət xatirinə Fidel Kastro qonaqlara bir sual ünvanlayıb və əvvəlcədən bilirmiş ki, buna cavab olaraq hər hansı istək-filan səslənməyəcək. Soruşub ki, hansısa arzularını gerçəkləşdirməkdə şəxsən özünün sovet yazarlarına köməyi dəyə bilərmi?



Bu məqamda atam dillənib:

– Əgər sizin üçün müşkül deyilsə, mən Heminqueyin evini görmək istərdim.

Komandante çiyinlərini çəkərək deyib:

– Bunun nəyi müşkülmüş ki?!

Sonra isə əlavə edib:

– Manyana.

Bu cavabı eşidən atam öz mənalı təbəssümünü gizlədə bilməyincə, Fidel maraq-lanıb:

– Niyə gülümsədiniz ki?!

Atam durumu izah eləyib:

– Bilirsiniz, Komandante, bir həftədir sizin Azadlıq adasındayam, hər səhər Heminqueyin evini ziyarət eləmək barədə istəyimi dilə gətirir və hər gün bu sehrli “manyana” sözünü eşidirəm. O kəlmə məndən ötrü artıq “Heç vaxt” mənasına gəlməkdədir.

Fidel incə eyhamı anlayıb, özünün ağappaq dişlərini göstərərək qəhqəhə çəkəndən sonra heç gözlənilmədən atamla birgə siqar çəkmək arzusunu dilə gətirib.

Fidel tütünə də, ədəbiyyata da hədsiz düşkün biri olub. Atamla birlikdə prezident sarayının eyvanına çıxıblar, bürkülü havanı xəfiflədən iri ventilyatorun altında əyləşməklə, hərəyə bir “Koibe” siqarı çəkiblər. Həmin axşam Fidel Kastro atamı təkcə siqar çəkməyə alışdırmayıb, həm də ona bu qədim ənənə ilə bağlı xeyli maraqlı məqamlardan söz açıb. Bu səmimi görüşdən şirin xatirə kimi isə ona şəxsi siqar kolleksiyasından bir qutu hədiyyə edib. Ayrıldıqları zaman çiyninə toxunmaqla, Komandante o yığcam “manyana” sözünü təkrar dilinə gətirib.

Səhəri gün tezdən atamın qaldığı otağın qapısı astadan döyülüb. Qapını açarkən o, mülki geyimli, amma pencəklərinin altındakı koburada “Kolt” markalı tapançaları olan iki nəfərin kandarda dayandığını görüb. Onlardan biri deyib:

– Sabahınız xeyir, sinyor Maksud. Heminqueyin evinə ekskursiya əsnasında sizi müşayiət etməkdən bizlər dərin məmnunluq duyardıq.

İkinci kişi isə səsinə fərqli ifadə verərək bildirib:

– Əgər Komandante sizə “manyana” deyibsə, sözü – sözdür!

Atam təmkinlə siqarın üzərindəki kağız halqanı açıb: Fidel ona izah edibmiş ki, qarşısındakı adam bu cür bahalı bir həzzə tamarzıdırsa, onu utandırmamaq üçün nəzakətli insan məhz belə davranmalıdır. Qutunun üstünə çəkməklə alışdırdığı kibrit çöpünü o, başıaşağı tutub, sonra isə üfləməklə söndürüb. Yanmış kibrit çöpünü barmaqlarının arasında ovuşdurub, uc qism sivri hala gələndən sonra onu siqarın gövdəsinə sancıb. Fidel Kastro özü gilyotindən heç yararlanmazmış, deyirmiş ki, o cür vasitələr ucbatından siqarı formalaşdıran incə qatlar bir-birindən tədricən aralanmağa başlayır.

Heminqueyin okeanın sahilindəki evinin yanında dayanan atam əl ilə bükülən siqarını tüstülədib: Kastronun dediyinə görə, kubalı qadınlar tütün yarpaqlarını

öz kök budlarının üstündə eşdikləri zaman siqara çökən tər qoxusu ona xüsusi və təkrarsız bir tam qatırmış. O vaxta qədər atam bu zərərli vərdişdən hər vəchlə uzaq dururmuş, hərçənd onun həmin vaxtlarını mən görməmişdim. Hədiyyəlik siqar qutusundan sonra isə o, tütündən asılı vəziyyətə düşüb. Elə mən də gec yaşda, yəni idmandan uzaqlaşandan sonra, tütün çəkməyə başlamışdım.

Eynilə atam kimi, mən də tütünə düşkünəm və bu vərdişin, atam qədər, elə mənə də zərər verdiyinin fərqindəyəm. Hərçənd atamın yanında heç vaxt siqaret tüstülətməzdim, hətta özüm ata olanda və atamı öz nəvələrinə tanıdanda da bu qaydaya riayət edəcəkdim.

Kubaya səfərindən sonra atam Rüstəm əmiyə etiraf edibmiş ki, okeanın o tayına səfər edənə qədər mən Sovet quruluşuyla müsəlmanlığın sintezindən daha qorxunc bir şeyi heç ağlıma gətirməzdim, indi isə əminəm ki, tropik ölkələrdə qurulan Sovet rejimi bundan qat-qat betərmiş. O vaxt bu fikrin məğzini, düzü, anlaya bilməmişdim, atam da bunu mənə izah eləməyə gərək bilmədi.

Uzun illərdən sonra Kubaya səfərim zamanı mən artıq Heminqueyin ev-muzey şəklində fəaliyyət göstərən məskənini ziyarət elədim, ola bilsin, Komandanteni bu muzeyi yaratmağa təşviq edən də elə atam olmuşdu.

Adətən yazarların yaşadığı evlərdə onların ev-muzeyini yaradırlar, atamın da Bakıda ev-muzeyi var, ancaq ora atamın evi sayıla bilməz, çünki atam heç vaxt orada yaşamayıb, Kubadakı deyil, bizdəki inqilaba, yəni 1917-ci ilə qədər, həmin evdə atamın nənəsi öz ailəsiylə məskunlaşıbmış.

Öz şəxsi evini isə atam bir qədər gec, yəni ömrünün əsas kitabı saydığı “Ondan yaxşı qardaş yox idi” povestini bitirəndən sonra tikdirdi. O əsərin yazılmasıyla bağlı məzəli bir əhvalat yadıma düşdü.

Baş verdiyi zaman bu əhvalat heç kəsə, xüsusilə də atama, məzəli-zad gəlməmişdi, çünki o ərəfədə necə dərin təlaş keçirirdisə, bunun böyüyərək, əsəb sarsıntısına keçmə ehtimalı heç birimizdə şübhə doğurmurdu.

Atamın öz povestini tamamladığı həmin yay mövsümündə biz dördümüz dənizkənarı bir pansionatın kottecində məskunlaşmışdıq. Atam və Rüstəm əmi orada iki ayrı mənzil kiralamışdı: əmimlə Farik birinci, atamla mən isə ikinci mərtəbədə yaşayırdıq.

Fariklə mənim ova çıxdığımız həmin günün səhəri güclü külək əsməyə başlamışdı.

Üstündən uzun illər ötdükdən sonra dönüb geriyə baxanda anlayıram ki, uşaq ikən əmioğlum Farik ilə mən atamın uşaqlar üçün yazdığı o yeniyetmə qəhrəmanları xatırladırıq. Hərçənd atam həmin əhvalatları uydurub, qələmə alanda Farik ilə mən hələ dünyaya gəlməyə fürsət tapmamışdıq.

Farik ilə mən yetərincə təcrübəli, peşəkar ovçu idik. Təcrübəli olmağımızın sübutu kimi isə balıqqulağılardan hazırladığımız boyunbağıları və flomasterlərdən yararlanaraq, üz-gözümüzü cürbəcür rənglərə boyamamızı misal gətirə bilərəm. Quş ovuna çıxarkən adətən özümüzlə ox-yay və bıçaq götürürdük.

Söyüd budaqlarından yay hazırlamaqda atam və Rüstəm əmi dadımıza çatırdı. Yayın ucları arasında gərilən kaman olaraq biz macar rezininə üstünlük verirdik, hərçənd ən yaxşı kamanlar nərənin qurudulmuş xordalarından əldə olunur. Buna əminəm, çünki bu barədə atam özü mənə danışmışdı. Ancaq həmin üsul təmizlik baxımından təhlükəli sayıldığından atam və Rüstəm əmi bunu bizə rəva bilmirdi.

O vaxtlar atam öz otağında oturub, yaradıcılığının əsas uğuru saydığı “Ondan yaxşı qardaş yox idi" povesti üzərində işləyirdi.

Yazı-pozuya isə xeyli erkən, səhər saat beşdə başlayırdı. Əvvəlcə daima öz yanında daşıdığı ovçu cəzvəsində qəhvə dəmləyirdi. Çöl şəraitinə hesablanmış həmin cəzvə xüsusi üsulla qızdırılırdı.

Yazı makinasını qoymazdan əvvəl masanın üstünə o, nazik yun pled sərirdi ki, klavişlərin taqqıltısı mənim şirin yuxuma haram qatmasın. Sonra qəhvəsindən bir qurtum alıb, siqarını tüstülətməklə mətn yığmağa girişirdi. Öz yazı sürəti baxımından isə atam peşəkar makinaçılarla da yarışa bilərdi.

Makina arxasında bu cür işləməklə, atam əsərin sonuncu versiyasını tamamlamağa çalışırdı. Hərdənbir işinə ara verirdi. Gündüzlər bir, bəzən isə iki saat yatır, oyanan kimi də təkrar mətn üzərində işləyirdi. Povest artıq bitmək üzrə idi.

Əsən güclü küləyə rəğmən, havada ağır bürkü vardı və kondisionerimiz bütün gücüylə işləyirdi.

Otağı havalandırmaqdan ötrü bir ara atam qapını laybalay açmaqla, otağın balkonuna çıxırdı. Axı oradan yaxınlıqdakı ərazilərə gözoxşayan bir mənzərə açılırdı.

O ara dəli külək əsl qasırğa sürətiylə otağa soxulur. Atamın masanın üstünə qoyduğu kağızlar havaya qalxaraq, otaqda dövrə vurmağa başlayır. Sonrakı anlarda makinada yazılmış bir topa vərəq atamın açıq qoyduğu balkon qapısından sivişib-çıxır və bəmbəyaz ləçəklər kimi göy üzünə doğru sovrulur.

Xoşbəxt bir təsadüf nəticəsində həmin vaxt mən və Farik əlidolu halda ovdan qayıdırdıq. Budəfəki ovda nəhəng bir bizonu pusub, ələ keçirməklə, biz öz hindu qəbiləmiz Siunu düz bir aylığına yeməklə təmin eləmişdik.

Balkonda duran atam təlaşla bizə səslənirdi:

– Uşaqlar, əlyazmamı xilas edin!

Fariklə mən havada ora-bura uçuşan vərəqləri tutmağa, yaxalamağa başladıq. Həmin gün axşama qədər biz yaxın ətrafa, evlərin damına, toyuq hinlərinin üstünə, çinar və zeytun ağaclarının çətirlərinə, daha neçə-neçə əlçatmaz guşəyə səpələnən vərəqlərin, demək olar ki, hamısını bir yerə toplamağa nail olduq. Yəni mən və Farik atamın əlyazmasını məhv olmaqdan xilas elədik. Bu məqamda “Atamın vaxt itirməsini önlədik” desəm, bəlkə daha doğru olar, çünki atam nəhs bir təsadüf ucbatından itirəcəyi o mətni öz yaddaşına və qaralamalarına əsasən onsuz da bərpa edəcəkdi. Bunu da dəqiq bilirdim, çünki bunu mənə atam özü etiraf eləmişdi. Hə, o, öz mətnini nəyin bahasına olursa-olsun, bərpa edəsiydi, mən isə uzun illərdən sonra heç şübhəsiz bu əsərə ekran ömrü verəcəkdim.

“Ondan yaxşı qardaş yox idi” povestini bitirəndə atamın heç qırx yaşı da yoxdu. Arıçı olan və kiçik qardaşı Simurqu sevən qəhrəmanı Cəlildən o, yaşca kiçik idi.

Əsərin əsasında atamın uşaq vaxtı şahidi olduğu bir hadisə dayanırdı: yaşadığı küçədə vaxtilə bir qonşularını adamın özünün saxladığı arılar sancaraq öldürmüşdü.

Əsər çap olunandan dörd il sonra atam ilə Rüstəm əmi Xəzər dənizinin sahilində, balıqçı qəsəbəsi sayılan Nardaranda bir cüt ev tikdirdilər. Bilgəh qəsəbəsindən keçib gedərkən Bakıdan qəsəbəyə qədərki yol qırx dəqiqə,

nisbətən qısa sayılan Maştağa yoluyla gedərkən isə sırf işıqforların çoxluğu ucbatından düz bir saat çəkirdi.

Atam ilə Rüstəm əmi həmişə qonşu kimi yaşamağı diləyirmişlər. O bir cüt evin inşası bitəndən sonra onlar hansı evdə kimin yaşayacağıyla bağlı öz aralarında püşk atdılar. Dəniz tərəfdən baxanda sağda yerləşən ev atamla mənim qismətimə düşdü.

Evlər nəhəng bir qayanın üstündə tikilmişdi deyə, ağac əkməzdən əvvəl atam ilə Rüstəm əmi həyətə yüzlərlə maşın münbit torpaq daşıtdırdılar. Həyətlərimizin ortaq darvazası birbaşa dənizin qumlu sahilinə açılırdı. Bu evlərdə biz şad-xürrəm ömür sürdük.

Atam ilə Rüstəm əmimin xeyli dost-tanışı, qohum-əqrəbası vardı, vaxtaşırı onları evimizə qonaq çağırır, heç kəsi umub-küsməyə qoymurduq. Qonaqlar çox oldu-ğundan ziyafətlər də bitmək bilmirdi. Çox vaxt masaları evdən çölə çıxarır, birbaşa həyətdə süfrə açırdıq. Yerli balıqçılar bu qardaşların süfrələrini daima təzəcə ovladıqları nərə balığıyla təmin edirdilər.

Atam amerikan fantastikasını hədsiz sevirdi, Rüstəm əmim isə fantastik əsərlərə biganə idi. Evimizdə bu mövzuda xeyli sayda, demək olar ki, SSRİ-də çap olunan bütün nəşrlər vardı. Həmin yayı Fariklə mən Azimovun, Saymakın və Bred-berinin əsərlərini oxumaqla keçirmişdik.

Məşhur rəssam Tahir Salahovun "Qardaşlar" adlı bir tablosu var. Orada zahirən ağırçəkili boksçulara bənzəyən bir cüt cavan və saqqallı kişi təsvir olunub, həyat eşqi dolub-daşan, yetərincə güclü görünən bu iki nəfər, öz bədii əsərləriylə ölkəmizdə və xaricdə şöhrət qazanan bu bir cüt qardaş daşdan tikdirdikləri fərdi evlərin yanında dayanıblar.

Tahir əminin yaylaq evi də yaxınlıqda idi, bizim darvazadan onun evinə qədər məsafə yüz addım ancaq olardı. O da vaxtaşırı bizlərə qonaq gəlirdi, atamla



dostluq elədiyi müddətdə onun bir neçə portretini də çəkmişdi. Atam öz qəhrəmanı Cəlil kimi xoşbəxt, hüzurlu bir həyat tərzi sürür və inanırdı ki, ayaqyalın halda öz bağında gəzib-dolaşdığı zaman canında yığılan bütün mənfi enerjini, azar-bezarı ana torpaq özünə çəkməklə, zərərsizləşdirir.

Həmin yay Farik xəstələndi, əmioğlumun hansısa mərəzə yoluxduğuna dair söz-söhbət dolaşmağa başladı. Ürəyindəki qüsuru həkimlər yeniyetməlik çağında görülən pozulma ilə izah edir, ilk mərhələdə bunun müalicə oluna biləcəyini də deyirdilər. Amma əmioğlumun ürəyi günbəgün şişməkdəydi və buna heç bir əlac tapılmırdı. Yeganə çıxış yolu onun bədəninə başqa ürəyin köçürülməsi ola bilərdi, amma həmin dövrdə Yer kürəsində həyata keçirilən bu cür əməliyyatların sayı heç 100-ü də ötmürdü. Həmin yay Fariklə baş-başa keçirdiyim sonuncu yay oldu. Sonrakı qışda Farik dünyadan köçəndə mən əsgərlikdə idim.

Həyatımda ilk dəfə məhz o vaxt boynuma aldım ki, bu dünyada atamın da dəyişə bilməyəcəyi şeylər var imiş. Atam "Ondan yaxşı qardaş yox idi" povestini yazanda otuz səkkiz yaşında imiş, həmin əsəri ekranlaşdırmağa başlayanda isə mən əsərə son nöqtəni qoyan atamdan altı yaş böyük idim, yəni 44 yaşım vardı.

Filmin qısa məzmunu belədir: Azərbaycan ailəsində iki qardaş arasındakı ziddiyyətli münasibətlər heç cür öz həllini tapmadığından filmin sonunda baş qəhrəman... dünyasını dəyişir.

Film hazır olanda onu atama göstərdim. Kinozalda sadəcə ikimiz əyləşmişdik. Atam çəkdiyim filmə tamaşa edirdi. Ekranda onun kitabındakı surətlər birbəbir canlanırdı. Bu dünyada vaxtilə Cəlil adlı mömin bir insan yaşayıb, onun həyatı öz məcrasıyla axıb, gedib, hər şey ürəkaçan olub, adama hüzur verib deyə, bu mömin insan Tanrının niyyətini anladığını sanıb. Halbuki bundan agah olmaq indiyədək heç kəsə nəsib olmayıb, axı o niyyət bəndələr üçün əlçatmaz qalmalıdır. Bəndə öz qismətinə yazılanlarla sadəcə və üzüyola şəkildə barışmağa məhkumdur, Cəlilin bəxtinə isə çox şey yazılıbmış və aşiq olmaq da bunlardan biri olub...

Yazdığı kitabda atam Tanrını sevən bir arıçıdan bəhs eləyib. Sonradan arıçı ona asi olduğu üçün Tanrı onu cəzalandırıb. Yəni saxladığı arılar baş qəhrəmanın ölümünə səbəb olub.

Atam məhz bu povesti yazdığı ən önəmli əsər sayırdı. Bunun niyə belə olduğunu isə mən çox sonralar, yəni o əsəri ekranlaşdırıb, atama göstərərkən anladım.

Dəqiq xatırlayıram: atamla görüşməkdən hər vəchlə çəkindiyim vaxtlarda da o, çəkdiyim filmi bəyənmədiyini hər dəfə başıma qaxırdı. Filmi görməyə gözü yox idi və bununla bağlı heç nə eləyə də bilmirdim.

Rüstəm əmi isə bu ekran işimi bəyənirdi və əgər atam film barədə rəyini əmimlə əvvəlcədən paylaşsaydı, bəlkə nisbətən fərqli mövqe tutardı, ancaq həmin dövrdə bu qardaşlar artıq... danışmırdılar. Həyatımız dözülməz dərəcədə başqalaşmışdı. Bu qardaşlar dəniz kənarındakı evlərinin böyründə daha yan-yanaşı durmurdular, çünki həmin evləri artıq bir-birindən dümdüz bir hasar ayırırdı və bu hasar "Ondan yaxşı qardaş yox idi" povestindəki qardaşların evləri arasında hörülən divarı xatırladırdı. Həmin əsərdə böyük qardaş Cəlil müəllim kiçik qardaşı Simurqa belə demişdi: "Sən artıq mənim qardaşım deyilsən".

Vəfatına qədərki illər uzunu filmimi bəyənmədiyini atam dönə-dönə mənə söyləyib, durdu. Bütün ömrü boyu atam kino sənəti barədə mənimlə heç belə uzun-uzadı danışmamışdı.

Filmin çəkilişləri zamanı çox şeylər yaşandı. Dünya tanınmaz dərəcədə dəyişdi, evimizə fərqli, mənim tanımadığım və atamın əvvəllər heç evə dəvət eləmədiyi adamlar gəlib-getməyə başladı. Balıqçılar daha əvvəlki kimi iri nərə balıqları tutub, qapımıza gətirmədilər, qonşumuz Tahir əmi başqa bir evə köçdü, əsərdəki hadisələrin cərəyan elədiyi ölkə isə dünyanın siyasi xəritəsindən birdəfəlik silinib-getdi...

Tahir əminin yaratdığı son portretlərdə atam əvvəlkindən xeyli fərqlənir, özünə bənzəmirdi artıq, hətta mən də onu çətinliklə tanıya bilirdim.

Yaşanan anlaşılmazlığın ilkin səbəblərini sadəcə təxmin və ehtimal eləmək olardı: atamın yazdığı kitabda bu barədə birbaşa açıqlama tapmadım. Heç Rüstəm əmi də nələrin baş verdiyini mənə düz-əməlli başa sala bilmədi. Axı, eynilə mənim kimi, Rüstəm əmim də, heç vaxt atamla söz güləşdirməzdi.

Bədii mətnindəki hadisələr gerçək həyatda müəllifin özünün başına gəlmişdi. Ola bilsin, bu, Yaradanın atamla zarafatı idi.

İndi düşünürəm ki, əgər atam başına gələnləri Yaradanın özüylə götür-qoy eləyə bilsəydi, çox yəqin, əvvəl bir siqar yandırar, nəzakətli biri kimi hətta Yaradana da siqar çəkməyi təklif edərdi. Axı atam hamını özüylə eyni gözdə görərdi.

"Yaxın keçmişin retrosu" üslubunda çəkdiyim filmdə mən 1970-ci illərin Bakısını canlandırmışam. Bir müsahibəmdə demişdim: "...filmi doğma şəhərimizdə çəkmək, onun uşaqlıq dövrümdəki ab-havasını nə cürsə bərpa eləmək məndən ötrü hədsiz dərəcədə vacib idi..."

Çəkdiyim ekran əsərini atam bəyənmədiyi üçün mən uzun illər özümü günahkar saysam da, əslində hansı günahı, suçu işlədiyimi heç cür anlamadım. Mənə qəzəbi tutan Tanrımın hüzurunda çarəsiz halda durmuşdum, özünümüdafiə üçün deyəcək bircə kəlmə də tapmırdım. Atamla heç vaxt mübahisə eləməzdim. İçində olduğum cənnətin alt-üst olmasının səbəbkarı isə mən deyildim, ona görə də səbəbini deyə bilmərəm. Axı mən atam üçün həmişə xoş, nəcib bir iş görməyə can atırdım.

Əgər nə vaxtsa Tanrım ilə ünsiyyət qurmağa fürsət tapsam, haqlı olduğumu dərin inam hissiylə ona bildirəcəyəm: "O film – səviyyəli ekran əsəridir və ömrüm boyu çəkdiyim ən önəmli filmdir". Amma atamdan fərqli olaraq, mən Yaradan ilə ürəkli danışmağa özümdə cürət tapmayacaq, onun hüzurunda siqaret tüstülədə bilməyəcəyəm. Axı mən heç atamın yanında da siqaret çəkməzdim.



***Rus dilindən tərcümə edən:***
***Azad Yaşar***

# MAKSUD İBRAHİMBƏYOV: YADDAŞIN ÜSLUBU



Maksud İbrahimbəyov sovet dövrü Azərbaycan nəsrinin ən tanınmış nümayəndələrindən biri olsa da, təəssüf ki, ölkəmizdə az araşdırılan nasirlərdən biri də odur. XX yüzilin 60-70-ci illərini (İ.Muğanna, Anar, Elçin, Ç.Hüseynov, Ə.Əylisli, R.İbrahimbəyov, İ.Məlikzadə...) Azərbaycan povestinin İntibah dövrü kimi qəbul etsək, onun yaradıcıları arasında Maksud İbrahimbəyovun adı ayrıca qeyd olunmalıdır . Əgər postsovet povest antologiyası tərtib olunarsa, M.İbrahimbəyovun "Ondan yaxşı qardaş yox idi" povesti ora mütləq salınmalıdır. Aşağıdakı tezislərimiz də məhz yazıçının bir neçə povestinin təhlili üzərində qurulur.

M.İbrahimbəyovun yaradıcılığı gənc insanın mənəvi axtarışlarına, təhtəlşüur gizlinlərinə həsr olunub. Bu baxımdan Südabə xanım Ağabalayevanın bir qənaəti ilə razılaşırıq: *"Yazıçı "Bütün yaxşılıqlara ölüm", "Yazılmayan məktublar", "Müharibənin min bir günü", "Bayquş gəlmişdi" povestlərini də insan həyatının ən çətin, məsuliyyətli dövrünü – yeniyetməliyi yaşayanlar üçün ən yaxşı əsərlər hesab edir və məhz belə əsərlər üçün "ədəbiyyatın təsir gücü" ifadəsini məqbul sayırdı." ("Hər şey üçün sağ olun").*

Tənqidçilər Maksud İbrahimbəyov nəsrini, adətən, "şəhər nəsri"nə aid edirlər, bu fikirdə müəyyən həqiqət də var. Anar, R.İbrahimbəyov, Ç.Hüseynov, N.Rəsulzadə, A.Axundova ilə yanaşı, "Bakı mətni"ni yazanlardan biri də odur. M.İbrahimbəyov müharibədən sonrakı Bakının – doğma şəhərinin obrazını təxəyyülündə süslədi və yaddaşında bərpa etdi. Nəsrimizə Bakı məhəllələrinin, "Paralel" adlanan küçənin topoqrafik obrazların – qəzet köşkünün, hamamın, tramvay xəttinin, pinəçi budasının, xırda dükanların... mistik-magik sehrini gətirdi. ..."Ondan yaxşı qardaş yox idi" povestində təsvir olunan həmin məhəllə şəhərin yuxarı hissəsində yerləşirdi.

Məhəllə hamamının təsviri yaddaşının vizual gücündən xəbər verir: *"...iki və üç otaqlı nömrələri olan, divarlarına döşəmədən tam tavanına kimi çəhrayı və zərif mavi rəngdə mərmər döşənmiş, ümumi salonunda hovuzu və uzanacaqları, yüksək ixtisaslı kisəçiləri, eləcə də səhərin gözü açılandan ta gecə yarısına kimi lumulu, ətirli çay verilən çayxanası olan qədim hamamın müqabilində tüstü və qurum çox cüzi şeydir".*

Əsərlərinin hər bir komponenti (fabula, kompozisiya, obraz sistemi), eləcə də yuxarıda qeyd etdiyimiz “İbrahimbəyov üslubu”nun gizlin işarələri qarşıya qoyulan fəlsəfi konsepsiyaya” işləyir.

M.İbrahimbəyovun Bakısı, əslində, xatirələrdə mövcud olan şəhərin obrazıdır, köhnə evin, yaxud bir məhəllənin, küçənin adıdır. Bu “Ev” dostluq-qonşuluq münasibətlərinin, davranış stereotiplərinin və etiketlərinin gerçəkləşdiyi bir məkandır. *“O, müharibədən əvvəlki gözəl günləri xatırladı, o vaxt Bakıda indikindən qat-qat az camaat vardı, hamı da bir-birini tanıyırdı. Adamlar küçədə qabaq-qabağa gələndə mütləq salamlaşırdılar, özü də əvvəl kiçik salam verərdi. Hamı bir-birinə hörmət eləyirdi...” (“Ondan yaxşı qardaş yox idi”).*

Bu məkanın öz qanunları-qaydaları, öz rəngi-sehri var. Ona görə də daim bu “köhnə Evə” – Bakıya qayıtmaq istəyirlər: *“Mənə elə gəlir ki, Bakıya, bizim köhnə evimizə qayıtmaq vaxtı çatıb.” (“Yazılmayan məktublar”).* “Yad şəhərlərdə Bakını xatırlamaq, Bakıdan söhbət açmaq M.İbrahimbəyov qəhrəmanlarının “genetik vərdişidir”. Kislovodskda ailəsi ilə istirahət edən prokurorun bu kurort şəhərini tərifləməsi, Bakıdan üstün tutması Cəlil müəllimi bərk dilxor edir: ”... *Kislovodsk xoşuna gəlir! Sözə bir bax, kurortsuz keçinə bilmir. Bakını bəyənmir. Eh!”*

M.İbrahimbəyov nəsrinə milli kolorit gətirən obrazlardan biri də qonşu obrazlarıdır. Azərbaycan nəsr xronotopunda M.İbrahimbəyov nəsrində olduğu qədər qonşu obrazları yoxdur. Köhnə qonşu-təzə qonşu münasibətləri M.İbrahimbəyovun “Bakı mətni”nin əsas süjetqurma elementidir. Personajların yaddaşının məhrəm və işıqlı məqamları qonşularla bağlıdır. “Köhnə qonşu-təzə qonşu” anlayışları Bakının, xüsusən, məhəllə və həyətlərinin birgəyaşayış fəlsəfəsinin, etik kodeksinin vacib dəyər anlayışlarıdır. *“Təzə qonşular Cəlil müəllimin də xoşuna gəlmirdi. Birinci dəfə küçə söyüşlərini eşidəndən sonra Cəlil müəllim qəti qərara gəldi: ya təzə qonşu ən geci günü sabahdan bu görünməmiş rüsvayçılığa, xuliqanlığa son qoymalıdır, ya da küçədən getməlidir, üçüncü yol ola bilməz!”*

Maksud İbrahimbəyov dialoq ustasıdır, əsərlərinin süjet dinamikasını təbii, canlı və koloritli dialoqlar təmin edir. Yazıçı sanki Bakı sakinlərinin danışıqlarını, məişət söhbətlərini dinləyib yazıya alıbdır. Dialoq qəhrəmanların iç dünyasına daxil olmağa, onları tanımağa imkan verir. Bu fəal, davamlı ünsiyyət tərzi onların yaşam fəlsəfəsini biruzə verir. Personajlar o qədər ünsiyyətcildirlər ki, monoloq və dialoqların içindən yalnız xarakterləri deyil, taleləri də görünür. Amma məsələ burasındadır ki, süjet boyu dialoq intensivliyinə rəğmən, sonda qəhrəmanları ya tək qalırlar, ya da, ümumiyyətlə, tənhadırlar. *“Adil çıxandan sonra açıq-aşkar hiss elədim ki, bu şəhərin gözəlliyindən daha heç nə qalmadı. Özümə yer tapa bilmədim, çoxdandır tənhalıq məni belə sıxmırdı.” (“Yazılmayan məktublar”).*

Yazıçının ideyaları ekzistensializm fəlsəfəsinin əsas müddəaları ilə səsləşir. Ekzistensialistlərin ilkin məqamı məişət absurdluğu, dərkolunmaz dünya qarşısında şəxsiyyətin tənhalığıdır.

Povestlərin süjeti xatırlama aktlarının, yaxud xatırlanan hadisələrin zəncirindən təşkil olunur. Burada hər şey – uşaqlıq dostları, qonşular, məhəllə hamamı,

xırda dükanlar yaddaşının “qırıntılarıdır”. Amma süjetin xatırlama aktları ilə “yüklənməsinə” baxmayaraq, formanın ciddiliyinə və bütövlüyünə xələl gəlmir.

Yazıçı da, personajlar da xatırlaya-xatırlaya, sanki, ömrün miqyasını dəyişmək istəyirlər. “Yazılmayan məktublar”ın qəhrəmanı – təhkiyəçisi sonda anlayır: *“Gözümə yuxu gedə-gedə düşünürdüm ki, insanın öz ömrünün müəyyən mərhələsini unutması heç də insafdan deyil, həm də ona görə insafdan deyil ki, ömür o qədər də uzun olmur.”*

Maksud İbrahimbəyovun yaddaşı güclü ətir və səs həssaslığına malikdir. “Ətir kodu” bədii detal, motiv-obraz-simvolik işarə səviyyəsində süjet məsamələrinə yayılır. Yazıçının yaddaşı sanki ətirlərin nostaljisini çəkir. M.Prustda, V.Nabokovda olduğu kimi. V.Nabokovu çarpayı altındakı topun, M.Prustu “Madlen” peçenyesinin obrazı necə vəcdə gətirirdisə, M.İbrahimbəyovun yaddaşını isə ətir duyumu beləcə oyaq saxlayır. *“Bir qadın o zülmət gecədə şeir oxuyurdu. O qadından gələn ətri indi də xatırlayıram; tək bircə anda burnuma dəydi, amma aradan neçə illər keçsə də, onu heç bir ətirlə qarışıq salmaram.” (“Yazılmayan məktublar”);*

*“Havadan zərif ətir iyi gəlirdi, aydınlıq yay gecəsində ılıq meh nə isə tanış olmayan çiçəklərin ətrini gətirəndə, adamlar qəflətən qəribə həyəcan keçirməyə başlayırdılar. ” (“Ondan yaxşı qardaş yox idi”);*

*“Qadının cırılmış donu bürmələnib küncə atılmışdı. Qaldırıb baxdım, ondan zərif ətir iyi gəlirdi”; “O, Aidaya aldığı hədiyyəni – gümüş qolbağı ilə fransız ətrini maşının qabaq oturacağına qoymuşdu”; “Yüngül mürgü içində Rauf hiss elədi ki, nə isə xoş bir qoxu var havada. Əvvəlcə çox zəif duyulan bir qoxu sürətlə artdı, elə bil hardasa yaxınlarda içi ətirli maye ilə dolu bir qabın ağzını atmışdılar.” (“Kərgədan buynuzu”);*

*“Əvvəllər olduğu kimi, indidən buradan tünd hənə ətri, qarışıq xəfif kif iyi gəlirdi.” (“Ondan yaxşı qardaş yox idi”).*

Səs obrazları da onun nəsrinə ayrıca bir canlılıq gətirir. “Uğultu” obyektlərin və təbiət hadisəsinin (zəlzələ) səs obrazıdır. Uğultu akustik kod kimi şəhər (məhəllə) məkanını mifoloji məkana çevirir. *“Bu qazanların yeknəsəq səs uğultusu gecə də, gündüz də ətraf məhəllələrə yayılır, hətta xəzri qopanda da həyətlərin hamısında eşidilirdi”.*




M.M.Baxtinin məşhur terminindən istifadə etsək, “audial xronotop” M.İbrahimbəyov üslubunun işarəsimvollarından biridir. Onun qəhrəmanları bir-birlərini səsdən tanıyırlar, səsə reaksiya

verirlər və səslər hadisənin fonunu təşkil edir. *"Aidanın otağından gur musiqi səsi gəlirdi – Müslüm Maqomayevin oxuduğu populyar mahnılar, vanna otağından suyun şırıltısı, bir də anlaşılmaz səslər eşidilirdi, o yanda gurhagurla qaynayan, lüləyindən fir verən çaydanın qaraqışqırığı mətbəxi başına götürmüşdü." (Yazılmayan məktublar"). Yaxud: "Hələ də dimdiyini şaqqıldadıb şoğərib! Belə də şey olar? Adamın ödü ağzına gəlir. Bayaq elə uladı ki, yuxudan dik atıldım, vahimədən tüklərim biz-biz oldu, indi də dimdiyini şaqqıldadır." ("Bayquş gəlmədi").*

Məhəllə adamları qazanların səsinə alışmışdılar, heç elə bil onların uğultusunu eşitmirdilər. Cəlil müəllim son nəfəsdə qardaşının sözlərini eşidə bilmir: *"ona görə ki, qazanların anbaan güclənən göy gurultusu kimi uğultusu bütün qalan səslərin hamısını batırırdı".*

Yazıçı povestlərində maraqlı süjetqurma üsulundan istifadə edir – onu "İbrahimbəyov üsulu" da adlandırmaq olar. Belə ki, ustad yazıçı povestlərin sujet-təhkiyə toxumasına ilk baxışdan nəzərə çarpmayan, necə deyərlər, "sözarası" bir mətni dialoq məkanına daxil edir və oxucu bu mətnin "mətn içində mətn" olmasının fərqində olmur...

"Yazılmayan məktublar"da baramaqurdu ilə, "Ondan yaxşı qardaş yox idi" povestində arı pətəyi ilə və "Kərgədan buynuzu"nda kərgədan buynuzu ilə bağlı bu kiçik metaforik süjetlər, mərhum filosofumuz Niyazi Mehdinin dili ilə desək, "semantik sayrışma"lar funksiyasını yerinə yetirir, əsərin "assosiativ altyapısı"nı formalaşdırır.

Qayınata kürəkənə cavanlaşma iksirinin hazırlanması barədə bir yazı oxuyur. Assosiativ "semantik sayrışma"nın nəticəsi povestin sonunda işarə edilir. *"O, (Rauf – R.K.) qayınatasını oyunçuların arasında görəndə gözlərinə inanmadı, mat-məəttəl qaldı. O yekəlikdə ağsaqqal kişi uşaqlara qoşulub atılır-düşür, voleybol oynayırdı."*

Cəlil müəllimin ömrünə də bağda saxladığı arı pətəyi son qoyur. Əsərin əvvəlində Cəlil müəllimin arıları ilə davranışından, arıların xasiyyətindən bəhs edilir. *"Pətəklərlə əlləşməyi də Cəlil müəllim çox xoşlayırdı. Əvvəl-əvvəl arılara yaxınlaşanda Cəlil müəllim başına özünü qorumaq üçün xüsusi tor salırdı, amma sonra arılar ona isinişdilər, indi torsuz da gedəndə dəymirdilər. Ancaq yenə də hərdənbir sancırdılar. Cəlil müəllim arılara aid məsləhət istəyəndə pətəklər satan qoca arıçı ona demişdi ki, arılar onlara hirsli, əsəbi adam yaxınlaşdıqda hiss eləyirlər. Necə hiss eləyirlər, baş açmaq olmur, amma hiss eləyirlər və belə şeyi xoşlamırlar, bax, bu vaxt hətta, sahiblərini də sancırlar."*

*"Cəlil müəllim ata yurdunun həyətində gəzişən, deyib-gülən Manafa da, onun qızına və arvadına da, Simurqa da, hamıdan çox özünə də nifrət etdiyini duyurdu".* Və bu nifrət hissi, əsəb-qəzəb hissi gözlərini necə örtürsə, arı pətəklərindən birinə ilişib yıxır və arılar onu ölümcül sancır...

"Kərgədan buynuzu" povestinin qəhrəmanı bir ekzotik nadir quşun (kivi) zooparkdan yoxa çıxması ilə bağlı suçlu bilinir. Müstəntiqlə söhbət əsnasında Aliyə xanım gözlənilmədən kisəli pələngdən danışmağa başlayır:

*"– Deməli, siz eləyirsiz ki, kivi çox nadir quşdur, eləmi? – Əsgərov istədiyi cavabı almaqçün Aliyə xanıma bu sualı verdi.*

*– Bəli, son dərəcə nadir quşdur. Həmyerlisi kisəli pələng kimi aztapılandır. Kisəli pələngi, ümumiyyətlə, heç axtarmağına dəyməz, mənasız işdir.*

*Əsgərov maraqqarışıq bir heyrətlə Aliyə xanıma baxdı və Aliyə xanım başa düşdü ki, pələng məsələsini mütləq aydınlaşdırmaq lazımdır:*

*– Mən demək istəyirdim ki, kisəli pələng bir növ kimi yoxa çıxıb, yəni qalmayıb daha yer üzündə. Qırıb qurtarıblar onu".*

Aliyənin təhtəlşüurundakı pələng obrazını psixoanalitik müstəvidə yozmaq da mümkündür. Belə ki, 10 mart 1933-cü ildə Freydin pasientlərindən biri professorla keçirdiyi son seansda pələng obrazını səsləndirir: *"Özümü pələng kimi təsəvvür edəndə ağlıma qəribə fikirlər gəldi. Bəlkə mən özüm də pələngəm? Və bu pələng kimin üstünə atılar? Birdən qoca, zəif, köməksiz professorun üstünə şığıyar? İçimdə gizlənmiş "vəhşi" doğrudan da kimi öldürə bilər? Bir uşaqlıq fantaziyası kimi bunu ona danışdım. Bütün bunlar gerçəkləşsə, nolar? Professor sakitcə: "Mənim də müdafiəçim var", – deyib İoffini, ayağı altında yatan balaca şiri göstərdi."*

M.İbrahimbəyov üslubunun bu özəlliyi povestlərin pritçaya çevrilmək imkanlarını genişləndirir. Məhz müdrik ironiya və metafora pritçanın cövhəri olur. Məsələn, "Yaxşılıqların əvəzində ölüm" povesti hərbi-macəra janrında yazılsa da, əslində fəlsəfi pritçadır. Dörd məktəblinin (14 yaşlı – Sabir, Əli, Kəmalə və Tahir (təhkiyə onun dilindən verilir) dağa çıxması və başlarına gəlmiş hadisələr haqqındadır. Dar, uçurumlu bir aşırımda onları qarlı çovğun yaxalayır. Soyuqdan qorunmaq üçün bir yarıq tapıb mağaraya girirlər. Mağarada İkinci Dünya savaşından qalmış silah anbarına, əsgər skeletlərinə rast gəlirlər. Gecə zəlzələ baş verir, mağaranın girişi qapanır. Yazıçı qəhrəmanlarını qapalı məkana – mağaraya yerləşdirir. Mağara, almanca-rusca danışıq kitabçası, sirli yazılar, skelet simvolik məna daşıyır. Mağara münasibətlərin sınağa çəkildiyi yerdir. Hər kəsin mahiyyəti burada üzə çıxır. Uşaqları ölümdən dəstənin "liderləri" – Əli və Sabir deyil, çoxlu mütaliə etdiyinə görə "mamauşağı" adı alan, eynəkli, utancaq "botanik" Tahir xilas edir.

Düşünürəm ki, Maksud İbrahimbəyovun yazı (süjetqurma, təhkiyə) texnikası Azərbaycan ədəbiyyatşünaslığının obyekti olmalıdır – bu, nəsrimizin estetik-bədii miqyasını müəyyənləşdirməyə, yazıçıların təfəkkür tiplərini bərpa etməyə imkan verərdi.



***Rüstəm KAMAL***

# ♦ Vaqif Bəhmənlinin 70 yaşı



*Vaqif BƏHMƏNLİ*

***"Çırpılıb hicran daşına; bəsdi demir savaşına,***
***Düşür düşmənin başına, ağırdı daşı Vaqifin!"***

## 1. HEKAYƏ ÜSTÜNDƏ

### BAKIYA YAĞIŞ YAĞIR

***"Yağış yağır dənizə..."*** *A.Əhmədgil*
***"Bakıya qar yağıb..."*** *A.Əhmədgil*

Suya düşüb islanır quraq şəhrin gərdişi,
Dalan-tinlər bələnir gürşad suyun selinə.
Yuyur qraniti su,
ağarır daşın dişi,
Küknarlar kisə çəkir divarların belinə –
Bakıya yağış yağır!

Qara asfalt səkilər tərə batır qul kimi,
İslanır xovlu qazon at belində çul kimi.
Yaş axıdır gözündən Qız Qalası, dul kimi
Damcılar kinə-kinə, yumruca noğul kimi...
Bakıya yağış yağır!

Pörtür bozumtul şəhər, qan damır yanağına,
Əli sürüşür Göydən, tüpürür sol-sağına…

Damcılar qırma-qırma – atəş gəlir yaxına,
Göylər tutur damları qazlı su şırnağına –
Bakıya yağış yağır!

Leysanın iynələri Xəzəri naxışlayır,
Dəniz suyu duzu yox, yağış suyu xoşlayır!
Gözəl Xalça Muzeyi islanıb naxoşlayır –
Nə pozulmuş çeşnini, nə də ki, naxış duyur –
Bakıya yağış yağır!

Yasamaldan axan su uzanır kəmər kimi,
Qovuşdurur Montinə Keşləni, damar kimi!
Milli Bankın başına pul yağır nəmər kimi,
Kasıb baxıb odlanır oda su damar kimi –
Bakıya yağış yağır!

Suyunu lilləndirir “Kür xətti”nin, “Şollar”ın,
Üzə çıxır çuxuru saxta beton yolların.
İslanıb bürmələnir qıraqları dolların,
Çəpəki, qara leysan yuyur “çirkli pulları” –
Bakıya yağış yağır!

Rəsmilər “Tvitter”də,
kütlə “çat”da boğulur,
Batır bulvarın səsi,
yağış altda boğulur.
Azan nəm çəkir, iman xurafatda boğulur,
Öskürür muğam evi… muğamatda boğulur –
Bakıya yağış yağır!

Göl tutur bir məkanda göyün, yerin qubarı,
Az qalır ki, su yusun “İçqala”dan divarı…
Şəhər sel çanağımı? – leysan xəbər aparır –
Şəhidlər xiyabanı ağlayır zarı-zarı;
Bakıya yağış yağır!

Başıboş, hirsli bulud gurultuya başlayır,
Cəm olur münəccimlər, qurultaya başlayır.
Biri qazanı qırır, biri Göyü daşlayır...
Bu da əməkdar tarix... Boğazını yaşlayır,
Xalqın artistlərini yağışlar alqışlayır –
Bakıya yağış yağır!

## RƏNGBƏRƏNG

*"... həpsi rəngdir."* ***S. Mənsur***

Olsun parlaq, qaramat – cümlə həyat əhəngdir!
Birrəng deyil kainat, çünki zat rəngbərəngdir!

Vaxtında rəng alır nar, toxunmasan ağdı qar,
Aləmdə yeddi rəng var, qalan rənglər pərsəngdir...

Haqq yolu: dizin-dizin, mənzili – uzun... uzun,
Rəngi tutqun cevizin içi bərkdir, hənəkdir.

Vaxt sıxır canda nə var, qara su damır divar...
Gözdən yaş tökür cuvar, sanki deşik səhəngdir.

Çəkir çarpaz zolaqlar qulun belinə quldar –
Yara bağırır zar-zar, guya ki, qul pələngdir!

Günbəzini gün sarır, nurdu, işıqdı varı,
Qara qırdı astarı, dünya üzdən qəşəngdir!

Mətləbləri anladan al qırmızı qandı, qan!
Ürəyi aydınladan göydən gələn ahəngdir!

Rəng bir közdü dünyada, külü izdi dünyada...
Qalan sözdü dünyada, ad-san solan çələngdir!

Qanadı yox uçmağa, rəngi düşmür heç nəyə,
Rəngdən-rəngə düşməyən Vaqif Bəhmənli... təkdir!

## ATAM QEYB OLAN TORPAQ

***Ya diqqətsizlik, ya kasıblıq ucbatından 37 yaşında dünyasını dəyişən atamın Böyük Bəhmənli qəbiristanlığındakı məzar yerini uzun illər öncə itirdik...***

Heç gəlməz çəkiyə torpağı –
ibadət, təkyə torpağı.
Tərkibi Məkkə torpağı –
atam qeyb olan torpaq!

Dərinlikdə kök qüdrəti,
Böyründə kol bitməz qəti.

İtmiş dəfnədi sərvəti
atam qeyb olan torpağın.

Ruha dönüb aram-aram
ac gözümü doyuraram...
Bir gün təşrif buyuraram
atam qeyb olan torpağa.

Nə məhlimi, nə izi var –
Bəsirətdi itmiş məzar!
Tanrı özü gülə tutar
atam qeyb olan torpağı.

Yasa batıb hər yazbaşı
axıtmırıq gözdən yaşı...
Ruhu sıxmır sinə daşı
atam qeyb olan torpaqda.

Doludu sugələn arxı;
qız boy atır, oğlan qalxır...
Daş yerinə insan qalxır
atam qeyb olan torpaqdan!

## TÜRKÜN TORPAĞI

Dünya dardı, sən geniş, başıma gəlməsə iş,
Halal ölsəm, qoynunda ölləm, türkün torpağı.

Məzlumu tək-tək sayıb, canımı parçalayıb
Bozqurdlar arasında bölləm, türkün torpağı!

Uğrunda havalanıb zəncirlənsəm komada
Başıma kül ələyib gülləm, türkün torpağı!

Hicrətin zillətində səhradan keçər olsam
Göz yaşımı qumunla silləm, türkün torpağı.

Görsəm ki, sınırının sırtını yarğan sıxır
Qayanı dırnağımla dələm, türkün torpağı.

Dörd cəhətdən başına cəm olanda övladın
Qorqudun qopuzunu çallam, türkün torpağı.

Məskənlərin şahısan, mədfənlərin ahısan,
Sən Tanrı dərgahısan, billəm, Türkün torpağı!

Milyon illik hökmünə inamım var, o üzdən,
Qurd ilə qiyamətə qallam, Türkün torpağı!

## ÇƏTİN HAVA

Haçan hava qarışıb ötsə tufan, qasırğa,
Ölər kasıb sobası, külü çıxar evindən.

Şaxta vurar, donar baş, burun sırsıra bağlar,
Özündən deyən ağzın dili çıxar evindən.

İzi, ləpiri qumla doldurubsa dəli yel,
Kilidlə dər-divarı, yolu... çıxar evindən!

Çöldə şaxta, qan isti, sümürməsə sonacan
Güman eyləmə qopar, zəli çıxar evindən.

Sevdanın sarayını qar tutubsa dibəcən
Necə deyim nərgizi sulu çıxar evindən?

Qapını döysə qərib, varsa, ovcuna pay bas,
Boş qaytarma fəqiri, dolu çıxar evindən.

Ocağının istisi istərsən tükənməsin –
Aradan əsən yeli, çölü çıxar evindən.

Ağlı başıında kəsin pis havada nə işi? –
Belə tufanda çıxsa, dəli çıxar evindən.

Şaxta quduzdu,Vaqif, bürün səbrinə qat-qat,
Bərk durmasan Allahın əli çıxar evindən!

## QANADLI QONŞULAR

Səksiz Allahı var çöldə quşun da,
Qanada vətəndi səma, Göy üzü.
Quşu qırılıbsa üfüq tuşunda,
o halda gərəkdi kimə Göy üzü?

Yerlə Göy arası həyat dalanı,
Göyə tamarzıdı Yer üzü nədən?

Enib Göy üzünün qanadçalanı
gərək lələk çəkə Yer üzünə də.

Əzəldən quluyam sadə hikmətin,
Vaxtında qılmışam bu işə tədbir,
Say ki, Göy üzüdü məhləm, həyatim,
Başıma yığmışam quşları bir-bir,
Talvarım günnükdü,
çardağım çətir.

Gəlib duranacan qapı tuşunda
quşlar iqlim-iqlim lələk sındırıb.
Yaxşı ki, deyirəm taxtapuşumda
taxta nəfəsliyi külək sındırıb.

Dam da ki, dam deyil, eynən şadara;
deşilib!..
uşaqlar daşı vurublar.
Divarın çatlağı yoldu quşlara –
qopub ara-bərə,
o vaxt ustalar
yaxşı ki, suvağı naşı vurublar.

Açarı cüt-cütdü bağ evimizin,
Biri göyərçində,
biri məndədi.
Vecinə almır ha vurarlar gizlin...
çərçi sığırçının fikri dəndədi.

Baş vurur hovuza sərçəcik paşa,
qumru yoncalıqda, qaz çəməndədi.
İşıq dirəyinə qonan dolaşa
Quş deyil,
montyor Əlibəndədi.

Tutun dəymişini qarğalar yeyır;
Qisməti ayrıdı hər yaranmışın.
Varlığa nə darlıq,
verən, – var, – deyir,
Alt otaq bizimdi, üst qaranquşun...

# 2. QOŞMA USTÜNDƏ

## ÖZÜ ÖZ SAÇINA SIĞAL ÇƏKƏN QIZ

***Bir qəşəng qız şana barmaqlarıyla saçını sahmanlayır, ipək telinə sığal çəkə-çəkə bir ahılın qarşısından keçirdi. Pərişan qoca o ötən gözələ baxır, ürəyində belə deyirdi...***

Nahaq sənə tərəf çöndü baxışım,
Günahkar gözümə milçəkən hanı?
Gül vurdu qış vaxtı tale naxışı,
Cılız can çəkərmi ilçəkən anı?

Cavanlıq çağıma gedən yol batdı,
Yolu yumrulana yolçəkən hanı?
Ömür ki, köhləndi rüzgar qanadlı,
Varmı çıxış yolu, yelçəkən hanı?

Tərifi dizinə endirən dağ-dağ
O hansı Fərhaddı, kimdi o qoçaq?
Hüsnünü vəsf edər yaradan ancaq,
Lal aşiq nitqində dilçəkən hanı?

Başıboş abdalam girsəm oyuna,
Heç sən də qıymazsan abrı soyunam.
Bu taxta ayaqla uca boyuna
Qalxmağa davamlı pilləkən hanı?

Gərək doğulaydın otuz il əvvəl,
Nə mən soruşardım qalıb məəttəl:
– Özü öz telinə əl çəkən gözəl,
Böyründə saçına əl çəkən hanı?

## QIZILGÜL GÜLƏNDƏ

Adamdan yol gedir düzə, çəpə də,
Hər işin öz çəmi var... yetişəndə.
Əl yetmir meşədə quru çöpə də,
Keçid kilidlənir qar yetişəndə.

Aqillər köksünə min həvəs dolur,
Nadan həvəs bilməz, eyzan süst olur,

Ya şəhid, ya qazi, ya şikəst olur,
Heyif, sultan olmur ər yetişəndə!

Kimlərə qismətdi zirək çıxacaq? –
Umma ki, boşluqdan dirək çıxacaq!
Ha yana əl atsan çürük çıxacaq
"Çor" üzə duranda, "çər" yetişəndə.

Qönçə bükümündə tərg olur biri,
Biri suya dönür, bərk olur biri...
Günah dəryasına qərq olur biri,
Kamına yetişmir hər yetişən də!

Vədəsi ötən gül solar, saralar –
Qoyma ki, lalənin bağrı qarala.
Qönçəni saplaqdan ehmal arala
Bas könül yarana, dər, yetişəndə.

Vaqif, bu qismət var bəydə, nə xanda,
Neçə ki, bitməyib əcəl yaxanda,
Qızılgül güləndə, nərgiz çıxanda
Ömrün qədəminə sər, yetişəndə.

## YAŞAMAQ YOLU

Şirənin şəhdini pətək göstərər,
Umma fələk sənə ətək göstərə;
Fəndgirdi, fəndini tək-tək göstərər –
Yaşatsa, kamalın yaşadar səni!

Ömür başa vardı...
nə təhər oldu?
Heç yığval olmadın, dərbədər oldun!
Mizraba deyərsən, mən gedər oldum,
Simlərə söylərsən, yaşa, tar, səni!

Səkərsən əlində varsa ixtiyar!
Bəxtinin yolunu döysə boran, qar.
Dizinin dibini kəsdirən dostlar
Quru bürmələyər, yaş atar səni!

Bulmaqçün aynanın parlaq üzünü
Seçir kəlmələrin mindən yüzünü –
Sirğa et qulaqda Vaqif sözünü,
Səndən sən qalacaq;
yaşat, ha, səni!

## DİRİLİYİN ŞƏRTLƏRİ

Yaxşı tələbəyəm;
min sual soruş,
Birini bilməsəm, heçə say məni.
Baxma ki, qocayam, qəddim kəm olmuş –
Yerimi bilməsəm, heçə say məni.

Dartsam da canımı ahıl təhrində,
Üzməyə qabiləm ağıl nəhrində.
Çalsa şahmar ilan,
acı zəhrində
şirini bılməsəm, heçə say məni.

Qəfilcən quruyub tərg olsam əyər,
Sayəmə sığınnam görk olsam əgər.
Dərya dayazında qərq olsam əgər –
Dərinu bilməsəm, heçə say məni.

Qəvvaslar dərində axtarır ləli,
Uzanır alt qata, qum eşir əlim...
Gözümü tutanda dəryanın lili,
Durunu bilməsəm, heçə say məni.

Savabım günahla çəpinə düşsə,
Boğazım fələyin ipinə düşsə,
O qaynar qazanın dibinə düşsəm,
Sərini bilməsəm, heçə say məni.

Vurğun ürəklərin sevgidir varı,
Torpaq da çürütmür təmiz ilqarı...
Öləndə gözümə görünsə yarım,
Dinib dirilməsəm, heçə say məni.

## ÇARƏSİZ QOŞMA

***Haqsızlığa tuş gələn mərd bir insanın xatirəsinə***

Yaman tez qocaldıq, ey insan əsli,
Arxanda durmağa hey hanı bizdə?
Hanı Mirzə Cəlil, Üzeyir nəsli,
Andı qeyrət olan bəy hanı bizdə?

Başından dağ çürük,
dibindən dərə,
Bir miskin qismətin quludu hərə!
Dikələn başları soxublar yerə,
dikəlib baxmağa Göy hanı bizdə?

Nə əhd, nə etibar, nə hünər qalmış,
Xəzinə talanmış, nə gövhər qalmış!
Müdhiş bataqlığı bürümüş qamış,
Qamışdan yonulan ney hanı bizdə?

O el xoşbəxtdir ki, axmağı çoxdu,
Aqili möhtacdı, səyləri toxdu!
Şəksiz, əcdadından xəbəri yoxdu,
Biri durub desə, – "səy" hanı bizdə?!

Bu da bir qismətdi,
nə qorx, nə üşən,
Qəzanı fəhm elə,
bizi də düşün!
Qabanı gəbərdən, donuzu deşən
Ox hanı, gərilmiş yay hanı bizdə?

Deyəsən, bir xeyli uzandı lafım,
Bir az sərt danışdım,
nədən ki, safam!
Ucanı alçaldan qatı əclafın
Başına çırpmağa şey hanı bizdə?

## 3. GƏRAYLI ÜSTÜNDƏ

### NƏYİM VAR

Vərəvurd eləyirəm –
nəyim yoxdu, nəyim var.
Çiçəyi neyləyirəm,
söz kimi çiçəyim var.

Canım sözün yoludu,
Yol da, söz də uludu.
Ruhum kəlmə quludu,
Dilim var, dilçəyim var.

Haram əlimə gəlməz,
Kafər yoluma gəlməz!
Yalan dilimə gəlməz –
börküm var, birçəyim var.

Qat açır ütü kimi,
Sözüm –
yaz otu kimi.
Yaxası qutu kimi
düyməli pencəyim var.

O nədi,
nədən hürküm?!
Hikmətdi, sözdü yüküm!
Tufanda kəlmə kürküm,
qarda bürüncəyim var.

Qış qismətim darıdı,
Rəbbin yadigarıdı!
Qalım – fani varıdı,
ölümlü gerçəyim var...

## DƏRDİN DƏRƏCƏSİ

***Yatmış hamı, bir Allah oyaqdı, daha bir mən,***
***Məndən aşağı kimsə yox, ondan da yuxarı.***

*M. Şəhriyar.*

***Ruhum, dur yığış, gedirik***
***Sən yuxarı, mən aşağı.***

*R. Rövşən.*

Yol yanıldır gumanımı,
hopuram izdən aşağı.
Buz dondurur dabanımı,
qan axmır dizdən aşağı.

Dibə çatan kankan hanı,
Haqqa məskən məkan hanı?
Dalğıcda o imkan hanı
dala dənizdən aşağı?!

Hadı dünya, Bıdı dünya,
Son mətləbin nədi, dünya?

Tutma mərdi, gidi dünya,
quldan, kənizdən aşağı!

Alışmaqdı ömrün adı;
Hər çınqının ayrı dadı...
Sümüyəcən yanır odun,
kül qalır közdən aşağı.

Fələk çərxi dönə bəlkə,
Aram ola sinə bəlkə,
Can yanğısı sönə bəlkə?..
yaş axır gözdən aşağı!

Sinəmdə qəm büküm-büküm,
Sığmır cana ağır yüküm.
Təpitmir ağrımı tütün,
qatranı yüzdən aşağı!

Vaqif, sözü böyütmə çox,
Giley nə çox, öyüd nə çox.
Allahdan üstdə kimsə yox,
Kimsə yox bizdən aşağı.

## VAQİF GƏRAYLISI

Dik başını qar aldıqca
ucalır başı Vaqifin.
Ömrün qaşı qaraldıqca
ağarır qaşı Vaqifin.

Sübhdən qurub alaçığı,
Sirdi gedib-qalacağı...
Nuh-Nəbidən yola çıxıb,
qədimdi yaşı Vaqifin.

Yollar aşır sinəsindən,
Tel-tel dinən sinə... simdən!
Fələk əzən çənəsindən
tökülür dişi Vaqifin.

Üçü qatil –
çarpasıdı,
dördü xəsil arpasıdı;
Fəhm eləmə arbasıdı
hər yetən kişi Vaqifin.

Zalım oxlar dələr keçmiş,
Nakam şikar mələr keçmiş,
Bərəsindən nələr keçmiş
ifallı, naşı Vaqifin?!

Tanrı şaxdan gözəl dərib,
Rəbbi gözdü – gözəl, dərin!
Qurban olsun gözəllərin
birinə beşi Vaqifin!

Çırpılıb hicran daşına;
Bəsdi demir savaşına.
Düşür düşmənin başına,
ağırdı daşı Vaqifin.

Meydan açır, dava gəzir,
Saf su, təmiz hava gəzir!
Haqqı qova-qova gəzir –
müşküldü işi Vaqifin...

## ÇIXIRAM

Sonda qəfil alışır şam –
üfürüb közə çıxıram.
Dünya, məndə qərq olursan,
mən səndə üzə çıxıram.

Çıxılmazam – quyu kimi,
Açılmazam – düyün kimi...
Kor bulağın suyu kimi
tükənib aza çıxıram.

Mən qəribəm, dünya tilsim,
Dərd gərilib canda sim-sim.
Qana qəltan olur hirsim,
sıçrayıb gözə çıxıram.

Çox da verdin işgəncələr,
Dünya, əcrin getdi hədər...
Axşam Aya dönüb, səhər
Gün kimi təzə çıxıram.

## YORULAR

Qazan yağdan döyməc tutar,
balı daşan şan yorular.
Şah damarı kirəc tutar,
can suvaran qan yorular.

Bulud ötər pəmbə-pəmbə,
hər pəmbəsi qərib bəndə...
Ömürbillah yatar tənbəl,
qoçaq anbaan yorular.

Qəzəb batman, nəfəs cirə,
Polad millər birər-birər...
Nərə çəkər qəfəs içrə,
şir sönər, aslan yorular!

Çöl bürünər ağ cunaya,
Mömin açar ovcun Aya.
Xıxar quma ağcamaya,
ovsarlı karvan yorular.

Dinclik bilməz bircə hovur,
Ovçu demə, denən, gavur!
Axşam-sabah şikar qovar –
kəl çökər, ceyran yorular.

Vaqif, nədi ömür yükü:
Meh uçuran sərçə tükü...
Milyon ildi əkib-tökür,
Heç denən insan yorulur?!

## DEQRADASİYA

Tükənirəm... Tanrının “Ol!”
sözü yadımdan silinir.
Ya diri qal, ya da ki, öl! –
dözüm yadımdan silinir.

Tək dərdim artıb üç olur,
Üçü toplaşıb güc olur...
Atdığım addım puç olur,
izim yadımdan silinir.

Anamın qənddanı, noğulu,
Toyumda kəsilən toğlu,
Atam, qardaşım, oğlum,
qızım yadımdan silinir!

Kim kim idi, kim nəçi,
Bacımın oğlu "Əçi",
Qoruqçu Qaytaran, pinəçi
Əzim yadımdan silinir.

Ömür yuxuymuş, yuxu –
Nə rəng duyur, nə qoxu...
Çıxara çıxır çoxum,
azım ydımdan silinir.

Şahlıq quşu qonar nerdən? –
Saçda tük varmı düşə dən...
Dalımca düşüb sülənən
tazım yadımdan silinir.

Baxışı oxlu, nizəli,
Duruşu, yerişi qəmzəli,
Dərdimdən ölən gözəlin
nazı yadımdan silinir.

Vaqif qınamaz heç kimi,
Dibdən bilirdi püşkünü...
Daş tök, tanrı, ilk eşqimin
üzü yadımdan silinir.

## ŞUMLAMA

Ta ki, yer tutdu ayağım,
bənzədim zəhmət büstünə.
Zikr etdim can şumlamağı,
tələsdim əkin üstünə.

İnad, hünər, damcı dadı...
Övkə, ciyər qançırladı.
Alnımdan tər damcıladı
cərgənin, ləkin üstünə.

Əkin daşlıq, can şüşədi,
zərbələrlə döş-döşədi.

Tarla işi şeşqoşadı –
atılır yekin üstünə!

Gün qaraltdı bət-bənizi,
Xar elədim qul, kənizi...
Dərə boyu qırdım dizi,
yol aldım dikin üstünə.

Qəzəb qəlbə, bıçaq yağa,
Qamçı belə, qan qurşağa...
Çalışan bir; altı ağa
təhkimdi təkin üstünə!

Tərs uçarın yolu olmaz,
Şəhdi-şirin gülü olmaz.
Cır arının balı olmaz –
ha çiçək tökün üstünə.

Buza içirtdim qanımı,
Yel sovurdu gümanımı.
Yorğan isitmir canımı,
torpağı çəkin üstümə!

Şər qarışdı; yurda birbaş,
Bu da komam, divarı yaş!
Qadir Allah olaydı kaş
sübhəcən sakin üstümə!

## HƏRƏ BİR CAN BORCLUDU

Dünya qurbangah yoludu –
köhnə qurban,
təzə qurban...
Fəqir yolu, şah yoludu –
Tanrı salan izə qurban!

Kim istəməz yeri qala,
Qalsa, mindən biri qalar!
Can umsa ki, diri qala,
Gərək qurban kəsə qurban!

Hikmət alan gözaltına
Közü çəkməz öz altına...
Çiyin verib söz altına,
Bükülməyən dizə qurban!

Söz dağıdı yaram varsa,
Söz sağaldar çarəm varsa...
Haqq yolunda haram varsa,
Yalan ömrüm sizə qurban!

Dərd fələkdi, saçı tüstü,
Qardaş külək, bacı tüstü...
Göz yaşardır acı tüstü,
Küllər gedir, közə qurban!

Toza bulaşmaz pakımız,
Mehlə azalmaz çəkimiz...
Bu ata, azman Bakımız
O ana Təbrizə qurban!

El yolunda giryan olduq,
İki canda bir can olduq.
Biz hamıya qurban olduq,
Olan hanı bizə qurban?!

Dizdə buldum dirəyimi –
Dik saxladı kürəyimi.
Haqq yolunda ürəyimi
əhd elədim dizə qurban.

O ki, son söz qaldı mənə,
Aidəm ruh, nə də tənə!
Aləmlər qurban vətənə,
mənim canım sözə qurban...

## 4. "YERİYƏRKƏN DEDİYİM ŞEİRLƏR"DƏN

### NƏTİCƏ

Bəllidi insan dölü –
Zaman dönmür dəbindən.
Kişi şərabdan ölür,
Arvad şəkər həbindən.

## XƏTAYA DÜZƏLİŞ

Yaz, payız – olmayacaq... hətta, düşünmək də zor!
Deyirlər iki fəsil çıxacaqdır aradan.
Tanrı yazıb dörd fəsil, indi bir cütün pozur...
Xətaya yol veribmiş sən heç demə Yaradan!

## FƏLƏK

Min fəndi var fələyin –
Batır, keçsə də ələ kim!
Yolum bərbad, taleyim
Atın çapır hələ ki!

## NÖVBƏ

Qar örtür ləpiri izə çatanda,
Dərd buzdu –
dondurur dizə çatanda.
Həm hava qarışıq... həm də sən yoxsan,
Kələf düyün düşür bizə çatanda...

## LAP SONDA

İlahi atadan sızır cana qan,
İlahi anadan doğulur insan.
Lap sonda ata da, Allah da ölür,
Adamın anası ölmür heç zaman!

## BƏND

Nəyim var, nəyim oldu;
Yox da gərəyim oldu!
Ağıldan yarımadım,
Nağıl gərəyim oldu!

## SİÇAN DEŞİYİ

İnsan, canım, nə insan? –
İnsan cuppuş bir siçan!
Öndə halal bir deşik,
Ortada tabut-yeşik,
Sonda haram bir deşik...

Kim yarıdı, sevildi,
Hanı o şən civilti?
Əvvəl nədi? – Sona yol!
Biz gedən yolun adı
Siçandan siçana yol!

## DÜSTUR

Nə ruh, nə can, bir zaman
axmırmış damarda qan,
İzim-tozum yoxmuş mənim.
Həmrəy olmuş Yerlə Göy
Fərmanım çıxmış mənim:
Qurban olduğum
Qurban olduğuma
qurban doğmuş məni!

## POETİK ƏMƏL

Saça yağan qarmı, dənmi,
Gözə çökən çən budurmu?
Fələk vuran hasil kəmmi,
Fərqli qismət, cəm budurmu?

## KÖRPƏLİK, CAVANLIQ, QOCALIQ

Körpəlik gəlir, gedir;
Gözdən yaş silir gedir.
Cavanlıq gəlir, gedir –
Eşq nədi, bilir gedir.
Qocalıq gəlir... getmir,
Adamla ölür... getmir!

**P.S:** *Onun ətəyini buraxma əldən,*
*qocalıqdan qopan qopur təməldən!*

---

*Hörmətli Vaqif müəllim!*

*Sizi 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, bundan belə daha böyük yaradıcılıq uğurları və uzun ömür arzulayırıq!*

**“Azərbaycan” jurnalının redaksiyası**

*Mübariz CƏFƏRLİ*

# AĞACDA ALMA



♦ *Roman*

***Bütün günahlar almadadı...***

..."Qulağ ver, hayıl-mayıl ola-ola bəh-bəhlə altında oturduğun o alma ağacı var e, həyətin ortasında... Barının ağırlığından yarpaqları yerə dəyir o ağacın... Altı, ətrafı gün işığına həsrət qalıb... Stol, stul da qoymusan ora... Necə deyirsən onu, özünə təbii, yox e, təbiətdən kabinet düzəltmisən, yenə çaşdım, deyirsən ki, təbiət özü sənə təbii kabinet düzəldib. Qanmıram ki, səhərdən-axşamacan nağayrırsan, nə yazıb-pozursan orda... Heç düz-əməlli yazıb-pozana da oxşamırsan, amma stolunun üstü ağ, qalın kağızlarla, cürbəcür qələmlərlə, karandaşlarla, əyri-üyrü xətkeşlərlə doludu. Şəkilçəkənə, rəssama da bənzəmirsən. Heç indiyəcən baş aça bilmirəm sənin sənətin nədi, nə işlə məşğulsan, hansı yuvanın quşusan, bir-iki kərə soruşsam da, cavabından heç nə qanmamışam, ağlım bir şey kəsməyib, ona görə çəkilmişəm kənara, anladığım bu olub ki, sən həftəbecər alimsən, yerdə, göydə, yan-yörədə, ətrafda nə var, hamısını qatıb-qarışdırırsan. Bu istidə hamı dağa gedir, bağa gedir, çaya gedir, gölün qırağında dincəlir, sən səhərdən-axşamacan o şoğərib ağacın altından çıxmırsan... Cıxanda da gedib eşələnirsən meşənin qırağındakı qəbiristanlıqda... Sənəmin qızı dedi mənə ki, neçə kərə vedrə bazarına gedəndə səni qəbiristanlıqda, qəbirlərin arasında gəzişən görüb. Bura bax, nə görmüsən axı bizim o köhnə məzarlıqda, min ilin ölülərindən nə istəyirsən, sənin rəhmətliklərlə nə alış-verişin? Nə də soruşuram, həqiqəti gizlətməkdən, düzünü deməməkdən ötrü hər şeyi gülməklə, zarafatla yola verirsən... Mən də özümü qanmazlığa vurub dərinə getmirəm... Həmişə özünlə gəzdirdiyin, üstündə elə, deyəsən, alma şəkli olan balaca əl kömpüteri də sanki sənin üçüncü əlindi. Rəhmətlik babam deyərdi ki, kəramətli, seçilmiş adamların üçüncü gözü, yəni bəsirət gözü də açılır, ona görə onlar uzaqgörən olur, gələcəyini qabaqcadan duya bilir. Səninsə üçüncü əlin çıxıb, sən necə adamsan, bilmək müşküldü, qəlizdi... Hərdən canım yandığından sənə çay gətirəndə də görürəm ki, nəsə ilan-qurbağa çəkmisən qabağındakı iri, enli, qalın kağıza... Elə bil oturduğun taxta stulda da deyilsən, ayaqların yerdən üzülüb, dünya-aləmdən xəbərsizsən... Mən də ehmalca çayı sənin qabağına qoyub dinməz-

söyləməz çıxıb gedirəm... Çünki həm sənin fikrini dağıtmaq istəmirəm, həm də o ağacın altında çox qalmaqdan, çox dayanmaqdan çəkinmirəm, yox, belə... üşənəntəhər oluram... Hə, elə yaxşı yadıma düşdü, bax, sən mənim gətirdiyim çayı nədən içmirsən? Fikir vermişəm, soyudub-soyudub tökürsən yerə... Bişirdiyim xörəkləri ləzzətlə, nuşcanlıqla, iştahla yeməsəydin, ağlıma pis şeylər gələrdi, deyərdim, insandı da, bəlkə çimçəşir, iyrənir məndən?.. Amma bilmirəm gül kimi ətirli, xoruzquyruğu, dəmli çayı nədən ötrü israf eləyirsən... Mən dəmlədiyim çay-dan heç Hindistanda da yoxdu e, bir-iki dəfə eyvanda süzmüşəm axı sənə... Dadına baxmısan... Nəsə... Bu heç, hər nədisə, özün bilərsən... Heç bilmirəm nə təhər deyim... Hayıfım gəlir, hayıfım da yox e, yazığım gəlir sənə... İraq-iraq, qorxuram sənin başına bir iş gələr o ağacın altında... Mat-məəttəl qalıb, çaşbaş-çaşbaş, matdım-matdım üzümə baxma, yer üzündə o ağacdan sırtığı yoxdu... Bilmirəm ağaca "sırtıq" demək olar, ya yox?.. Ancaq ağac da canlıdısa, adam kimi nəfəs alıb-verirsə, həlbət ki, olar... Adamların həyasızı, üzlüsü, min sifətlisi varsa, yəqin heyvanların da, lap belə, böcəklərin, ağacların da eləsi bəs deyincədi... Neçə kərə sənə demək istəmişəm ki, oturma orda, yaşı bilinməyən o ağacdan hələ heç kəs xeyir görməyib... Ancaq ki, son məqamda mətləb üstünə gələ bilməmişəm, qorxmuşam ki, xətrinə dəyər... Elə bilərsən ki, qıymıram sənə nəyisə... Eh, mənim üçün nə fərqi?.. Bütün ev-eşik, həyət-baca, ağac-uğac, belə canım sənə desin, kol-kos qurbandı sənə... Harda kefindi otur, uzan, lap mayallaq aş... Onsuz da səndən başqa mənim qapımı ya külək açır, ya da yol azanlar... Sən də ki, hər il bütün yayı mənim qonağım olursan, gülmə, gülmə, bilirəm ki, düz danışmıram, adam qonaq-dan pul almaz, sənsə hər gələndə bir ətək pul verirsən mənə burda qalmaqdan ötrü... Fəqət, inan ki, imkanım olsa, bir qəpik də götürmərəm sənnən. Çünki pul təkcə əl çirki deyil e, şeytan tələsidi... Var-dövləti heç kəs dalına şələləyib aparmır o biri dünyaya. Yer üzünün bütün ləl-cəvahiratını yığsan da, itirdiklərini geri qay-tarmaq olmursa, demək ki, hər şey puçdu, əbəsdi, baş aldatmaqdan ötrüdü, yox, əgər sərvətini oğul-uşağından, nəvə-nəticəndən ötrü topladığını düşünürsənsə, bilmək olmaz, törəmələrindən ötrü saxladıqların onlara firavanlıq gətirəcək, yoxsa dərd-bəla?.. Mıxı mismar eləyəndi o gözəgörünməz... Fələyin elə ağlasığmaz işdəkləri olur ki... İntəhası, nə olursa-olsun, mənim burda da tutacaq yerim yoxdu, nədən ki, quqquluqu təkəm... Məndən sonra ip qırılır... Belə alındı... Alındı da yox e, alınmadı... Oldu kəlləmayallaq... Yatsam yuxuma da girməzdi ki, illər ötüşəcək, mənim kimi gözəllər gözəli evdə qarıyacaq... Gözlərindəki bic təbəssümdən görürəm: "Heç kəs öz ayranına turş deməz" – fikri keçir sənin ağlından. Albomdakı cavanlıq şəkillərimi göstərmişəm də sənə... Baxma ki, o şəkillərin çoxu ağ-qaradı, fotoqraf Tahir əli əsə-əsə çəkib. Sanki uzaqdan ilan görübmüş şəklimizi çəkəndə. İlandan qorxduğuna görə kənddə adının qabağına "ilan" ləqəbi qoymuşdular rəhmətliyin. Olmuşdu ilan Tahir. Nə fotoqraflığını, şəkilçəkənliyini dilə gətirən olurdu, nə də adını. Elə "İlan" deyən kimi camaat bilirdi söhbət kimdən gedir. Hərdən cüvəllağı cavanlar yoğun kəndiri qara, qəhvəyi rəngə boyayıb atırdılar bədbəxtin balaca şəkilçəkən otağının qapısının ağzına, hırıldaya-hırıldaya qışqırışırdılar ki, Tahir, qapının ağzında yekə bir gürzə yatıb. Binəva, biçarə Tahir də qorxudan əsim-əsim əsirdi, qapını möhkəm-möhkəm bağlayıb axşamacan otu-rurdu içəridə, ta o vaxtacan ki, oğlu Tofiq gəlib atasını dilə tuturdu ki, ay dədə, qorxma, vallah-billah, bayırda ilan-zad yoxdu, zatıqırıqlar, ana-atasından bixəbərlər

yenə səninlə məzələnirlər, mənəm, Tofiqdi, çıx bayıra, çəkinmə... Atası qorxusundan tir-tir titrəyirdi, Tofiq də hirsindən zəncir çeynəyə-çeynəyə qapqara qaralırdı, söyüb-söylənirdi ki, belə yaramaz hərəkətlər eləyəni tutsam, ağzını cırıb qoyacam qulağının dibinə. Ancaq hamı bilirdi ki, kim, kimlər eləyir bu yaramazlığı, bu alçaqlığı, bu əclaflığı, bu qələti, böyüyüb rayon mərkəzinə bitişən kənddəki cüvəllağılar kimdi... İntəhası, tutulmayan oğru xandan-bəydən irəlidi, gedib kimin yaxasından yapışasan sübutsuz-filansız?.. Biçarə Tofiq yalan-gerçək çığır-bağır salıb, o cüvəllağıların qarasınca söyüb söylənsə də, çəkinirdi əslində. Neyləsin, onlar çox idi, Tofiq yazıq tək... Adi zarafata görə araya qan salmayacaqdı ki?.. Ən məzəlisi bu idi ki, bizim tərəflərdə binadan, yerli-dibli ilan olmur, kəndimizdə sonuncu kərə ilan görən çoxdan ölüb gedib yəqin... Deməyim odu ki, rəngsiz şəkli də qapqara, kölgəli çıxardıb rəhmətlik Tahir. O vaxtlar texnika da indiki kimi deyildi axı, adi şəkil iki-üç günə ərsəyə gəlirdi. Amma yenə də o şəkillərdə mən hamıdan gözəgəlimliyəm. Hayıf o qaş-gözdən, qədd-qamətdən... Ən böyük nemət cavanlıqmış... Adam gərək ölüncə qocalmaya... Elə iyirmi yaşındakı kimi qala... Qızın-qadının qocalmağı lap betər olur, pis olur, bəzən az qala iyrənci olur... O bəziləri deyirlər e, guya, insan meymundan törəyib, ya nə... İndi hərdənbir gözüm güzgüyə sataşanda buna zərrəcə şəkk-şübhə eləmirəm. Məxluq üzü o tərəfə yaxınlaşdıqca doğrudan-doğruya öz əcdadlarına bənzəyirmiş. Fəqət, axır vaxtlar hərdən, hərdənbir də yox, lap tez-tez fikirləşirəm ki, hər şey başqa cür ola bilərdi, yaxşı ola bilərdi, firavan ola bilərdi. Cadu-pitiyə inanmasam da, elə bil mənim bəxtimi bağladılar... Olmadı... Sanki bütün qapılar üzümə bağlandı, dayaq üçün hara əlimi atdım, çürük çıxdı, ovulub töküldü. Hamısı da o şoğərib ağacın ucbatından... O ağac ki, barı, yepyekə alması bir ovuca sığışmır indi. Amma əvvəllər cır alma olub... Deyirlər, neçə kərə də kəsiblər o ağacı, baltanı acıqla, hirs-hikkə ilə az qala lap kökündən vurublar, di gəl, tamam məhv eləyə bilməyiblər, gözlərini yumub-açmamış, bir də görüblər ki, ağac təzədən boy atıb... Özü də əvvəlkindən də qollu-budaqlı, əvvəlkindən də yekə olub... Kəsilib təzədən boy atdıqca, gövdəsi, qol-budağı kimi meyvələri də böyüyürmiş... Həm də heç bir alma sortuna, növünə bənzəmir onun dadı-tamı... Bilmək olmur Qızıl Əhmədidi, Sinabdı, Palmetdi, Sibir almasıdı, nədi?.. Bəlkə də dəyişib dadı-tamı... Mən çoxdandı çəkinirəm o ağacın meyvəsini, barını yeməyə. Yetişdikcə qonum-qonşuya paylayıram, yerə düşüb bir tərəfi çürüyənləri də mala-heyvana verirəm. Sən özün yemisən də, bilirsən ki, tamam fərqli dadı var, dəyişməyibsə, elə bil sadaladığım bütün növlərin, sortların qarışığıdı, kəsəsi, sözlə anlatmaq müşküldü... Özü də ilin hansı vədəsində, haçan gəlirsən-gəl, yarpaqları sımsıxdı, almaları, bar-bəhəri də ki, üstündədi ağacın... O ağacın yarpaqları heç vaxt saralmır, qurumur, xəzan olub yerə tökülmür, o ağacın tumurcuqlamasını, gül açmağını görməyim də yadıma gəlmir. Nə qışın şaxtasından qorxandı, nə yayın istisindən... Külli-aləmi gəz-dolan, bu boyda, bu yekəlikdə alma ağacı tapmazsan. Həm də ki, göbələyə, salxım söyüdə oxşayan... Sanki sımsıx yarpaqlarını yorğan kimi, lap düzü, çətir kimi üstünə çəkib ətrafdan qorunur, ona görə isti-soyuq, yay-qış, lap belə gecə-gündüz vecinə deyil. Beş-altı ilin söhbətidi, qonşuya bir sısqa, keçəl kişi gəlmişdi, heç bilmirəm, yadımdan çıxıb, yolu bizim həyətə necə düşdü. Hə, o sısqa, ayaqları spiçka çox hərləndi bizim alma ağacının altında, yan-yörəsində... Dərib bir-ikisini də yedi. Mən şübhələndim, amma qonşu dedi ki, bu kişi bilikli adamdı, şərəşür-filan deyil, şəhərdə yaxşı vəzifəsi, hörməti-zadı var. Hər

nə isə, “Nə olar, nə olmaz, yox yerdən başım ağrıyar...” – fikirləşdim, gedib kəsdirdim spiçkaayağın çənəsinin altını. Çənəsinin altı demək də düzgün çıxmır, yazıq mənim çiynimdən idi. Kişi gözlərini qıyaraq bir xeyli ağaca müştəri gözü ilə baxıb birdən-birə qayıtdı ki, bu elə-belə, adi alma ağacına oxşamır. Gərək Akademiyadakı mütəxəssislərə danışım, gəlib əməlli-başlı araşdırsınlar buraları, bu ağacın barını, toxumunu, kökünü, gövdəsini, budaqlarını, yarpaqlarını... Bir sözlə, hərtərəfli işə girişsinlər. Mən botanik, nəbatat deyiləm, amma əminəm ki, bu ağacın kökləri lap dərinə, min illər qabağa gedib çıxır, illərlə araşdırma tələb eləyir ki, ağac bildiyi sirləri, mətləbləri açsın, anlatsın bizlərə... Bu məsələyə adi iş kimi baxmayın, bəzən çöllükdən tapılan qədim bir saxsı parçası həmin ərazinin tarixini salnaməçilərdən dəqiq nəql eləyir... Başladım kişiyə yalvarıb-yaxarmağa ki, sən Allah, elə iş görmə, sakitcə oturub birtəhər günümüzü yola veririk, güzəranımızı keçirib başımızı girləyirik, bu dəfə insan əli ilə bu ağacın bircə yarpağına xələl gəlsə, yəqin ki, nəinki evimiz başıma uçacaq, ətrafda nə varsa, qupquru quruyacaq, bütün kənd otsuz-qanqalsız ölü çölə, susuz səhraya çevriləcək, səni and verirəm ölənlərinin goruna, çox şişirtmə, ağacdı də, adidən də adi alma ağacıdı, heç kəsə, heç nəyə maneçiliyi yoxdu, sakitcə durub yerində... Həm lənətləyirdim, qarğıyırdım alma ağacını özlüyümdə, həm də qorxurdum... Nə olursa-olsun, bu ağacla bağlı işıqlı xatirələrim də var idi axı... Üç bacı, bu ağacın altında evcik qurub oynayardıq, yazıq canım, böyük qız olduğuma görə həmişə ana olardım mən oyunda. Qardaşım dünyaya gələndən sonra atam ağacın altında yüyürük düzəltdi, biz ehmalca yelləyərdik, uşaq o yüyürükdə mışıl-mışıl yatardı. Mənə bax, necə yəni yüyürük nədi, sən heç bizim dilimizi düz-əməlli bilmirsən ki... Yüyürük yəni nənni, budaqdan sallanan asılqan beşik... Dədəm evdə olanda qürrələnə-qürrələnə gəlib yatmış uşağa tamaşa eləyərdi, qardaşım oyanıb elə gözüyumulu balaca, nazik qollarını yuxarı qaldıranda kişi qımışıb bığaltı pıçıldayırdı ki, bu uşaq da bizim kimi Allah adamı olacaq... Allah, din-iman öz yerində, ancaq spiçkaayaq Nuh dedi, peyğəmbər demədi, iki ayağını dirədi bir başmağa, üstəlik, şəhərdə məşhur botaniklərə göstərmək adıyla ağacdan da bir zənbil alma yığdı. “Siz nə danışırsız, ay xanım, necə yəni, adi alma ağacıdı bu, bəyəm mən koram, heç nə görmürəm, ya qanmazam? Bu məsələni belə qoymaq olmaz, bu, bəşəri məsələdi, hökmən gəlməlidi alimlər, bəlkə bu elm aləmində mühüm, dünyanın altını-üstünə çevirəcək böyük kəşfə səbəb oldu?.. Bilmirəm nədən çəkinirsiz, bəlkə sizin də adınız kitablara, dillərə düşdü, axı, bu ağac sizin həyətinizdədi...” Adım dillərə düşdü? Vay!.. Qurban olum, balama dəyməyin, balanızı istəmirəm... Necə yəni, dünyanın altı-üstünə çevriləcək? Deməli, zırhazır təkcə bizim kənd-kəsəklə bitməyəcək? Boy-buxununa bax, danışmağına bax bunun... Nə qəddar, nə əzazil kişiymiş bu spiçkaayaq? Qurbanolduğum dağına baxıb qar yağdırıb, qədd-qamətli olsaydı, dünyanı qan çanağına döndərərdi ki bu sısqa... Lap zəhrim yarıldı, gecələr də səksəkəli yatırdım, fəqət günlər keçdi, cırtdandan bir xəbər-ətər çıxmadı. Mənsə hələ də narahat-nigaran idim. Axırda canımı dişimə sıxıb sözarası qonşumdan soruşdum ki, ay Sənəm, yayda sizə gələn o balacaboy başbiləndən nə xəbər var? Demişdi axı bizə alimlər göndərəcək həyətimizdəki alma ağacından ötrü... Sənəm doluxsundu ki, bəs, sən bilmirsən, o kişi şəhərə qayıdanda qəzaya düşüb, o saat da canını tapşırıb, deyirlər, yazığın meyitini də, əzük-üzük olub yumağa dönmüş, elə yumru almaya oxşayan maşının içindən bir gün sonra güclə çıxardıblar, hayıf o

kişidən, çox bilikli, mehriban, həlim adamdı, Allah rəhmət eləsin, sizin alma ağacı üçün alimlər göndərib səni də ölkədə tanıtmaq qismət olmadı ona, hayıf, min hayıf, bəlkə o ağacın hesabına sənli-mənli biz də bir gün görəydik, heç kəsdə günah yoxdu, yəqin bizim alnımıza ağ gün yazılmayıb, ay bacı, elə görükür ki, sizin o ağac bizim kimiləri hələ çox yola salacaq. Sən saydığını say, deyiblər... Ağac-mağac heç, min ağac qurban olsun bir ikiayaqlı bəndəyə, hayıf o mələk kimi kişinin canından... Əlqərəz, Sənəm yüz kərə hayıfsılana-hayıfsılana, qəhərlənə-qəhərlənə, kövrələ-kövrələ, gözünün qorasını sıxa-sıxa çıxıb getdi, mən də dərindən köks ötürüb rahatlandım ki, şükür, bu dərd-bəlanı da öz-özünə adlatdıq. Ömrümdə birinci kərəydi ki, mənə heç bir pisliyi keçməmiş, üstəlik öz aləmində bəlkə də yaxşılıq eləmək istəyən bir adamın ölümünə sevinirdim, bu fikri neçə kərə qovub lap qışqıra-qışqıra inkar eləsəydim də, cidanı çuvalda gizlətmək müşküldü. Külli-aləmi aldatmaq asandı, çətini, qəlizi, müşkülü özünə yalan demək, özünə kələk gəlməkmiş... Hər nə isə, beləcə, bəxtiqara məxluq kimi başına min bir halət gələ-gələ, neçə kərə dibindən kəsilib təzədən qol-budaq ata-ata, o ağac gəlib çıxıb indi gördüyümüz halına... O, kəsilib yenidən yekəldikcə böyüyüb, cavanlaşıb, mənsə balacalaşmışam, qədd-qamətim əyilib... Çünki yəqin məni, heç bilmirəm necə, nə təhər deyim, “kəsən”, “budayan” olmayıb ki, təzədən boy atım. Heç bilirsən cavanlıqda mən necə qədd-qamətli, şümal kimi hündür, necə gözəl-göyçək idim?.. Ayaqlarım üzükdən keçərdi, belim də incə-mincə... Ayıb olmasın, day keçib də, qocalmışam, hər şeyi necə istəsəm, açıq-saçıq danışa bilərəm, lap həyət-bacada, elə sənin yanında soyunub lüt, çılın-çılpaq da gəzə bilərəm, day kimdi mənə baxan, mənə tamah salan?.. Hə, onu deyirdim axı, dalım da ki, necə lazımdı eləcə... Yupyumru çıxmışdı, baxanın gözünü deşirdi, ağzının suyunu axıdırdı... Uğunub getmə, biz nəsillikcə gözəl, dilli-dilavər, görüb-götürən olmuşuq, gözüaçıq olmuşuq... Dedim axı bayaq, üç bacı idik... Böyüyü mən idim. Alma ağacı başımıza oyun açandan sonra day mən ali məktəbdə oxuya bilmədim, özümü çürütdüm bacılarımın yolunda... İkisi də institutda oxuyub elə şəhərdəcə ərə getdi. İndi qapımı açmaq bir yana, heç olmasa ildə-əyyamda bircə kərə də əl telefonuma zəng vurub soruşmurlar ki, ay bacı, ay xala, nə təhərsən, sağ-salamatsan, ya ölmüsən?.. Axı sən bizə analıq, uşaqlarımıza nənəlik eləmisən, özün yeməyib bizi doyuzdurmusan, özün geyinməyib bizim əyin-başımıza vermisən əlində-ovcunda olan qəpik-quruşu... Hər nə isə, olan olub, keçən keçib, indi-indi, saçlarım ağarandan, belim büküləndən – sözgəlişi deyirəm, şükür tanrının böyüklüyünə, hələ belimin əyilməyinə çox var – damağımın dadı qaçandan sonra ayılmışam ki, düz eləməmişəm, gərək başqa çür yaşayaydım, gərək gözünün işığı üçün də ömrünü çürütməyəsən, gərək ən əvvəl özünü düşünəsən, özün üçün yaşayasan, çünki bu dünyada canı canından, qanı qanından olana da etibar yoxdu, hərəni öz kəfəninə bükürlər, hərəni öz qəbrində basdırırlar. Ona görə, illərdi ağaca qarğış eləməyimə baxma, bilmək olmaz o, mənə pislik eləyib, ya ağlımı başıma yığmağa kömək eləyib, vasitəçi olub... Fəqət gecdi daha, hər şey yuxu kimi, mürgü kimi keçib getdi, səd heyif ki, ağlım gec gəldi başıma, getməyə, qayıtmağa heç bir yol olmayanda gəldi... Həm də bundan sonra day hara gedəsən, hara qayıdasan?.. Ələyim ələnib mənim... Bir də ki, bütün hallarda qayıtmaq itirməkdi, ən azı, illərlə yerində saymaqdı... Geri dönsən də, istədiyin yerə çatmağa vaxtın qalmayacaq. Beləcə, hələ də haça-paça qalmışam, qanmıram o ağac mənə, təkcə mənə yox e, bizə, bu

evdə ömür sürənlərə dostdu, yoxsa düşmən? Bəzən ən çox istədiyin, canını belə əsirgəmədiyin get-gedə öz-özünə elə yadlaşır, elə qatı bir düşmənə çevrilir ki, min ilin ədavətlisi onun yanında yalan olur, qalırsan kəsilə-kəsilə, naəlac... Yazıq, mağmın məxluqat düz-əməlli hardan bilsin xeyir hardadı, şər harda?.. Belə fikirləşəndə rəhmətlik dədəm yadıma düşür. Kişi üç qızdan sonra, alnı yerdə, əlləri göydə bütün günü Allaha dua eləyirdi ki, oğlu olsun. Qurbanolduğum da onun duasını qəbul elədi, atama oğul, bizə qardaş verdi. Sevincdən əl-ayağımız yerə dəymirdi, qardaşımızı özümüzdən çox istəyirdik, gecə-gündüz onun başına dolanırdıq. Dədəm də bir tikə uşağa baxıb elə qürrələnirdi ki, sanki yeri-göyü yaratmışdı. Fəqət qardaşım böyüdükcə baxdıq ki, elə bapbalaca uşaq kimi zorla danışır; kəkələyir... Əslində, ürəyim əsdiyindən, özüm yumşaq deyirəm ha, çünki indinin özündə də həqiqəti çılın-çılpaq dilə gətirə bilmirəm. Kəkələmək nədi, qardaşım əməlli-başlı pəltək idi. Dədəm neçə-neçə doxtura göstərdi onu, çox təbiblərin qapısını döydü, ən ağır seyidlərin yanına getdi qardaşımla, ən qədim pirlərə nəzir-niyaz apardı, bir dəfə bizim köhnə qəbiristanlıqdakı daş pirinə bəri başdan niyyət eləyib qardaşımla gecəni də orda, meşənin qırağında yatdı, ancaq qardaşımın dərdinə əlac tapılmadı ki, tapılmadı. Sevincimizin üstünə yekə bir kölgə düşsə də babamın dediyini qulağımızda sırğa eləyib təskinlik tapdıq: "Buna da şükür, yəqin belə məsləhətdi, heç yoxdan min pay yaxşıdı... Min şükür, nə olub, maşallah, əli-ayağı yerində, sir-sifəti də ay parçası, nur saçır. Elə əsl kişinin az danışmağı yaxşıdı, insanın başına nə gəlirsə, dilinin ucbatındandı, dili uzun olanın boynu ilgəkdən qurtulmaz, bəlkə Allah balamızın dilini qısırmaqla onu başına gələcək böyük bəlalardan hifz eləyib, hə? Kim bilir?..". Fəqət bir az da keçdi, gördük ki, "azdanışan kişi" çıxıb alma ağacının kəlləsinə, əlini qoyub qulağının dibinə, səsini də atıb başına, bülbül kimi cəh-cəh vurur. Kəkələməyindən, pəltəkliyindən, dilinin dolaşmağından da əsər-əlamət yoxdu... Mat-məəttəl quruyub qalmışdıq, bilmirdik oxuduğu mahnıları hardan öyrənib, kimdən eşidib. Çünki dədəm, babam din-iman adamı idi, bizim evdə mahnı oxumaq nədi, musiqi dinləmək günah sayılırdı. Musiqi adına evdə eşitdiyimiz azan səsi olardı. Düzdü, qardaşım da məktəbə gedirdi, danışığında qüsur olsa da, müəllimlər birtəhər yola verirdi onu, çünki bir yandan alan, bir tərəfdən verir, deyiblər. Şeir deməkdə, oxuda axsasa da, hesabda, məsələ-misal həllində tayı-bərabəri yox idi. Yazısı, xətti də həddən ziyadə gözəgəlimli idi, hərfləri muncuq kimi yan-yana elə düzürdü ki, deyərdin ən məşhur xəttatdı, qədimdən dirilib gəlib, yazı yazmır, naxış vurur, ilmə salır ağ vərəqin üstünə, mən qardaşımdan böyük olsam da, onun kimi səliqəli, gözəl yaza bilmirdim, xəttim ilan-qurbağa idi. Müəllimlər neçə kərə dədəmə razılıq eləmişdilər ki, sənin oğlun istedaddı, yekə alim ola bilər, bəzən çətin məsələləri elə asan, ağlagəlməz yolla həll eləyir ki, heyrətdən ağzımız açıq qalır, yaxşı gələcəyi var uşağın, fəqət hayıf, çox hayıf, dildən pərgar deyil, zəmanə də elədi ki, gərək elmin üstünə yekə bir helm də qoyasan, yaratdığından, gördüyün işdən çox hap-gopa basasan, özünü gözə, lazım olsa, lap başqa yerə, soxmağı bacarasan, bunsuz, əstəğfurulah, göydən enən mələk, tanrı tərəfindən göndərilən peyğəmbər də olsan, xeyri yoxdu, işin aşmayacaq, neynək, qəm yemə, Allahdan ümid kəsilməz. Əvvəl-əvvəl biz də çox sevinirdik ki, şükür, xudavəndi-aləm dualarımızı eşitdi, qardaşımın dili tamam açıldı, ona görə dədəm xətrinə dəymirdi onun. Qoy nə qədər kefidi, oxusun, anqırsın, zəngulə vursun, yəqin bu yolla Allah-təala uşağın dilinin əməlli-başlı

açılmağına kömək eləmək istəyir, istədiklərini hörümçək toru ilə qoruyandı o gözəgörünməz. Babamsa razılaşmırdı ki, əstəğfürulla, qanmadığın məsələdən yapışıb başından yekə danışma, sən xudavəndi-aləmi nə hesab eləyirsən, necə yəni kömək eləmək istəyir?.. Yaradan istədiyini bir anın içində eləyir, day məxluq kimi ayı-ili birtəhər yola verib günü-günə satmır. O “Ol” deyirsə, göz qırpımında baş verir, yeri-göyü, kainatı bir anda yaradana sənin oğlunu rəvan danışmağa sövq eləməkdən ötrü aylar-illər gərəkdi məgər?.. Səndə suç yoxdu, binadan insan oğlu özünü aldatmağa meyillidi, çox vədə ifrat umudun özü də baş girləməkdən, təsəllidən başqa heç nəyə yaramır, “çıxmayan cana umud çoxdu” deyənlər əlacsızlıqdan, çarəsizlikdən üzü o tərəfə olanların başının altına yastıq qoyurlar. Allah xeyrə calasın, hissiyyatım, içimdəki səs mənə deyir ki, bu, yaxşı əlamət deyil. Aylar keçdi, gördük ki, ay dadi-bidad, babam haqlı imiş, ağacın başında dili topuq çalıb-eləmədən zilə çıxan, bülbül kimi ötən qardaşım ağacdan düşən kimi yenə başlayır pəltəkləməyə... Sözləri, kəlmələri ard-arda düzənəcən qan-tər yuyub aparır yazığı, qızarıb-bozararaq əldən-dildən düşür... Belə-belə işlər, qırılsın keşişlər, mən dədə-babamın hər üzünü görmüşəm, amma onlar heç vaxt heç nəyin aludəsi, xəstəsi olmayıblar, nə pul-para dərdi çəkiblər, nə var-dövlət yığıblar. “Bismillah”la başladıqları süfrədən “Bu gün yedik, sabaha Allah kərimdi” deyərək durublar. Güvəndikləri də yarı yolda qoymayıb onları... Yadımdadı ki, bir axşam dədəm mənim başıma sığal çəkib köks ötürərək yanıqlı-yanıqlı pıçıldadı ki, belə, qızım, sabaha qəpik pulumuz qalmayıb. Mən qorxdum, gözümün qabağına qaraltı çökdü: “Ay dədə, bəs nolacaq, ac qalacayıq sabah?” – soruşdum çəkinə-çəkinə. Bilmirəm o pıçıltını babam qonşu otaqdan necə eşidib içəri girdi. “O nədi gic-gic danışırsan bir tikə uşağın yanında? – acıqlandı dədəmə. – Yaradana inamın qalmayıb sənin, yaradan öz yaratdığını necə ac qoya bilər? – üzünü mənə tutdu. – Qorxma, mənim balam, Allah öz bəndəsini naəlac, naümid qoymaz”. Babama inansam da yerimi bərkitməkdən ötrü əl çəkmədim. “Allah heç kəsi ac qoymaz?” – xəbər aldım. “Həlbət ki, qoymaz, mənim balam, görərsən, elə bu axşam bizim ruzimizi göndərəcək.” Məktəbdə müəllimlərdən eşitdiyimi dilimə gətirdim. “Bəs, onda niyə Afrikadakı uşaqlar acından ölür?” “Çünki onların ata-anasının da bir suyu sənin dədənə bənzəyir, onlar da, sənin dədən kimi, Allaha güvənmir”. Dədəm başını aşağı saldı, qızarıb suçlu-suçlu dodaqaltı “Əstəğfürullah” dedi. Üstündən beş-on dəqiqə keçmədi ki, zərgər Qulam gəldi bizə. Özü də əlidolu... Babamdan kiçik, təxminən elə dədəm yaşında olsa da, Qulam hərdən bizə gəlib babamla din-iman söhbəti eləməyi xoşlayardı, bir stəkan çay içərdi, gedəndə də cibindən pul çıxardıb utana-utana, çəkinə-çəkinə dədəmə uzadardı ki – dədəmin “Quran” oxuyan olmayıb elə atasının üzünə özünü dindar kimi göstərdiyini bilsə də, yəqin babama verməyə utanırdı – bu gecə atamı yuxuda görmüşəm, rəhmətlik kişi üçün bir “Yasin” oxuyarsan vaxtın olanda... Biz də onun iri, həsir zənbilinə alma doldurardıq. O da gülə-gülə deyərdi ki, sən Allah, əziyyət çəkməyin, vallah, bizdə mer-meyvə doludu... Babam ayağını geri qoymazdı ki, yox, nə danışırsan, elə şey olar, qonağın zənbilini boş qaytarmaq mərifətsizlikdi, onda gərək biz də səndən heç nə götürməyək... Qulam da əlacsız qalıb ağır zənbili qaldıranda zarafatla gileylənirdi ki, mənə yazığınız gəlsin, heç olmasa bu zənbili ağzınacan doldurmayın... Amma get-gedə öyrəncəli olmuşdu, evinə getmək üçün qalxanda məzələnirdi ki, hə, mənim o almalarımı gətirin görək, necə öyrəşiblərsə, evdəkilər day bazardan

alınan mer-meyvəyə yaxın durmur, sizin ağacın almasını bəh-bəhlə yeyirlər, yalan olmasın, evə aparmağımla qurtarmağı bir olur bir zənbil almanın... Bəlkə də doğrudan-doğruya beləydi, intəhası, mənə elə gəlirdi ki, zərgər bizim könlümüzü xoş eləməkdən ötrü belə deyir. Babam da nazik, ağappaq saqqalını tumarlaya-tumarlaya başını özündənrazılıqla tərpədirdi ki, lap yaxşı, halal xoşları olsun, nəinki o ağac, bu ev-eşik, həyət-baca da qurbandı onlara. Onsuz da babam həmişə zərgəri tərifləyərdi. "Qulam abırlı adamdı, mən bu yaşa çatmışam, onun kimi həyalı, mərifətli adam görməmişəm, pərvərdigar ona pis gün, dərd-bəla göstərməsin, həmişə onu görəndə ürəyim sıxılır, çünki binadan abırlı adamların başı cəncəldə, qeylü-qalda olub, nədən ki, seçilmişlər daima sınağa çəkilir". Babamdan bu kəlmələri eşidəndə zərgər gözümdə yekəlib-yekəlib az qala dədəmin hərdən mənə nəql elədiyi rəvayətlərdəki peyğəmbərlər boyda olmuşdu. "Zərgər" Qulamın ləqəbi idi, həlbət ki, nə qədər yekə olur-olsun, kənddə zərgər dükanı, zərgər hücrəsi nə gəzirdi... İntəhası, Qulamın yaxşı başı çıxırdı qızıldan, daş-qaşdan. Qəfil pul-para lazım olan, əlləri aşağı düşən, əlacları kəsilən kənd adamları evlərindəki qiymətdə ağır, vəzndə yüngül şeyləri aparırdılar Qulamın yanına. Satırdılar Qulama... O da aldığının üstünə beş-üç manat qoyub, xırıd eləyirdi. Təkcə bizim camaat getmirdi bəd ayaqda Qulamın yanına, qonşu kəndlərdən, rayon mərkəzindən gəlib qapısını döyənlər vardı. Sözü ona gətirirəm ki, dünya qopa, dədəmin, babamın səbri bəs deyincəydi. Belə görmüşdüm mən gözümü açandan. Amma vay o gündən ki, səbr kasaları daşa, dağıla... Mən o səbr kasasının daşmağını babam qardaşıma təpinəndə gördüm. "Bir də o alma ağacının başına çıxıb oxumağı yığışdır. Bəsdi day, bütün kəndi üstümüzə güldürmə..." Qardaşım baxışlarını döşəməyə, ayağının altına zilləyib bir xeyli susdu, qəfil başını qaldırıb dik babamın gözünün içinə baxdı, kəkələyib-eləmədən rəvan-rəvan, ancaq qətiyyətlə dedi: "Oxuyacam!" Sanki dili topuq vurmadan babamın cavabını verə bilməkdən ötrü içində xeyli hazırlaşdığından gec dillənmişdi. Bu dəfə dədəm qızışdı: "Nə oxuyacaqsan ədə, ay zırrama, bircə xanəndəmiz çatmırdı, babannan söz güləşdirirsən, qoduğ! – sağ əlinin şəhadətlə orta barmağını irəli uzatdı. – Bir də o ağacın başına çıxıb oxusan, gözlərini çıxardaram sənin!.. Boyuna bax, hikkəsinə bax bu dümbələyin..." Qardaşım dədəmə cavab verməsə də dediyindən dönmədi. Bir gün yenə qardaşım ağacın kəlləsinə dırmaşıb zilə çıxanda, dədəmin də hirsi-hikkəsi kəlləçarxa qalxdı. Əsəbi-əsəbi gəlib durdu ağacın altında, başladı var gücü ilə almanın gövdəsini silkələməyə. Kişi hirsindən qapqara qaralmışdı, səsini başına götürüb var gücü ilə bağırdığından qardaşım susmuşdu. "Ə, qoduğ, tez ol, düş aşağı!.. Sənə demədim bir də ora çıxıb anqırma!.. Bəsdi bütün kənddə bizi biabır elədin!.. Düş, qoduğ!.." Bacılarımla ağacın altında idim mən. Qardaşımın oxumağına qulaq asıb feyziyab olurduq, balaca bacım qol götürüb oynayırdı da... Dədəm bağıranda hərəmiz bir tərəfə qaçıb ağacın sıx yarpaqları arasında gizlənmək istədik. Qorxudan canımızı dişimizə sıxdıq, başımıza dəyən almaların ağrısını vecimizə alıb cınqırımızı çıxarmadıq. Yazıq anam da, ürəyinə nə dammışdısa, odun üstünə su tökməkdən ötrü səssiz-səmirsiz, dinməz-söyləməz dədəmin dalınca düşüb gəlmişdi ki, kişinin əlindən bir xəta çıxıb-eləməsin. Dədəm ağacın gövdəsini silkələdikcə almalar ard-arda, dalbadal tökülürdü başımıza, dəyirdi ciynimizə... Bilmirdik canımızı götürüb hara qaçaq. Yəqin sövq-təbii ovucları ilə gözlərini qapayan qardaşım yuxarıda müvazinətini saxlaya bilmədi, ağacın kəlləsindən xırda budaqları sındıra-sındıra,

qıra-qıra gurup-guppaz dəydi yerə. Toz qalxdı göyə, qardaşımsa düşdüyü yerdəcə ölü kimi tərpənməz qaldı. Ağacdan qopub dolu kimi başına-bədəninə dəyən almaların zərbəsindən də qımıldanıb-eləmədi. Anam nalə çəkdi: "Vay!.. Kül mənim başıma, ay camaat, köməyə gəlin, başıma kül yox e, daş düşdü, evim yıxıldı!.. – çığırıb əlini üzünə atdı. – Əldən getdi tifil balam!.." Dədəm əvvəlcə gözlərinə, bir andaca baş verənlərə inanmırmış kimi, yerindəcə donub qaldı. Sonra yəqin qırılıb başına, çiyninə dəyən almalardan özünə gəldi, əyilib öldüsü-qaldısı bilinməyən hərəkətsiz uzanmış uşağı qollarının arasına aldı, başılovlu, hövlnak, qaranəfəs götürüldü. Qardaşım qucağında, həyətdən çıxanda hərəkətlərindən özünü itirməyi duyulurdu, görünürdü dədəmin. Day çaşdığından ağzını açanda sözləri qardaşım kimi kəlləmayallaq deməyinə ehtiyac yoxdu. Çünki dədəm həyət qapısı əvəzinə kəsəsinə, birbaşa üzü divara getdi, əvvəlcə qucağındakı, sonra isə öz başı taxta çəpərə dəyəndə anladı, qandı, başa düşdü ki, qapı əvəzinə divara, çəpərə, hasara dirənib, önündəki açılmayacaq. Açıla biləcək yerə sarı yönəlməyib. Amma hər yan bağlı deyilmiş, bapbalaca bir umud da boylanırmış hardansa... Sınıqçı Kazımgildən xəbər gəldi ki, qorxmayın, şükür, uşaq özünə gəlib, salamatdı, ancaq qolu-qıçı sınıb, o da ki, düzələn şeydi, hər şey yaxşı olar, inşallah... Bilmirdik ağlayaq, ya güləк, gecə-gündüz əlimiz göydə idi, böyükləri deyə bilmərəm, biz üç bacı nə iş görsək, kirimədən, usanmadan qardaşımdan ötrü dua eləyirdik pıçıltı ilə, dodaqaltı. Bacının duasını göydəki tez eşidir, deyirlər. Bizim də dualarımız eşidildi. Yenə sağ olsun sınıqçı Kazımı, əstəğfürullah, ölüyə "sağ olsun" demək gülməlidi, Allah yerini behişt eləsin onun, kişinin əlləri həqiqətən qızıldı, adi təbib yox, əməlli-başlı sehirbaz imiş o. Min rəhmət ona... Sənə inanmayana, şəkk gətirənə lənət, xudaya, göydə Allah, yerdə sınıqçı Kazım qaytardı qardaşımı bizə... Qardaşım tamam-kamal sağaldı, heç zərrəcə axsayıb-eləmədi də... Sevincimizin həddi-hüdudu yox idi, dədəm gündüzdən gedib qonaqlıq da verdi bazardakılara ki, oğlumun ad günüdü, nöşün ki, balam təzədən gəlib bu işıqlı dünyaya. Dədəm özü rayon bazarında qarovulçuluq eləyirdi axı... Axşamdan-sübhəcən ordakı malların keşiyini çəkirdi. Deyəsən, elə bazardakılara qonaqlıq verdiyi günün ertəsi idi, babam dədəmə yavaşcadan nə dedisə, kişi dik atıldı, bir də gördük anam da səssizcə, xısın-xısın göz yaşı tökür, di gəl, göz yaşı damcı-damcı olar, qarabaxt anamınsa göz yaşı dammırdı, sel kimi, su kimi axdıqca axırdı. Bardaş qurmuşdu, qızlarını bərk-bərk qucaqlayıb ağlayırdı, biz də nə baş verdiyini anlamadan, neyləyəcəyimizi bilmədən çarəsiz-çarəsiz doluxsunaraq dodaqlarımızı gəmirib, başımızı kövrək-kövrək onun sinəsinə sıxmışdıq. Axır ki, mətləb bizə də əyan oldu, indiyəcən buna fikir vermədiyimizə mat-məəttəl qaldıq. Demə, qardaşımın əl-ayağı düzəlsə də dili tamam tutulubmuş. Day qardaşım pəltək deyildi, kəkələmirdi, tamam-kamal lal olmuşdu biçarə qardaşım. Sevincimizin, şadlığımızın üstünə qalın, qapqara bir pərdə çəkildi. Day məktəbə-zada da getmirdi, danışa bilməyənin məktəbdə nə işi, məktəbə gedib neyləyəcəkdi?.. Bütün günü dizlərini qucaqlayıb otururdu artırmadakı pilləkanın başında, ölgün baxışlı gözlərini zilləyirdi qabağa, ancaq adama elə gəlirdi ki, hara baxır-baxsın, xeyri yoxdu, heç nə görmür, fikri-xəyalı çox-çox uzaqlardadı. Dədəm təzədən onu sınıqçı Kazımın yanına aparanda o kişi demişdi ki, lalın dilini açmaq mənlik deyil, mən sınıqçıyam, bu uşağı başqa doxtura göstərin. Dədəm də yenə qardaşımı götürüb təbiblərin, mollaların, dindarların, seyidlərin qapısını döymüşdü, fəqət heç kim irəli durmamışdı ki, bu uşağın kitabı

bağlanıb. Rayon mərkəzindəki xəstəxanada həkim işləyən, dədəmin dostu Ələkbərzadə də kişinin qol-qanadını sındırmışdı ki, özünü nahaq yerə yorma, oğlun bir də heç vaxt danışmayacaq, çünki söhbət boğazdan, səs tellərindən getmir, beyindədi əsas problem. Beyin də ki, girişiləsi kol deyil, qapalı bir şeydi, ağır, çox ağır, müşkül məsələdi, ən böyük həkimlər də beyinə girişmir. Çünki zərgər incəliyi, zərgər dəqiqliyi tələb eləyir, adi bir diqqətsizlik baha başa gəlir adama, gedirsən bığ dalınca, saqqalı da qoyub gəlirsən. Yüngülcə axsayan tamam iflic olub yerindən dura bilmir. Yoxsa, bu sənin üçün sınıq-çıxıq deyil ki, sümükləri uc-uca birləşdirib, calayıb var güc-qüvvənlə bərk-bərk, möhkəm-möhkəm sarıyasan. Yüz illərdi belə eləyiblər, dərin ağıl da gərək deyil buna, iki vur ikidi... Mən ozüm də o uşağı yaxşı-yaxşı müayinə elədim, öz balam kimi dərindən araşdırdım – hərçənd Ələkbərzadə heç vaxt evlənməmişdi, övladı-zadı da yox idi – çünki həm maraqlı gəlirdi mənə, həm də sən mənə bir köynək yaxınsan axı, sizin evinizdə bir pud çörək kəsmişəm, sənin atana elə mən də “Ata” demişəm yeri gələndə... – burasını da dolaşdırırdı Ələkbərzadə, çünki dədəm heç vədə öz atasına “ata” demirdi, biz atamıza “dədə” deyərdik, dədəm də babama – məsələ lap qəlizdi, çünki indi sənin oğlun adi lal deyil e, qardaş, açıq deyəcəm, gizlətməkdən keçib, vəziyyət lap pisdi, day qulağı da eşitmir onun. Kardı... Ona görə əlimiz heç yana çatmır, çarə yoxdu, gərək vəziyyətlə barışasan, mən elmdən, təbabətdən uzaq şeylərə inanmasam da, sənin cəmi-cümlətanı bir tutacaq, söykənəcək yerin qalıb. Gərək atanın xeyirdə-şərdə tez-tez dediyi “Allahdan umud kəsilməz” kəlmələrini unutmayasan, içindəki umudu öləziməyə, sönməyə qoymayasan. Bir dəfə ağacdan yıxılan lal-kar olubsa, bəlkə gələcəkdə bir də yıxılsa dili-qulağı açılar, yenə də danışar, eşidər... Dədəm Ələkbərzadənin sözlərini başa düşdüyü, anladığı tərzdə yozmuşdu: “Deyirsən, uşağı təzədən ağaca dırmaşdırıb ordan yerə çırpmaq lazımdı, hə?” “Əşi, sən nə danışırsan? Başına at təpib, nədi... – Ələkbərzadə əsəbi-əsəbi tez-tələsik etiraz eləmişdi. – Mən sözgəlişi dedim, sənin atan tez-tez dediyi kimi: “Bağlayan da, açan da odu... – doxtur, yəqin ki, şəhadət barmağını tavana tuşlamışdı. – O göydəki kişi”... Uşağa gəlincə, hələlik dəyməyin ona, incitməyin, sənə verdiyim həblərin hər gecə birini ver, qoy içib yatsın, əsəbləri sakitləşsin... Sonrasına baxarıq, görək başımıza nə gəlir... Vəssalam... Doğrudan-doğruya, yekə bir vəssalam, hamı, hər şey qardaşımın əsəbləri kimi sakitləşdi – onsuz da qardaşım əvvəldən quzu kimi idi, şuluq, şərəşur uşaq deyildi – çanaq da elə yazıq qardaşımın başında sındı. Hamı öz işində idi, sanki anadan lal-kar doğulmuşdu binəva qardaşım, mənə elə gəlirdi ki, evdəkilər barışıb olmuşlarla, baş verənlərlə, bircə anam yazıq hərdənbir xəlvətə, alma ağacının altına çəkilib ağlayardı gizli-gizli, göz yaşlarını sel kimi axıdardı. Bir gün belə, beş gün belə, günlərin birində dayım qapımızı açanda barmağımı dişlədim ki, hə, yəqin burda bir iş var, yoxsa, bu kişi elə-belə, səbəbsiz-filansız, yox yerdən heç bir qapını açmaz, qapı açmaq nədi, ucqar kənddəki hücrəsindən bayıra çıxmaz, bizə az-az gəlib-getsə də, gec-gec görüşsək də, hiss eləyirdim ki, içi anamqarışıq evimizdəki böyüklər ondan çəkinir. Bir dəfə dilimi dinc qoymayıb açıq-açığına dədəmdən: “Ay dədə, deyəsən axı, sən dayımdan qorxursan?” – soruşmuşdum. Gözlədiyimin əksinə, dədəm yüngülcə köks ötürüb başını aşağı salmışdı, sanki çəkingənliyinə görə üzrxahlıq eləmək, haqq qazandırmaq istəyirdi: “Elədi, qızım, qoxmayıb neyləyim, adam deyil ki sənin dayın, dərsini şeytandan alıb, cindardı, falçıdı, binadan bilmək olmur hansı məssəbə qulluq eləyir, tək mən

yox e, bütün el-camaat ondan qorxur, heç kim ona baş qoşmur ki, başı ağrımasın”. O vaxtacan ötkəm, qabağından yeməyən kimi tanıdığım dədəm birdən-birə gözümdə kiçilib, xırdalaşıb bapbalaca olmuşdu. Ona görə dayımı görcək sevinmişdim ki, elə yaxşı oldu, daylım gəldi, yəqin indi kişi qardaşıma görə evdəkilərə əməlli-başlı qulaqburması verəcək. Qəribədi, o vaxt həqiqətən istəyirdim ki, qardaşıma çəkdirdiklərinə görə kimsə gəlib böyüklərimi, babamı, dədəmi, anamı yaxşıca tənbeh eləsin – hərçənd, yazıq anamın heç bir suçu, günahı yox idi – quruca tənbeh nədi, əməlli-başlı söysün, əzişdirsin onları mənim gözümün qabağında. Hər vurduqca da mənim ürəyimdən tikan çıxsın. Qardaşıma nə qədər yazığım gəlirdisə, evdəkilərə – həlbət ki, özümdən böyüklərə – ondan min kərə çox nifrət eləyirdim. Ona görə dayımı həyətdə görən kimi qabağına qaçdım. Ancaq kişi elə bil məni görmədi, birbaşa pillələri çıxıb – pilləkəndə həmişəki kimi fağır-fağır, mağmın-mağmın oturan qardaşıma da fikir verməyib yanından keçdi – artırmaya qalxdı, oturdu masa arxasındakı rəngi getmiş mebelli stulda, dinməz-söyləməz stola dirsəklənib əllərini qoydu çənəsinin altına, gözlərini zillədi həyətə... Hamı evdə olsa da, heç kəs otaqdan çıxıb ona yaxınlaşmağa cürət eləmirdi. Qəfil elə mənim özümün də canımı qorxu aldı. Anam deyənlər yadıma düşdükcə yuxarı, dayımın yanına getməyə çəsarətim çatmadı, həyətdə karıxmış kimi dayanıb matdım-matdım ona baxdım. Anam əvvəllər bizi yuxuya verməyə çalışanda danışırdı ki, dayınızla zarafat eləməyin, nöşün ki, o, ruhunu mələklərə satıb, bax, siz bacılar yuxulamağa can çəkirsiz, məni çərlədirsiz yatınca, dayınızsa, bir də gördün, payız bitən kimi girdi həyətindəki təndirin içinə, nazik dəmir halqalı qapağı da qoydu təndirin başına, ayı kimi bütün qışı yatıb qaldı təndirdə... Bir də yaz gələndə gərnəşib oyandı. “Bütün qışı yatırdı təndirdə?” – biz maraqla xəbər alardıq. “Hə”... – anam yorğun-yorğun başını tərpədərdi. Biz əl çəkməzdik: “Niyə ki, soyuqdan qorxurdu?” “Yox, soyuqdan nöş qorxsun, dayınız dünyaya gələndən heç nədən, heç kimdən qorxmayıb, qar dizə çıxanda da lüt, çılpaq, maykasız, bir tursikdə gəzirdi həyət-bacada uşaqlıqdan...” “Çılpaq gəzirdi? Lüt idi?.. – lap üzə dururduq. – Paltarı yox idi əyninə geyinməyə?” “Pal-paltarına nə gəlmişdi... – anam hövsələdən çıxırdı. – Yatın da, dilotu yemisiz, sizi görüm ər üzünə həsrət qalasız... – gülümsünürdü yazıq yuxulu-yuxulu. – Şeytanlar”... Bilmirəm anamın nağıl əvəzinə qəsdən şişirdib dayımdan danışdıqları həqiqət idi, ya yox, amma arvadın gecələr zarafatyana elədiyi qarğış tutdu məni. Ər görmədim... Yəqin ki, dayımdan söylədiklərində də həqiqət payı vardı. Bir-iki kərə yolum düşmüşdü dayımgilə. Yadımdan çıxıb nədən ötrü anama qoşulub getmişdim ora. Tək yaşayırdı dayım. İki dəfə arvad almışdı. Nə olmuşdusa, üç-dörd ay keçməmiş, birinci yoldaşı özünü asmışdı tövlədə. İkinci arvadı ayıq tərpənmişdi, ərini yuxuya verib gecə ikən qaçmışdı dədəsi evinə, orda da nə demişdisə, evdəkilər yaxın durmamışdı ki, ərin dalınca gəlsə, biz sənə qahmar çıxa bilmərik, gərək qayıdasan ər evinə, bizlərdə ər evinə gor evi də deyirlər, ərə gedən gora gedir, belə ki, bizlik deyil, özün öz başına bir çarə qıl... Qadının da əlacı kəsilmişdi, dədəsi evindən də qaçmışdı birbaşa paytaxta. Xalasıgilə... İnsafən, dayım da arvadın ayağına gedib, onu geri qaytarmağa cəhd göstərməmişdi. Nə qaynatasıgilə, nə də ondan o yana... Elə özü balaca, həyətisə yekə evində, heç nə baş verməyibmiş kimi, tənha yaşamağa davam eləmişdi. Ancaq day arvad almamışdı, uşağı-zadı da yox idi. Yəqin fikirləşmişdi ki, iki dəfə bir çaya girmək, iki kərə palçığa batmaq kifayətdi... Anam

bəzəyib-düzəyərək nağılvari görünsə belə, nə təhər inandırıcı danışmışdısa evin, daha doğrusu, artırmalı, təkgözlü daxmanın arxasındakı ağzı qapalı, iri təndirə yaxın getməyə belə qorxurduq, uzaqdan-uzağa da çəkinə-çəkinə baxırdıq o köhnə, bəzi yerlərində gili ovulub-tökülmüş təndirə. Yadımıza "Fatma xanım təndirdə, ayaqları kəndirdə" – banlayan xoruz düşürdü. Yaxşı, görəsən dayımın ayaqlarını bağlayıb təndirə salmağa kim ürək, cəsarət eləmişdi, kim eləyə bilərdi bunu? Yox, əgər dayım təndirə özxoşuna girirdisə, səbəbi nə idi? Başına yer qəhət idi yatmağa?.. Ya yaxınlaşmağa qorxduğumuz təndirin içi – anam zəhrimizi yarmışdı bizim, demişdi ki, o təndirə yaxın getməyin, düşərsiz içinə, ömür-billah bayıra çıxa bilməzsiz, nöşün ki, təndirin içi boşdu, ordan aşağı, yerin yeddinci qatına yol var – önümüzdəki uçuq-sökük daxmadan qat-qat gözəldi. Belə çıxırdı ki, anam qızlarının o gözəlliyi görməyini istəmirdi? Hərgah, təndirin içi boşdusa, dayım bütün qışı necə yatırdı orda? Bəlkə, doğrudan-doğruya şeytanın əmrindən çıxa bilmirdi? Yox, göy yerə düşə, inanmazdım ki, kənddə, rayonda "mənəm-mənəm" deyən kişilərin kəllə-kəlləyə gəlmək istəmədiyi, ən azı, ağrımaz başlarına dəsmal bağlamamaqdan ötrü baş qoşmadığı adamı şeytan rahatca yumurlayıb təndirə sala bilsin. Bərkə dursaydı, dayım şeytanın özünü təndirə salıb ağzını bağlayardı, üstəlik, təndirə də od vurardı. Görünür, nədənsə, dayımın özünün də meyli varmış təndirə girməyə, yoxsa, lap şeytanın dədəsi də ona güc gələ bilməzdi...

Həyətimizdəcə bir anlığa eşitdiklərimi, gördüklərimi xatırlaya-xatırlaya aşağıdan-yuxarı, üstünə yaşıl rəng çəkilmiş oymalı məhəccərin arasından bir də baxıb gördüm ki, qardaşım iməkləyə-iməkləyə gedib bərk-bərk yapışdı dayımın sağ ayağından, möhkəm-möhkəm qucaqladı dayımın ayağını. Yaxınlaşıb başımı eyvanın məhəccərinin arasına soxanda gördüm ki, qardaşım lap anam kimi ağlayır, sakitcə-səssizcə göz yaşını sel təki axıdır. Dayım əllərini çənəsinin altından çəkib qardaşıma baxdı, gülümsündü, yüngülcə əyilib – əslində əyilməyə bir elə ehtiyac yox idi – onun saçlarını sığalladı, qəfil dikəlib amiranə səslə çığırdı: "Ölmüsüz?!." Sanki evdəkilər bir çığırtıya bənd imişlər, bu çığırtını gözləyirmişlər, tez artırmaya cıxdılar ki, gələnə sağ-salamat olduqlarını göstərsinlər, sanki bu adicə çığırtı, haray deyildi, onun hüzuruna təşrif buyurub müntəzir dayanmaqdan ötrü icazə, izn, əmr idi. Əvvəlcə anam çıxdı otaqdan, dalınca dədəm, lap axırda da babam... Alma ağacının altında oynayan bacılarımsa yavaşca, ürkək-ürkək gəlib durmuşdular mənim yanımda, dabanlarını qaldırıb artırmanın taxta, rəngsiz döşəməsinin küncündən yapışıb məhəccərin arasından baxırdılar, mənsə boyum hündür olduğundan – bacılarım babama çəkdiklərindən boyları çıxmadı ki, çıxmadı – məhəccərin taxtalarından yapışıb boynumu irəli uzatmışdım, başımı iki yaşıl, oymalı taxtanın arasına soxmuşdum. Demə, anam evimizdəki kişilərdən ürəkli imiş, irəli yeriyib dayımla görüşməsə də, dilini dinc saxlamadı. "Buy, iraq-iraq, nöş elə deyirsən, ay qardaş, şükür Allaha ki, hamımız sağ-salamatıq". "Ölmüsüz! – dayım dediyindən dönməyib təkrarladı. – Ölmüsüz, xəbəriniz yoxdu... Basdıranınız yoxdu... Ölməsəydiz, bu uşağı bu günə qoymazdız..." – əyilib qardaşımı götürdü yerdən, aldı qucağına, yenə saçını sığalladı, yanağından ehmalca öpdü, göz yaşlarını sildi uşağın. Qardaşım bu dəfə dayımın boynunu bərk-bərk qucaqladı, elə bil qorxurdu ki, kimsə onları zorla ayıracaq, yəqin dayımın boğazı sıxıldığından onun qollarını araladı, özü bacısı oğlunu qucaqladı ki, qucağındakı toxtasın. Araya lal-mat sükut çökdü, sanki qurbağa gölünə daş atdılar. Otaqdan çıxanlar günahkar-günahkar başlarını aşağı

salıb, nə deyəcəklərini kəsdirmədilər. Masa arxasındakı boş stullarda oturmağa ürək, cəsarət eləmirdilər. Sanki dayım bizə gəlməmişdi, bizimkilər dayımgilə qonaq getmişdi. Yenə aləmi qatdım, düz demədim bizimkilər-filan məsələsində, arabir, seyrək-seyrək görüşsək belə, dayım özü də "bizimki" idi. Özgəsi adama heç vədə elə can yandırmaz. Anam bu dəfə də babamla dədəmdən ürəkli çıxıb əl-ayağa düşmək istədi, dil-ağız elədi dayıma: "Nə yaxşı bizim qapımızı açmısan, can qardaş, bu dəqiqə sənə bir çay gətirim, sonra da yemək..." Babamla dədəm çəkinə-çəkinə başlarını razılıqla tərpətməyə hazırlaşırdılar ki, dayım acıqla anamın sözünü kəsdi: "Ağlınız başqa yerə işləmir, ancaq gödəninizin hayındasız... Çay-çörək-zad lazım deyil, deyin görək, bu uşağa kim qıyıb? Ələkbərzadə gəlmişdi srağagün mənim yanıma. Doxtur hərdən bizə gəlib mənim yanımda bir-iki gün qalır ki, hay-küydən uzaqlaşsın, həyasız, zarıyan xəstələrin, sizin kimi sırtıq-mırtıqların sıfatını görməsin. Sözarası ondan eşitdim məsələni, qanım it qanına döndü, hirsimdən lapdan durdum ayağa ki, bu saat gedib onları salacam təpiyimin altına, evlərinə də od vuracam... – dayım elə danışırdı ki, guya, söhbət özgələrini, başqalarını əzişdirməkdən, özgənin evini yandırmaqdan gedirdi – Ələkbərzadə keçdi qabağıma ki, sən Allah, hirslənmə, hirsli başda ağıl olmaz, mən də sənə qonaq gəlmişəm, gözlə, səbr elə, mən qayıdanda sən də gedərsən bacıngilə... Bundan sonra ha günahkarları cəzalandır, əlinə nə keçəcək? Üstəlik, başına qəziyyə gəlmiş dilsiz-ağızsız oğlanın əsəblərini lap pozarsan... Qurban olasız Ələkbərzadəyə. Mənə and içdirib doxtur, yoxsa, mən bilərdim sizə neynirəm... – ara verdi azca. – Amma Ələkbərzadə düz deyir, day olan olub, bundan sonra sizi ayaqlarımın altına alıb ayaqlasam da, eşşək qədər çırpsam da xeyri yoxdu, adam olmayazsız... Eşşək gəlmisiz, elə eşşək də gedəcəksiz..." Babam heç, gözləyirdim ki, bəlkə dədəm dayımın cavabını verə... Fəqət o da dillənmədi, keçib sakitcə dayımın qənşərindəki stulda əyləşdi, gözlərini dikdi masaya. Babam da ürkək-ürkək oğlunun yanındakı boş stulda yanpörtü oturub özünə elə yer elədi ki, qəfil hay-küy düşsə, tez qaçıb girsin evə, qapını da arxasınca möhkəm-möhkəm bağlasın. Dayım bu dəfə üzünü babama tutdu: "A kişi, oğlun heç, ondan adam olmayıb, olmayacaq da... Bəs sən ağsaqqal, dünyagörmüş kişisən, hara baxırdın? Yasda-şərdə ağzına çullu dovşan sığışmır, dil boğaza qoymursan, ağıl öyrədirsən el-camaata... Öz evində əl boyda xəstə uşağa əzab verməkdən həzz alırsan?.. Qoçusuz?.. Gündə beş kərə hüzurunda yalandan dombalağ aşdığın bağışlayar bunu sənə?.." Babam nəsə demək istəsə də səsi çıxmadı, iri hülqumu qalxıb-endi, boğazını arıtlayıb susdu. Anam yenə ürəklənib dolayısıyla babama qahmar çıxmaq istədi: "Həzz almaq nədi, ay qardaş, o gündən yediyimizi-içdiyimizi bilmirik, günümüz göy əskiyə yox, qapqara zülmətə bələnib... – ağlamsınıb ah çəkdi. – Kim istəyərdi belə olsun? Bu da bir sınaqdı, bir işdi gəlib başımıza"... Keçib dayımın yanındakı stulda əyləşdi, onun qucağında oturan oğlunun saçlarını sığallamaq istəyəndə qardaşım başını geri çevirib hirs-hikkə ilə anamın titrək əllərini itələdi. Qardaşımın peysəri zərblə dayımın burnuna dəydi. Dayımın burnu qanamasa da ucu qızardı, amma burnuna zərbə dəyən özünü o yerə qoymadı. Yenə araya sükut çökdü, hamı susdu, anam səssizcə ağlamağa başladı. "Belə... – nəhayət, dayım mızıldandı. – Çarə yoxdu, sizdən övlad qədri bilən olmaz, gərək bu uşağı aparıb özüm saxlayım"... – elə arın-arxayın dedi ki, guya, özü bir çətən külfət sahibiydi. Bu dəfə dədəm dilə gəldi: "Necə yəni aparım, bu uşağın yiyəsi-zadı yoxdu ki, hara istədin aparasan?" "Sən kəs!.. – dayım

dədəmin üstünə çımxırdı. – Uşağın yiyəsi olsaydı, bu kökə düşməzdi... Bilmirsiz ki, bu uşaq siznən qalsa havalanacaq, gec-tez araya qan düşəcək? Korsuz? Onun gözlərindəki nifrəti, qəzəbi, kin-kidurəti görmürsüz? Görmürsüz ki, o, sizi heç vaxt bağışlamayacaq?" Dədəm day dillənmədi. Dayımsa hirsli-hirsli babama baxdı: "Sənin bu oğlun qanmazın yekəsidi, söz qandırmaq olmur ona, gərək yerə yıxıb ağzına-ağzına yumruqlayasan, xoşluqla heç nə başa düşmür, sən gir otağa, səninlə təkbətək söhbətim var, yoxsa bu Mişopbanı görəndə hirslənirəm, özümü güclə saxlayırayıram ki, qulağının dibinə birini ilişdirməyim bunun..." Dayım ayağa durub ondan əl çəkməyən, hələ də boynundan sallanan qardaşımı birtəhər öz yerində oturtdu, əyilib onun qulağına da pıçıldadı: "Qorxub eləmə, indi gəlirəm"... Əslində bu, pıçıldama-zad deyildi, elə arın-arxayın dedi ki, qardaşımdan başqa hamımız eşitdik. Guya, həqiqətən bu evdə hamı qardaşımın gözünün odunu almışdı. Babam çar-naçar qalxıb dayımın ardınca ayaqlarını sürüyə-sürüyə içəri girdi, görə bilmədim tül pərdəli otağın qapısını hansı örtdü. Amma səbrimiz kəsilincə o otaqdan çıxan olmadı, heç səs-səmir də gəlmirdi içəridən. Dədəm artırmada papiros çəkirdi, biz qızlar da çıxmışdıq yuxarı, oturmuşduq taxta məhəccərin üstündə, lal-mat bağlı göy qapıya zilləmişdik gözümüzü. Axırda anam bizə acıqlandı ki, nədi, nə boş-bekar yan-yana oturmusuz, kinoya baxırsız elə bil, gedin bir işin qulpundan yapışın, çay dəmləyin, pamidor-xiyar soyun, salat düzəldin, yeməyi qızdırın... Yavaş-yavaş süfrə salın... Bəlkə acdılar, ac adam elə hirsli-hikkəli olar, indi bayıra çıxıb çay-çörək istəyəcəklər, onda tələsə-tələsə qıy-qışqırıq salıb stəkan-nəlbəkini, sinini, kasanı, boşqabları sındıra-sındıra əl-ayağa düşəcəksiz?.. Dədəm papirosu külqabıya basıb etiraz elədi ki, dəymə qızlara, nə işinə qalıb, sakit oturublar da özləri üçün... Süfrə salmağa tələsmə, hələ qoy bir görək nə olur... İçəridən hansı xəbərlə çıxır danışanlar... Bircə o çatmır ki, dava düşə, boşqablar ayaq altında sınıq-sınıq ola... "Kim onnan dava eləməyə qalxar, kimin dalının hünəri çatar buna?.. – anam taleyi ilə barışmış kimi mütiliklə, fağır-fağır deyəndə dədəm baxışlarını qaçırtdı. – Yəqindi ki, aparacaq uşağı..." "Kişi icazə verər?" – dədəm "kişi" deyəndə babamı nəzərdə tuturdu. Anam hər şeydən əli üzülmüş halda yazıq-yazıq çiyinlərini çəkdi: "Çarəsi nədi?.." "Bəs, nə çox danışırlar?" "Nə bilim, mən də sənin kimi... Yəqin alış-veriş eləyirlər öz aralarında ki, uşağı həmişəlik aparmasın... Hərdən bura da gəlsin, ya biz də gedib ona dəyək... Yoxsa, bu qədər vaxtı başqa nədən danışa bilərlər axı qapısı bağlı boğanaq otaqda? Ağlıma başqa heç nə gəlmir". "Allah bilən məsləhətdi, bəlkə elə belə yaxşıdı... – dədəm əlləri qoynunda bəri başdan təslim oldu. – Qoy uşaq gedib havasını dəyişsin, bir az özünə gəlsin, sonrasına baxarıq... Yenə, Allah kərimdi..." Anam dillənməyib təzədən ağlamağa başladı. Dədəmin əli əsdiyindən, axır ki, yanan kibriti birtəhər damağındakına yaxınlaşdırıb filtrsiz papirosunu alışdırdı, az qalmışdı üz-gözünü, burnunu, bığını, nazik saqqalını yandırsın. Anamın dedikləri düz çıxdı; dayım qardaşımı götürüb apardı. Çörək nədi, heç çay da içmədi dayım bizdə. Amma babam deyirdi ki, hələlik aparıb dayın nəvəmi. Gətirəcək... Uşaq bir balaca özünə gəlib toxtayan kimi gətirəcək... Dayı heç vədə ata-anadan, babadan yaxın ola bilməz adama, kimdi özgəsini axıracan saxlayıb, başqasından ötrü ömrünü çürüdən?.. Hələlik biz özümüz darıxanda, haçan istəsək gedib uşağı görə bilərik. Anam yavaşcadan, kövrək-kövrək, ancaq qətiyyətlə qayıtdı ki, baban bizi aldadır, təsəlli vermək istəyir bizə, dayın heç vaxt mənim oğlumu qaytarmayacaq, o uşaq bir də bura gəlməyəcək, getdi əlimdən oğlum... O ki qaldı

uşağı görməkdən ötrü ucqar kəndə, qardaşımgilə getməyə, bu da nağıldı... Onun ev-eşiyi yaşamağa yararlı yer olsaydı, Ələkbərzadədən başqa bir insan övladı açardı da qapısını... İstər doğma, yaxın, istər yad... Burası mənə çatmadı ki, qardaşımı görmək naminə nədən axı hərdənbir dayımın qapısını açmaq olmaz, axı qabaqlar bir-iki kərə elə anamla getmişdik dayımgilə...

Ələkbərzadə bizə də tez-tez gələrdi, dədəmlə orta məktəbdə bir sinifdə oxumuşdular, gülərüz, zarafatcıl adamdı, həmişə də tərtəmiz, səliqəli geyinərdi. Əgər dayımın evi cin-şeytan oylağı, yuvası, dayım da pis, babam söylədiyi kimi, azmış adam olsaydı, bir dəvə yükü kitab oxuyub ali məktəb qurtarmış Ələkbərzadənin onun evində nə iti azmışdı, hə?.. Di gəl, bu dəfə anam səhv elədi, dedikləri düz çıxmadı. Qardaşım gəldi evimizə. Bilmirəm, yazıq anam bunu hiss elədi, ya yox, ancaq görmədi. Çünki rəhmətə getmişdi. Qardaşım da dayıma qoşulub gəlmişdi onun dəfninə, yasına... Amma elə bil yad kimi gəlmişdi, bizə qaynayıb-qarışmırdı, donuq-donuq dayanmışdı bir kənarda, gözündən bir gilə yaş da çıxmırdı. Bəlkə yekəlib boy-buxunlu olduğundan ağlamağa utanırdı?.. Üzünə təzəcə tük çıxanın gözündən yaş axmaz bəyəm?.. Tükün yaşa, ağlamağa nə dəxli?.. Nə bilim... Yasda öz-özümə deyirdim ki, ay ana, sən nədən, beşcə dəqiqənin içində ölüb getdin, oğlunun necə yekəldiyini görmədin... Doğrudan-doğruya göz qırpımında, heç nədən əlimizdən getdi anam...

Günlərin birində bir az həyət-bacada girələnəndən sonra arvad dinməz-söyləməz gedib oturdu alma ağacının altında. Əməlli-başlı bardaş qurdu, kürəyini söykədi ağacın enli gövdəsinə, uzun tumanı da yerdə, ətrafında halqalandı. Bir az keçdi, xoflandım, şübhələndim, səsimi çıxartmadan qorxa-qorxa, üsulluca gəldim ağacın altına. Gördüm arvad gözlərini də yumub. Elə bildim, iraq-iraq, başına bir iş gəlib, ruhu bədənindən çıxıb. Yavaş-yavaş irəliləyib önündə dayananda gözlərini açdı, o dəm hiss elədim ki, anam yaman qocalıb, day başına həna-zad da qoymurdu, upuzun saçları ağappaqdı. “Qorxma, ölməmişəm, sağam... – başını yuxarı qaldırdı. – O almalardan dər, doğra, gətir bir-iki dilim yeyim... – dedi. Özümü itirdim: “Hansı almalardan?” – soruşdum key-key. Yorğun-yorğun qımışdı: “Bizim həyətdə neçə alma ağacı var?.. Həlbət ki, bu alma ağacından... Könlüm alma istədi qəfilcə... Bu alma mənim oğlumdu... Öz əlinlə doğra, gətir oğlumun barından, meyvəsindən yeyim”. Başa düşdüm ki, nədənsə, anam istəyir böyük qızı kimi ona qulluq eləyim, yoxsa, elə oturduğu yerdəcə əl atıb alma dərmək, dişləyib yemək üçün heç yerindən qalxmağa ehtiyac yox idi. Tez alma dərib evə qaçdım, yudum, səliqə ilə doğrayıb dilimlədim, boşqaba qoydum, gətirib boşqabı verdim anama. Hələ çəngəl də götürmüşdüm. Çəngəli görüb gülümsündü. “Ay şeytan, bunu neynirəm?” Alma boşqabını da götürmədi. “Özün ver dilimləri, sənin əlindən yemək istəyirəm”. Sevincək əyilib anama qulluq eləməyə başladım. Boşqabdakı birinci dilimi uzatdım ona. Yedi... Amma zorla çeynəyə-çeynəyə uddu, sanki dadı xoşuna gəlməyən xörəyi aşpazın xətrinə güc-bəla ilə yeməyə məcbur idi. İkinci dilimi uzatdım, bu dəfə, deyəsən, yediyindən ləzzət aldı, çünki əlini uzadıb üçüncü dilimi istədi. Verdim, bəlkə də indi mənə elə gəlir, qəribə-qəribə, mənalı-mənalı üzümə baxıb aldı, qoydu ağzına, çeynədi, çeynədi, qəflətən başladı çeçəməyə, əvvəlcə yavaş-yavaş, astaca boğazının yoluna dirənib qalanı geri qaytarmaq istədi, sonra bərkdən-bərkdən öskürməyə çalışdı, alma boğazında, nəfəs borusunda qalmışdı deyəsən, ağzından boğuq səslər gəlsə də nəfəs ala bilməyib xırıldayırdı.

Yaşarmış gözləri çevriləndə əlimdəki boşqabı var gücümlə kənara tolazladım, dilimlənmiş almaların hərəsi bir yerə dağıldı, nimçə harasa dəyib çilikləndi, qışqırıb evdəkiləri harayladım. Babam, dədəm, bacılarım tez özlərini yetirsələr də, gec idi. Anama verilən müddət bitmişdi, arvad elə ağacın altındaca, oturduğu yerdəcə canını tapşırmışdı, başı düşmüşdü çiyninə, yaşlı qızarmış gözləri bərələ qalmışdı, ağzı acıqdı, dili də çıxmışdı bayıra. Mən indi o dəhşətli hadisəni gözümün qabağına gətirəndə ilmə-ilmə, ağır-ağır, sakit-sakit, rəvan-rəvan danışıram, ancaq nəql elədiyim sayaq gec gəlmədi əcəl, hər şey göz qırpımında baş verdi. İndiyəcən yanıram, özümü günahkar hesab eləyirəm ki, yəqin o vaxt ağacın altında bardaş qurub oturan anamın yanına getməsəydim, arvad məndən alma istəməyəcəkdi, demək ki, boğazında da heç nə qalmayacaqdı. Daş mənim başıma!.. Deyirlər, olacağa çarə, yazıya pozu yoxdu. Nə deyim, ya vəlvələdən, ya zəlzələdən, anam ölüb getdi... Hə, hə, getdi... O biri dünyaya, ruhlar aləminə... Dediyim kimi, anam öləndə dayıma qoşulub gəldi qardaşım. Birinci-axırıncı kərə... Ürəyimə dammışdı ki, bir də evimizə ayaq basmayacaq qardaşım. Ona görə gecə hamı yuxuya gedəndən sonra ağlaya-ağlaya bir neçə sətir yazdım dəftər vərəqinə, səhərin gözü açılmamış verdim qardaşıma. Necə yəni, nə yazmışdım dəftərdə?.. Yazmışdım ki, bizi qardaşsız qoyma, anam almanın boğazında qalmağından keçinmədi, sənin dərdindən getdi, qayıt, qoy arvadın ruhu şad olsun... Kağıza gözucu baxıb qara köynəyinin döş cibindəki qələmi çıxartdı, yazıq tamam lal-kar olandan sonra qələmlə gəzirdi yəqin. Verdiyim vərəqin altına tələm-tələsik nəsə yazıb kağızı mənə qaytardı. Tələsdiyindəndi, ya nədənsə, xətti mənimkinə oxşayırdı; ilan-qurbağa olmuşdu. Cavabını oxuyandasa dolmuş gözlərim kəlləmə çıxdı:

“Olmaz! Mən evimizə dönsəm, gərək dədəmi öldürüm”.

Dönə-dönə oxudum onun cavabını, cünki gözüm görsə də, inanmırdım oxuduğuma, həqiqətən elə bilirdim hərfləri yaddan çıxartmışam, yazıb-oxumağı yadırğamışam, dünya-aləm dağıla, mənim göygöz, sarıbəniz, seyrəkqaş, mələk sifətli qardaşım – qədim şəkillərdə gördüyüm qanadlı mələklərin də qaşları yox idi – belə qəddar, zalımdan zalım kəlmələr yaza bilməzdi. Amma yazmışdı... Yazını neçə kərə dalbadal oxuyanda hiss elədim, duydum ki, bu elə-belə, hirsli-hikkəli kəlmələr deyil, neçə illərin, bəlkə dədəmin qorxusundan ağacdan yıxıldığı gündən də çox-çox qabaqlara gedib çıxan, lap qardaşım dünyaya gəlməmişdən yığılıb qalan kin-küdurətin bir cümləyə sığışmasıdı. Yoxsa, bir ömür yaşasan da, ən doğma adamına, qanı qanından, çanı canından olana min ilin qanlısı sayaq, asi, düşmən kəsilə bilməzsən. Qulaq ver, mat-məəttəl sifətimə baxma, o vaxt mən də bunun məğzini, kökünü bilmirdim, illər keçdi, ha fikirləşdim özlüyümdə, yenə bir yana çıxa bilmədim, indiyəcən bilmirəm əsl səbəbi. Bircə buna əminəm ki, dədəmin ucbatından qardaşımın lal-kar olmağında deyil məsələ. Bu, olsa-olsa, dəryada bir damladı. “Damla” dedim, bir də baxdım ki, əlimdəki vərəq sel-sudu, göz yaşlarım isladıb kağızı. Tez vərəqi əlimlə sayaladım, aparıb qoydum küncdə, yorğan-döşək yığdığımız yükün arasına ki, səliqəli, şax qalsın, sonra aparıb bir yerdə gizlədərəm. Bəs nə, mən o kağızı hamıdan gizlətsəm də, qardaşımın yadigarı kimi ömrümün axırınacan saxlayacaqdım. Mən başıdaşlı hardan biləydim ki, həmin kağız lapdan dədəmin əlinə keçəcək?.. İş-güc başımı elə qatdı ki, kağızı işlənməyib evin küncündə üst-üstə yığılan, üstünə də iri, bəzəkli adyal çəkilən yorğan-döşəyin arasından götürüb ağlagəlməz bir yerdə gizlətməyi unutdum. Yadımdan çıxmadı,

yox, yox, min kərə yox... Elə kağız yaddan çıxar?.. Mənim ah-zarım vardı orda, acıqlı olsa da, adına, boy-buxununa qurban olduğum qardaşımın qarmaqarışıq xətti vardı. Ancaq nədənsə günü-günə satdım, ha fikirləşdim gizli, arxayın bir yer ağlıma gəlmədi, sağolmuş bacılarım hər yeri qurdalayırdılar, bütün dəlmə-deşiklərə əllərini, barmaqlarını yox, lap burunlarını soxurdular. Gərək, ağlasığmaz yerdə gizlətmək nədi, aldığım vaxtdan mən o kağızı saxlamayaydım, qardaşımdan aralanan kimi cırıq-cırıq eləyib ataydım çölə... Demə, dədəm də əlinə keçən beş-üç manatı adyalın altındakı yorğan-döşəklərin arasına qoyurmuş. Bu dəfə ya pulu orda gizlədəndə, bilmirəm, ya da götürəndə, ya qoyanda hər necəsə, kağız keçir kişinin əlinə... İşin tərsliyinə bax... Neçə yorğan-döşək üst-üstə qalaqlanmışdı, gərək elə mən kağız qoyduğum sıraya soxaydı əlini? Nə isə, iş düz gətirməyəndə quymaq da diş sındırar. Bir gün gördüm dədəm, iraq-iraq, lap anam kimi bardaş qurub, oturub alma ağacının altında, kürəyini söykəyib ağacın gövdəsinə, elə anam kimi də səssiz-səmirsiz ağlayır, göz yaşları seltək axır. Uzaqdan bu haləti görsəm də, əvvəlcə yaxınlaşmağa cürət eləmədim, ürəyimdə dedim ki, keçəl suya getməz, lap min bir dərdinə dərman ola, alma dərib sənə gətirən deyiləm, ay dədə, meylin çəkir, dur ayağa, hansını istəsən, əlini at, dər, ye... Yox yerdən xəta çıxır, heç kəsə deyə bilməsəm də, özüm öz içimi yeyib-dağıdıram, min bir əzaba qatlaşıram. Beş-on günün içində, anamdan sonra səni də itirməyin dərdinə dözə bilmərəm. Qabaqca qoy mən özüm o almadan yeyib canımı qurtarım... Min fikir bir borcu ödəmir, xəttim kimi ilan-qurbağa şeylər düşünə-düşünə budaqların arasından oğrun-oğrun kişiyə baxdım, baxdım, axırda maraq mənə güc gəldi, dözə bilmədim, irəli yeriyib kişinin önündə çömbəldim. Uzun donumun ətəkləri ətrafımda halə yaratdı. Məndə də az yoxdu ha, gərək heç yaxınlaşmayaydım, bəlkə, anamdan ötrü xiffət eləyir, ona görə xəlvətə çəkilib ağlayır?.. Bəlkə istəmir ki, ağlamağını kimsə görsün, hə?.. Yox, mənim gəldiyimi duysa da göz yaşlarını gizlədib-eləmədi, bəlkə də bunun mənasız olduğunu başa düşdü. Mən çəkinə-çəkinə, pıçıltı ilə xəbər aldım: “Nolub, ay dədə?” Ağlaya-ağlaya əlindəki kağızı mənə uzadanda məsələdən hali oldum. Deməyə söz tapmadım, dədəmin boynunu qucaqladım, ona qoşulub xeyli ağladım. Kişi mənə təsəlli, təskinlik-zad vermirdi, tez-tez sağ əlini yüngülcə kürəyimə vururdu, vəssalam. Sanki beləcə, səssiz-sözsüz, dinməzcə toxtaqlıq vermək istəyirdi mənə... Sanki o da həmin gündən qardaşım kimi lal olmaq qərarına gəlmişdi. O gün o ağacın altında göz yaşlarımız bir-birinə qarışdı. Sonra durub dinib-danışmadan həyətdə əl-üzümüzü yuyaraq evə gəldik. Həqiqətən, mən bir də dədəmin səsini eşitmədim. Üç gündən sonra balaca bacımdan hayqırtı qopdu ertədən. Yazıq qız neçə gün yatağından dura bilmədi, az qala havalanmışdı, özünü-sözünü bilmirdi; dədəm özünü alma ağacından asmışdı. Həkimlər dedi ki, çoxdan ölüb, binəva, qarabaxt özünü gecəyarısı asıbmış, biz səhər xəbər tutmuşuq, ona görə neçə saat boğazı kəndirdə, qalıb sallana-sallana... Onun meyitinə yaxın gedə bilmədim mən. Əvvəlcə elə bacım kimi əlim-ayağım əsdi, qardaşım kimi dilim tutuldu, qonum-qonşu, həkimlər, paqonlular tökülüşüb gələndən sonra da məni yaxın qoymadılar. Bircə boynundakı kəndiri gördüm, evimizin zirzəmisindəki qalın ipi çox görmüşdüm onsuz da... Zirzəminin bir küncündə, lap dəqiqi, köhnə, toz basmış sandığın üstündə qabığını dəyişib özünü yuxuluğa vuraraq, şikarını, qurbanını gözləyən ilan kimi qıvrılıb, yumrulanıb qalmışdı. Şikar, qurban da ki, öz ayağı ilə gəlmişdi. İnsan, heyvan, böcək, lap belə ağac, fərqi yoxdu, Allahın yaratdığı

nəyi çox istəyirsə, əvvəl-axır gəlib qucağına düşür arzuladığı, çatır arzusuna-istəyinə, amma gərək həddən ziyadə səbirli ola, o qədər səbirli ki, ömrü çata buna... O “ilan-kəndir” neçə illər sandığın üstündə “marığa yatandan” sonra şikarı özü onun qənşərinə gəlib boynunu qucaqlamışdı. Nədənsə, dədəmin ölümünü anamı itirməyimdən ağır keçirtdim. Baxma ki, əksinə olmalıydı. Qız uşağı anaya yaxın olur, deyirlər, həm də anam lap mənim gözümün qabağında canını tapşırmışdı axı... Bəlkə də dədəmə yazığım gəldiyindən beləydi, özümə yer tapmırdım, yox, özünə yer tapmayan ora-bura qaçar, otaqdan-otağa keçər, həyətə düşər, eşiyə çıxar, mənimsə dərdim-kədərim birə-beş artmışdı, ancaq süst idim, yerimdən candərdi dururdum, toxunan olmasaydı, səhərdən axşamacan uzanıb qalardım. Dədəmin halına acıyırdım, ən çox da ona yanırdım ki, biçarə dədəm öldü, di gəl, yasına nə dayım gəldi, nə də qardaşım... Beləcə, qardaşımı day görmədim mən. Sonralar bir-iki kərə dayımgilə getdim onu görməkdən ötrü. Evdə tapmadım... Dayım gah dedi qardaşın dağdadı, gah dedi bağdadı, üzə durandasa üstümə bozardı ki, zənənsən, otur zənən yerində, sənə nə var hardadı qardaşın, o, yekə kişidi, əlinin üstündə əl yoxdu, kim ona nəyisə qabağan eləyə bilər, mən nə bilim hara gedib bacım oğlu?.. Günə çıxıb o, burda, azadlıqdadı... Hara istəyir gedir... Haçan kefi istəsə qayıdacaq... Bir kərə rəhmətlik Ələkbərzadəni də gördüm dayımgildə, gedəndə... Sözarası yenə qardaşımı soruşanda doxturla dayım mənalı-mənalı baxışdılar, mən payımı götürdüm. Deyəsən, nədənsə, qəsdən izi azdırıb mənim yolumu daşlığa salırdılar. “Neynək... – dedim özlüyümdə. – Bir qardaş ki, dədə-anadan yetim qalıb tək-tənha başını girləyən bacısını arayıb-axtarmadı, heç mən də onu görmək istəmirəm”. Ondan sonra day getmədim dayımgilə... Heç öləndə də getməyəcəm... Dayımı deyirsən?.. Həlbət ki, sağdı, belə deməyimə baxma, qurdla qiyamətə qalacaq o. Adamdı ki, adam kimi ölsün? Cindi, şeytandı, nədi, baş açmaq olmur... Düzdü, babam öləndən sonra tez-tez pul göndərirdi mənə, amma bir ordu kənardan nəfəsini içlərinə çəkib ha hıqqana, yenə güc doğana düşür. Kimsəsiz yaşaya-yaşaya it zülmü çəkdim mən bacılarıma gün ağlayıb onları bir yana çıxarınca... Yaxşı yadıma saldın, babam elə-belə ölmədi e, oğlu özünü asandan sonra. Əvvəlcə havalandı, başına hava gəldi, itirdi ağlını. Alma ağacının budağından özünə yalançı bir saz düzəltdi, basdı sinəsinə, başladı “aşıqlıq eləməyə”. Özü də nəvəsi kimi ağaca çıxıb oxuyurdu. Həmişə də eyni cürə başlayırdı oxumağa:

*Balası beldən gedən,*
*Nəvəsi əldən gedən,*
*Bədbəxt canım vay...*
*Nəhnünü-nühnünü...*
*Nəhnünü-nühnünü hey...*

Yəqin din-iman adamı olub yaslara çox getdiyindən, oxuduğu azana, mərsiyəyə oxşayırdı. Həlbət ki, “nəhnünüsü” olmasaydı... Onun oxumağına kövrəlmədən, göz yaşı axıtmadan qulaq asmaq mümkün deyildi. Deyəsən, özünün də gözləri yaşarırdı, özü də ağlayırdı oxuduqca. Bir-iki dəfə yuxarıdan yanağıma damcı da düşmüşdü o, oxuyanda... Di gəl, düz-əməlli kəsdirə bilməmişdim ki, babamın göz yaşıdı yanağıma düşən, yoxsa özüm ağlamağa başlamışam. Başqa cür ola bilməzdi, yağışın yağmadığı şəksizdi... Ancaq qardaşım kimi onun-bunun yazdıqlarını yox, öz sözlərini oxuyurdu, burasını dəqiq bilməsəm də, mən babamın oxuduqlarını heç

vaxt heç kəsdən eşitməmişdim. Onun haçansa şeir yazmağından da xəbərim yox idi. Bəlkə də elə cavanlıqda eşitdikləriydi, ya yaslarda deyilən mərsiyələrdəndi... Bir gün qəflətən kişinin "sazı" əlindən düşdü. Yuxarıdakı susdu, lapdan xırp səsini kəsdi, mən başımı qaldırıb nə baş verdiyini görmək istəyirdim ki, babam gurupgup-paz dəydi yerə. Yaxşı ki, başıma düşmədi kişi, yoxsa məni də o dünyalıq eləyəcəkdi. Yerə dəyən kimi ufultuyabənzər əcaib səs çıxartdı, qəribə şaqqıltı gəldi, ancaq ağacın budaqları sınıb-eləməmişdi, sadəcə, yarpaqlar qırılıb tökülmışdü yerə. Sonra ağzından qan gəldi kişinin... Sol yanağı üstə dəymişdi, ağzı da açıq qalmışdı, açıq yerdən axıb torpağa qarışan qan göllənmirdi, sanki bozumtul torpaq "ac idi", yerə tökülən qanı acgözlüklə udurdu. Deyəsən, kişinin qoyma dişləri də bölünüb, sınıb çıxmışdı ağzından, yay-qış qoyduğu ağ fəs isə başında qalmışdı, yerə düşməmişdi. Elə bil yatandan-yatana çıxartdığı fəs başına yapışmışdı. Əvvəlcə kişinin öldüyünü ağlıma gətirmədim, elə bildim qıçlarını yumub böyrü üstə uzanan, göy gözləri açıq qalan babam salamatdı, amma bərk əzilib, ola bilsin, qardaşım kimi sınığı-çıxığı da var, belə xəstələri sağaldıb ayaq üstə qaldırmaq sınıqçı Kazımdan ötrü bir udqum su içməkdi. Amma hay-küyə gələnlər başlarını bulayıb babamın üzünü, daha doğrusu, üstünü ağ mələfə ilə örtdülər ki, min heyif, qoca vaxtında xərifləyən ağsaqqal, yəqin ağacdan yıxılan kimi canını tapşırıb, ruhu uçub gedib göylərə... Əvvəli boş şeydi, gərək Allah adamın axırını urvatlı eləsin ki, o dünyaya başıaşağı getməyəsən. Ancaq o ruh deyilən əbədi varlıq hər nədisə, adam istəyir diriykən elə ruha dönə, qalxa göylərə, ordan da istədiyi evin qapısından, pəncərəsindən içəri girə, görə ki, ev yiyəsi sənin haqqında nə danışır, üzünə gülənlər dalınca nə qeybət qırırlar?.. Nədi, nöşün birtəhər, belə... heç bilmirəm necə, nə təhər deyim... təəccüblə, heyrətlə, heyranlıqla baxırsan mənim üzümə, ağzın da açıq qalıb, elə bilirsən mən heç nə qanmıram, mənim başıma gələnləri kim çəksəydi, ən azı, beş kərə ölüb-dirilmişdi. Dərd də ki, ən böyük müəllimdi, ən qiymətli kitabdı... Belə çıxır ki, ən yekə alim elə mən özüməm. Özünə "alim" deyib döşünə döyənləri, hamıya yuxarıdan-aşağı baxanları susuz aparıb, susuz gətirrəm. Rəhmətlik babam cənnətdən-cəhənnəmdən, ruhdan, qiyamətdən o qədər maraqlı rəvayətlər danışmışdı ki mənə... İndi yadıma düşdükcə həqiqətən dönüb ruh olmaq istəyirəm. Ondan yaxşı nə var axı... Pal-paltar, yemək-içmək dərdi çəkmirsən, tamam azadsan, hara istəyirsən uçursan, canın ağrımır, sabahı düşünmürsən, dünən üçün, ötən günlərdən ötrü əlini dizinə vurub yanmırsan... Nə bilim, vallah... Hərgah o rəhmətliyin dedikləri düz idisə... Yalandısa, babalı öz boynuna, hər halda, pis mənada yox, qandığını danışıb... Gecələr mən onun çənəsinin altını kəsdirib əl çəkməyəndə... "Ay baba, qurban olum, birini də danış", deyib yalvaranda... Hamısı da ondan irəli gəlirdi ki, ölümdən yaman qorxurdum, onun danışdıqlarındakı əbədiyyət, həmişəyaşarlıq işığı ürəyimdən idi. Bu dünyanın yükü belini elə əyir ki, yaşlandıqca nəinki ölümdən qorxursan, hətta onun tez gəlməyini arzulayırsan. Bilmirəm səndə də belə olub, ya yox, məndə tez-tez olur belə hallar... Gülmə, gülmə, hələ duza gedirsən sən, saç-saqqalın ağarsa da məndən uşaqsan... Necə yəni beş-on il fərq boş şeydi... Guya, ömrümüz belə uzundu ki?.. Beş-on il yox e, bir ilin, bir ayın da təfavütü var, əslində... Ancaq bu o demək deyil ki, ağıl həmişə yaşdadı, çünki səndən öndə gedən gözünün önündə batar palçığa, gərək arxadakı onun bulaşdığının üstündən addamağı, atılmağı bacarsın ki, tərtəmiz qalsın. Bundan ötrü gərək çox diqqətli olasan, intəhası, məxluqda o diqqət nə gəzir? Gözü

dumanlıdı, fikri qarışıq, keçmişinə görə heyifsilənir, gələcəyindən bədgümandı, qorxur, bu gününü düz-əməlli, adam kimi yaşamağı da yaddan çıxardır. Yazıqlığını, köməksizliyini, yol ayrıcında çarəsiz qalıb geri qayıtmağa ürək eləmədiyini – qayıtmaq da müşkül olur çox vaxt – gizlətməkdən ötrü başlayır sənin kimi yalandan gülməyə, guya, Araz aşığındandı, Kür topuğundan, guya, day dünya dağıla, heç nə vecinə deyil. Ona görə ki, çoxdan param-parçadı, içindəki dünya çoxdan tarmar olub. Gözlərindən görürəm ki, yalandan gülürsən... Mən özüm yalandan çox gülmüşəm, içim özümü yandırıb, çölüm özgəni... Ona görə özüm kimilərini uzaq-dan-uzağa tanıyıram. Baxma ki, özümü adamtanıyan hesab eləmirəm, adamtanıyan olsaydım, ömrümü vecsiz, gərəksiz, lazımsız adamların yolunda çürütməzdim... Nə fərqi var, istər yaxın olsun, istər yad, hardan biləydim ki, bu əclaf, zalım dünyada hərə özündən ötrü əlləşib-vuruşur, hardan biləydim ki, gərək özümü tanıyandan elə özümü düşünəydim, heç kəsə can yandırıb ömrümü qurban verməyəydim. Adamtanıyan tək-tənha qalmaz sinli çağında... Evində qalan kirayəçilərin çörəyinə, puluna möhtac olmaz... O da ki, iki-üç aylıq şeydi, qışda kimdi buralara gələn? Gələn olsa da, evlərdə qalan tapılmır. Ha bəzəyib-düzə, evlərdə yaxşı şərait yoxdu axı... Qışda otellər qiyməti salır aşağı, gələn də qaçır ora, ağa kimi, padşah kimi yaşayır; əl-ayağı təmiz, nə ürəyindən keçdi, bir çırtma ilə hazır olur hüzurunda. Həlbət ki, tənhalıq pis şeydi, babam demişkən, təklik bircə Allaha yaraşır. Qadının təkliyisə tamam dəhşətdi, başqa söz tapa bilmirəm, qaranlıq, sonu görünməyən ucsuz-bucaqsız zülmətdi... Babam öləndən sonra zillət çəkəndə də belə fikirləşmirdim. Özümə təsəlli verirdim ki – təsəlli də yox, tam əmin idim buna – məni yaxşı, işıqlı, firavan gələcək gözləyir. Təki bacılarıma bir gün ağlayım, əvvəl-axır mənə də bir qapı açılacaq. Pis-yaxşı, onlara gün ağladım, hayıf ki, mənim üzümə qapı açılmadı ki, açılmadı. Bəlkə xoşbəxtlik qapısının açılmasından ötrü onu möhkəm-möhkəm döymək lazım imiş?.. Mən isə umudumu o gözəgörünməzə bağlayıb heç nə eləmədim, əlləri qoynunda, xoşbəxtlik qapısının öz-özünə açılmasını gözlədim. Gərək adam dünyaya iki dəfə gəlsin ki, birincidə buraxdığı səhvləri ikincidə təkrar eləməsin. Ağzıma gələni danışıram e, guya, ilk gəlişimizdə gül dərdik bu zalım dünyada, ikincisində gülab çəkəcəyik. Fəqət nə bilmək olar, bəlkə biz həyətimizdəki alma ağacından da sırtığıq, başımıza min həngamə gəlsə də sonsuzacan gedib qayıdırıq, bu dünyanın yolunu su yoluna döndərmişik, hə?.. Neçənci kərə gedib-qayıtdığımı bilmirəm, ancaq babam, dədəm, anam öləndən sonra dayım çox əl tutdu, kömək elədi bizə. Özü gəlməsə, görsənməsə də, Ələkbərzadəylə pul-para göndərirdi tez-tez... Ələkbərzadə rəhmətə gedəndən sonra poçtalyon Cəbrayılla göndərməyə başladı. Mat-məəttəl qalmışdım, axı, dayımda bu qədər pul nə gəzirdi, hardan tapırdı bizə göndərdiklərini?.. Mən biləni o, binadan heç yerdə işləməmişdi, bir həsirdi, bir Məmmədnəsir... Qalmışdım şəkk-şübhə, fikir-xəyal içində... Pul-kömək öz yerində, dayımın həniri bizə bəsdi, heç kim ətrafımızda, yan-yörəmizdə hərlənmirdi çəkindiyindən... Bəs nə... Qızın-qadının tək, kişisiz qalmağı pisdi, o qədər zatıqırıq, haramzada adamlar var ki... Amma heç kəsdən, heç nədən çəkinmirdik, elə bilirdik dayım gözəgörünməz haləyə bürünüb gecə-gündüz bizim keşiyimizdədi, üstəlik, zaman keçdikcə hiss eləyirdik ki, deyəsən, rayondakılar, kənddəkilər, el-camaat, qonum-qonşu, tanış-biliş bizdən çəkinir. Yəqin ona görə qapımızı açan yox idi. Bircə zərgər Qulam gəlirdi bizə hərdən. Beşdən-üçdən verib soruşurdu ki, nə təhərsiz,

necə dolanırsız? Mən də dayımdan razılıq eləyirdim ki, şükür, korluq çəkmirik, pul-para sarıdan çox kömək eləyir bizə. Qulam razılıqla başını tərpədirdi ki, sağ olsun, dayın yaxşı kişidi, ancaq sən də başıaşağı olma, sizə kömək eləməyə borcludu dayın, sizdən başqa kimi var axı onun, siz elə onun balalarısız da... Həm də belə... baş aça bilmirəm e, sənin dayında o qədər pul-para nə gəzir?.. Yaxşı işi-gücü yox, mal-qarası, qoyun-quzusu, ilxısı, atı-dəvəsi yox, pulqazanan adam da deyil, deyirlər evdən eşiyə də az-az çıxır, çıxanda da bacısı oğlunu götürüb yol alır meşənin dərinliyinə, günlərlə qalır orda, neylədiyini düz-əməlli bilən də yoxdu. Mən elə bilirdim özünü güclə dolandırır o. Amma insan kəsilməmiş almadı, bilmək olmur kimin qabığının altında nələr var... Bir dəfə də Qulam sözarası xəbər aldı ki, bəs, de görüm, sənin babanın qızılları hardadı, kimdədi? Mənə dəxli yoxdu a, pis başa düşmə, amma işdi-şayəd, əgər haçan qəfil sənə pul lazım olsa, mən o qızılları baha ala bilərəm, nöşün ki, biz birevli kimiyik, sən də, bacıların da mənim balamsız. Hə, qızıl-zad öz yerində, de görüm, necə oxuyurlar qızlar, xoş səs-sədaları gəlirmi şəhərdən?.. – deyəsən, xətrimə dəyməmək üçün tez sözlərini dəbbələmək istəyirdi. Fəqət ox yaydan çıxmışdı. Elə gözlərim də kəlləmə çıxdı, yalan-gerçək bacılarımı xəbər almağını qulaqardına vurub heyrətlə səsimi qaldırdım ki, sən nə danışırsan, Qulam dayı, mənim babam kasıb adam idi, onda pul-para, qızıl-mızıl nə gəzirdi?.. Qulam gülümsündü ki, qışqırma, qızım, pul-paranı deyə bilmərəm, amma neçə il mən özüm çoxlu daş-qaş, qır-qızıl satmışam sənin babana, özü də ucuz satmışam, həmişə qiymətdə hörmət eləmişəm ona, nöşün ki, aramızda xətir-hörmət var idi, hələ sən bilmədiyin sövdələşmə var idi. Mənə inanmırsansa, bekar olanda bir bu evi yaxşı-yaxşı axtar, bax gör hardadı babanın qızılları, hayıfdı, qoy it-bata düşməsin, dayın bu gün var, sabah yoxdu, artıq pul baş yarmır ki... İşdi-şayəd, satlıq nə tapsan, xəbər elə, mən burdayam, ölməmişəm, neçəyə desən alaram ki, cavan qızsan, bu saat sənə qızıl yox, pul lazımdı ki, işlərini yola verə biləsən, axı tək öz canın deyil, bacılarına da ana əvəzisən... Day dillənmədim, fikir-xəyal məni apardı. Zərgəri birtəhər yola salıb dik qalxdım ayağa, elə bil mənə qeyri-adi, xariqüladə bir güc-qüvvə gəldi birdən-birə. Bu söhbətdən sonra zərgərin başına işlər gəldi, başı özünə elə qarışdı ki, bir-iki il görünmədi bizim həndəvərdə. Bu günün işini sabaha qoyma, deyiblər. Ələlxüsus, o işi ki, oturduğun yerdəcə içindən böyük qazanc gələ əlinə. Məqsədi nə olursa-olsun, zərgər düz deyirdi, artıq pul baş yarmır, bir də ki, pul heç vaxt artıq olmur. Əvvəlcə özüm evin ora-burasına əl gəzdirdim, gümanım gələn yerlərə baxdım, sonra Sənəmi çağırdım. Mən qorxu-morxu bilməsəm də – anamı öz əlimlə Əzrayıla tapşırmış adamam, day kimdən, nədən çəkinəcəkdim, qorxaq adam bu boyda dirlikdə tək-tənha baş çıxarda bilər, burda həm qorxmaz olmalısan, həm də yeyin, işlək, yoxsa batıb gedəcəksən, əlin də heç yana çatmayacaq – Sənəm hərdən gecələr gəlib bizdə qalırdı ki, guya, qız-qadın xeylağı gecə evdə tək-tənha qalanda üşənib-eləyər, əslində, tək olanda yox, Sənəm bizdə qalanda səksəkəli yatırdım, tərs kimi o da bizdə tez-tez qalırdı gecələr, deyəsən, mənim təkliyimi, tənhalığımı bəhanə eləyib evdəkilərin əlindən qaçırdı ki, bizdə bütün gecəni rahatca papiros tüstülətsin. Xülasə, Sənəmlə – həlbət ki, ona həqiqəti demədim – evimizin altını-üstünə çevirsəm də, heç nə tapmadım. "Mal bir yerə gedər, güman min yerə" – deyiblər. Əgər babamın malı heç yerə getməmişdisə, bu evdə idisə, hökmən tapacaqdım. Sənəm yorğun-arğın evlərinə gedəndən sonra da dinc durmadım, həyəti, alma ağacının altını da qazdım. Səndən

nə gizlədim – hərçənd bu sirri bacılarıma da açmamışam – indiyəcən umudumu itirməmişəm, hələ də axtarışdayam, di gəl, o qızıllar tapılmır ki, tapılmır. Onları axtara-axtara bir ara əsəbi də olmuşdum yaman, evdən lazımsız xeyli əşya, köhnə zir-zibil tulladım, əzizləyə-əzizləyə yadigar kimi saxladığım babamın yalançı sazını da götürüb vızıldatdım zibilxanaya. Sonra bu işi səngitdim, ruhdan düşdüm, ayda-ildə bir kərə qəfil beynimə harasa girəndən-girənə durub o yerdə axtarışa başlayırdım. Ancaq zərgər Qulam başına o cür həngamələr gələ-gələ bircə gün də bizim qızıllar məsələsini unutmamışdı. Çünki şeytanın qıçını sındırıb bizə gələndə xoş-beşdən sonra yavaşca xəbər aldı: "Noldu, qızılları tapdın?" Karıxdım, o dəm az qala yaddan çıxartmışdım söhbətin nədən gedə biləcəyini, matdım-matdım kişinin üzünə baxanda dəqiqləşdirdi. "Babanın qızıllarını deyirəm". "Tapmadım... – dedim. – Yəqindi ki, bu evdə qızıl-mızıl yoxdu, olsaydı, çoxdan üzə çıxmışdı". Arıqlamış, qapqara qaralmış Qulamı süzdüm narazı-narazı ki, buna bax, acgöz, başına min bir bəla gəlib, yenə gözü dünya malındadı. Sanki ürəyimdən keçənləri oxudu. "Eybi yoxdu, tapılmır tapılmasın, sənin başına sadağa, belə dünyanın bütün mal-dövləti qurban olsun sənin bir telinə... – boğazını arıtlayıb söhbəti dəyişmək istədi. – Amma bilirsən, əslində, mən bura başqa məsələdən ötrü gəlmişəm" – deyib susdu, armudu stəkandakı çaydan bir qurtum aldı. Araya sükut çökdüyündən mən diqqət kəsildim, deyəsən, kişi mətləbə necə keçəcəyini bilmirdi, içində götür-qoy eləyib qəti bir qərara gəlmək istəyirdi. Nəhayət, ağır-ağır dilləndi. – Başım elə qarışdı ki, neçə ildi səndən xəbərim yoxdu, yanında üzüqarayam, xəbərdarsan da, başıma nələr gəldi, gözümü açıb yumunca ailəm pərən-pərən düşdü, mən də sənin kimi tək-tənha qaldım". Uzaqdan başladığını duyub başımı tərpətdim: "Bilirəm, elə demə, bu nə sözdü, üzüqara düşmənin olsun". Razılaşmadı: "Yox, sözümü kəsmə, sənin bilmədiyin çox şeylər var. Bilirsənmi ki, biz babanla sözləşmişdik, sövdələşmişdik öz aramızda ki, səni oğlum Qabilə alacam, hə?" "Hə, onu eşitmişdim... – mən sakitcə deyəndə zərgərin köpü yatdı, nəyisə unudubmuş kimi, əlacsız-əlacsız alnını ovuşdurdu. "Amma məqam yetişəndə sözümü geri çevirdi Qabil. Onda sənin baban da, dədən də rəhmətə getmişdi, məsələ onların ölümündə deyildi. Qabil iki ayağını dirədi bir başmağa ki, mən onu istəmirəm. Yəni səni istəmirdi də... Yatsam yuxuma da girməzdi ki, o, mənə belə deyər, deyər ki, səni istəmir. Sizdən gətirdiyim almaları beş-beş yeyirdi axı... Nə isə... Soruşdum ki, niyə, a bala, gözümün qabağında böyüyüb o qız, yəni sən də, məgər o, pis qızdı? Qayıtdı ki, yox, yaxşı qızdı, ancaq mən poçtalyon Cəbrayılın qızı Mələyi istəyirəm. Onu alacam... – azca ara verib məndən xəbər aldı. – Mələyi tanıyırsan da sən?" "Həlbət ki, tanıyıram, bir məktəbdə oxumuşuq"... – dedim. Qulam davam elədi: "Mən hirslənib özümdən çıxdım ki, sən nəkarəsən özbaşına, özxoşuna evlənəsən, arvad alasan? O poçtalyon kimdi axı, bizimlə qohum ola? O qızın rəhmətlik babası ilə kişi söhbəti olub aramızda, sən məni onun ruhunun yanında bihörmət eləmək istəyirsən, hay?.. Bir də poçtalyonun qızının adını mənim yanımda çəkmə... Nə isə, o dedi, mən dedim, bu söhbət acı bağırsaq kimi günlərlə, həftələrlə, aylarla uzandı. Axırda əlacım kəsildi, təslim oldum, dedim ki, yaxşı, neynək, sən deyən olsun, Cəbrayılgilə xəbər ver, iki-üç günə elçi gedərəm onlara. Neyniyim qızım, zornan iş olmur, Qabilin ərköyünlüyünü qonum-qonşu da bilirdi, dediyini eləməsəydi, bağrı çatlayardı. Ancaq sən saydığını say, deyiblər, ertəsi gün həyətdəki qovaq ağacı, özü də saf, cavan ağacdı, əyilib-eləməmişdi, heç çürüyü-mürüyü də yoxdu, lapdan göz

qırpımında kökündən qopub aşmışdı balamın üstünə. O dəqiqə də canı çıxmışdı uşağın... Uşağın yasında bağban Səlim dedi ki, çinarabənzər qovaqlar xatalı ağaclardı. Cavan, ya köhnə, qoca, fərqi yoxdu... Baxırsan ki, yarpaqları yamyaşıl, sapsağlam, şümal ağacdı, amma görünüşü aldadıcı olur, içdən çürüyür o ağaclar, qəflətən də yıxılır bir anın içində... Molla Piri razılaşmadı ki, sən nə danışırsan, ay Səlim, ağac-mağac bəhanədi, belə yazılıbmış, belə də olacaqmış, Əzrayıl qovaq cildinə giribmiş, onun yazdığını kim poza bilər?.. Əzrayılın ağac cildinə girməyi ilə də bitmədi mənim başıma gələn bəlalar, qızım, kürəkənim, nəvəm yasdan evlərinə qayıdanda maşın aşıb dərəyə düşdü, üçü də bir yerdə öldü. Qızımı, nəvəmi, kürəkənimi basdırmağa gedəndə bizim arvad havalandı, arvadların əlindən çıxıb lapdan özünü atdı onların meyitini aparan mafə maşınının altına. Nə deyim... – ah çəkdi yanıqlı-yanıqlı. – Mənim çəkdiklərimi dağ götürə bilməzdi.” Kişiyə yazığım gəldi, təsəlli vermək istədim: “Buların hamısını mən bilirəm e, təzədən danışıb qanını qaraltma, yaddan çıxart getsin”. Təəccübləndi: “Bu boyda ağrı-acı yaddan çıxar?” Razılaşdım: “Elədi, ancaq hər şey Allahın əlindədi, o, necə məsləhət bilirsə odu, biz neyniyə bilərik?.. Əgər Qabillə mənim başbir ola bilməməyimə görə yanırsansa, yenə Allah bilən məsləhətdi, məni istəmirdisə, elə belə də olmağı yaxşı çıxış yoludu”. Necə yəni, “başbir olmaq” nə deməkdi, səhərdən-axşamacan alma ağacının altında oturub qurdalanmaq, məzarlığı, qəbiristanlığı gəzmək deyil e, adi sözləri öyrənmək lazımdı, “başbir olmaq” yəni qovuşmaq, ayıb olmasın, o məsələ... Hırıldama, hırıldama, gərdəyə girmək... Qulaq ver, elə zərgərin də gözləri səninki kimi bərəlmişdi mən belə deyəndə... İntəhası, sən gülürsən, onunsa ağzı açıq qalmışdı. Sənin gözlərin bərəlmiyib e, xətrinə dəyməsin, vapşe sən dombagözsən, yoxsa heyrətdən gözləri bərələ-bərələ qəhqəhə çəkmək olmaz. Hə, harda qaldım, axır ki, Qulam ağzını yumub udqundu, yavaşcadan: “Deməyindən belə çıxır ki, elə mənim oğlumun ölməyi yaxşı idi?” – xəbər aldı. “Mən o mənada demədim, deməyim odu ki, day köhnə palan içi tökməklə heç nə dəyişməyəcək, olan olub, torba dolub”. “Düzdü, olan olub... – yenə başını tərpədib razılaşdı. – Amma şükür ki, ömür bitmiyib”... – mənalı-mənalı, müştəri gözü ilə üzümə baxanda ayılıb barmağımı dişlədim: “Nə demək istəyirsən?” Boğazını arıtlayıb çəkinə-çəkinə, kəkələyə-kəkələyə dilləndi: “Axı... axı... axı... indi mən də sənin kimi tək-tənhayam... Qabillə evlənməyiniz baş tutmadı... – ara verib gözlərini süfrəyə dikdi. – Deyirəm... deyirəm... bəlkə biz... biz evlənək, onun da ruhu şad olsun?.. Nə bilmək olar, bəlkə, qurbanolduğum bizə bir övlad da nəsib elədi... Hər şey xudavəndi-aləmin əlindədi... Sənin rəhmətlik baban deyərdi ki, təklik Allaha yaraşıb, istər kişi olsun, istər qadın, qadına-qıza ərsiz, kişiyə də arvadsız yaşamaq düzgün deyil, günahdı...” – dərindən, sinədolusu nəfəs aldı, yüngülləşmişdi, sanki üstündən dağ götürülmüşdü, alnında tər puçurlanmışdı, qaramtıl yanaqlarına da qızartı çökmüşdü, baxışlarını yayındırmağa çalışsa da gözaltı üzümə, sir-sifətimə baxırdı ki, çöhrəmdən, qırımımdan cavabı bəri başdan sözsüz-kəlməsiz oxusun. O dəm qurbanolduğum elə bil mənə dəvə səbri verdi, o vaxtacan tez-tez mənə hakim kəsilən, hər dəfə də sonunda sakitləşərək peşman olub əlimi təəssüflə dizimə vurduğum çılğınlığımdan əsər-əlamət yox idi, elə sakit, rahat oturmuşdum, guya söhbət məndən yox, tamam başqa adamdan gedirdi, bu dəfə təhər-töhrümü poz-madan əlli ilin arvadı kimi uzaqdan başladım: “O dəfə sən mənə dedin ki, evinizdə babanın qızılları var. Onu çox axtardım. Tapa bilməsəm də evdən çox şeyləri

tulladım. Gözümə köhnədən qalan nə dəydisə, atdım getdi... Hayıf ki, axtarış adıyla başladığım yır-yığışda babamın sazını da atdım çölə”... Zərgər qımışdı, deyəsən, sakitliyimi, əlimi çənəmin altına qoyub dik onun gözünün içinə baxmağa çalışaraq cavab verməyimi razılıq əlaməti sayırdı: “Onu düz eləmisən, saz deyildi ki o. Adi ağac budağıydı, simi-zadı da yox idi... Cənnətlik olsun yeri, axır vaxtlar xəstələnmişdi də sənin baban.” “Sözümü kəsmə, – acıqlandım. – Söz soruşmusan, səbrini bas, qulağ ver, cavabını dinlə... Hayıf, səd hayıf ki, mən o sazı atmışam, o ağac əlimin altında yoxdu, yoxsa sənin keçəl başını yarardım... A kişi, yaşından-başından utanmırsan? Səni görüm babamın yanına gedəsən, dədəm yaşındasan e, sən... – qəribəydi ki, çığırıb-bağırmırdım, tamam sakitdim, amma kişinin yanağındakı qızartı itib getmişdi, üzünün qanı qaçmışdı, ağappaq ağarmışdı, özü də yanpörtü oturmuşdu, yəqin yerini qaçaraq qoymuşdu, di gəl, hələ də bir qərara gəlməmişdi; durub üzüsulu aradan çıxsın, ya axıracan mənə qulaq assın, çaşdığından, neyləyəcəyini bilmədiyindən, ya bərayi-ehtiyat, hər nədənsə, armudu stəkanın altındakı nəlbəkini götürüb lap babamın ağ fəsi kimi qoydu başına. Ayrı vaxt olsaydı, qəhqəhə çəkərdim, ancaq indi gülməkdən keçmişdi. – Binamus-binamus işlər necə gəlir sənin ağlına? O ki qaldı oğul-uşaq məsələsinə, mən cavan qızam, Allah mənə niyə övlad verməsin ki?.. Sən get öz dərdinə qal, qoca kaftar...” Nəlbəkinin kəlləsindən düşəcəyini hiss eləyib əlini başına qoydu, sanki bununla güc gəldi ona. “Əstəğfürulla, o nə sözdü deyirsən, binamusluq, biqeyrətlik nədi, mən bu evin qapısını həmişə mərd-mərdanə açmışam... Sözümü qəribliyə salma, bir qız bir oğlanındı”. Bu dəfə məni gülmək tutdu, pıqqıldadım: “Oğlana bax, sən doğrudan-doğruya özünü mənə yaraşdırırsan, özünü mənə tay tutursan, ay nəlbəkibaş? Ya rəhmətlik babam kimi sənin də başın qaçıb qoca vaxtında?” Gülməyimdən lap ürəkləndi, nəlbəkini də başından götürüb qoydu masanın üstünə. “O kişiyə elə demə, mələk kimi adam idi o, heç kim bilmir ki, öz axırı necə qurtaracaq?.. – yəqin mənim yanımda yerini şirin salmaq üçün babama qahmar çıxdı. – Sən özgəsi deyilsən, səni öz qızım bilmişəm həmişə”. Deyəsən, zərgər həqiqətən kələfin ucunu itirmişdi. “İndi də qızın oldum, ay oğ...” – sözü dilimin ucundan qaytarsam da, payını götürdü. “Elə demə, mən təkcə öz hayımda deyiləm, məni istəmirsən, canın sağ olsun, ancaq sən hökmən ərə getməlisən, ailə qurmalısan”. “Mənim dərdim sənə qalmıyıb, sən get özünə gün ağla,” – vecsiz-vecsiz, biganəliklə çiyinlərimi oynatdım. Dediyindən dönmədi: “Sonra gec olacaq, əlini dizinə çırpacaqsan əlacsız-əlacsız, amma ki, dizinə vurduğun başqa heç yerə çatmayacaq”. Səbrim kəsildi: “Vapşe dur, rədd ol gözümdən... – dedim. – Bir də ayağın bu həndəvərə dəyməsin... İşdi-şayəd, yolunu azıb-eləsən, day o alma ağacının budağını sənin başına çırpmayacam, başqa yerinə soxacam. Dur!..” – qəflətən hirslə qışqırdım. Mən qalxınca, gördüm zərgər hasarımızın o tərəfindədi. Əclaf yaman qıvraqmış. Təzədən oturdum masa arxasında, dirsəklərimi masaya dayaq verib başımı əllərimin arasına aldım. Nə qədər lal-mat əyləşdiyimi bilmirəm. Birdən-birə hiss elədim ki, ürəyim dolub, qəfil oturduğum yerdəcə elə parça-parça olaram ki, tikəm ələ gəlməz. Durub düşdüm həyətə, yaman darıxdım lapdan, nəynənsə başımı qatmaq istəyirdim, tərs kimi, ağlıma heç nə gəlmirdi, qəflətən elə bildim ki, evimizdə deyiləm, ucsuz-bucaqsız çöl-biyabanda tək-tənhayam, kürəyimdə də ağırdan-ağır yük var, ha hıqqanıram, ha çalışıram, belimdəkini yerə qoya bilmirəm, başa düşürəm ki, heç vaxt da qoya bilməyəcəm, bu yükdən, bu

ağırlıqdan qurtuluş yoxdu, kürəyimdəki mənimlə qəbir evinəcən yol yoldaşı olacaq. Fəqət, deyəsən, yanılmışdım, ağrı, ağırlıq dalımda, arxamda, kürəyimdə deyildi, önümdə, sinəmdə, ürəyimdə idi, ürəyimdəki ağrıdan qəlbim köksümdən çıxacaqdı az qala. Ürəyimdə, içimdə yumrulanmış ağırlıq qalxıb boğazıma dirənirdi, havam çatmırdı, nəfəs ala bilmirdim, sövq-təbii, qeyri-ixtiyari sağ əlimlə ürəyimin üstünü ovxalaya-ovxalaya alma ağacının altına gəlib xeyli ağladım, özü də səssiz-səmirsiz yox, bərkdən, hönkürtü vurdum. Bu dəfə mən özüm ölmüşdüm, özüm öz yasımda göz yaşı tökürdüm. Adam diriykən də ölə bilərmiş, əl-ayağını uzadıb ölməyə nə var ki?.. Ən dəhşətlisi elgözünə, guya yaşadığını göstərə-göstərə kəfənsiz-qəbirsiz ölməkmiş. Bir var yaşayasan, bir də var ömrünü yola verib yalandan günü-günə calayacan. Yaramaz Qulam həmin gün bizə gəlib məni həqiqətən param-parça elədi. Sanki göyün üzündən atdı qapı-pəncərəsiz dörd divarın arasına, birdən-birə kiçilib zərrəyə döndüm, qandım ki, bütün qapılar bağlıdı, nə irəli yol var, nə geri... Ancaq Allah bizim qandığımızdan da böyükmüş, çox-çox böyükmüş, sənə inan-mayana lənət, xudaya!.. Heç üççə gün keçməmişdi ki, mənim hayıfımı zərgərdən aldı. İldırım vurub yandırdı Qulamın evini, özü də içəridə yanıb kül oldu. Hamı mat-məəttəl qalmışdı, axı o gecə ildırım-zad çaxmamışdı, ulduzlarla dolu göy üzü lal-sakitdi... Ola bilməz ki, ildırım çaxsın, amma heç kəs eşitməsin, heç kəs görməsin, özü də o səssiz ildırım cəmi bir evə xələl gətirsin... Bilən olmadı ildırım məsələsini kim atıb ortaya... Amma hamı buna inanmışdı. Bircə polisimiz Ərzumandan savayı... Ərzuman da Ərzumandı ha... Ayıb olmasın, üzü üzlər görmüşdü, dalı bizlər... Qaşınmayan yerdən qanı elə çıxarırdı ki, deyərdin xəncər yarasıdı. Ona görə camaat Ərzumana inanmırdı ki, deyirdilər, əlinə girəvə düşüb paqonlunun, yox yerdən kimlərdənsə beş-üç manat almaqdan ötrü teatr çıxarır, rola girib. Yazıq Ərzuman da özünü didib tökürdü ki, ay camaat, vallah-billah, bu elə-belə yanğına oxşamır, mən ölü, siz diri, darıxmayın, görərsiz, gec-tez, haqq-ədalət öz yerini tapacaq, ə, bu necə yanğındı ki, yananın başı yoxdu, kəsilib, heç kəsik baş da tapılmır ki, tapılmır. Di gəl, arvadlar danışırdı ki – ən çox da falçı Xeyransa – Ərzuman yalan deyir, Qulamın başını kəsib-eləməyiblər, yerindəydi başı, guya, başqa yerini, necə deyim... ayıb yerini, kişiliyini kəsiblərmiş... İnanmırsız, mürdəşirdən, ölüyuyandan soruşun. Əzazildən... Əzazil də and-aman eləyirmiş ki, ay camaat, yəqin yazıq zərgərin meyiti elə haldaydı ki, əl vuran kimi ovulub tokülürmüş, ona görə belə məsləhət olub ki, meyiti yumayaq, kəfənləməyək, elə birtəhər tabuta yığıb dəfn eləyək, tak şto, mən meyit-filan görməmişəm, bilmirəm harası üstündəydi, harası kəsikdi, elə mən də sizin kimi ağızdan-ağıza eşitdiyimi deyirəm. Camaat onun da sözünə inanmırdı ki, Əzazil kursunu bələkdə qurtarıb, çoxbilmişliyindən üzünə də tük çıxmayıb, bir tikə vaxtından əli paqonluların ətəyindədi, o kosabala hokümətin sirrini camaata deyər? Ölmüşdü Xankişi... Bir adam ki, dədə-babadan ölü yumaqla çörək qazana, ondan dirilərə həyan olar?.. Üzdə mürdəşir-mürdəşir deməklərinə baxma, özlüyündə hamı çəkinirdi Əzazildən. Bəs necə? Gec-tez hamının işi düşəcəkdi ona. Bir yay axşamı babamla dədəmin qəribə söhbətini də eşitmişdim. Babam ehmal-ehmal, ağır-ağır, hülqumunda nəsə qalıbmış kimi, boğazını arıtlayıb, bir az da səsi xırıldaya-xırıldaya dədəmə demişdi ki, mən ölüb-eləsəm, qoyma Əzazil yusun məni, elə özün yuyub-kəfənləyərsən, dinimizdə də belədi, adamı gərək öz yaxını yusun, mürdəşir, ölüyuyan sonradan çıxma sənətdi, kimsəsizlərdən, heç kəsi olmayanlardan, yetim-yesirlərdən ötrüdü...

Dədəm diksinib bir anlığa nə cavab verəcəyini bilməmişdi, sonra əlini babamın əlinin üstünə qoymuşdu ki, əstəğfürullah, bu nə sözdü, a kişi, ağzını xeyirliyə aç, nolub axı?.. Babam başını ağır-ağır tərpədə-tərpədə qayıtmışdı ki, keçən dəfə ikilikdə Əzazil mənə dedi ki, molla, oxuduğun Yasin, Quran, kitab öz yerində, amma o kitablarda mənim gördüklərim, bildiklərim yazılmayıb, mən ölünü yuyanda üçüncü sudan sonra bilirəm, hiss eləyirəm ki, mərhum cənnətlikdi, ya cəhənnəmlik, ölü var ki, yuyulduqca üzünə nur gəlir, sir-sifəti işım-işım işıldayır, par-par yanır, gül qoxuyur, ölü də var, sifəti eybəcər, bədheybət hala düşür, ha yuyursan, üstündən gələn, ətrafa yayılan dəhşətli nəcis iyi çəkilmir ki, çəkilmir... Dədəm qımışıb əlini babamın əlinin üstündən götürmüşdü ki, nə deyim, a kişi, mən elə şeyləri qanmaram, amma düzünü deyəcəm, mənə çox arxayın olma e, iraq-iraq, ölüb-eləsən, mən sənə yaxın düşə bilmərəm, özün mənə bələdsən axı, mən ölüdən qorxuram, qorxmaq azdı e, tüklərim biz-biz olur, vicvicə, vahimə düşür canıma... Babam gülümsünmüşdü ki, ölülərdən yox, dirilərdən qorxmaq lazımdı, ölüdən adama zaval gəlməz. Hər nə isə, sən saydığını say, deyiblər, onsuz da babamın ölümünü görmək dədəmə qismət olmadı. Hərdən fikirləşirdim ki, görəsən, Əzazil özü öləndə onu kim yuyacaq? Sonra yadıma düşürdü ki, bu sənət onlarda nəsillikcədi, Əzazilin oğlu da yavaş-yavaş atasının yerini tutacaq... Dirilərin qorxub çəkindiyi Ərzumansa, dediyindən dönmürdü ki, dönmürdü: “Darıxmayın, səbirli olun, gec-tez, haqq-ədalət gəlib keçəcək yuxarı başa”. El-oba neçə ildi tanıyırdı Ərzumanı, yerli adam idi, hamı kəramətinə bələddi onun. Yerli olsa belə, adi bir işdə milçəyi fil eləyib pul almayınca, dədəsini də çərlədərdi. Bu üzdən camaat inanmırdı Ərzumana. “Əlinə yaxşı girəvə düşüb,” – deyirdilər. İldırıma, zəlzələyə, selə-daşqına inanmaq daha ağlabatan idi. Həm də Ərzumanın söylədikləri nağıl kimi gəlirdi camaata. Lap tutaq ki, ildırım-zad vurmamışdı evi, pulunaqızılına görə basqın eləyib, izi azdırmaqdan ötrü yandırmışdılar zərgərin evini. Yaxşı, bəs, kişinin başını, yaxud başqa yerini nədən kəsmişdilər, hə?.. Kimə lazım idi onun keçəl, nəlbəki başı, ya başqa yeri?.. Belə qəddarlıq, belə əzazillik yuxu təki, uydurma təki gəlirdi kəndimizin adamlarına. Bizim kənddə bir Əzazil vardı, o da ki, ölüyuyan, mürdəşir... Bəlkə rayon mərkəzindən, lap elə tamam başqa yerlərdən gəlmişdi basqınçılar?.. Kim bilir?.. Ancaq kəndimizdə bir başıpapaqlı nədi, az qala heç başıörpəkli də qoymamışdı Ərzuman... Hamını bir-bir yanına çağırıb uzun-uzadı sorğu-sual eləyirdi, özü də deyirdi ki, rayon mərkəzindəki başbilənlər bu işi nəzarətə götürüb, ondan tələb eləyirlər ki, tez tapsın bu qanlı əməli törədənləri... Nədən şübhələnmişdisə, “İlan”ın oğlu Tofiqi düz üç gün saxlamışdı, yazıq “İlan” elə balası tələyə düşmüş ilan kimi, çox yalvarıb-yaxarmışdı Ərzumana, nəhayət, görüm-baxım eləyəndən sonra Ərzuman əl çəkmişdi Tofiqdən. Tək “İlan”ın oğlu Tofiqin yox, yanğına basqın, qətl adı verib çox adamın dərisini soydu Ərzuman, xeylağ əlləşdi, min bir çək-çevir elədi, həm cibindən ötrü, həm də işindən... Amma deyəsən, əli heç yana çatmadı, elə sorğu-suala cağırdıqlarının bəzilərindən beş-on manat almaqla kifayətləndi. Əlacsızlıqdan axırda yenə gəlib durdu ildırım məsələsində ki, bəs, həqiqətən evi ildırım yandırıb, külə döndərib. Camaat da rahat nəfəs aldı, cünki adamlar bir-birindən şübhələnməkdən bezikmişdi. Fəqət bir şayiə də gəzirdi ki, guya Ərzuman bu sirri, qətlin üstünü açıb quldurların, günahkarların axırına çıxacaqmış, bəlkə də kələfin ucunu əlinə dolaya-dolaya sirrin, gizlinin qapısını aralayıbmış, o ki köhnə qurd idi, kəndimiz sakit yer

olsa da, illər boyu Ərzuman çox düyünlər açmışdı, intəhası, lap yuxarılardakı başbilənlərdən hansısa xəbər tutub bu məsələdən, ona yaxşıca bir qulaqburması verərək təpinib ki, qurtar bu həngaməni, əfsanə, nağıl, hap-gop zamanı deyil, qaşınmayan yeri dırnaqlama, camaatı ağlagəlməz şeylərlə qorxuya salıb yerindən oynatma, millətin baş-beynini apardığın o ekspertiza rəyidi-nədi, onu sakitcə bük, sox dalına ki, heç kəsin əlinə keçməsin, yoxsa qəzəblənmiş kütlənin qabağında durmaq olmaz, sənin başın əldən gedər, yox yerdən bizim də kreslomuz laxlayar, rayonumuzun da adı ölkə içində pis çıxar. Ərzumanın dişi bağırsağını kəssə də qalıb əlacsız, bu işin kitabını birdəfəlik bağlayıb. Neynəsin, dəvədən böyük fil var, ağa deyir sür dərəyə, sür dərəyə... O da canının-başının qorxusundan kağız-kuğuzunu yığışdırıb, kitabı elə bağlayıb ki, sonralar maraq içində boğulan ən məhrəm dost-tanışına, qohum-əqrabasına da bu barədə bir kəlmə deməyib. Bildiklərini özü ilə qəbrə apardı Ərzuman. Day o ağlagəlməz, qaranlıq şeylər nə imiş, camaatın zəhri nədən ötrü yarılacaqmış, bunu anlayan olmadı. Sonralar hər şey yaddan çıxdı, guya belə hadisə, belə iş heç olmayıbmış. İndi hərdən ağlıma gəlir ki, bəlkə bizim almadan zənbil-zənbil yediklərinə görə Qulamgilin başına görünməmiş qan-qada gəldi, böyüklü-kiçikli hamısı qırıldı? İntəhası, yadıma düşür ki, kəndimizdə bizim almadan yeməyən qalmamışdı, onda gərək bütün kəndimiz bu vaxtacan yerlə-yeksan olaydı. Nə bilim, vallah... Yəqin alma da illərdi yaşadığı həyətin suyunu içdiyindən bizim nəsil-kökə bənzəyirmiş; insaflı imiş, hər evə, hər yetənə dəyib dolaşmırmış, necə deyərlər, adamına baxıb qanını alırmış. Görükür ki, təkcə bizlik deyilmiş, məsələ çox dərindəymiş, nəlbəkibaş zərgərin günahı xirtdəyəcənmiş. Yoxsa, heç olmasa uzaq qohumlarından kimsə gəlib onun külə dönmüş ocağında təzədən od yandırardı. Yox, ə, yox, qulağ ver, o oddan demirəm, kül olmuşun yanğından nə qorxusu?.. Deməyim odu ki, yəni biri gəlib ev tikərdi, həyət-bacaya əl gəzdirərdi, zərgərin ocağını, işığını təzədən yandırardı ki, onun da ruhu şad olsun. Görmüsən də yəqin o ot-ələf dizə qalxan həyəti kəndin ortasında, uçuq, yanmış evi deyirəm. Burası var ki, indi qocalı-cavanlı ayağı yer tutan bir parça çörək üçün qaçır paytaxta. Burda gəlib ev tikənin yayda işi yaxşı gedəcəkdi, ordan-burdan dincəlməyə gələnlər ev yiyəsini çörəksiz qoymayacaqdı, bəs, havalar soyuyanda nə yeyəcəkdi o yetim?.. Elə buna görə Qulamın dağılmış yurdu baxımsız qalıb, bayquş yuvasına dönüb. Yiyə duran, sahib çıxan yoxdu. Ev yanıq-uçuq, həyət-baca da zibillik, cəngəllik, tülkü-çaqqal məskəni... Bəlkə də camaat, elə Qulamın öz qohum-əqrabası, o xaraba qalmış yurdda təzədən yuva salmağa qorxur, bir ara söz çıxmışdı ki, ora lənətlənmiş yerdi, guya, gecələr orda əcinnələr gəzir, Qulamın ruhu gəzir, özü də lüt-üryan... Burası sirli-sehirlidi ki, vapşe, görəsən, ruhun əynində pal-paltarı olur, yoxsa hamısı çılın-çılpaqdı... Uy, iraq olsun, gör nələr danışıram. Hər nə isə, qiymətli bir yer olsaydı, ruha, əcinnəyə baxmadan çoxdan sahibi çıxardı. Bir şeyi qanmıram, mənə ki deyirdi, axtar babanın qızıllarını tap, gör hardadı, bəs, görəsən, zərgərin öz var-dövləti kimə, kimlərə qaldı?.. O, aləmin tülküsü idi, ola bilməzdi axı, bütün malını, pulunu, qızılını kənddəki evində gizlətsin, Allah bilir, onun gizlində, başqalarının adına saldırdığı nə qədər malı-mülkü vardı. Necə deyiblər onu, Allah adamı tər töküb qazananlardan yox, hazır yeyənlərdən eləsə yaxşıdı. Bir də deyiblər ki, ha zillət çək, dörd əllə qamarla, yığ, doldur altına dünya malını, xeyri yoxdu, tanrı bilir, kim qazana, kim yeyə... Nə deyirsən de, tez-tez yadıma düşür zərgər. Bəlkə də haqlı idi o, sözündə haqq vardı, illər ötüşdükcə bunu

lap içdən anladım. “Başına gələn başmaqçı olar”, rəhmətlik babalarımız yaman sərrast deyib. Yüz adam məsləhət verə ki, odun-alovun üstündən keçmə, xeyri yoxdu, öz ayağın yanmayınca ağlın başına gəlməyəcək. Ya zəlzələdən, ya vəlvələdən, zərgər düz demişdi mənə... Necə yəni nəyi?.. Ərə getmək məsələsini... Yox, əstəğfürullah, o nə sözdü deyirsən, həlbət ki, Qulama yox, zərgər mənim dədəm yaşında idi. Noolmuşdu ki mənə, maşallah, dedim axı, gözəl-göyçək qız idim, amma neçə elçiyə “yox” deyib ömrümü bacılarımın yolunda çürütdüm. Sonra oğlanlar əlini məndən üzdü, elçilərin ayağı kəsildi. Kim açılmayacağını bilən qapını döyüb özünü bihörmət eləyər? Yəqin Allahın mənim kimi adamlara qəzəbi tutur ki, mən bu gözəlliyi, bu canı, bu bədəni sənə vermişdim, sən nəkarəsən axı, mənim verdiyimi kiminsə, kimlərində yolunda çürüdəsən, fəda eləyəsən? Sənə verdiyimə hörmətin, şükrün budu?.. Kaş elə adam doğulandan altmış yaşındakı ağılda ola, kəlləsi daşa dəyəndən, iş-işdən keçəndən sonra gəlməyə ağlı başına... Kənd-kəsəkdə, ev-eşikdə, el-camaat arasında özünü nə qədər kişi kimi aparırsan-apar, ha özünü aldat, xeyri yoxdu, kişi kişidi, arvad da arvad... Gecələr canın kişi istəyəndə az qala başını divara vuracaqsan, döşlərin gizildəyəcək, uzanıb əlini ayaqlarının arasına atacaqsan, ayaqların da sözünə baxmayacaq, qıçların başlayacaq öz-özünə tir-tir titrəməyə, əsim-əsim əsməyə, gözlərin çevriləcək, ixtiyarsız başlayacaqsan astadan ufuldamağa, inildəməyə, özünü kinodakı – bir ara yaman aludə olmuşdum, hər gecə baxırdım televizorda elə filmlərə, səhər də ertədən dura bilmirdim, həyət-bacanın işi-gücü, heyvan-qara, toyuq-cücə qalırdı Sənəmin umuduna, ona da yalandan deyirdim ki, qanım aşağıdı, başım hərlənir, yatağımdan dura bilmirəm – çılpaq kişilərin qucağında hiss eləyirsən, ağzından su axacaq qucaqladığın yastığa, bir də xəbər tutacaqsan ki, təkcə ağzın sulanmayıb, alt tumanını da islatmısan... Hərdən, içi Sənəmqarışıq, qonşu arvadlar ərləri ilə çıxardıqları oyundan danışıb xısın-xısın pıqqıltı ilə güləndə özümü biganə, laqeyd göstərməyə çalışsam da, ürəyim lapdan başlayır bərk-bərk döyünməyə, qorxuram ki, döyüntünü deyib-gülənlər eşidər, aralıda dayanıb boynumu bükürəm... Hırıldama, hırıldama, dedim axı, mənim day kimdənsə utanan-çəkinən vaxtlarım keçib... Bu yaşımda bəlkə yaşmaq da bağlayım, hə?.. Danışanda sözgəlişi hərdən sənə “Ayıb olmasın...” deməyimə baxma, mənim ayıb işlər görə bilən vaxtlarım da ötüşüb... Nədi, öz nəcisindən noxud tapmısan ki, gülməyini kəsə bilmirsən... Özünə gəl, qəşş eləyib getdin ki sən... Hələ mən yaşıdlarımın oğul-uşaq, nəvə toyu elədiyini eşidəndə nələr çəkdiyimi demirəm. Gül, gül, səndə günah yoxdu, suç məndədi ki, neçə kərə ağzım yansa da, yaxın bildiklərimin halına acımaqdan qalmıram. Axırda yanan da mən oluram, yaman da... Baxıram ki, acıdıqlarımın, halına yandıqlarımın işi xod gedir, elə mən özüm param-parçayam. Neyləyə bilərəm, binadan mənim baxtım, naxışım filandı da... Mənə deyən gərək, ay evi tikilmişin qızı, yollarında ömrünü çürütdüyün, canını fəda elədiyin doğma bacıların axırda qədrini bilməyib sənə arxa çevirdilərsə, day yaddan, özgədən nə umursan? Qoy nə istəyir-eləsin, harda kefidi oturub işini-gücünü görsün, can onun, səndən iraq, cəhənnəm tanrının... Xətrinə dəyməsin e, köntöy, qaba danışıram, çünki həqiqətən, canım yanır, sən yad deyilsən axı, neçə yaydı gəlib-gedirsən bura, üzüm-gözüm yaman öyrəşib sənə... Odu ki, istəmirəm o bədbəxtlik ağacının altında oturub mənim evimdə, mənim həyətimdə özünü güdaza verəsən. Nədi, bu boyda həyət-bacada başına ağac, kölgəlik qəhətdi?.. Odey, o fındıq kolunun altı ordan da

sərindi, evə də yaxındı... Ya darvazanın yanındakı başı buludlara dəyən çinarın kölgəsi, mehi... Hələ də gülür e, arsız-arsız... Səninlə ciddi danışılası deyil, boş, lağlağı adamsan sən, ağzın girəvə axtarır qulağının dibinə getməkdən ötrü... Ədə, bir özünə gəl, ələ salmısan məni? Özün bil, mən bayaqdan çənəmi ona görə yorurdum ki, səni məsələdən hali eləyim, həm də, iraq-iraq, qəflətən sənin başına bir iş gəlib-eləsə, vicdan əzabı çəkməyim. İndi ki sən məzələnib, əlini qarnına vurub gülə-gülə mənim bir quranlıq sözümü qəribçiliyə salırsan, neynək, mən susdum, day min kərə yalvarıb dil töksən də dinib-danışan deyiləm, qalanı sənlikdi... Hırıldamasaydın, hələ tükürpədən şeylər də danışacaqdım sənə, məni lağa qoyub güldün, həvəsdən düşdüm. Neynək, sənə xəbərdarlıq elədim, bundan sonra başına bir iş gəlsə, day mənlik deyil, öz bəxtindən küs, amma yadında saxla ki, ehtiyat igidin yaraşığıdı, ehtiyatlı igidin anası ağlamaz, eh, mən də ağzıma gələni danışıram, səndən nə igid, nə qəhrəman? Boyun uzun olsa da, bir suyun bura gəlib alma ağacına müştəri gözü ilə baxan, gedəndə də qəzaya düşüb maşında xurd-xəşil olan spiçkaayaq alimə bənzəyir. Sən də onun kimi aparıqsan. Bəxtin oxşamasın ona, yazıqsan, heç bilmirəm sənin ata-anan durur, ya yox? Elə boş-boşuna hırıldamaqdan başqa əlindən heç nə gəlmir, neçə ildi düz-əməlli danışmırsan ki, kimsən-kimlərdənsən, hansı yuvanın quşusan, arvadın kimlərdəndi, oğul-uşaqdan nəyin var? Elə zarafatla, gülməklə, qəhqəhə ilə, hap-gopla birtəhər çulunu sudan çıxarırsan...”.

* * *

...Əgər başına gələnləri kiməsə danışıb ürəyini boşalda, rahatlana bilirsənsə, deməli, sənin gördüklərin, çəkdiklərin toya getməlidi. Vay ondan ki, deməyə bir quranlıq sözün olsa da, danışmağa üzün olmaya... Ev yiyəsi hardan bilsin ki, mənə sərinlənmək-filan gərək deyil, bundan sonra başıma gələ biləcəklərdən, gələcəyimdən-zaddan da qorxum yoxdu. Mən bu alma ağacının altında bütün dünyadan gizlənib sonuncu işimi tamamlamaq istəyirəm ki, axirətin, əbədiyyətin yolunu tapım, day bir də heç kəs fağır-fağır boynunu bükməsin ki, neyləyək, indiyəcən ordan bir xəbər-ətər gətirən yoxdu, hardan bilək o dünya var, cənnət var, cəhənnəm var, hə?.. Gözü ilə görüb, qulağı ilə eşitmədiyinə inanmayanlar üçün daşdan keçən dəlil-sübut axtarıram, həmin sübutu tapıb haça-paça qalanları inandırmağın yeganə yolu özümün o yerlərə təkrar-təkrar gedib qayıda bilməyimdi. Bəli, bəli, təkrar-təkrar... Kimə desəm, ən böyük istəyimi, sirrimi kimə açsam, qayıdar ki, get ağlına dua yazdır, seçilmişlərin, dinin, elmin belə çaşbaş qaldığı, bəşər yaranandan bir kimsənin gedib qayıda bilmədiyi yerlərə sən nə təhər səyahət eləyəcəksən, əstəgfürullah, oralara metro-zad çəkiblər bəyəm?..

Deyəsən, hər şeyi başdan başlamasam da, yerli-yataqlı olmasa belə, bəzi hadisələri ucundan-qulağından, ziqzaqlı gözümün qabağına gətirməliyəm ki, yaddaşımı təzələyim... Özünü tərifləmək dəbdə olsa da, bəzək-düzəksiz danışacam, özü də ordan-burdan... Çünki əvvəldən-axıracan nəql eləmək üçün gərək hökmən adama qulaq asan ola... Öz-özünə, ürəyində rəvan danışmaq mümkün deyil, istədin-istəmədin, tez-tez kələfin ucu itir... Ondan başlayım ki, elə mən də bu ev yiyəsinin, lap dəqiqi, sahibəsinin lal olmuş qardaşı kimi dəqiq elmlərin, riyaziyyatın, fizikanın, kimyanın, astronomiyanın atası idim. Hərçənd elmlərə dəqiq ayaması yapışdırmaq nisbi məsələdi, öyrəndiklərimdən belə qənaətə gəldim ki, bəşəriy-

yətdə dəqiq heç nə yoxdu, dərinə getdikcə dəqiq hesab elədiyin hər şeyin “zibili” çıxır. Nə isə... Nağıl dilində desəm, bu sözlər hələlik elə burdaca qalsın...

Mən instituta girəndə də müəllimlər “hayıl-mayıl” olmuşdular. İmtahanda hardan sual verirdilər, fikirləşmədən, rahatca cavab verirdim. Çünki heç bir müəllimdən, imtahandan qorxub-çəkinmirdim, instituta girmək də əsl məqsədim deyildi, sadəcə, “palaza bürün, elnən sürün” məsələsi. Özümü məni imtahan eləyən müəllimlərdən də bir baş yuxarı sayırdım, balaca, bir tikə vaxtımdan ixtiralar da eləyirdim öz aləmimdə. Rəhmətlik atamın ağlı bir şey kəsməsə də xətrimə dəymirdi, otağımdakı köhnə radio, televizor qalıqlarına, cürbəcür naqillərə baxırdı mat-məəttəl, sonra rahatlıqla köks ötürüb özündənrazılıqla gülümsünürdü:

– Axırda sən bu evi partladıb hamımızı o dünyalıq eləyəcəksən... Biz heç, ancaq qonşulara yazığım gəlir, yaxşı adamlardı...

Mən də gülürdüm, bilirdim ki, atam, üstünü vurmasa da, mənimlə fəxr eləyir, qiymətlərimə baxanda ürəyi dağa dönür, institutdan yaxşı xəbərlərim gələndə sevindiyindən bilmir neyləsin. Adətən, yayda, bazar günü həyətdəki talvarın altına keçib qonşuları yığırdı başına, pivələyirlər, domino oynayırlar, sözarası atam mənimlə qürrələnərdi: “İnstitutda qocaman professorlar bizim uşağın başına and içir.” Qonum-qonşu da bir ağızdan: “Allah saxlasın...” – deyərdi. Bilirdim ki, atama nə pivə içmək ləzzət eləyir, nə domino oynamaq, kişi qonşuların mənə dediyi, elədiyi alqışı eşitməkdən ötrü düşür həyətə...

Amma düz deyiblər ki, niyyətin hara, mənzilin ora, adam gərək ürəyinə yaxşı şeylər gətirsin, pis fikirləri zarafatyana da yaxına buraxmaq olmaz; günlərin birində atamın işlədiyi zavodda partlayış oldu, beləcə, mən atamı da itirdim. Atam öləndən sonra bir ara içkiyə qurşandım. Araq dadıma çatırdı, ovundururdu məni elə bil. Dərsdən sonra tələbə yoldaşım Fəxri ilə vururduq bala-bala. İnsafən, Fəxri heç vaxt qoymurdu, imkan vermirdi əlimi cibimə atım. Deyəsən, onun atası çox varlı idi. Bir dəfə lap ağını çıxartdıq, dərsdən qaçıb getdik yaxındakı kafeyə, orda möhkəm vurub gəldik instituta, içki bizi yaman sərxoş eləmişdi, yoxsa, heç vədə qızların tualetinə girməzdik. Amma, deyəsən, Fəxri məndən ayıq, çevik idi, ya da mən qabaqda olduğumdan, maraqlı şeylər görüb özümü itirdiyimdən, buna imkan tapmadım; qızlar hay-küy salıb qışqıranda o, tez qaçıb aradan çıxdı, mənisə tutdular. İş böyüdü, aləm dəydi bir-birinə, dekan mənim xətrimi çox istəyirdi, ertəsi məni çağıtdırdı kabinetinə ki, bilirik sən tək olmamısan, yanındakının da adını de, bəlkə birtəhər sənə kömək eləyə bildik, yoxsa, ən azı, səni institutdan qovacaqlar, istedadlı tələbəsən, hayfım gəlir sənə, müəllimlər də sənin haqqında yaxşı fikirdədi, de görüm, səni kim başdan çıxarıb?.. Təxminən güman eləyirik sən kiminlə olmusan, ancaq sən deməsən, sən həmin tələbənin üzünə durub şahidlik eləməsən, biz heç nəyi sübut eləyə bilmərik, çünki qızlar onun üzünü görə bilməyib...

Dekan ucaboy, şümal kişi idi, qalın saçları da saçı kimi ağappaq. Mən də balacaboy deyiləm, amma o, kresloda oturduğu yerdə, qapının ağzında dayanıb gözlərini masaya dikəndən, yəni məndən yekə görsənirdi:

– Mən heç nə deyə bilmərəm... – mızıldadım astadan...

– Nöşün deyə bilmirsən axı? – qurcalandı yerində. – Mən sənə kömək eləmək istəyirəm.

– Çünki satqınlıq nakişilikdi... – yenə yavaşca, ancaq qətiyyətlə dedim.

– Alə, buna bax, alə... – otaqda heç kəs olmasa da, dekan acı-acı gülümsünüb yekə əlini irəli uzatdı, guya əşyayi-dəlil kimi kiməsə məni göstərirdi. – Kişilikdən dəm vurur, elə bil kəşfiyyatçı yoldaşını satacaq, kişi də arvad tualetinə girib qızlara baxar?.. Axı, olar bizim ana-bacılarımızdı... e... – deyəsən, tələbə qızlara "ana-bacı" deməyinin fərqinə vardı, dili dolaşdı. – Balalarımızdı... Hərəsi bir yerdən gəlib, əmanətdi olar bizə... Gərək biz onların qeyrətin çəkək... Sən bu gün o yaramaz, əxlaqsız tələbəni ələ vermək istəmirsən, gör o, sabah nə hangamələr törədəcək... Bu gün qarşısını alıb qulağını burmasaq, sabah gec olacaq...

– Bir işdi olub... Kişi tualeti əvəzinə çaşıb qadınlarınkına girmişəm... Onsuz da elə qışqırışdılar, düz-əməlli heç nə görə bilmədim... Narahat olmayın... Ordakıların sir-sifəti də yadımdan çıxıb...

– Nə narahat, alə, başın xarabdı sənin?.. Kəs səsini!.. Yox bir, orda axşamacan dayanıb yaxşı bir parnoqrafik kino-zad çəkməliydin... – dekanın zəhmli sifətinə təbəssüm qonsa da, qalın, ağ qaşları düyünləndi. – Amma o qızlar səni yadda saxlayıblar. Arxadakının sifətini görə bilməyiblər... – ağ, lopa bığlarını eşə-eşə təkrarladı. – Qısası, baş-beynimi aparma, de görüm, kim idi yanındakı?.. – deyəsən, səbr kasası daşdı qəflətən.

– Heç kim... Tək idim mən...

– Axır sözündü?..

– Hə...

– Belə... – dərindən nəfəs aldı. – Onda sabahdan dərsə gəlməyə bilərsən. İnstitutdan qovulursan...

– Qovulum da... – sanki qəfil təpər gəldi mənə, boğazımı arıtlayıb səsimi də qaldırdım. – Sizin institut mənim nəyimə lazımdı?.. Atamın xətrinə girmişdim bura...

Masadakı eynəyi taxıb diqqətlə üzümə baxdı:

– Atan kimdi ki sənin?..

– İndi heç kim. Rəhmətə gedib...

– Həəə... – sözü uzatdı. – Yəqin o da sənin kimi dinc adam olmayıb...

Cin vurdu təpəmə:

– Onsuz da özüm çıxacaqdım burdan... Burda heç nə öyrənmək olmur... Eyni dərslər, eyni kitablar, eyni müəllimlər... Çevir tatı, vur tatı... Elə yaxşı...

– Alə, kəs səsini, çıx bayıra... İzal ol burdan!.. – dekan sözümü ağzımda qoyub bağırdı. – Mən də bu əbləhə kömək eləmək istəyirəm. Yeri get, hələ bir: "çox sağ ol" da de ki, işini milisə vermirik. Sənə görə yox e, institutumuzun adı pis çıxar. Yeri, yeri, alə, beş-üç kitab oxuyub, başı gicəllənib, heç kəsi bəyənmir... Get fəhləlik elə, ağlın başına gəlsin. Bizim institut sənin kimi avaraların yeri deyil...

Məsələ bununla bitmədi, ertəsi gün öz evimizdə də sorğu-sual olundum. Yadımdadı ki, evdə tək oturmuşdum, qanım da qara. Yaman darıxırdım, üstünü vurmasam da, institutdan qovulmağım mənə yer eləmişdi. Bəs nə?.. Bir var özün gedəsən, bir də var qovulasan... Əlim heç bir işə yatmırdı, iştahım da küsmüşdü, səhərdən çörək də yeməmişdim, bekarçılıqdan gah uzanırdım, gah da elə divanda oturub televizora baxırdım.

Axşamüstü qapının zəngi çalındı. Gözlükdən baxdım ki, Fəxriydi, yanında da bir kişi. Ancaq bilmədim bizim şəhər kənarındakı evi, daha doğrusu, mənim yaşadığım mənzili necə tapıblar, axı, Fəxri heç vaxt bura gəlməmişdi.

...Oturmuşduq masa arxasında, kişi ilə üzbəüz. Fəxri isə divanda büzüşmüşdü. Salam-kəlamdan sonra araya elə dərin sükut çökmüşdü ki, tək-tənha darıxmağım bunun yanında muştuluqçu idi. Sanki nə danışacağımızı, nədən başlayacağımızı bilmirdik. Əslində, mənim önumdəkinə sözüm-zadım da yox idi, ona görə susub kişinin sükutu pozacağını gözləyirdim. Fəxrinin atası oğluna oxşayıb-eləmirdı, düz fikirləşmədim, Fəxri atasına qətiyyən bənzəmirdi. Bəlkə də həmişə deyib-gülən tələbə yoldaşımı – keçmiş tələbə yoldaşımı – heç vaxt atası kimi zəhmli görmədiyimdən, onların doğma olduğuna inanmağım gəlmirdi. Nəhayət, kişi dərindən, sinə dolusu nəfəs alıb sorğu-suala başladı:

– Tək qalırsan burda?

– Hə... Atam ölüb...

– Hə, zavoddakı partlayışda rəhmətə gedib, bilirəm... Fəxri deyib mənə... Allah rəhmət eləsin... Bəs, anan hanı?..

– Anam çoxdan rəhmətə gedib. Mən doğulanda...

– Vay-vay!.. Allah ona da rəhmət eləsin... Qohum-əqraban yoxdu sənin?..

– Var... Əmim var...

– Gəlib-eləyir bura?..

– Əmim oğlu hərdən gəlir...

– Yemək-içməyini kim bişirir, pal-paltarını kim yuyur?

– Elə özüm... Öyrəncəliyəm... Neçə il atamla bir yerdə qadın işini də özümüz görmüşük evdə...

– Bəs, əmin sənə kömək eləmir?..

– Yox... O yazıq öz ailəsini gücnən dolandırır...

– Bəs, sən özün necə dolanırsan?..

– Babat... Atamdan qalan beş-üç manatı xərcləyirəm hələ ki... Sonrasına baxarıq, gərək bir iş tapam özümə...

– İş-zad lazım deyil, darıxma... Sağ ol ki, satmamısan bu vecsizi... – oğluna baxdı hirsqarışıq kinayə ilə. – İnstitutdan qovulmaq heç, mən özüm dilə-dişə düşərdim. Düşmənlər marığa yatıb gözləyir ki, şikarı büdrəsin, özü öz ayağıyla gəlib düşsün tələyə, qalsın çabalaya-çabalaya... Bu zalım dünyada rahat yaşayış yoxdu, gərək daima gözün ətrafda, ayağının altında olsun... Neynək, olan olub, keçən keçib, bu gündən sən də mənim oğlumsan, elə bilərəm iki oğlum var... Darıxma, gələn il səni instituta qoyarıq... Düzdü, iki-üç il dala qalacaqsan, ancaq neyləmək olar, elə bilərsən ki, əsgərliyə gedib qayıtmısan. Başqa yol yoxdu...

– Mən oxumaq istəmirəm...

Kişi duruxdu:

– Niyə?

– İnstitut mənim nəyimə lazımdı?.. Özüm oxuyub öyrənirəm də mənə gərək olanları...

Fəxri söhbətə qarışdı:

– Bu, müəllimlərdən çox bilir e... Müəllimsiz-filansız, özbaşına neçə xarici dil öyrənib, camaat kompüteri televizorda görüb, amma bu onu söküb-yığır... Bütün proqramları gözüyumulu bilir...

Kişi oğluna acıqlandı:

– Adə, sən kəs!.. Sən doğulanda sevindik ki, böyüyəndə hamımız fəxr eləyəcəyik səninlə, qürur yerimiz olacaqsan bizim, amma sən boy atdıqca, dönüb oldun

bambılı... Hələ bir dili də var danışmağa... – üzünü mənə tutdu. – Hardan öyrənmisən belə şeyləri?..

– Kitablardan... Atamın yaxşı kitabxanası var...

Fəxrinin atası ötəri divarlar boyu xüsusi qurulmuş rəflərdəki saysız-hesabsız kitablara nəzər saldı:

– Görürəm...

Başımla qonşu otağa işarə elədim:

– O biri otaq da belədi...

– Nə yaxşı... Sən bu kitabların hamsını oxumusan?..

– Oxumaq azdı, uşaq vaxtımdan atama qoşulub zavoda gedəndə də çox şey öyrənmişəm...

Ata narazılıqla qaş-gözünü oynadıb oğluna barmaq silkələyərək məni nümunə göstərdi:

– Gözünə su ver... Görürsən necə oğullar var?..

Fəxri başını aşağı salıb dinmədi.

– Ancaq oxumağa da barmaqarası baxma.... – mətləbə qayıtdı. – Necə yəni institut nəyimə lazımdı, institutda təkcə bilik üçün, nəsə öyrənmək üçün oxumurlar ki... Diplomun olmasa, sənə yaxşı bir iş verməyəcəklər, səni vəzifəyə qoymayacaqlar... Həm də... – ara verdi azca. – İnstituta girməsən, götürüb səni əsgər aparacaqlar. İraq, iraq, birbaşa cəbhəyə.... Qarabağa... Tək uşaqsan, kimin-kimsən də yoxdu, başına bir iş gələr, qalarıq dizimizə döyə-döyə...

– Məni əsgər aparmayacaqlar...

– Niyə?..

– Anadan birböyrəkli doğulmuşam...

– Vay-vay!.. Elə niyə?..

Suçlu kimi pərt-pərt çiyinlərimi çəkdim:

– Nə bilim...

Səsini yavaşıtdı:

– Ağrıların-zadın olur?..

– Yox, hələ ki, ağrı-mağrı yoxdu... Yəqin qocalanda olacaq...

– Belə... Allah sənə qocalıq qismət eləsin... Ona çox qalıb... – kişi dodaqaltı mızıldanıb fikrə getdi. – Day sənin nə işin var e, bu evdə? – qəflətən dedi, elə bil axtardığını tapdığına sevindi. – Qapını bağla, dur gedək bizə... Bizdə qalarsan... Gözüm də üstünüzdə olar... Yayda bağa da gedərsən, dəniz qırağında da dincələrsən, özünü günə verərsən, çimərsən... – deyəsən kişi məni şirnikləşdirmək istəyirdi. – Amma heç bilmirəm sənə dənizdə çimmək olar-olmaz...

– Olar, nədən olmasın... Bizim ev də dənizə yaxındı... Gecələr dalğaların səsi də eşidilir... Yuxarıdan, doqquzuncu mərtəbədən dəniz də görsənir...

– Söz güləşdirmə, dur... Evdən heç nə götürmək gərək deyil, hər şeyin təzəsini alarıq sənə... – donub qaldığımı görüb yerini bərkitdi. – Hə, nə deyirsən, dur, yolçu yolda gərək... – kişi qalxmaq istəyirmiş kimi, yerində qurcalandı.

– Hə, hə, dur... – Fəxri sevincək atasının sözünə qüvvət verdi.

Kişi yenə oğluna göz ağartdı:

– Sənə dedim axı, səsini kəs, dinmə... Xəstə uşağı zibilə salmağın azdı, hələ bir yekə-yekə banlayırsan da...

– Atamın evində çırağı söndürmək istəmirəm axı... – lapdan ağlıma gələni dedim, bilmədim bu sözləri haçan, kimdən eşitmişəm, hardan oxumuşam. – Kişinin heç ili də çıxmayıb...

Fəxrinin atası çar-naçar razılaşdı:

– Bu sözün haqdı, düz deyirsən... Kişinin ruhunu pərişan eləmək olmaz... – cibindən bir dəstə pul çıxardıb qoydu masanın üstünə. – Onda hələlik bunu götür xərclə. Fəxri ilə aybaay pul göndərəcəm sənə. Başqa çətinliyin olsa, ya buna deyərsən... – oğluna işarə elədi. – Ya da elə mənə zəng vurarsan...

– Pul-zad lazım deyil... – etiraz eləmək istədim.

– Necə lazım deyil?.. Pul hamıya lazımdı. Elə bilirsən bunu götürməklə canını məndən qurtaracaqsan?.. Ay-hay!.. – əlini yellədi. – Yox, yox, min kərə yox!.. Elə şeyi ağlınıza gətirməyin... Day ağzım yandı, gözüm həmişə sizin üstünüzdə olacaq...

...Bu məsələni də burda qoyub Qarabalanın üstünə gəlim... Özüm qəsdən, bilə-bilə "danışım" demirəm, çünki ürəyindən keçəni, adda-budda gözünün qabağına gələni, hamıdan, hər kəsdən gizlədiyini ölüm ayağında da bərkdən dilə gətirə bilməzsən. Qarabalasa gözümün önünə iri, yüklüyündən başqa üstünə də dəmir vurulmuş, işə salınanda, sürüləndə nəriltisindən yuxarı mərtəbənin sakinlərini də yuxudan eləyən, rəngi qopuq-qopuq olub tökülmüş, qapıları əməlli-başlı çürümüş maşını ilə gəlirdi. Həftədə bir dəfə gəlirdi bu nərilti, hamı bilirdi ki, ertədən Qarabala gedir mal gətirməyə, günorta, uzağı, axşamüstü yenə öz yerində məskən salacaq. Sanki o yumrusifət, toppuş, balaca, gülərüz kişini – deyəsən, heç adını da fərli-başlı bilən yoxdu, məhlədə elə hamı ona Qarabala deyirdi – maşınsız təsəvvür eləmək olmazdı, o maşın tamam sökülüb-dağılanda, sürülməz hala gəlib tərpənməz metal yığınına çeviriləndə Qarabala da əldən gedəcəkdi, onun da axırı çatacaqdı, iraq-iraq, o da canını tapşıracaqdı, çünki adi maşın deyildi sürdüyü, həm dükan idi, həm dincəlmək, söz-söhbət eləyib dərdləşmək yeri. Day bizim məhləyə də mer-meyvə, alma, armud, nar gətirən olmayacaqdı. Başqa meyvələrini bilmirəm, amma gətirdiyi almaların dadından doymaq olmurdu. Bir suyu elə altında əyləşməyə öyrəşdiyim bu alma ağacının barının tamına bənzəyirdi. Evimizdən əskik olmurdu Qarabalanın almaları. Yedikcə yeyirdin, sonra da qaçırdın ayaqyoluna. Yüngülləşirdin... Orasını düz demədim ki, guya Qarabala olmasa, day bizim məhləyə heç kəs mer-meyvə gətirməyəcəkdi. Gözəgəlimli yer boş qalmaz. Qarabalanın dikdirdəki termoslu, tərəzili, mer-meyvəli maşınının ətrafı elə də gözəgəlimli olmasa belə, əlbəttə ki, sözsüz, kimsə onun da yerini tutacaqdı. Amma təzə gələnin gətirdiyi meyvələr Qarabalanınkılar qədər dadlı-ləzzətli, yeməli olacaqdı, ya yox, bax, bu başqa məsələ idi. Fəxrinin atasının bizə gəlməyindən iki-üç gün keçmişdi mən həyətə düşüb Qarabaladan alma almağa gedəndə. Qarabala həmin adam deyildi, dindirməsən danışmazdı, deyəsən, kimsə onun kefinə bolluca soğan doğramışdı.

– Xeyir ola, kefin yoxdu, Qaraşka, qanını kim qaraldıb?.. – yarımçıq zənbili əlimə götürüb aralanmaq istəyəndə nəzakət xətrinə də yox e, elə-belə, sanki kef havasına dedim.

– Qan neyləsin, elə birtəhər axırsa, buna da şükür... – yay-qış başından çıxarmadığı qara, qalın kepkasını gözünün üstünə basaraq gileyləndi. – Adamların zayı çıxıb...

Ayaq saxladım:

– Nolub?..

– Ev yiyəsi kirayənin qiymətini qaldırıb kəlləçarxa...

– Nöşün?..

– Gözü doymur... Mən burda nə qazanıram ki, ayda evə o qədər pul verim?.. Onsuz da verəcəyim min yer, min it-qurd var... Tək canım olsaydı, birtəhər lap maşında da yatardım. Qızıma görə əlacsız qalmışam...

– Qızın da var sənin?..

– Hə, həlbət ki, var... Nöş yoxdu... – elə dedi ki, guya yer üzündə mütləq hamının qızı olmalıdı.

– Bu yaşa çatmısan, ev-eşiyin yoxdu sənin?..

– Var, nöş yoxdu, kənddə evim var...

– Qızı nöşün özünlə şəhərə sürüyüb əziyyət verirsən, qoy kənddə qalsın da...

– Yox, anasız uşaqdı, gərək həmişə gözümün qabağında ola... Heç kəsə etibar eləyə bilmirəm balamı...

– Hə... – söz tapa bilməyib mızıldadım.

– Deyəsən, sənin də ata-anan yoxdu, hə?..

Atamın öldüyünü evimizə yas düşəndə bilirdi, anamın olmadığını da yəqin kimdənsə eşitmişdi.

– Hə... – çarəsiz-çarəsiz təsdiqlədim, kefim pozuldu bir anda. – Yoxdu...

– Tək qalırsan sən?

– Hə... – təkrarlayıb başımı tərpətdim.

İndi fikirləşirəm ki, o gün alma almağa getməsəydim, üstəlik ayaq saxlayıb burnumu özgənin işinə soxmasaydım, hər şey başqa cür olardı. Olmadı... Fəxrinin atası da mənə xəbərdarlıq eləyəndə qulaq asmadım. Hələ ağzıyırtıqlıq elədiyindən ötrü Fəxridən incidim də...

– Oğul, sənin pula ehtiyacın var?

– Yox, yoxdu, çox sağ olun...

– Bəs, eşitdim evinə kirayəçi-zad buraxmısan, nə məsələdi?..

Məzəmmətlə Fəxriyə baxıb atasına cavab verdim:

– Hələ pul-zad almıram ki olardan... Kişi satdığı meyvələrdən gətirir... Bir də kənddən xırda-para ayın-oyun, vəssalam... Gördüm çarəsizdi, yazığım gəldi, beş-on günlük buraxdım...

– Sözsüz, mən sənin üçün məsuliyyət daşıyıram, amma özün də yekə kişisən, hər işi yüz ölç, bir biç... Ehtiyatlı ol... O meyvəsatan sizin evi, qiymətli kitabları yaman günə salar ki... Eşşək nə bilir zəfəran nədi...

– Əksinə, ev lap səliqəli olub. Qarabalanın qızının əlindən əski düşmür, hər yeri, hər şeyi par-par parıldadır... Evimizi görsəz, tanımazsız indi, qadın-qız səliqəsi tamam başqa şey imiş...

– Qarabala kimdi?

– Meyvəsatan...

– Belə başa düşdüm ki, qızı da var?

– Hə... Sakit, fağır adamlardı...

– Nə deyim... Onda tembole, ehtiyatlı ol...

Ehtiyatlı ola bilmədim, bacarmadım. Fəxri məsələsindəki sınaqdan üzüağ çıxıb daş kimi səssiz, susqun qalsam da, Qarabalanın imtahanından keçə bilmədim, bir də iş-işdən keçəndən sonra, qız utana-utana mənə:

– İkicanlıyam... – deyəndə ayıldım.

Eşitdiyim sözü təxminən anlasam da, tam başa düşməmişdim.

– O nə deməkdi?..

– Bizim uşağımız olacaq... – meyvəsatanın qızı bəzək-düzəksiz dedi.

Gözlərim bərəldi, ata olmaq mənə nağıl kimi, özü də qorxulu bir nağıl kimi gəlirdi.

– Bizim, yəni kimin?..

– Həlbət ki, sənnən-mənim... Mən sənnən başqa lüt kişi görməmişəm... – sakitcə dedi, üzündəki, sifətindəki utancaqlıq da bir anda yox olub getdi.

Nədənsə, o dəm Fəxrinin atası gözümün qabağına gəldi birdən-birə. O kişi ilə görüşəndə gör nələr baş verəcəkdi?.. Amma yox!.. Kişi mənim ata olacağım xəbərini gözlədiyimdən sakit, rahat qarşıladı. Bəlkə də əlinin heç yana çatmayacağını anlayıb, olacaqlarla barışmışdı, dərinə getməmişdi, yavaşcadan, lakin kinayə ilə:

– Təbrik eləyirəm... – demişdi. – Çox mübarəkdi... Allah xeyir versin...

Qarabalasa baba olacağı xəbərini eşidəndə içini çəkmişdi, bilməmişdik sevinir, ya hirsindən zəncir çeynəyir. Gecə ilə maşına minib kəndə qayıtmaq istəmişdi dinməz-söyləməz. O, gedəndən sonra baxmışdıq ki, yazıq papağını da yadından çıxarıb, qoyub evdə. Ancaq öz evinə də gedib çıxa bilməmişdi, yolda ürəyi tutmuşdu-nədisə, elə sükan arxasındaca ruhu bədənini tərk eləmişdi.

Beləcə illər keçdi, oğlum yekəldi, mənə çəkmişdi xasiyyətdə, istedadlı idi, məktəbdə yaxşı oxuyurdu. Fəxrinin atası da əlini üstümüzdən çəkməmişdi. Əmim oğlu da tez-tez bizə gəlirdi, oğlum az qala onu məndən çox istəyirdi. Hər şey öz qaydasına, axarına düşmüşdü, lapdan bəd xəbər qapımızı döydü; Fəxrinin atasını evinin qabağında güllələdilər. Sürücüsü ilə bir yerdə... Amma Fəxri də fərasətli çıxdı, atasının işlərinə başçılıq eləməyə başladı. Rəhmətlik atası da elə bil ağır, çətin günləri qabaqcadan görürmüş, duyurmuş, oğlunu sıxışdıra-sıxışdıra adam eləmişdi. Zaman göstərdi ki, atası keşməkeşli günlərə yaxşı hazırlayıbmış onu...

Mən özüm o kişinin ölümünü, qətlini doğma oğlundan, Fəxridən də ağır keçirdim, az qala öz atamın faciəsi kimi... Çünki məni hazırlayan olmamışdı ağır günlərə... Çəkişməsən bərkişməzsən, mənim də müəllimim həyat oldu, başımı daşdan-daşa vurub bərkitdi, get-gedə təkcə başım, kəlləm yox, ürəyim-qəlbim də daşa döndü, bütün itkilərə adidən-adi baxmağa başladım.

Bir gün Fəxrigilə gedəndə – bazar günü idi yanılmıramsa, çünki, adətən, bazar günü "yaraqlı-yasaqlı" gedirdim onlara – darvazanın qabağında qarşılaşdıq, mən içəri girmək istəyəndə o, çıxdı çölə...

– Gəlmə, gəlmə... – dedi.

– Niyə? – çaşıb qaldım.

– Gedək əmimgilə, çoxdandı dəymirəm ona...

– Bəs bu? – çiynimdəki ipiri idman çantasına işarə elədim. – Bu boyda sumkadakı qurğunu neyniyim?.. Hələ yığılmamışdan çox nəhəngdi...

– Heç nə, onu qoy evə, gələndən sonra işini görərsən... Bu həyət-baca, ev-eşik qurbandı sənə... – gülümsündü. – Hələ bir gedək əmimə dəyək... Mən ölüm, məni tək qoyma...

– Yaxşı, onsuz da mən heç vaxt, heç yerə tələsmirəm... – çiynimdəkini əlimə götürdüm. – Amma incimə, bunu sizdə qoya bilmərəm, gərək özümlə aparam... Əmanətdi...

– Nolar, aparaq deyirsən, aparaq, otur... Sən o zırpaketi özünlə gəzdirməyə öyrəşmisən, amma dəxli yoxdu, hara fırlansa, axırı yenə bizim evə qayıdacaq...

Sürücü narazı-narazı çantamı alıb güc-bəla maşının yüklüyünə qoydu. Biz yanaşı maşının arxa oturacağına əyləşdik.

– Yenə nəyi sınaqdan keçirəcəksən? – maşın yerindən tərpənəndə soruşdu.

Fəxrigilin evi, həyəti mənim təcrübə yerim idi, bizim mənzil darısqaldı, nəyisə sınaqdan keçirmək üçün yararsızdı...

– Loru dildə deyim sənə ki, asan başa düşəsən... Deməli, oturursan istədiyin yerdə, proqramı verirsən maşına, girirsən yaranan halənin içinə...

– Sonra?.. – səbri çatmadı.

– Yaranan şüa səni istədiyin yerə aparır...

– Sən arıqsan, səni qaldıra bilər, mənim kimi pəzəvəngi necə qaldıracaq?

– Kütlə, çəki əsas deyil, heç nəyi qaldırmır, sən elə oturduğun yerdə qalırsan, amma, necə deyim, göyümtül halənin içindəki ruhun istədiyin yerə, yəni proqramlaşan ünvana gedir, daşı-divarı keçir, harda istəyirsən gəzirsən...

– Lap Amerikada?

– Yox... Hələ ki, məsafə məhdudluğu var... Bu şəhərdən kənara çıxmaq olmur. Get-gedə yəqin ki, əhatəni genişləndirmək olacaq...

– Yanındakı adamlar səni görür?

– Yox, çünki əslində, sən yoxsan, dedim də, bədənin oturduğu yerdəcə qalır, bircə gözünün işığı, beynin-şüurun getdiyin yerdədi. Ona görə gözəgörünməzsən... Ancaq müşahidə eləyə bilərsən, müdaxilə yox... O da hələlik qısa müddətə... Gələcəkdə müddəti də artırmaq olar...

– Sənin kəşfinin adi kamera ilə fərqi nədi ki?..

– Pah, çox fərqi var, kamera dayanıqlıdı, stasionardı, özü də hər yerə quraşdırmaq olmur, burdasa sən tam azadsan, hər şeyi yerindəcə öz gözlərinlə görürsən, elə bil ki, özün iştirak eləyirsən təbiətin çəkdiyi filmdə, amma nə tamaşaçılar səni görür, nə də iştirakçılar... Heç kəs də səni tutmaq nədi, belə bir şeyi ağlına gətirmir, çünki sən həm varsan, həm yoxsan... Hara istəsən xəyalən gedib qayıdırsan... Təkmilləşdirsək, get-gedə astral səyahətə də çıxa bilərik... Başa düşürsən, göz qırpımında aya, ulduzlara, günəşə səyahət nə deməkdi?.. Yəni kainatın yolu əlimizdədi...

– İndi dünyada elə ağlasığmaz şeylər çıxıb ki...

– Amma elə şeylər üçün yekə bir institut işləyir, mənsə təkəm...

Qımışdı:

– Qaşqabağını sallama, bütün dahilər tək olub...

Fəxri düyməni basdı, sürücü ilə aramızdakı ağ şüşə qalxdı, daha nə biz qabaqdakıları, sürücü ilə cangüdəni eşidirdik – onsuz da o yazıqların səsi çıxmırdı, bayaqdan dinməz-söyləməzdilər – nə də onlar bizi...

– Nə deyim, ağlım bir şey kəsmir hələ ki... İndi onsuz da hər yer kameradı... Deyirəm, biz tələbə olan vaxtı indiki kimi hər yerdə kamera quraşdırılsaydı, qanımız gedəcəkdi. Məni də institutdan qovacaqdılar...

– Deyirsən tualetə də kamera qoyacaqdılar?

– Tualetə qoymasalar da, dəhlizdəki kameralara baxıb izə düşmək olardı...

– Lap xəfiyyə kimi danışırsan... Day qanımız neyçin, mənə olan olub, sənin qanın gedəcəkdi də...

– Deyəsən, elə o vaxt arzularımız da tualetə düşdü... Elə rəhmətlik atam kimi mənim də arzularım puç olur bir ucdan... Bəs sənin necə?..

Başa düşməyib çiyinlərimi çəkdim:

– Heç mənim arzum olub ki...

– Xoşbəxt adamsan...

Gülüşdük... Ciddiləşdi:

– Hayıf ki, sonra instituta girmədin... Bu biliklə indi sən Allah bilir haralardaydın, hansı vəzifədəydin...

– Əşi, mən neynirdim e, institutu-zadı?.. Özün bilirsən ki, mənim tünlüklə, qələbəliklə, hay-küylə aram yoxdu. Bəzi biliklər adama aləmə yayılmaq üçün yox, gizlədilmək üçün verilir... Gərək sirr saxlamağı da bacarasan...

– Elə qəliz mətləbləri mən qanmıram... Qandığım odu ki, neçə aydı boş yerə papağı günə yandırmısan deyəsən... Mən sənə nə tapşırmışam, sən nə ilə məşğul olmusan... Kimisə güdmək mənim nəyimə gərəkdi?.. Lap dünyanın o başına da təyyarə ilə gedərəm. Özü də bütün bədənimlə... Əlimlə, ayağımla, yoxsa başlamısan nağıla ki, bəs, halə belə gəldi, şüa, şüur belə getdi... Mən də burda öz canımla əlləşirəm...

– Qorxursan?..

– Hə... Çünki, adətən, ürəyimə daman başıma gəlir... Tak şto, bir gün məni də öldürə bilərlər...

– Allah eləməsin... Onda cangüdənlərin sayını artır...

– Əş... – Fəxri laqeydliklə əlini yellədi. – Bunlar hamısı... – qalın şüşənin o üzündə, sürücünün yanında əyləşənə işarə elədi. – Gözdən pərdə asmaqdan ötrüdü... Psixoloji təzyiqdi yan-yörəyə ki, yaxına gəlməyə cəsarət eləyən olmasın... Yoxsa, mənim yanımdan yel ötən kimi bunlar öz başlarının hayına qalacaqlar... Hayıf ki, sən də heç nə eləyə bilməmisən deyəsən...

– Eləmişəm...

– Hə?..

– Hə... Narahat olma, papağı günə yandırmamışam... Bir sancaq düzəltmişəm sənə, bir dənə də bilərzik...

– Nə bilərzik, nə sancaq... Dolamısan məni?.. – gülümsündü acı-acı. – Ya məni ərə verməyə hazırlaşırsan?..

İstər-istəməz, mənim də dodağım qaçdı:

– Zarafata salıb məzələnmə... Diqqətlə qulaq as... O bilərziklə sancaq proqramlaşdırılacaq... Bilərziyi qoluna taxacaqsan, sancağı da içəridən, görünməyən yerdən yaxana... Sənə baxanlar hamısı sənin sifətini yox, özlərini görəcəklər, beləcə, çaşıb qalacaqlar...

– Heç nə başa düşmədim. Noolsun?..

– Necə başa düşmədim, sənə güllə atmaq istəyən killer nişan alanda özünü görəcək, mat-məəttəl qalacaq, çaşacaq... Heç kəs, yəni ağlı başında olan öz-özünə güllə atmaz axı... Nişan aldığının hədəfinin basqası olduğunu görəndə kim tətiyi çəkər?..

– Hələ ki, ağlıma batmır, amma maraqlıdı...

– Həm maraqlıdı, həm qüsurlu... Hələ ki...

– Qüsurlu neyçün?..

– Birincisi, həmişə elə gəzmək olmaz. Həm enerjinin gücü çatmaz buna, həm də cəmiyyətdə, camaatın arasında düzgün qəbul olunmaz. Əstəğfürullah, adama cin-şeytan kimi baxarlar...

– Əş, camaat heç, camaata bir quş... Amma sən dediyin həmin sancaqla bilərziyi yalnız tünlükdə, bəd ayaqda, nədənsə şübhələnəndə, ekstremal şəraitdə taxmaq olar...

– Orası texniki məsələdi, ancaq bir çatışmazlıq da var. Hələ ki, əlli metr radiusdan o yana işləmir həmin aparat. Əsas dairəni genişləndirməkdi ki, ona da vaxt lazımdı...

– Yenə vaxt?.. Yaxşı, nə qədər?..

– Nə bilim... Ən azı, iki-üç ay...

– Onun adama ziyanı yoxdu ki?..

– Əlbət ki, var... Şüadı, dalğadı da... Amma, elə özün demişkən, onu gecə-gündüz yaxana sancıb qoluna bağlamayacaqsan ki... Ekstremal məqamlarda istifadə eləyəcəksən...

Fəxri dərindən nəfəs aldı.

– Mənə bir şey olsa, özün alarsan əlinə hər şeyi... Başqa heç kəsə inanmıram... Mənim qızlarım hələ balacadı... Hər şeyi ən kiçik detalınacan yazmışam, seyfimdədi, vəkilim özü sənə xəbər verəcək bəd ayaqda...

– Sən lap yasxana açmısan ki... Birincisi, qorxma, qorxan gözə çöp düşər... İkincisi, mən o işləri bacarmaram, müdirlik, başçılıq mənlik deyil, mənimki sakitcə bir kənara çəkilib öz işini görməkdi...

– İtin dilini bilirsən, adi şeyləri öyrənməyəcəksən, əsas əvvəldən hökmünü göstərməkdi, sonra işlər öz-özünə düzələcək, hamı baş əyəcək qarşında...

– Mən o hökmü heç evdə arvada göstərə bilmirəm... Bir də səni niyə öldürsünlər axı?..

– Atamı niyə öldürdülər?..

– Onu bilmirəm... Həmişə sənin ananı görəndə özümü suçlu sayıram ki, hələ də o qatilləri, onların yiyələrini tapıb cəzalandıra bilməmişik...

– Bəlkə də yeri deyil, ancaq öz aramızdı, rəhmətlik kişi bacımı sənə vermək istəyirdi, yaman xoşu gəlirdi bacımın səndən, elə atam da sənin xətrini çox istəyirdi, ancaq qəfil meyvəsatan məsələsi çıxdı, atam da əlacsız qalıb şərikinin oğluna verdi qızı. Demə, o da narkoman imiş... Yaman incidirmiş qızı, axırda yazıq bacım özünü balkondan atıb, əri də guya istəyirmiş bunu tuta, amma gücü çatmayıb, nədisə, hər ikisi çırpılıblar yerə, o dünyalıq olublar... Öz şəriki ilə qan düşməni oldu atam, beli qırıldı kişinin... Bəlkə elə ona görə kələfin ucunu, əvvəlki ayıq-sayıqlığını itirdi atam. Qədd-qaməti əyildi... Bacımı məndən də çox istəyirdi axı... İtki öz yerində, dava-şava da aylarla, illərlə bitmədi. Onlar dedi, günah sizin qızdadı, biz dedik, yox, suç sizin oğlandadı... İndiyəcən şübhədəyəm ki, yazıq bacım boğaza yığıldığından özünü atmayıb yerə, əri qəsdən onu itələyib...

– Bəs, sonra özünü niyə atıb balkondan?..

– Bilmirəm... Hər şey ola bilər... Narkoman idi də... Bəlkə qorxudan, bəlkə özünü itirdiyindən, bəlkə də narkotikin təsirindən?.. Kim bilir?..

– Deyirsən, atanın qətlində onların əli var?..

– Yox. Onlarlıq deyil çox güman... Atama güllənin kimlərin fitvası ilə atıldığını bilirəm...

– Bəs, niyə sakit dayanmısan? Cavablarını haçan verəcəksən?..

– Səbrli ol... Əlverişli məqamı gözləmək lazımdı. Çünki onlar hələ güclüdü... Səsimizi çıxartsaq, bizi “hop” eləyib udarlar. Atamın öz günahı da az deyildi, ona

bir "kanal" verib şərtləşmişdilər ki, çörəyini qazanıb hamını razı salacaqsan, o isə çox şişdi, sirnikləşdi, qırmızı xətti keçib qadağan olunan yerlərə baş vurmaq istədi, özbaşına siyasi oyunlara girişdi... Axırı da belə...

– Sənin sakitliyinə mat-məəttəl qalmışam...

– Sakitlik azdı, atamı aradan götürən adamları görəndə bərk-bərk qucaqlaşıb öpüşürəm də... Hələlik başqa çarə yoxdu... – Fəxri əl atıb qapıdakı düyməni basdı, şürücü ilə aramızdakı şüşə aşağı enəndə qeyri-ixtiyari susduq.

Sonra Fəxri dedi:

– Çatırıq... Əmimgildə atamın ölümündən danışma...

– Necə yəni danışma? – çaşıb qaldım.

– Ona atamın öldüyünü deməmişik...

– Necə deməmişik?.. Əmin aydan gəlib, qəzet-jurnal oxumur, televizora, internetə baxıb-eləmir.

– Yox... Qabaqlar institutda dərs deyirdi. Ateizmdən... Oğlu Qarabağda şəhid olandan sonra o da tərkdünya oldu. İndi nə qəzet-jurnal oxuyur, nə də televizorazada baxır, heç internetdən də xəbəri yoxdu. Evdən bayıra da çıxmır. Öz aləmindədi, "Quran" oxuyur, namaz qılır. Dindardı... Atam Həccə da göndərmişdi onu... Ona demişik ki, atam Londondadı, bizneslə əlaqəli neçə il orda qalmalıdı...

– O, həqiqəti öyrənəndə sizi bağışlamayacaq...

– İstəmədik oğlundan sonra bir də yaralayaq onu... Hələlik sən dilini saxla, sonrasına baxarıq...

– Elə bir oğlu vardı sənin əminin?

– Yox, qızı da var, qız deyəndə ki, indi yekə arvaddı, məndən də iki yaş böyükdü. Basabas illərində bir zənciyə gedib Amerikaya köçdü, indi deyəsən, Kanadada yaşayır...

– Əmin nə əcəb razı olub buna?

– Eh, əmimi saya salırdı ki o qız... Uşaqlıqdan öz dediyini yeridəndi... Əmim indiyəcən danışdırmır onu. Yeri düşəndə deyir ki, mənim oğlum müharibədə ölüb, qızım da qürbətdə, day arvadımdan başqa heç kəsim yoxdu. Gücü ancaq buna catdı, başqa neyləyə bilərdi yazıq əmim?.. Necə deyirlər onu, pis övlad altıncı barmaq kimidi, pis görünsə də kəsib atmaq olmur. Burası var ki, biz hamımız övladlarımıza xoş güzəran yaratmaq istəyirik, amma göydəki kişi də öz işindədi... Sən saydığını say, gör fələk nə sayır...

– Ooo... Sən də molla olmusan...

– Molla, ya hər nə... Əsas yazan odu... – şəhadət barmağını yuxarı qaldırdı. – Onun yazısına pozu yoxdu... Çatdıq, düş...

...Fəxrinin əmisi artırmada oturub həyətə baxırdı, bizi görən kimi ayağa durub:

– Bura gəlin... – dedi. – Həyət-bacadan sərindi bura... – bəri başdan boynumuza qoydu, guya biz həyətdə oturmaq istəyirdik.

Görüşüb uzunsov masa arxasında əyləşən kimi, Fəxri xəbər aldı:

– Gözlərin nöşün qızarıb, ay əmi?

– Dişlərimin ağrısından yata bilməmişəm bütün gecəni... Oturub səhərəcən rəhmətə gedənlərə, imamlara, seyidlərə "Yasin" oxumuşam...

– Dişin ağrıyır, həkimə get də... – Fəxri gülmək istəsə də, özünü saxladı. – Ona kitab-zad neyləsin, əşi?..

– Nə həkimbazlıqdı, "Yasin" oxudum, keçib getdi də dişimin ağrısı... Atandan nə xəbər var?

– Yaxşıdı...
– Zəng-zad eləyir?
– Hər gün...
– Bəs, mənə nöşün zəng eləmir?
– Hara zəng eləsin?..
– Hə... Heç olmasa, məni soruşub-eləyir?..
– Əlbət ki... Həmişə... Çoxlu salam göndərir...
– Əleyküməssalam... Haçan qayıdacaq?..
– Eee... – Fəxri əlini yellədi. – İşi uzundu hələ... Yeni bir biznes qurur orda... Yarımçıq qoyub gəlsə, işləri tarmar olar, xeylağ ziyana düşər, çoxlu yatırım eləyib, pul qoyub ora...
– Belədi də, əvvəlcə pul yığanda yığdıqlarını idarə eləyirsən, ancaq var-dövlət artdıqca, bir də ayılırsan ki, pul-para səni idarə eləyir, yığdıqlarının əsirinə çevrilmisən... İncimə, sənin atana görə demirəm, pul-para yığıb böyük biznes quranların hamısı o gündədi... Uzaqdan bər-bəzəkli görünür, amma ilğımdı, həsəd aparılası heç nə yoxdu dünya malında...
– Nə incimək... Elədi, dediklərin yüz faiz haqdı... – Fəxri başını tərpədib təsdiqlədi. – Ancaq tələyə düşəndən sonra ha çırpınırsan, çıxmaq olmur, əksinə, çabaladıqca lap çox ilişib qalırsan...
Əmi söhbəti dəyişdi:
– Uşaqlar nə təhərdi?..
– Yaxşıdılar...
– Onları da gətir gələn dəfə gələndə...
– Gətirərəm... Bu dəfə dostumla gəlmişəm... – Fəxri mənə işarə elədi.
– Allah səni dostluqdan əskik eləməsin... – əmi mənə baxdı. – Xoş gəlmisən...
– Dostum deyil e, qardaşdan artıqdı mənə...
Əmi məndən soruşdu:
– O vaxt Fəxriyə görə institutdan qovulan sənsən?..
Nədənsə, utana-utana dedim:
– Hə... Amma Fəxriyə görə qovulmadım, qabaqda gedən mən idim...
– İndi nəynən məşğulsan, nəçisən?
– Heç nəçi...
– Bəs, necə dolanırsan?..
– Fəxri... görüm-baxım eləyir də... – xəcalət çəkə-çəkə, udquna-udquna dedim, Fəxri yanımızda olmasaydı, düzünü deməzdim, yalandan nə isə uydurardım.
Fəxri söhbətə qarışdı:
– Bunun sakit görünüb fağır danışmağına baxma, təkbaşına bilirsən nə cür ağlagəlməz kəşflər eləyib?.. Bilsən, heyrətdən başın gicəllənər, mat-məəttəl qalarsan... Qardaşımın ayağı biləni, ən böyük alimlərin başı bilmir e... Neçə dildə sərbəst danışır...
– Bəs, müəllimi, ustadı kimdi?
– Müəllimi-zadı olmayıb, ay əmi, özü, özbaşına öyrənib hər şeyi... Bu özü ən yekə müəllimdi özünə...
– Hər şeyi?.. – deyəsən, əmi məzələnmək fikrinə düşmüşdü...
Fəxri də ayağını geri qoymadı:
– Təxminən... Hardan soruşsan, ordan cavab verər, dini məsələlərdən də baş çıxardır, bircə siyasətdə axsayır, siyasətdə naşıdı, maraqlanmır...

– Onu düz eləyir, siyasət ayağısürüşkən arvad kimidi, gündə birinin qucağındadı... – Fəxrinin əmisi qardaşı oğluna deyib məndən xəbər aldı. – Deyirsən, heç bir ustadın, yol göstərənin olmayıb?..

Bəlkə də Fəxrinin tərifindən forslanıb özümdən çıxdım, qəflətən ağlıma gələni dilimə gətirdim:

– Yox, ustad mənim nəyimə lazımdı, Fəxri düz deyir, mən özüm əsl müəlliməm, dərs deyərəm kimə lazımdısa... Mən olan yerdə heç kəs yoxdu...

Əmi tutuldu:

– O nə deməkdi?..

Fəxri yenə mənə imkan vermədi:

– Demək istəyir ki, mənim bildiklərim bəndələrin başı üçün deyil...

Əmi:

– Pah... Əstəğfürullah... – deyib Fəxriyə göz vurdu qımışa-qımışa. – Sən get xalana kömək elə, çayı-mayı gətir... Bayaqdan yarpaq dolması bişirirdi, yəqin sizin üçün aş da dəmləyəcək... Tək çətin olar ona, əl-ayaq ver...

Mən elə bilirdim atüstü əmigilə dəyib qayıdacağıq, amma Fəxrinin qırımından anladım ki, axşamacan burdayıq. Aşın dadına baxmamış bizi buraxan olmayacaq, bu istidə plov yemək heç ürəyimdən deyildi, ancaq, deyəsən, dostum öyrəncəli idi, hər dəfə əmisigilə gələndə onun üçün məxsusi aş dəmə qoyulurdu bu evdə.

Fəxri qalxıb gedəndən sonra əmi bir xeyli dinməzcə üzümə baxıb lapdan dedi:

– Bir də o sözləri dilinə gətirmə...

– Hansı sözləri?..

– Mən olan yerdə heç kəs yoxdu... Bunu heç peyğəmbərlər də özlərinə rəva görməyiblər... Allahlıq iddiasıdı bu, bəndənin bildiyi dəryada bir damla da deyil... Özün bil, məndən deməkdi, ancaq yazıqsan, başına bəla gələr, altını çəkərsən sözlərinin...

– Düz deyirsən, lovğalıq səfehlik əlamətidi...

– Səninki adi forslanma, təkəbbür yox, yerə-göyə meydan oxumaqdı... Nə kəşf eləmisən axı sən?..

– Çox şey... – desəm də, o dəm yadıma heç nə düşmədi.

– Məsələn?..

Əlacsız qalıb yol boyu Fəxriyə danışdıqlarımın ucundan-qulağından əmisinə də dedim. Fəhmən istədiyin əraziyə girib, ruhən gəzmək məsələsini...

Gülümsündü, üzündən gördüm ki, inanmayıb eşitdiklərinə:

– Onda, sən axirətin sirrini öyrənmək yolundasan...

– Necə yəni axirətin?.. – gözlərim kəlləmə çıxdı, deyəsən, əmi məni dolayırdı axı... – Axirətin bura nə dəxli?..

– Axirətin yolu qəbir evindən keçir, sən ordakı gizlinləri aça bilsən, axirətin sirrinə bir addım yaxınlaşarsan...

– Heç nə başa düşmədim...

– Yəni, sən kəşf elədiyin aparatı işə salıb, hamının bildiyi ayrı-ayrı yerlərə baş çəkməməlisən... Qeyri-adi nə görəcəksən axı oralarda?..

– Bəs?..

– Sən qəbir evinə girib axirətin sirrini öyrənməyə can atmalısan... Onda həqiqətən heç kəsin çıxa bilmədiyi mərtəbəyə yüksəlib qürrələnə bilərsən. Tək-tük seçilmişləri nəzərə almıram...

– Mümkündü bu?..

Əmi qımışıb çiyinlərini çəkdi:

– Mən nə bilim... Alim sənsən...

– Axı getdiyim yerdə enerji olmalıdı...

– Enerji hər yerdə, hər şeydə var... Daşda, torpaqda, qəbirdə... Hətta ölüdə də... Əslində enerjidən başqa heç nə yoxdu yer üzündə... Biz özümüz də yoxuq. Nə sən varsan, nə də ki mən...

– Orası elədi, amma axı onlar, necə deyim, “yatmış” enerjidi, onu hərəkətə gətirməyin özü çox çətin işdi...

– Özünə ustad deyirsənsə, yatmışları oyatmağı bacarmalısan...

– Bütün yatmışların oyanması xaosa, fəlakətə səbəb olar...

– Həlbət ki... Bu sözün haqdı...

– Maraqlıdı... Çox maraqlıdı sənin dediklərin... Bu barədə heç vaxt fikirləşməmişəm... Belə şeylər ağlıma gəlməyib... – alnımı ovuşdurdum, əmi gözlənilməz, ilk baxışdan diqqəti cəlb eləməyən bir məsələni qabartmışdı, kəsf elədiyim maşınınmı, aparatınmı daha ağlasığmaz yönünə işarə eləyirdi, mən də kürəyimi yerə verməməkdən ötrü özümə haqq qazandırdım. – Həqiqətən ağlasığmazdı, dərkolunmazdı axı ilk baxışda...

Amma məni təəccübləndirib şirnikləşdirsə də, yarı yolda qoymaq istədi:

– Ağlasığmaz, dərkolunmaz-zad deyil, bəşər yaranandan insanlar buna can atıblar, intəhası, maraqlı olmağına maraqlıdı, di gəl, bəndələr heç vaxt axirətin sirrini öyrənə bilməyəcəklər... Ta ki, dünyanın sonunacan, o sirr öz-özünə açılanacan... Çünki o sirrin açılmağı dünyanın sonu deməkdi...

Həvəsdən düşmədim:

– Bəlkə o sirri mən açacam?

– Alnına yazılıbsa, qismətində varsa açarsan, deməli, dünyanın da sonu sənin əlinlə gələcək... Nə bilmək olar... Sən enerji deyirsən, kəşf elədiyin maşınla başqa planetlərə, lap ayrı, hələ kəşf olunmayan qalaktikalara gedib çıxa bilsən, bax, onda, sinənə döyüb: “mən olan yerdə heç kəs yoxdu” – deyə bilərsən ürəklə, heç kəs də səni qınaya bilməz... Ancaq o mərtəbəyə qalxa bilsən, qürrələnməyə həvəsin olmayacaq, hər şeyə adidən-adi baxacaqsan. Ətrafında, yan-yörəndə qaynayan enerjinin bir parçasına çevrilsən də özün sopsoyuq olacaqsan, cünki öz “mən”in yoxa çıxacaq... Ən böyük enerji oralardadı, özün məndən yaxşı bilirsən...

– Orası elədi, ancaq nə planetbazlıqdı, hələ ki, o aparatın təsiretmə radiusu çox kiçikdi... Təzədi hələ, əyər-əskiyi çoxdu... Bəlkə getdikcə təkmilləşdirə bildim... Ona da böyük vəsait, çoxlu vaxt, kömək lazımdı... Tək adama çox çətindi, iynə ilə gor qazmaqdı...

– Zərər yoxdu, sən məzarlığa get hərdən, ordakılarla əlaqə qurmağa çalış, qəbir evindəkilərlə əlaqə qurmağa cəhd elə, qəbirlərə girməkdən qorxma, en ki, qalxmağa şərait yaransın, səmaların qapısı öz-özünə aralansın, onsuz da axirətin sirrini öyrənsən, nəinki kainatın gizlinləri, bütün sirlər öz-özünə açılacaq...

Fəxrinin əmisinin sifətinə baxdım, kişi, elə bil, bir az qaralmışdı söhbət elədikcə, bəlkə də həmsöhbətim fikirli olduğundan mənə belə görünürdü. Rəngi qarışmışdı, bir nöqtəyə dikilib yol çəkən gözləri də yorğun idi.

– Necə bilirsən, səncə, mən axirətin sirrini öyrənə bilərəm? – təkrarladım. – Mümkün olan işdi bu?.. İndiyəcən belə şey ağlıma gəlməyib, əgər bu mümkün olsaydı, kimsə, kimlərsə çoxdan cəhd göstərərdi...

– Allahın izni ilə hər şey mümkündü... Bir də, sən hardan bilirsən ki, cəhd göstərənlər olmayıb?.. Əksinə, cəhd göstərib uğursuzluğa dücar olanlar, yarı yolda qalanlar çox olub...

Alnımı tər basdı, əlbəttə ki, bu, yayın istisindən deyildi, ruhum bədənimə sığmırdı, ürəyim çırpınıb-çırpınıb ağzımdan çıxmaq, ruhum bədənimi tərk eləmək, elə bəri başdan ağlagəlməz yüksəkliklərə uçub ənginliklərə qovuşmaq, orda yox olub bütövləşmək istəyirdi, sanki bir anda təngnəfəs olmuşdum, tez-tez nəfəs alırdım, gözlərimi yumub-açırdım, açıb-yumurdum, hər gözümü açanda qarşımdakını ayrı cilddə, ayrı şəkildə görürdüm, gah qara çarşablı arvad olurdu, gah boz əbalı uzunsaqqal kişi, gah başı buludlara dəyən ağac – qəribədi, görəsən, onümdəki ağac necə sığışmışdı artırmaya, bəs, artırmanın tavanı bir andaca hara yox olmuşdu, tavan yox olmuşdusa, günün işığı hara getmişdi – gah da qapqara, ipiri ovalvari daş. Nəhayət, var gücümü toplayıb gözlərimi geniş açdım, baxdım ki, deyəsən, elə həmin kişidi, Fəxrinin əmisidi, sakitcə oturub masa arxasında, üzündə də dünyanın altından-üstündən agah, hiyləgər, özündənrazı təbəssüm... Nə daş, nə ağac, nə arvad, nə kişi, heç kim, heç nə dəyişməmişdi, hər şey həmən-həməndi, yəqin ki, mən özüm bir anda aləmi qatıb-qarışdırmışdım, bəlkə də gözümə cin-şeytan görsənmişdi durduğum, daha doğrusu, oturduğum yerdəcə, qara basmışdı məni...

Əl çəkmədim, sakitcə, çəkinə-çəkinə, pıçıltı ilə önümdəkindən soruşdum:

– Necə bilirsən... Düzünü de, Mən əvvəl-axır axirətin sirrini öyrənəcəm?.. – naranat-narahat onun nə deyəcəyini gözlədim, sanki gələcəyim onun cavabından asılı idi.

Gülümsünüb başını buladı:

– Yox...

...Evlərinə qayıdanda Fəxriyə dedim:

– Çox ağıllı adamdı sənin əmin... Neçə dəfə dolaşdırdı məni söhbətlərində...

Deyəsən, sözlərim Fəxriyə ləzzət verdi, əlini çiynimə qoyub şıltaq-şıltaq, yekəxanalıqla göz vurdu:

– Bəs nə?.. Sən ehtiyatlı ol... Biz nəsillikcə eləyik...

Başa düşmədim ki, dolaşdırmaq məsələsini nəzərdə tutur, yoxsa ağıllı...

...Amma gərək bəri başdan Fəxrinin əmisinin sözünə qulaq asıb, hansısa gözdən-könüldən uzaq məzarlıqda sınaqdan keçirəydim aparatı, alındı-alınmadı elə ölüb qalaydım o qəbiristanlıqda, heç kəs, heç bir ins-cins də xəbər tutmayaydı bundan, ruhən yox, elə cismən min ilin ölülərinə qaynayıb-qarışaydım. Bir göz qırpımında adamın başına elə hadisə gəlir ki, özünə ölüm arzulayırsan, sakit, heç kimə əziyyət verməyən ölüm... O ölüm sənə əbədi rahatlıq kimi görsənir... Mən də, heç bir Allah bəndəsinin yanında günahkar olmamaqdan ötrü, gecəyarısı Fəxrinin evindəki otağımda oturub ilk sınağı öz mənzilimə "qonaq getməklə" həyata keçirmək istədim. Bu ən düzgün qərar idi, gecəyarısı oğru kimi hara "təşrif buyursaydım", maraqlı, açıq-saçıq nəsə görüb günaha batacaqdım. Naməhrəm adamın heç nədən xəbərsiz, şirin-şirin yatmışlarla nə işi?.. Hələ görək bu aparatın neçə dəqiqə gücü çatacaqdı ilk səyahətə?.. Ona görə gecəyarısı elə öz evimə, öz mənzilimə "getmək" məsləhətdi. Di gəl, orda da naməhrəm şeylər gördüm, halalca arvadımın yatağındakı əmim oğlu mənə tamam yad, özgə kimi görsəndi, baxdım-baxdım, durub iri taxtın ətrafını dolandım – lap dəqiqi, ətrafını yox, yan-yörəsini, çünki taxtın, adətən arvadımla yatdığım, bizim yataq otağındakı taxtın baş tərəfi divara dirənmişdi – bir də gedib trimonun qabağındakı pufikdə oturdum. Bədənim olmasa da, daha doğrusu, bədənim Fəxrinin evində qalsa da, ruhən əldən düşmüşdüm. Bu dəm əlaqə kəsildi. Cəmi iki-üç dəqiqə çəkmişdi əlaqə... Aparatın altındakı taymerə baxdım: iki dəqiqə on üç saniyə... İlk sınaq üçün, ilk dəfədən

ötrü gözlədiyimdən yaxşı nəticə idi. Əsil gözlənilməz nəticə isə gördüklərimin təkrar-təkrar gözümün qabağına gəlməsiydi... Taxtın üstündə çılpaq, lüt-üryan, üstüaçıq uzananlar bərk-bərk qucaqlaşıb uyumuşdular, "ağır", ləzzətli işdən sonra da möhkəm qucaqlaşıb yatmaq onlara xüsusi zövq verirdi, deyəsən, güc-qüvvələri tükənsə də bir-birlərindən doymamışdılar. İri döşləri pərçimlənmişdi yanındakının qıllı sinəsinə. Sanki qadın qucaqladığının durub gedəcəyindən, bir də qayıtmayacağından əndişələnirdi. O yataqdakı arvad, yaxud bu yataqdakı qadın ömründə məni belə acgözlüklə, ehtirasla sinəsinə sıxmamışdı. Heç sütül vaxtı atası mer-meyvə satmağa gedəndə, ikimiz evdə tək qalanda da... Ehtiras da əsas deyildi yəqin burda. Yanğısı sönəndən sonra bərk-bərk sarmaşıb ağuşundakını buraxmamaq daha dərin mətləblərdən xəbər verirdi, daha incə istəklərin carçısı idi.

...İlahi, axı bu mənzildə atamın adını verdiyim yekə bir oğlum da var mənim, ola bilməz ki, o, heç nə hiss eləməsin?.. Nəsə duyub özünü bilməməzliyə, görməməzliyə vurmağı da ağlabatan deyildi. Yox, mənim oğlumun boy-buxunu böyüsə də hələ uşaq kimiydi, yəqin yaxın, məhrəm bir adamın belə naməhrəm, nalayiq yola əl atacağını ağlına gətirmir mənim qəlbitəmiz, saf balam, yoxsa qan su yerinə axardı. Yeniyetmənin gözünün qızmağı pis qurtarır. Yenə, şükür Allaha!.. Yaradan hər şeyi elə qurub-quraşdırıb ki, ən betər, ən pis məqamlarda yenə şükür eləməkdən ötrü bir bəhanə tapırsan... Qaradan artıq boya yoxdu, amma orda da bir öləzik bozumtulluq sezmək mümkündü... Bozumtulluq-filan öz yerində, yaxşı ki aparatı quraşdırıb işə salmaq uzun çəkdi, Fəxrinin hövsələsi çatmadı, yuxusu gəldi, getdi yatmağa. Yoxsa onun yanında biabır, başıaşağı olacaqdım, yox, yəqin ki yanımda ayrı adam olsaydı, gecəyarısı öz evimə virtual səyahət eləməyəcəkdim. Hər şeyi atacaqdım Fəxrinin boynuna ki, buyur, gedəcəyin yeri, məkanı özün seç, hara istəyirsən yeri get, əlbəttə ki, yerimək sözünü lap Fəxrinin əmisinin işlətdiyi kimi, sözgəlişi deyəcəkdim... Ən əziz, ən yaxın, ən doğma adamım kimi siftə sən səyahət elə... Gözlərini yum-aç, qanadlan havaya... Əlbəttə, hava-mava məsələsini acığımdan, çarəsizliyimdən düşünürdüm, mənim lənətəgəlmiş aparatımda uçmaqdan söhbət gedə bilməzdi, uçmamışdan istədiyin yerə, daha doğrusu, müəyyən radius daxilindəki xəyalən nəzərdə tutduğun məkana qonurdun. Elə buna görə Fəxrinin əmisi məni yuxarı yox, aşağı, qəbir evlərinə – bu barədə danışılmasa da, belə başa düşdüm ki, yəqin təzəcə qazılıb kiminsə dəfn olunduğu məzarların içinə – səyahətə çağırırdı. Axirətin sirrini öyrənməyin birinci qapısı kimi... O kişi hardan biləydi ki, mən özüm elə həmin gecə qəbirdən də dərin quyuya düşəcəm? Elə işlər var ki, ölüm onun yanında toy-bayramdı... Ancaq nəsə bilirmiş dünyagörmüş, ürəyi oğul itkisi ilə dağlanmış qoca... Ürəyinə damıbmış, duyubmuş, hiss eləyibmiş... Yoxsa, lapdan sir-sifətini turşudub, mənə "Başına bəla gələ bilər" deməzdi. Bir ara hövüllənib qalxmaq, birbaşa evimə getmək, öz açarımla qapını açmaq, yataqdakıları elə yatdıqları yerdəcə tutmaq istədim, yenə oğlum gözümün qabağına gəldi. Daha özüm heç, mən uduzmuşdum, indi gərək hər addımda oğlumu fikirləşəydim. Bəs neyləməli? Durmağına durmuşdum, özümə, canımı qoymağa yer tapmırdım, iri otaqda fır-fır fırlanırdım, tez-tez dərindən, sinə dolusu nəfəs alsam da havam çatmırdı. Deməli, indi qəflətən evə getmək olmaz. Bəs sabah?.. Üç gün, bir həftə, bir ay, bir il sonra nə olacaq?.. O almasatanın qızı – hərçənd atası təkcə alma satmırdı – hardan ürcah oldu axı mənə?.. Bəlkə, əvvəlcədən qurulmuş bir tələ idi bu?.. Qızını öz evində, öz yurdunda, öz elində tək qoymaq istəməyən kişi nə əcəb onu düz-əməlli tanımadığı cavan, sütül oğlanla bir mənzildə tək-tənha qoyub, səhərdən-axşamacan alver eləməyə gedirdi? Kimə,

nəyə güvənirdi, bəlkə qəsdən belə eləyib mənim nəfsimi yoxlayırdı, məni sınaqdan çıxarırdı, hə?.. Əbləh, gorbagor Qarabala, sən kimsən ki, məni sınayasan? Mənim sənə yazığım gəldi, sığınacaq verdim, heç pul-para da almadım, budu yaxşılığın əvəzi?.. Gərək bu dünyada heç kəsə acımayasan, kimə yaxşılıq eləsən, ondan pislik görəcəksən, çünki əl uzadıb batanı bataqlıqdan çıxarmaq da Allahın yazısının əksinə getməkdi, tanrı rəva bilsəydi, boğulanı o kökə salmazdı, yaxud elə özü çıxarardı. Bəşər, kainat yığıla, yaradandan böyük olmayacaqsa, Allahlıq iddiasına nə ehtiyac?.. Lazım bilsə, dara düşənin boynunu ilgəkdən xilas eləmək ondan ötrü iki vur ikidi... Deməli, darda olanın elə dara düşməyi məsləhətmiş. Eynən mənim kimi... Başqa canlılardan fərqli olaraq, yalnız insana, guya seçim haqqının verilməsisə, elə adamların uydurduğu yekəxana bir nağıldı...

Kondisioneri söndürüb pərdəni çəkdim, yekə pəncərəni açdım. Boş-boş fikirləşib dağı-arana, aranı-dağa qatmaqdan, var-gəl eləməkdən bezikib divana çökdüm... Bayır, həyət, eşik işıqlaşsa da, içəri qaranlıq idi. Büllur çılçıraq da ya öz-özünə sönmüşdü, ya da qeyri-ixtiyari elə mən özüm keçirmişdim, ən dəqiqi, yəqin gözlərimi yummuşdum, ona görə ətrafım, yan-yörəm qaralmışdı, amma bu da ağlabatan deyildi, gözü bağlı olan bayırın işıqlandığını hiss eləyə, duya, görə bilməzdi. Onsuz da daha ağıldan, dərrakədən, düşüncədən keçmişdi, hər şeyi taleyin axarına, taleyin ümidinə buraxmaq lazım idi. Əgər çıxış yolu tapmaqda acizsənsə, yıxıl yat, bir az mədəni desəm, yıxılmağa da ehtiyac yoxdu, sadəcə, uzan mürgülə, çalış, dərin yuxuya gedəsən, inan ki, oyananda səni qoruyan kənar, gözəgörünməz qüvvə özü səni qəfəsdən çıxaracaq, qoymayacaq qanadların qəfəsin barmaqlıqlarına dəyib qırılsın, boş-boşuna çarəsiz-çarəsiz çırpınmaqdan təngnəfəs olasan, bağrın çatlaya... Tanrı heç kəsi gücü çatmadığı dərdlə yükləməz, ən qorxulusu ölümdürsə, bəzən elə ölümün özü də əlverişli çıxış yoludu...

Amma deyəsən, mən uzanıb yatmamışdım, heç dərin yuxuya-zada da getməmişdim, çünki qapı açılanda başımı masanın üstündən qaldırdım, divandan masa arxasına haçan, necə, niyə keçmişdim, anlamadım... Ya elə ürəyimə gələn o “kənar qüvvə”, nədənsə, rəva bilməmişdi, qoymamışdı, qıymamışdı divanda uzanım, “hop” eləyib sakitcə götürmüşdü məni, qoymuşdu masanın arxasındakı stula, mən də başımı masaya qoyub mürgüləmişdim.

Fəxri yaxına gəlib yuxarıdan aşağı mənə baxdı:

– Mən işə gedib qayıtmışam, sən hələ burda qurdalanırsan?..

– Görükür ki, qurdalanıram... – gözlərimi ovuşdura-ovuşdura key-key ətrafa boylandım. – Nədi ki?..

– Heç nə, gəldim görüm sağ-salamatsan, ya yox?.. Necə oldu, sınaqdan necə çıxdı sənin aparatın?..

– İki dəqiqə on üç saniyə...

– Bu yaxşıdı, ya pis?

– Yaxşıdı... Çox yaxşıdı...

– Bəs niyə it günündəsən?.. Yatmamısan?..

– Heç...

Qəfil ağlına nə gəldisə, duruxdu:

– Ala, bilməzsən, yaxın olsun deyə, elə bizim yataq otağına-zada girərsən e, o andır aparatınla... – yalan-gerçək zarafata saldı. – Mən özüm heç, bizim arvad el işində rüsvayi-cahan olar...

– Bir o qalmışdı...

– Bəs, hara getdin?..

– Hara gedəcəm, öz evimə... Elə bilirdim ən salamatı oradı... Day gedib hamamda çimənləri güdməyəcəkdim ki...

– Gecəyarısı hamam olar?..

– Sözgəlişi deyirəm... Məsəl üçün...

– Yaxşı, hər şeyi apaydın görürdün, ya dumanlı?..

– Soruşma... – dedim zorla, dilim ağzıma sığışmırdı.

Ürəyinə nə damdısa, nə duydusa, nə hiss elədisə, ləngər vurdu yerində, keçib divanda əyləşdi, diqqətlə mənə baxdı:

– Soruşmuram... Çünki özün hər şeyi danışacaqsan... Day bizim bir-birimizdən başqa kimimiz var axı?.. Hap-gopa basmaqla deyil, bilirəm ki, milyon adamın içində sən də təksən, elə mən özüm də...

O dəm anladım ki, doğrudan-doğruya bu dünyada Fəxridən yaxın, məhrəm adamım yoxdu, kövrəldim, qəhər gəlib hülqumumda dayandı, nə yuxarı getdi, nə aşağı, yenə havam çatmırdı, boğulacaqdım az qala. Yaxşı ki, lapdan "nəhrin" qabağı açıldı, göz yaşlarım sel kimi axmağa başladı, mən gecə öz evimdə gördüklərimi elə öz göz yaşlarımda yuyuna-yuyuna, çimə-çimə, durula-durula danışmağa başladım. Nəhayət, susub əllərimi çənəmin altına dayaq verərək dilxor-dilxor ona baxanda, nədənsə, əvvəlcə heç nə deməyib baxışlarını yayındırdı, sonra qalxıb otaqdan çıxdı, qayıdanda əlində konyak şüşəsi, dördkünc dəmir siqar qutusu vardı, iki dənə də qədəh...

Şüşəni açıb qədəhləri doldurdu:

– İç... – dedi.

İçdik, bir-iki qədəh dalbadal, sonra da siqar tüstülətdik... Külqabını masadan götürüb yanına, divana qoyduğundan, mən külü masanın üstündəki yarımçıq stəkana boşaltmalı oldum, siqarın yanıb külə dönmüş yarpaqları suyun üzünü örtdü.

– İstəyirsən o oğraş əmoğlunun başına bir güllə vurduraq... – Fəxri sükutu pozdu. – Kimə də olmasa, o oğraşa gücümüz çatar...

– Yox... Güllə vurmaqla nə dəyişəcək ki?..

– Orası elədi...

– Əsl günah mənim arvadımdadı... – sakit-sakit dedim, nədənsə, elə bil birdənbirə başıma gələnlərlə barışıb şüstləşmişdim.

– Deyirsən, onu aradan götürək?

– Yox... Onda da oğlum fikir eləyər, dərd çəkər...

– Deməyim odu ki, özbaşına hərəkət eləyib başına bəla açmayasan... İndi əyyam dəyişib, xəyanətlə heç kəsi təəccübləndirmək olmur, əksinə, sədaqətlilərə gic kimi baxırlar... Kişilər var ki, başı ağrımasın deyə, özünü bilməməzliyə vurub arvadının xəyanətinə qəsdən göz yumur. Neyləmək olar, dəyərlər dəyişib... – ara verib davam elədi. – Amma nə olur-olsun, sən səbr elə, axırda həmişə səbr edən qalib gəlir, görərsən, sən udacaqsan...

– Nəyi udacam, kimə qalib gələcəm?.. – onun sözünü kəsib inildədim. – Həyatım puç olub e, mənim...

– Elə də deyirsən, belə də... Bəs neyləyək? Ona görə belə deyirəm ki, sabah evinə qayıdanda əlindən bir xəta çıxmasın, bax, onda həyatın həqiqətən puç olub gedər...

– Narahat olma, mən bir də o evə qayıtmayacam... Bəlkə zəhər içib özümü öldürüm?..

– Pah... Ağıllıma bax mənim, lap yaxşı, sən özünü öldür, onlar da rahatca kef çəksin...

– Bəs neyniyim?

– Hələlik qalarsan burda...

– Burda qala bilmərəm...

– Niyə?

– El elə sığar, ev evə yox...

– Bəs, o... – deyəsən, qəsdən mənim arvadımın adını çəkmək istəmirdi. – Səni rahat buraxar, arayıb-axtarmaz ki mənim əziz-xələf ərim hardadı?..

– Sən onu yaxşı tanımırsan, o indiyəcən anadan olduğu yeri, el-obasını, qohum-əqrabasını yadına salmayıb bircə kərə... Heç doğmaca atasının qəbrinin üstünə də gedib-eləməyib, deyirsən, mənim dalımca düşəcək?..

– Nə deyim... Düzü, mənim elə əvvəldən ondan gözüm su içmirdi... – uyarlı söz axtarırdı deyəsən. – Hiss olunurdu ki, belə... nə təhər deyim... nəsə çatışmır onda... başdanxarabdı... – axtardığını tapıb sevincək oldu.

– Ağıllı bizə rast gəlməz ki... Gözümü açıb-yumunca, heç bilmədim necə yapışdı yaxamdan... Mən külbaşın, mən hərifin...

– Yaxşı, yaxşı, köhnə palan içi eşməyin mənası yoxdu, olan olub, keçən keçib... – Fəxri əlini yellədi. – Ancaq şəhər balacadı, ömür uzun, işdi-şayəd, haçansa onları görüb-eləsən, coşma, təhər-töhürünü pozub-eləmə, üstünü vurma, səbrini bas... Heç nə olmamış kimi görüşüb danışmasan da, qıy-qışqırıq salma... Zəiflər qışqırıb bağırar. Qorxudan... Bilirəm, çətin olacaq... Oğlunun xatirinə dözəsən gərək... Ayrı yol yoxdu...

– Bəs, uşağa nə deyim?..

– De ki yorulmuşam, tək qalmaq istəyirəm, bir yerdə yaşaya bilmirəm sənin ananla, istəmirəm onu... Bir şey uydur da... Durub əsil səbəbi deməyəcəksən ki... Cavandı, beyni qandı, nəsə girər ağlına, iş-işdən keçər, sonra əlimiz heç yana çatmaz... Bir də, ayrılan təkcə siz deyilsiz ki... Gündə biri evlənir, beşi boşanır...

– İnanar?.. Pis-yaxşı, gör neçə ildi evliyik...

– İnandı-inanmadı, sən hər şeyi gizlətməlisən, nədənsə duyuq düşsə belə, danmalısan hər şeyi... Ay keçər, il dolanar, haçan məqamı yetişsə, həqiqəti deyərsən, yox, istəməsən, bir daş altda, bir daş üstdə, özgəsinin sirri deyil ki saxlaya bilməyəsən...

Nəsə demək xatirinə mızıldandım:

– Elədi...

– Bu belə... – yarımçıq siqarı divanın qoltuğundakı külqabıya basanda boş qədəh divanın üstünə düşdü, Fəxri qədəhi əvvəlki yerinə, külqabının yanına qoydu. – Şəhərin mərkəzində birotaqlı bir mənzilim var mənim. Açarı verərəm sənə, gedib qalarsan orda. Ancaq ora balacadı, sənin kitabların sığışmaz o mənzilə...

– O, vacib deyil... Amma o kitabları orda qoymaq olmaz... Maşın göndərərsən, yığıb gətirərlər, qoyarsan qaraja-zada...

– Day o kitablar sənə lazım olmayacaq?

– Yox, o kitablar burdadı...

Zarafata salmaq istədi:

– O qədər kitab bapbalaca bir başa necə sığışıb?..

– Lapdan lazım olanları gəlib sizdən götürərəm... – dodaqlarım qaçdı, gülümsündüm, ac qarına içdiyim konyakla çəkdiyim siqar, istər-istəməz, eynimi açmışdı, daha özümü dəpdərin bir quyunun dibində hiss eləmirdim, quyuda olsam belə,

kimsə yuxarıdan kəndir sallamışdı mənə, yox, kəndiri sallayan naməlum adam deyildi, kəndir yiyəsi önümdəki divana yayxanıb ayağını ayağının üstünə aşırmışdı, indi qalırdı quyunun dibindəkini, yəni məni, yuxarı dartmaq. – Baş nə gəzir, bu zırhazıra baş dözər?.. Kompüterimi deyirəm...

Nağıl dili yüyürək olar, balam sarıdan qorxum əbəsmiş, uşaq olan bəndə bircə kərə də soruşmadı ki, ay ata, ay dədə, ay köpəyoğlu, başqa yerdə niyə qalırsan, evimizə nədən ötrü gəlmirsən? Allah mobil telefon kəşf eləyənin atasına rəhmət eləsin, yaman asanlaşdırıb adamların işini. Kimə "yox" deməyə, etiraz eləməyə üzün gəlmir, ürəyini telefonla boşaldırsan. Arvadımın gönüqalınlığına bələd olsam da, elə bilirdim, mən evə getməyəndə tufan qopacaq, yer yerindən oynayacaq, aləm bir-birinə dəyəcək, di gəl, hər şey sakit davam elədi, elə bil mən boyda bir adam yox imiş, yaşamağı cəhənnəm, heç dünyaya gəlməyibmiş... Bir ara pərt də olmuşdum, hərdənbir oğlum yanıma gələndə sözarası xəbər alırdım:

– Anan məni soruşub-eləyir?

O da bəzək-düzəksiz, kəsəsinə cavab verirdi:

– Yox... – deyəsən, oğlum anasından da etinasız idi.

Özümü saxlaya bilmirdim:

– Əmoğlum sizə gəlib-eləyir?..

Saqqızı bir az da ləzzətlə çeynəyərək başını tərpədirdi:

– Hə... Gəlmək nədi, bizdə qalır o...

Bədənimdən giziltili üşütmə keçirdi:

– Niyə?

– Deyir ki, nə qədər atan ağlını başına yığıb, öz evinə qayıtmayıb, mən burda qalacam.

Əl çəkməyib təkrarlayırdım:

– Niyə?..

– İstəmir biz tək-tənha qalaq... Deyir ki, sizi tək qoymağı qeyrətimə sığışdırmıram, kişilikdən deyil bu...

– Ay onun qeyrətinə, kişiliyinə quzu kəsim... – bilmədim gülüm, qəhqəhə çəkim, ya oturub zar-zar ağlayım, çaşıb qalmışdım. – Bir də ki, siz tək niyə olursuz axı?.. – üzə vurmasam da, içimdə əsəbiləşirdim, dişim bağırsağımı kəsirdi. – Sən institutda oxuyursan, yekə kişisən day... Sən boyda kişi var e, evdə...

Vecsiz-vecsiz əlini yelləyib, çiyinlərini çəkirdi, ağzındakını çeynəməyə davam eləyə-eləyə. Hərdən mənə elə gəlirdi ki, bu bığı-saqqalı çıxmış uşaq yatanda da saqqızı ağzından çıxarmır.

– Anam deyir, yaxşı ki, o, dadımıza çatır, evi o saxlayır, yoxsa dolana bilmərik, korluq çəkərik...

– Necə yəni, dolana bilmərik?.. – az qalırdım əl atıb, barmağımı soxub saqqızı çıxardım onun ağzından. – Bəs, mənim sənə verdiyim pullar hara gedir?.. Aparıb anana vermirsən o puldan?

Yenə gövşəyə-gövşəyə boynunu bükdü:

– Verirəm, ancaq mən nə bilim... Anam özü belə deyir...

Ancaq getdikcə içimdəki giziltinin, üşütmənin, hirs-hikkənin yerini təkcə başıma gələnlərə yox, hər şeyə biganəlik, qatı bir laqeydlik tutdu, sözsüz ki, oğlum mənə oxşamamışdı – kimə çəkdiyini dilimə, daha doğrusu, ağlıma gətirmək istəmirəm – əksinə, get-gedə mən özüm ona bənzəməyə başlamışdım. Bircə saqqız çeynəməyim qalmışdı, hə, təkcə gecə-gündüz dəvə kimi gövşəməyim çatışmırdı, onu da

eləsəydim, ona da adətkərdə olsaydım, bizi daxilən ayırmaq müşküldü... Zahirən heç, gözgörəsi oğlum mənə oxşamırdı, onun cizgiləri ilə kimsə arasında nəsə bir bənzərlik axtarmaq fikrini yaxına qoymurdum ki, ayrı cür ola bilməz, bu ikiayaqlı "dəvə" mənimdi, vəssalam, qurtardı getdi...

...Ta o vaxtacan ki, bir dəfə Fəxri qəflətən mənim yanıma, daha doğrusu, öz evinə gəldi. Adətən, telefonla zəng eləyib çağırardı nəsə vacib işi olanda, mən orda yaşayandan öz mənzilinə gəldiyi ilk dəfəydi.

– Harda itmisən?.. Darıxıram, gəl gedək, bir yerdə oturub çay içək... – özü də maşınsız, sürücüsüz, cangüdənsiz təşrif buyurmuşdu, deyəsən, illər öncəki qorxu-hürkü tamam-kamal canından çıxmışdı.

– Nə itmək, sizə gəlməyimin üstündən heç bir ay keçməz...

...Bilirdim ki, onun "çay içməyi" uzun həngamədi, ona görə evdən çıxanda Saraya dedim yeməyə məni gözləməsin. Hə, onu demədim axı, Sara qonşuluqda yaşayırdı. O da tək idi. Uşağı olmadığına görə boşanmışdı ərindən. Təsadüfən tanış olmuşduq. Əvvəlcə evdəki yır-yığışa, biş-düşə kömək eləyirdi, əlbəttə ki, pul alırdı gördüyü işə görə, yaş keçdikcə qadın işini özüm səliqə-sahmanla görə bilmirdim. Sonralar pul almadı, əvəzində mənim yanımda qaldı. Öz evini də kirayə verdi. Beləcə, get-gedə isinişdik, məhrəmləşdik... Əsas o idi ki, oğlumun da xətrini çox istəyirdi Sara. Elə buna görə axır vaxtlar uşağın günü bizdə keçirdi.

Mənə nə var, köç vaxtı iynəsini yaxasına taxıb yığışan dərzi kimiyəm, o dəqiqə durdum ayağa...

Elə yaşadığım mənzilin yaxınlığındakı restoranda yeyib-içəndən sonra yolu keçib gəldik dəniz qırağına. Bir xeyli gəzib dəmir məhəccərin arasından keçərək ədəb-ərkanla sal daşın üstündə yanaşı əyləşdik. Axşam düşürdü, gün batırdı, hava qaralmağa doğru gedirdi. Bulvarda adam əlindən tərpənmək olmasa da, bizim kimi dəmirin arasından keçən, ya üstündən hoppanan azdı, bir-iki cavan aşiqdi, oğlan-qızdı, oturub dənizə baxırdılar, bəzi nadinc oğlanların əli dinc durmayanda qızlar nazlana-nazlana acıqlanıb özlərini incik göstərirdilər.

– Evdəki o arvad kim idi?.. – Fəxri gülə-gülə xəbər aldı, yəqin içkinin təsirindən kefi yuxarı idi. – Deyəsən, dinc durmursan a, cavanlıq eləyirsən, papağı günə yandırmırsan, ay xətəkar... – çiynimi şappıldatdı. – Onu yaxşı eləyirsən... Adama elə bazlıq qalacaq...

Bayaqdan elə bilirdim ətraf vecinə deyil, gözü dənizdədi, demə, fikri yan-yörəmizdəki şıltaq cavanlardaymış...

Razılaşmadım:

– Yox, nə papaq, nə cavanlıq, nə bazlıq... Sənə demişdim axı, o qadın biş-düşdə, yır-yığışda mənə kömək eləməkdən ötrü yanımda qalır...

– Öz ev-eşiyi yoxdu?..

– Var, balaca bir evi var, qonşu binada... Kirayə verib...

– Əri yoxdu?..

– Ərli arvad mənim yanımda nə gəzir?.. Olub haçansa, ayrılıblar...

– Nə deyim, indi bilmək olur ki, kimin həcəməti kimin dalındadı...

– Elədi... – başımı yüngülcə tərpədib təsdiqlədim. – Burası yaxşıdı ki, oğlum da onun xətrini istəyir, aralarından su da keçmir. Sara tez-tez zəng eləyib ondan soruşur ki, könlündən nə keçir, nə bişirim sənə?.. Hər adam eləməz e, bunu... Deyər, mənim uşağım deyil ki, qoy cəhənnəm olsun, harda nə yeyir yesin... Saranın əli duzludu axı...

– O nə deməkdi, yeməkləri duzlu olur?..
– Əşi, yox e... – qımışdım. – Yəni dadlı xörəklər bişirir...
– Bəs, nədən ötrü ayrılıblar?..
– Kim?.. – anlamayıb duruxdum.
– Adı nədi onun?.. Sara ilə əri...
– Saranın uşağı olmur...
Fəxri:
– Hə... – mızıldadı yavaşca, araya sükut çökdü. Yox, lənət şeytana, biz susduq, bulvardasa sükutdan əsər-əlamət yox idi.
Qəfil mən dedim:
– Bilirsən, mən Saranı almaq istəyirəm...
Dənizə baxa-baxa əlini yellədi:
– Day yaşayırsız da bir yerdə, boş-boş kağız-kuğuza, rəsmiyyətə nə ehtiyac var?.. Ya əməlli-başlı toy-düyün eləmək istəyirsən? – üzünə, sir-sifətinə ciddi görkəm versə də, məzələnirdi.
– Nə toy... Prosto, istəmirəm ki, özünü tək-tənha hiss eləsin, onun heç kəsi yoxdu... Oğlumla da araları çox yaxşıdı... Bu lap əladı... Sən nə deyirsən?..
– Mən nə deyə bilərəm... – çiyinlərini çəkdi. – Alan razı, gələn razı, mənə də ancaq "mübarəkdi" demək qalır... – ara verdi azca. – Amma sən tələsmə, bir yaxşı-yaxşı ölç-biç...
– Əlbət ki... Bir dəfə ağzım yanıb, indi lap gözümün işığı ola, sınamamış hara evlənirəm...
– Necə sınayacaqsan?
– Sizdəki aparatımla...
– O, bekara şeydi, ağlı başında olan adam risk eləyib evə yad kişi gətirməz...
– Hər halda, oğurluqla ayağısürüşkənliyin ömrü qırx gün çəkir. Hələ ki pis bir şey hiss eləməmişəm... İntəhası, başım bir dəfə daşa dəydiyindən, qorxub bərayi-ehtiyat sınayaram... Belə ki, kəbinə-zaqsa getməmişdən əvvəl gəlib üç-dörd gün sizdə qalacam...
– Gəl... Gəl konyak içək, siqar çəkək...
Onun nəyə işarə elədiyini duyub tez dedim:
– Yox, Allah eləməsin, bu oxum da daşa dəysə, konyakla siqar mənə kömək eləməz...
Söhbəti dəyişdi:
– Doğrudan, çoxdandı biz tərəflərə gəlmirsən... Yəqin Sara sənin başını qatıb, təzə icad-micad da yoxdu. Elm-filan gedib işinə, hə?..
– Elə deyil, axır vaxtlar sənin əminin dedikləri məni çox düşündürür...
– Nə dedi ki əmim?..
– Yadından çıxıb, sənin əmingilə getmişdik?..
– Orası xatirimdədi...
– Orda əmin demədi ki, mənim aparatımı təkmilləşdirsək, qəbirlərin içini gəzə bilərik, axirətin sirrini öyrənərik...
– Uy iraq olsun, burda işləri yarıtdıq, qaldı yerin altında, ölülərin arasında gəzib rəhmətliklərin ruhuna haram qatmaq... O söhbətinizi mən unutmuşam tamam, bir ucundan-qulağından danış görüm...
– Sən keflənmisən... – dedim, birdən yadıma düşdü ki, biz Fəxrinin əmisi ilə dağı arana, aranı dağa qatanda Fəxri yanımızda yox idi. – Nə isə... – mızıldanıb soruşdum. – Kstati, əmin nə təhərdi?..

Fəxri dərinə getməyib ağızucu:

– Yaxşıdı... – deyib güldü. – Amma zor olar e... Misal üçün atan qəbirdə yatan yerdə salam-kəlamsız yanına gedəsən ki, xoş gördük, a kişi, nətəhərsən, gəl bir yüz-yüz vuraq...

– O, səni görməyəcək axı...

– Pah, day onda nooldu?.. – həvəsdən düşdü. – Məzara-qəbirə girməyin nə mənası var?.. – guya, doğrudan-doğruya bu dəqiqə qollarını çırmalayıb hansısa qəbrə girməyə hazırlaşırdı.

– Bu ayrı, qəliz məsələdi... Oralarla əlaqə yaratmaq sənə adi, məzəli gəlməsin, bundan ötrü illər gərəkdi, sən gördüyün aparat tamam dəyişməlidi, əlavə işlər görülməlidi... Üstəgəl, virtual olsa belə, qəbrə girməyin vahiməsi... – deyib söhbəti dəyişdim. – Deyəsən, day killerdən-millerdən qorxmursan... Cangüdənsiz-zadsız gəzirsən, yəqin mənim verdiyim qolbaqla sancağı da tullamısan gedib...

– Elədi, şükür Allaha, o dalğalar keçib getdi... Həm də, indi zəmanə dəyişib, cangüdənlə-zadla gəzib özünü gözə soxmağın düşər-düşməzi olar. Sakitcə bir az kənara çəkilib marığa yatmaq lazımdı... Sənin verdiklərinə gəlincə, hara tullayıram, atmaq nədi, bəh-bəhlə saxlayıram öz otağımda... Saxla samanı, gələr zamanı... Hərdən bekar olanda şitliyim tutur, taxıram qoluma, vururam yaxama, böyük qızım mənə baxanda mat-məəttəl qalıb ciyilti ilə, çəkingən-çəkingən qışqırır ki, ay ata, bu nədi, sən mənə dönmüsən ki... Amma sancağı qızın yaxasına, qolbağı da elə onun qoluna taxanda işləmir nədənsə, heç nə göstərmir... Yoxsa qızım çoxdan götürüb aparmışdı rəfiqələrinə göstərib forslanmağa... Hə, çoxdan səndən soruşmaq istəyirdim, nədəndi görəsən?..

– İşləməz, əlbəttə... O, sənin yaxan üçün, sənin qolun üçün, sənin üzün, sifətin üçün fokuslanıb, başqası onu işlədə bilməz...

– Belə de... – ayağa qalxdı. – Gedək?..

– Gedək... – deyib mən də durdum...

...Dəqiq yadımda deyil neçə gündən sonra Fəxrigilə gəldim, lakin onu bilirəm ki, bir həftədən çox çəkmədi. Özü də kef havasına gəldim, zarafatyana, məzələnməkdən ötrü... Özlüyümdə dedim ki, həm ziyarət olar, həm ticarət... Bir-iki gün Fəxrigildə qalıb qurdalanaram aparatımla, beynimdə-ağlımda həyata keçirmək istədiyim təzə fikirlər, təzə ideyalar vardı, sonra da Fəxri ilə dərdləşərik, yeyib-içib zarafatlaşarıq, özü demişkən, əslində, bizim bir-birimizdən başqa kimimiz vardı, axı?.. Ən əsası da, Saranı sınayıb ürəyimdəki yükdən azad olaram, yüngülləşərəm. Şərt o deyil ki, qadının yanına yad kişi gələ – buna qətiyyən inanmırdım, erkəyi evə gətirmək çox təhlükəli idi – bu heç, burası var ki, bir qadını yaxşı, yaxından tanımaqdan ötrü onu özünün xəbəri olmadan güdmək lazımdı. Özü də gecə...

Tərs kimi, bu dəfə Fəxri də yanımda idi, tərs kimi də yox, arxayınçılıqdan onu qoymamışdım yatmağa, demişdim qəfil Saranı çılpaq-zad görsən, gözlərini yum getsin... O da əlini yelləmişdi ki, çox lazımdı elə mənə sənin o gözəlçən, sən Allah, qoy gedib gözümün acısını alım. And-aman eləmişdim. Yox ki yox, mən ölüm yatma, bir az döz... Bilirdim ki, Sara yayda da gecə köynəyini əynindən çıxarmır. Lap çıxarıb-eləsə də Fəxrini heç nə ilə təəccübləndirməyəcəkdi. O dəm, o gecə Fəxri, doğrudan-doğruya, mənə çevrilmişdi, sanki mənim ixtira elədiyim sancağı, qolbağı udub, daxilən də tamam-kamal mən olmuşdu, mənə dönmüşdü. Qəfil onun səsini eşidəndə də diksindim, dostumun səsini də mənimkindən ayırmaq

mümkün deyildi, hərçənd diksinməyə halım-heyim olmamalıydı, qalmamalıydı mənim:

– Can e, qadasın alasan belə oğulun... Kişibaladı... – Fəxrinin mənim səsimə oxşayan ünü elə bil çox uzaqdan gəlirdi, o səsdəki heyrət, əzab, istirab, əsəbi zarafat, dərindən-dərin kədər, hüzn bir-birinə qarışmışdı, gözünü monitordan çəkib mənə sarı döndü. – Sondür ala, bu zibili...

Mən düyməni basıb aparatı söndürdüm, bu dəfə taymerə-zada baxmaq maraqlı deyildi, çünki birinci kərədən sonra kəşf elədiyimi xeyli təkmilləşdirmişdim.

– Su gətir mənə... – dedim Fəxriyə fağır-fağır.

Fəxri otaqdan çıxdı.

Demə, oğlumla Saranın arasından həqiqətən su keçmirmiş...

Başına gələn başmaqçı olar, deyəsən, öyrəncəli olmuşdum, Fəxri gələnəcən bir az toxtadım. Heç özüm də içimdəki sakitliyin səbəbini anlamırdım. Fəxri də su-zad gətirmədi, bilirdi ki, mənə çox maye qəbul eləmək olmaz, yenə konyakla siqar vardı əlində, bir də iri şokolad...

Birinci qədəhi içəndən sonra xəbər aldı:

– Necəsən?

– Lap yaxşı... – dedim, özü də yalan danışmırdım, birdən-birə özümü süst hiss eləsəm də, doğrudan-doğruya yaxşı idim, sanki bir anda üstümdən dağ götürülmüşdü, qov kimi yüpyüngül idim. Həm süst, həm də yüngül... Nəfəs aldım dərindən. – İndi həqiqətən səndən məhrəm adamım qalmadı, bütün yaxınlarım öldü...

– Elə demə... – mızıldandı. – Bəs, indi neyləyək? – heç vədə Fəxrini belə çarəsiz, belə yazıq görməmişdim, elə bil öz başına gəlmişdi nə isə... adını qoya bilmədiyim. – Ömründə birinci dəfədi ki, oğlum olmadığına görə sevinirəm. Qurban olum qıza, qız doğrudan da qızılmış. Bu nə biqeyrət, oğraş zamanadı, ala, haralara gəlib çıxdıq biz?.. Bəs, indi neyləyək? – təkrarladı yavaşca, sanki kiminsə bizi eşidəcəyindən çəkinirdi.

...Başa düşdüm ki, dostum özünü tamam itirib, bu dəfə özüm qabağa düşüb, necə deyərlər, təşəbbüsü əlimə almalıyam, yoxsa, divanda otutub heyrətdən iriləşən gözlərini üzümə dikənin köməyi konyakla siqardan o yana getməyəcək... Çünki bu dəfə o da mənimlə birlikdə quyunun dibinə düşmüşdü, mən onun çiyinlərinə qalxıb quyudan çıxmalıydım ki, sonra quyudakını xilas eləyim, indi təkcə öz hayıma qalmaq kişilikdən deyildi – gərək kişilik məsələsini çox açıb-ağartmayım – dostumu, zamanın sınağından çıxmış ürək dostumu da nəzərə almalıydım, düşünməliydim, buna görə də canımı dişimə sıxıb özümü soyuqqanlı aparmalıydım; guya ki, hər şey keçib gedir, heç nə vecimə deyil, amma o dəm bir daha əmin olmuşdum ki, bu dünyada elə yaralar var ki, sağalsa da ağrısı, göynərtisi ömürlük qalır, keçib getmir.

Fəxrinin mənzilinin açarını qoydum masanın üstünə:

– Sabah gedərsən mən yaşadığım mənzilə, ordakıları çıxardarsan ki, basun bayıra, mən bu mənzili satıram... – dedim.

– Bəs, səni soruşsalar?..

– Deyərsən ki, ölüb...

– Allah eləməsin... – Fəxrinin gözləri doldu. – Səni istəməyən ölsün... Axı, səni axtaracaqlar..

– Narahat olma, heç kəs axtarmayacaq... Birinci dəfə kim axtardı ki, indi də arayan olsun... Axtarsalar da heç nə dəyişməyəcək...

– O arvadı ordan qovmaq asan işdi e, bəs, sən harda qalacaqsan?..

– Hələlik bir-iki gün burda...

– Öz evindi e, lap illərlə qal... Bəs sonra?..

– Kəndə gedəcəm... Bu yayı kənddə qalıb işləyəcəm, sənin əminə söz vermişəm axı... Axirətin yolunu tapacam... Sonra bir yer tapıb başımı girləyərəm də birtəhər...

– Axirət-maxirət öz yerində... Burda iyirmini qırx elədik, qaldı o biri dünya... O nə kənddi ki elə?..

– Bizim ata yurdumuzdu... Böyük əmim yaşayıb orda... Özü də imkanlı adam olub, əli qızılnan oynayırmış... Bir dəfə şəhərdə əmilərimlə sözləri çəp gəlib, and için ki, bir də ayağı şəhərə dəyməyəcək. Əmilərimə, yəni öz qardaşlarına da acıqlanıb ki, bir də ayağınız bizim kəndə dəyməsin, məni də yaddan çıxarın, mən adlı qardaşınız yoxdu sizin. Heç mən öləndə də üstümə gəlməyin... Yoxsa, şuğluzümmə olarsız...

– Şuğluzümmə nədi?..

– Yəni ölənin vəsiyyətinə, istəyinə əməl eləməmək... Əks getmək...

– Sənnən də qəribə, kəlləmayallaq sözlər çıxır e...

– Bəs nə bilmişdin, sənin başının tükü sanı kitab oxumuşam e,...

– Çox qürrələnmə, day mənim başımda sən deyən tük qalmayıb... – dodaqucu gülümsünüb mətləbə qayıtdı. – Nə isə, bəs, nə baş vermişdi axı, atanla qardaşlarının arasında?..

– Orasını bilmirəm, bircə bunu eşitmişəm ki, bir gecə həmin böyük əmimin evini ildırım vurub, əmimqarışıq yazığın bütün doğmaları külə dönüb... Onsuz da, nədənsə, əmilərim çox soyuq idi bir-birinə... Atam rəhmətə gedəndə də balaca əmim elgözünə cəmi bircə kərə dəfnə gəldi, vəssalam. Qaldım atamın iş yoldaşlarının, bir də qonum-qonşuların umuduna...

– Əmilərinin arasında ögeylik-zad vardı?..

– Yox mən bilən... Yox desəm də, dəqiq bilmirəm, bizim ailədə elə bil hərə bir dərədən gəlib zorla qovuşmuşdu, əslində, heç qovuşmamışdı da... Anamgilin qohum-əqrabasını vapşe tanımıram, vapşe gediş-gəlişimiz yox idi... Taylı tayını tapar, arvadımgil də elə idi, almasatanın nəsil-nəcabətini indiyəcən tanıya bilməmişəm, heç adlarını da bilmirəm, onlar da bizi itirib-axtarmadı, hərə öz qınına girib başını girləyirdi. Lap qəbir evi kimi soyuqdular hamısı... Heç kəsin heç kəslə işi yoxdu, ölsən, bir qurtum su verməzdilər, ölməyindən xəbər tutan axırıncı adam olardılar, yəqin vəfat elədiyini eşidəndə də, uzaqbaşı, əllərini yelləyib etinasızlıqla bir "Allah rəhmət eləsin" deyərdilər, vəssalam-şüdtamam...

– Hardan bilirsən məzar soyuq olur, Allah eləməmiş, içinə-zada girmisən?..

– Əvvəl-axır girəcəyik də...

– Allah uzaq eləsin, iraq-iraq... – qulağını çəkdi. – Deyirəm, qurbanolduğumun qəzəbinə bax e... Durduğu yerdə ildırım vurur adamın evini, heç kəs də salamat çıxmır... İndi gəl şəkk elə o kişinin qüdrətinə... – şəhadət barmağını tavana tuşladı. – Nə isə... Sən kəndə get-gəl, ev-mev sarıdan nigaran olma, burda qalmaq istəmirsənsə, həyətdə gözətçi üçün tikdirdiyim o balaca evdə qalarsan... Ora boşdu onsuz da... Acığına gəlməsin e, əla otaqdı, giriş-çıxışı da ayrıdı, hər şəraiti var, hamamı, ayaqyolusu, kənardan görmüsən də sən oranı azı yüz dəfə, hərdən evdəkilər məni bezdirəndə özüm gedib qalıram orda... Üz vurma, day səni uzağa buraxa bilmərəm e, gərək gözüm həmişə sənin üstündə olsun... – Açarı götürüb pul qoydu masaya. – Bunu da kənddə xərcləyərsən... Qəfil bir şey lazım olsa, zəng eləyərsən... – elə dedi, sanki bu dəqiqə yola düşürdüm...

– Sağ ol... – güclə dedim, əməlli-başlı kövrəlmişdim, ağlayıb göz yaşı axıtmamaq üçün özümü zorla saxlayırdım.

– Bir kimsəsi, ev-eşiyi qalıb o kişinin?

– Kimin?..

– Sənin böyük əminin də...

– Dedim də, evini ildırım vurub onun... Doğmaları da tələf olub, eşitdiyimə görə... Nədi ki?..

– Heç nə, deyirəm bəs, sən özün harda qalacaqsan?

– Əh... – etinasızlıqla əlimi yellədim. – Nə çox yer... Keçəl halva yeyər, puluna minnət...

Yaxın gəlib əlini çiynimə qoyaraq zarafata salmaq istədi:

– Mənim qardaşımın keçəl olmağına çox qalıb... Düz eləyirsən, get kəndə, havanı dəyiş, bir az dincəl, özünə gəl...

Özümü unudub ona təsəlli verməyə çalışdım:

– Qorxma, mənim başım daşa çox dəyib, öyrəncəliyəm... Day mənə ölüm yoxdu...

– Hayıf ki, ölüm hamı üçün var... – gözlənilmədən yavaşca dedi. – Amma bu əclaf zəmanədə adam kimi ölməyin özü də xoşbəxtlikdi...

...Kəndə gedən gün əvvəlcə məzarlığa, ata-anamın qəbrinin ziyarətinə getdim, çünki gecə atamı yuxuda görmüşdüm. Həm də çoxdandı onların qəbrinin üstünə getmirdim, nədənsə, qəbir ziyarətinə mənasız, lüzumsuz bir şey kimi baxırdım. Qəribədi ki, anamı heç vaxt görmürdüm röyada... Yəqin onu yuxuda görməkdən ötrü yaddaşımda hansısa cizgisi qalmalıydı. O da ki yox idi. Ancaq şəkli qalmışdı rəhmətliyin. Ola bilsin şəkildən yuxuya gəlmək çətindi, çox uzun, əzablı, dolanbaclı yoldu, ona görə hələ də gəlib çıxa bilmirdi biçarə anam... Bəlkə də azmışdı, yolu itirmişdi... İlahi, nə qədər yaşlanırsan-yaşlan, illər keçsə də, çallaşmış, ağarmış, seyrəlmiş saçların hərdən ata-ana sığalı, ata-ana nəvazişi istəyir. Özü də dəhşətli dərəcədə çox istəyir...

Cib dəsmalımı göz yaşımla isladıb – əslində mənim dəsmalım deyildi, Fəxrinindi, onlardan götürmüşdüm, mənim heç vaxt cib dəsmalım-zadım olmayıb. Hə, bir də o aparatı söküb yığmışdım çantama, amma bilirdim ki, o aparat kənddə bir işə yaramayacaq, onu əməlli-başlı təzədən quraşdırmaq, başqa cür, daha dəqiq yığmaq gərəkdi – anamın qəbrini sildim, atamın məzarını təmizləməyə çatmadı dəsmaldakı nəmişlik... O gün mən çox ağladım, amma göz yaşlarım iki qəbrə yetmədi, əlacsız qalıb cib dəsmalımı atamın məzarının sinədaşına sərdim. Atamın başdaşı iri idi, üstündə də şəkli, anamın bapbalaca daşında isə foto-zad da yox idi, üstündəki hərflər də solğundu... Birdən-birə anamın halına acıdım, ağlıma gətirmədim ki, anam üzü bəridəkilərin anlayacağı məqamda deyil ki, ona qiymət verə bilə... Birdən-birə içimi titrətmə bürüdü, mənə elə gəldi ki, anamın da mənə yazığı gəlir, anam da mənim halıma acıyır, yanır, imkanı olsa, yanıma gəlib başımı sığallayar. Qeyri-ixtiyari əlimi başıma apardım, qəbirdəkini tamam rəncidə eləməmək üçün yalandan gülümsündüm, qoy elə bilsin ki, hər şey yaxşıdı, məndən ötrü darıxmağa, fikir eləməyə dəyməz. Qəflətən aramızda qeyri-adi əlaqə yarandı sanki, əvvəlcə yavaşdan güldüm, get-gedə bu “qorxaq” gülüş dəli qəhqəhəyə çevrildi, güldükcə gülürdüm. Özü də bərkdən... Yaxşı ki, ətrafda ins-cins yox idi. Səsimi, gülüşümü anamdan başqa heç kəs, heç atam da eşitmirdi. Mən güldükcə anam da qəhqəhə çəkirdi, anam da sevindiyindən özünə yer tapa bilmirdi sanki.

Bir az da keçsəydi, doğrudan-doğruya, qəbirdən çıxıb gələcəkdi yanıma, məni bağrına basıb bir də ağuşundan buraxmayacaqdı. Mənsə dayanmadan gülürdüm, az qala nəfəsim kəsiləcəkdi... O vaxtdan yer üzündə baş verən hər şey mənə boş, mənasız göründü, hər şeyə təbəssümlə, ironik, sarkazmla baxmağa başladım. Demə, bu dünyada ciddi yanaşılacaq heç nə yoxmuş, ən ciddi iş elə axirətin yolunu tapıb dünyadan köçənlərlə əlaqə yarada bilməkdi... Məqsədə çatmaq üçün bəlkə üzü o tərəfdən, rəhmətliklər də cəhd göstərməliydi?.. Əlaqə qarşılıqlı olmalıydı... Bilmirəm... Ancaq mən qətiləşdirmişdim; bacardığımı eləyəcəkdim...

...Kənddə böyük əmimin heç kəsi qalmamışdı, yanmış, uçuq evinə, ot-ələf dizə çıxmış həyətinə yaxın gedən yoxdu qorxudan. Söz çıxmışdı ki, guya əmimin evi – kənddəkilərə xaraba qalmış evin yiyəsinin qardaşı oğlu olduğumu demədim – lənətlənib, ora yaxın düşən xeyir tapmaz, elə bu evin sakinlərinin aqibəti gözləyər həmin adamları. Nə isə, mən də dərinə getməyib qarımış, kimsəsiz bir arvadın evində kirayə qalmağa başladım. Amma bir dəfə axşamüstü gözdən oğurlanmağa girəvə tapdım, girdim rəhmətlik əmimgilin həyətinə... Adamboyu qalxmış ot-ələfi, yulğunu birtəhər aralayıb özümə yol açdım, bir divarı tamam uçmuş evə tərəf getdim. Bir az irəliləmişdim ki, dayanıb geriyə baxdım, aralayıb özümə cığır acdığım yulğunlar əvvəlki vəziyyətinə qayıtmışdı, arxamdakı yol “silinmişdi”. Xoflandım... Mənə elə gəldi ki, qabağa getsəm, bir də heç vaxt bu həyətdən bayıra çıxa bilməyəcəm. İrəliləsəm, qabağıma bataqlıq da çıxa bilər. Adamı özünə çəkib ağuşundan buraxmayan, çabaladıqca lap dibinə yuvarlanacağın, batacağın dəpdərin bataqlıq... Qamışlıq vardısa, bataqlıq da yaxındaydı. Bəlkə də o dəm vahimədən şişirdirdim hər şeyi, əslində, nə bataqlığın iyi gəlirdi, nə də ki, qurbağaların yeknəsəq, arasıkəsilməz qurultusu... Lakin yəqin ki, bir az da keçsəydi, yan-yörəmdəki sarımtıl, göy, yaşıl otluqlar sıxıb suyumu çıxaracaq, upuzun qamışlarsa bütün bədənimi kəsik-kəsik eləyəcək, xurd-xəşil olmağım bir yana, qan da məni aparacaqdı. Gecə düşəndə həyətdəki çaqqallar, porsuqlar, tülkülər qan iyinə gəlib leşimi sümüyünəcən gəmirəcəkdi. Heç kəsin də xəbəri olmayacaqdı mənim bu həyətə girməyimdən. Ağlı başında olanın bu cəngəllikdə nə iti azmışdı axı?.. Bu dağlı-dərəli, meşəli, yaşıllıqlı kənddə başıma yer qəhət idi?.. Gəzməyə yer tapmırdım?.. Mənsə gəzməyə yox, öyrənməyə – nəyi öyrənəcəyimi düz-əməlli kəsdirməsəm də – gəlmişdim. Maraq məni gətirmişdi çoxdandı insan ayağı dəyməyən cəngəlliyə, çox keçməmişdi ki, o yekə marağın yerini ondan da böyük qorxu tutmuşdu. Belə demək mümkünsə, əzəmətli bir qorxu-ürkü... Bu da axırı... Qeyri-ixtiyari başımı qaldırıb yuxarı baxmışdım, göy üzünü görməyəndə bütün bədənim titrəmişdi. Lapdan hövüllənib cummuşdum geriyə, özümü vurmuşdum sımsıx tikanlığın, yulğunluğun, qamışlığın arasına, əynimdəki nazik qısaqol köynək, ağ şalvar didik-didik olmuşdu, əllərim-qollarım, sir-sifətim də cızıq-cızıq... Amma əl-qol, sir-sifət, pal-paltar hayında deyildim, əsas canımı bu cəhənnəmdən qurtarmaqdı...

Qaldığım yerə qayıdanda ev sahibəsi şübhəli-şübhəli – nə illah elədimsə, arvadın gözündən yayına, oğurlana bilmədim – mənə baxdı:

– Bu nədi, üst-başını, sir-sifətini kim cırıb?..

– Təpəlikdə gəzirdim, ayağım sürüşdü, yumbalandım aşağı, üzü tikanlığa, kolkos məni bu kökə saldı...

Arvad dinmədi, bilmədim sözlərimə inandı-inanmadı...

Böyük əmimin xaraba qalmış evinə yaxın gedib əlimi daş-divara sürtə bilməsəm də, kənar adamlardan – məni tanıyanlardan soruşmaq istəmirdim ki, yox yerdən

camaat məni görəndə xoflanmasın – soraqlaşıb onun məzarını tapdım, əmimin doğmalarının da qəbri yaxınlıqda idi. Arvadı, qızı, oğlu, nəvəsi, kürəkəni... Hamısının da bər-bəzəkli qəbri vardı... Ən urvatsız başdaşı elə əmiminki idi, bap-balaca, üstündə şəkil-zad da yox... Nədənsə, yazıq əmimin qəbrini – həqiqətən, o dəm əmimə acımışdım, qəhərlənmişdim, kövrəlmişdim əməlli-başlı, az qala ağlayacaqdım – anamın başdaşına bənzətdim.

Əslində, bu kənd sakit yerdi, camaatın dilinə düşmüş cəngəlliyə girməsəydin, özün öz başına cəncəl açmasaydın, kimin səninlə nə işi, dinc durmayıb ora özbaşına, gizlicə keçdinsə, el-obada, kimsədə nə günah? Can sənin, cəhənnəm tanrının... Hara xətrindi, yeri get... Barı-bəhrəsi də sənin, əzabı, işgəncəsi də... Onlar ki sən nabələdə qabaqcadan xəbərdarlıq eləmişdilər... Qalanı sənlikdi...

Burda heç kəs mənə mane olmurdu, girişmişdim işə, axirətin yollarını tapmaqdan ötrü yeni icadlar eləmək üçün baş sındırırdım... Bir də burda, bu ağacın altında hamıdan gizlənirdim... Yaxın-yad, doğma, dəxli yoxdu, adamları görmək istəmirdim. Heç kəsi... Yox, düzünü demədim, hərdən Fəxridən ötrü darıxırdım...

Düzdü, adda-budda pıçıldadım olub-keçənləri öz-özümə, bəlkə belə də olmalıdı, adam öz-özünə danışanda, istər-istəməz, çox mətləblərin üstündən keçir ki, onsuz da içindəki onlardan xəbərdardı. Lakin mən ona görə içimə yox, pıçıltı ilə özümə danışırdım ki, qulaq asanım vardı; altında əyləşdiyim, məni ağuşuna alıb bütün dünyadan gizlədən alma ağacı... Həqiqətən, mənə elə gəlirdi ki, bu ağac yer üzünə məxsus deyil, onu yerin "sakini" hesab eləmək sadəlövhlükdü... Yuxarı baxdım, külək əsməsə də, hava "lal-mat" olsa da, ağacın yarpaqları xəfifcə, titrəyiş demək olmazdı buna, ürpərirdi, sanki alma ağacı "başını tərpədib" mənim ürəyimdən keçənləri təsdiqləmək istəyirdi...

* * *

– He, he...

Əvvəlcə bilmədim neyləyim, xoflanıb oturduğum yerdəcə ətrafa, yan-yörəyə, yuxarı-aşağı, aşağıdan-yuxarı baxdım.

– He... – səsi təzədən eşidəndə sövq-təbii yerimdə qurcalandım, elə bil bəd ayaqda lapdan durub qaçmağa, aradan çıxmağa hazırlaşırdım, bir ayağımı qaçaraq qoydum.

– Əstəğfürulla... Bu nə səsdi?.. Başım xarab olur, deyəsən... – yavaşca mızıldandım öz-özümə...

– Səs deyil, gülüşdü...

– Kim gülür?.. – birdən-birə ürəyimə təpər gəldi, hər halda, bura böyük əmimin həyəti deyildi, burda mən sahibi-ixtiyardım, kimdənsə, nədənsə qorxub çəkinməyim ayıb sayılardı. Burda heç kəs mənə xətər yetirə bilməzdi, əksinə, hamı, hər şey məndən çəkinməliydi, ən pisi bəri başdan əllərini qaldırıb qorxduğunu büruzə verməkdi ki, yox yerdən gözəgörünməz rəqibin də ayağı yer ala bilərdi. İt qaçanı qovar, dayananı yox...

– Mən!..

– Sən kimsən?..

– Alma...

Yenə başımı yuxarı qaldırdım:

– Bu ağacda gör nə qədər alma var, mən hardan bilim, hansı almasan?.. Bəlkə alma yox, alma ağacısan?..

– Yox, düz demədim, nə almayam, nə alma ağacı... Mən yerin altındakı qədim-dən-qədim alma tumuyam, alma toxumuyam...

– Yerin altında?.. Bəs, sənin səsin yuxarıdan niyə gəlir?..

– Mənim səsim hər yerdən gəlir... Ancaq indiyəcən səsimi eşidən sənqarışıq bir əlin barmaqları qədərdi... Di gəl, yer üzündə barmaqları saysız-hesabsız olan canlılar da var...

– Yaxşı, barmaq məsələsini çox uzatmayaq, bayaq çıxartdığın o qəribə səs nə deməkdi? “He...” Ağlayırsan, ya məni çağırırsan?.. Bəlkə “hə” demək istəyirsən?..

– Yox, niyə ağlamalıyam ki?..

– Elə bildim mənim halıma ağlayırsan...

– Nə ağlayıram, nə səni çağırıram, nə də “hə” deyirəm... Dedim axı, gülürəm sadəcə...

– Gülürsən?.. – təəccübləndim. – Niyə?.. Gülməli bir şey varsa, de, mən də gülüm, əslində, heyrətli, təəccüblü, lap belə ağlamalı bir iş gəlib indi mənim başıma, nəinki gülməli, hırıldamalı...

– Ağlamalı heç, bəs, heyrətli, təəccüblü olan nədi?..

– Ən azı, alma tumunun dil açmağı...

– Yer üzündə hər şey danışır, amma çoxları başa düşmür bunu. Qanmadığına “Olmur, ola bilməz” demək ən asan yoldu... Bəzi peyğəmbərlər heyvanların dilini bilirdi, ağacların, daşların hisslərini duyanlar da olub, dənizi ikiyə ayırıb arasından keçənlər də... Qarışqasına yeni ölən adamın qəbrinə girib ona verilən sorğu-sualı öyrənməyi tapşırana səda gəlir: “Sən ki bizim qüdrətimizi bilirsən, bəs, nədən bizi qarışqa ilə aldatmaq, qarışqa ilə bizə kələk gəlmək fikrinə düşdün?..” Fikir ver, iki-üç dəfə “mənim” yox, “bizim” deyilir nədənsə...

– Mən özüm də maşın icad eləyib təzəcə ölən bir adamın qəbrinə girmək istəyirəm, mərhumla əlaqə yaradıb, axirətin sirrindən ağah olmaq istəyirəm...

– Bilirəm...

– Hardan?.. Ürəkoxuyansan?..

– Yox... Bayaqdan özün danışırdın da... Amma elə iş görmə...

– Niyə?..

– Vaxt gələr, özün anlayarsan...

– Haçan?..

– Ağlın başına gələndə...

– Yenə gülürsən, gülməyinin səbəbi nədi axı?.. Ələ salmaqdı, ya yekəxanalıq?..

– Səbəbi odu ki, ev yiyəsi də, sən də başınıza gələnləri nəql eləyib öz aləminizdə əsl günahkarı tapdız... Heç nə dəyişməyib, ta qədimdən belə olub Adəm övladı... Günahı özündə görməyib, başqalarının boynuna qoyub... “Biz aydan arı, sudan duruyuq, bütün günahlar mənim əcdadlarımda, almadadı, ya da ki, uzaqbaşı, bütün günahlar ilandadı...” Hə, tutaq ki, elədi, günahkarı tapıb bütün suçu onun boynuna yüklədiz, indi rahat olun, gedin, ayaqlarınızı uzadıb dincəlin... Suçu üstünə yıxmağa heyvan, ağac tapdızsa, günah sizdən keçdi, siz yer üzünün əşrəfisiz axı... Əşrəfə bax, gecə-gündüz özü-özünü mədh eləyir... Öz suçunuza görə ağacın, heyvanın əzab çəkdiyinə göz yumduz. Günahsız yerə alma Adəm övladlarının dilinə düşdü, ilan da ayaqlarını itirdi... Bu necə işdi; alimin təpəsinə düşən alma yaxşı olur, ondan əsrlər öncə dərilib yeyilənsə pis?.. Çünki başa dəyən özü düşmüşdü ağacdan, budaqdan zorla qoparılıb həzmi-rabedən keçirilməmişdi.

– Mən ki alma ağacını, almanı-ilanı günahlandırmadım... Ümumiyyətlə, almadan heç nə danışıb-eləmədim...

– Necə danışmadın, sən də mətləbini almasatanın qızından başladın əslində... Bütün düyünlərin nüvəsində, kökündə də o dayanırdı...

– Orası elədi, mən o qıza rast gəlməsəydim, hər şey başqa cür ola bilərdi... İndikindən qat-qat yaxşı olardı yəqin...

– Onu kim bilir?.. Bəd ayaqda nə olacaqdı ki?..

– Heç nə...

– Bitməkdən, heç olmaqdan qorxma... Hər şey heçlikdən yaranıb...

– Düz deyirsən, mən çoxdan bitmişəm, bircə nəfəsim gedib-gəlir...

– Yenə bütün günahlar bizim üstümüzdə qalır...

– Necə?

– Dolayısıyla... Yekə-yekə kitablar yazırsız yaradanın adıyla, o kitablardakı Allahınız da elə sizin özünüzə oxşayır; sevinir, qəzəblənir, müharibədə hansı dəstəninsə tərəfini tutur, göydən daş yağdırır, sel, tufan yaradır, əzab, yaxud məsləhət verir, yol, mərhəmət göstərir, lap belə yeri gələndə dedi-qodu, qarğış da eləyir, əmr verir ki, mənə səcdədən qalmayın, yoxsa sizi dəhşətli işgəncələr gözləyir... Diribaşlar, gözdən tük qapanlar öz istəyini Allahın adı ilə bəndələrə sırıyırlar ki, onları qorxu altında rahat idarə eləyə bilsinlər...

– Əstəğfürulla... Qısaca de görüm, bəs, Allah kimdi, nədi, elə de ki, mən başa düşüm... Bəzək-düzəksiz...

– O təsvirəgəlməz, ağlasığmazdı...

– Onu oxumuşam...

– Əbədiyyətdi... Sonsuzluqdu... Daşın üstündə gəzən qarışqanın səsini eşidir, sıx meşədə ağacdan düşən yarpağı görür... O, hər yerdədi... Haçansa başqa qalaktikaya gedə bilsən belə, o, sənin yanında olacaq... Səninlə getməyəcək, o, binadan bütün kainatdadı... Baxma ki Adəm övladının onurğasının dibində kod qoyulub, şifrə qoyulub, o isə şah damarından yaxın olan Allahı uzaqlarda, göyün yeddinci qatında, yerin dibində axtarır. Forslanmayın, lovğalanmayın, təkəbbürdən başınız gicəllənməsin, mən dedim-demədim, onsuz da başınız fırlanır, o şifrədən yer üzündəki hər kəsdə, hər şeydə var, ölçüsüz, ilahi gözdən iraq heç kəs, heç nə qalmayıb... Heyvanlarda, böcəklərdə, ağacda, daşda, suda, qumda... Sadaladıqlarım daha dərin qatdadı, insandan qat-qat çox bilir. Ona görə səsləri çıxmır, adamlar kimi özlərindən müştəbeh deyil, özlərinə dünyanın əşrəfi demir, özlərini tanrıyabənzər hesab eləmir. Yazdıqları bəzək-düzəkli olsa da, ağıllarının məhdudluğundan, uyarsızlıq hər sətirdə özünü büruzə verir. Bir tərəfdən, bacı ilə qardaşın yaxınlığını günah, suç hesab eləyirlər, qadağa qoyurlar, sonra da özlərinə Adəm övladı, fövqəlbəşər deyirlər. Dalana dirənib başqa çarə tapa bilmirlər, bir qarından çıxanların çarpaz evlənməsini uydururlar. İndi gəl, baş çıxart...

– Qədim əsatirlərdə, kitab göndərilən dinlər yaranandan qat-qat qabaq ana-bala, bacı-qardaş yaxınlığı olub...

– Sən gecə-gündüz oxumusan, görünür, yuxarıdan da sənə az-çox bilgi verilib, buna sözüm yoxdu, ancaq məndən çox, məndən dəqiq bilməzsən olmuşları, çünki bütün hadisələrdə mənim əcdadlarım iştirakçı olub, elə mən özüm də az şey görməmişəm...

– Hayıf ki, mən səni görə bilmirəm...

– Görə də bilməzsən, mən yerin altındayam, dərindəyəm, ona görə indiyəcən salamat qalmışam, hər şey mənim üstümdən keçib... Üzdə olsaydım, çoxdan məhv olmuşdum... Hələ şükr elə ki, səsimi eşidirsən, səndən başqa heç bir Adəm övladı məni eşitməyib, eşitsə də anlaya bilməz, elə zənn eləyər ki, qulağı səsə düşdüyün-

dən uğuldayır... Özü də balaca, çürümüş, qara torpaqdan seçilməyən alma tumunu görmək sənin nəyinə gərəkdi?

– Bu nə deməkdi?.. Elə tez-tez danışdın ki, heç nə anlamadım, qatıb-qarışdırdım hər şeyi...

– Yəni bütün olmuşların şahidiyəm, Adəm-Həvva ilə birlikdə məni də bura göndərdilər... Altında oturduğun ağac da bizim nəsildəndi, hərdən fəhmən nəsə hiss eləsə də, yaddaşını itirib, çünki üzdədi...

– Səni görmək...

Təəssüflə təkrar eləmək istəyəndə sözümü kəsdi:

– Görmək önəmli deyil, əsas duymaq, hiss eləməkdi... Hər gün gördüklərindən bezə də bilərsən, zəhlən də gedər, fəqət canını qurtara bilməzsən, çox uzaqda olan, görmədiyin şeylərisə yanında hiss eləyərsən. Uzaqda olsa da, içində, qəlbində sanarsan, bu heç... Yaradılış haqqında indiyəcən oxuyub öyrəndiklərin hamısı kəlləmayallaqdı, ona görə tez-tez fikir adamlarının başı divara dəyir. Biri deyir ki, Allah varsa, onu kim yaradıb, əcdadı, ata-anası kimdi? Digəri bütün günahları elə yaradanın üstünə atır:

*“Feyl özün, fail özün, biz nə günahkar olmuşuq?..” **

O biri səhərdən-axşamacan boğazını yırtır ki, ölüm sonluq deyil, gözəldi, növbəti mərhələdi, Allaha qovuşmaqdı, di gəl, Əzrayılın nəfəsini hiss eləyən kimi əsim-əsim əsir, tir-tir titrəyir, əbədi qovuşmadan vaz keçir... Adəm övladının ikiüzlülüyü ərşi-əlaya qalxıb, yerə-göyə sığmır. Əslində, bütün yaradılandan aşağıdı Adəmdən törəyənlər. Günahın hamısını sizin üstünüzə yıxmaq da ədalətsizlikdi, sadəcə, siz belə yaranmısız. Uydurduğunuz da bu olub ki, Adəm yaradılanda guya İblis təkəbbürlülük eləyib, Yaradanın sözünə qulaq asmayıb, ondan möhlət istəyib. Bu ali qüdrət sahibini qat-qat kiçildib, az qala, adamların formasına salmaq deyil, bəs nədi?.. O, hökm elədi ki, mənə ibadət eləyin, məndən başqa ilah yoxdu... Pah!.. İbadət eləməsəz, o ali qüdrətdən nə əskiləcəkdi ki?.. Yaradanın yaratdığının ibadətinə, zikrinə, duasına ehtiyacı vardı bəyəm?.. Bu özündənmüştəbehlik hardandı Adəm övladlarında; əvvəli zibil, sonu zibil, ömrü boyu da içində elə zibil gəzdirir... Əşrəfə bax... İnsan hava ilə qidalanmağa başlayanda, yəni qidalanmamaq, nəfəs almamaq mərhələsinə yetişə biləndə, bəlkə özünə “əşrəf” deyə bilər. Heç onda da deməz. Qətiyyən! O mərhələyə yetişə bilənin təkəbbür, yekəxanalıq ağlına belə gəlməz. Bu da heç, sənə şahidi olduqlarımı danışmalıyam ki, hər şeyi yerli-yataqlı biləsən, daha heç kəsi, heç nəyi, o cümlədən mənim əcdadlarımı suçlu hesab eləməyəsən, sən adi adam deyilsən axı, qarışqa misali, axirətin sirrini öyrənməyə hazırlaşırsan...

– Yenə robot kimi gülüb lağa qoyma məni, düz-əməlli heç yanda işləmədim mən... Ömrümü kitabların arasında keçirdim, necə deyərlər, elmlə dini barışdırmaq istədim, ömrümü buna həsr elədim, yaxşı ki qabağıma elə yaxşı adamlar çıxdı, dostum mənə yardım eləməsəydi, əl tutmasaydı, acından ölənin biri olardım. Bu al-aldat dünyasında kimə lazımdı axı axirətin, göylərin sirri?.. Axirətin sirrini öyrənməyi də mənə yardım eləyən dostumun əmisi ağlıma salıb... Amma özü dedi, sonra özü də çəkildi geri... Amma mənim beynimin qurdları hələ də tərpənir, rahatlıq vermir mənə...

– O kişi dünyanın ən xoşbəxt adamıdı...

– Xoşbəxt?.. Onun oğlu şəhid olub, əslində, itkin düşüb, heç meyiti də tapılmayıb... Qızı da zənciyə ərə gedib, saymır, itirib-axtarmır atasını... Budu xoşbəxtlik?..

**** Seyid Əzim Şirvaninin qəzəlindəndir***

– Axtarsa nolacaq ki?..

– Ən azı, sevinəcək kişi...

– Adamların yaratdığı, verdiyi sevinc elə adamların özü kimi gəldi-gedərdi, ötəridi... Gözünü açıb-yumunca əldən gedir, bitir-tükənir, yox olur... İtirdiyinin ağrısı isə qəlbini yaralayıb param-parça eləyir, uzun illər qalırsan baş verənlərə görə özünü danlaya-danlaya, dizinə döyə-döyə...

– Bitib-tükənməz nədi ki?..

– Onu bilmək üçün diqqətlə dinlə, sənin oxuduqların qüsurludu, çünki adamlar yazıb o kitabları, onlar da ya vəlvələdən, ya zəlzələdən, özlərinəsərfəli uydurublar hər şeyi... Elə kitab yoxdu ki, tərəzini əyməsinlər, insan əli dəyən bütün yazılar qüsurludu...

– Axı, göndərilən sonuncu müqəddəs kitabda açıq-aşkar yazılıb ki, bu kitabı mən qoruyuram...

– Hə, yazılıb, ancaq kim qələmə alıb, kim yazıb? Ən əsası, kim onu eşidib, eşidilən düzgün qavranılıbmı, buyrulan düzgün yazılıbmı?..

– Nə demək istəyirsən?..

– Yəni, bütün hallarda yazıya alınan kəlam itirir... İstər-istəməz, yazı ilə deyiliş arasında fərq yaranır, bəzən bu fərq həddən çox olur, çünki insan eşitdiyinin çoxunu məhdud beyninin süzgəcindən keçirib öz qavradığı kimi qələmə alır. Beyin, idrak görmədiyini qəbul eləyə bilmir. Buna görə cənnət-cəhənnəm də elə yer üzünə oxşayır. Amma, əslində, hər şey çox fərqlidi, insanın ağlına sığışmayacaq dərəcədə fərqli... Dərinə getmək istəyi insanı dalana yönəldir. Çünki sizin ağlınız bu dünyada baş girləməkdən ötrüdü, göylərdə, axirətdə ölçülər başqadı...

– Dəqiq elmlərdə elə deyil... İki vur iki bərabərdi dörd...

– İki vur iki dörd eləmir... Dəqiq nə var ki yer üzündə? Ona görə Adəmdən üzü bəri elə yerinizdə sayırsız?.. Yerində saymaq azdı, əcdadlarınızın bildiklərini də unutmusuz gedib. Çünki əzəl başdan tərəzini əymisiz...

– Necə yəni?.. Adəm yer üzündəki ilk insan deyildi?.. Ondan qabaq da yer üzündə insanlar vardı?..

– Əlbəttə, vardı... Amma nəfssiz adamlar... Allah Adəmi yaradanda heç bir mələyə "gedin, ona səcdə eləyin" demədi. İblis də Allaha qarşı çıxmadı, yaradılışın əvvəlini-sonunu bilənə, kainat tarmar olsa belə, sonsuzacan əbədi qalana kim, nə qarşı çıxa bilərdi axı? Bu, insanların uydurmasıdı. Oddan yaranmış öz qiymətini, öz dəyərini, öz yerini yaxşı bilirdi. İnsana baxıb yalnız təəccüblə içini çəkdi iblis: "Ya rəbb, sən Adəmə nəfs vermisən, bunun törəmələri doymaq bilməyəcəklər, ölçü hissini itirəcəklər, düşdüyü yerin altını üstünə çevirəcəklər, bir-birlərini qıracaqlar, kainatı darmadağın eləmək iddiasında olacaqlar." "Bilirəm", səda gəldi axır ki: "Amma mən bildiyimi sən bilməzsən". Sonra, həqiqətən meyvəsini dərmək, yemək qadağan olunan ağac məsələsi çıxdı ortaya. Şübhəsiz, Allah da, İblis də qabaqcadan bilirdi ki, Adəmlə Həvva nəfsini saxlamaq, nəfsinə hakimlik eləmək qüdrətində olmayacaq, yasaq edilmiş meyvədən yeyəcək, zaman da göstərdi ki, mən "qüdrət" kəlməsini nahaqdan, boş-boşuna işlətmədim, əsil güc-qüvvə sahibi dünyaya, aləmlərə yox, öz nəfsinə hakim olandı. Adəmlə Həvvasa cənnətdən qovulmadı, cənnətin bir guşəsindən digərinə yerləşdirildi, İblis onda da heç nə anlamadı: "Ya rəbb, sən yer üzünü dağıtmaqmı istəyirsən? Aşağı guşəyə yerləşdirilən bu nəfslilər, onların törəmələri ordakı məxluqatı, gözəlliyi tarmar eləyib cəhənnəm çöllüyünə çevirəcək, özləri Allahlıq iddiasına düşüb qadağaları pozacaqlar, bütün gizlinlərə burunlarını soxub, sənin dairənə, sənin halənə belə soxulmağa çalışacaqlar, bu

bütün yaradılış, külli-kainat üçün böyük təhlükədi. Adicə bir ağacın meyvəsini dərib nəfsini saxlaya bilməyənə o gözəllikdə yeri necə etibar eləmək olar?" "Sənin düşüncələrin məhduddu, bəzən bildiyini də unudursan, özünümüdafiə şifrələrini yadına sal, bilirəm ki, Adəmin törəmələri pisliyə, dağıtmağa meyilli olacaq, buna göz yummaq olar, çünki əslində, oturduqları budağı kəsib öz-özlərinə pislik eləyəcəklər, öz gözəl, firavan həyatlarını cəhənnəmə çevirəcəklər, yedikcə, dağıtdıqca doymayacaqlar, gözləri həmişə kənarda olacaq, təkəbbürlük eləyib yaradılışın sirrini öyrənmək istəyəndəsə özünümüdafiə şifrəsi işə düşəcək, gözlərini yumub-açınca, açıb-yumunca qan, ölüm-itim bahasına yaratdıqları hər şey nəsillərinin, soylarının çoxu kimi dağılıb gedəcək, hər şey məhv olacaq, insanlar da yer üzünə yenicə göndəriliblərmiş kimi ox, kaman götürüb hər şeyə təzədən başlayacaqlar. Çünki qadağalara burnunu soxub dəxli olmayana baş qoşmaq, elə icazəsiz mənim dərgahıma girməyə çalışmaqdı, fəqət Adəm övladlarının başqa yolu da yoxdu, verdiyim nəfs onları daima aldadacaq, böyük oyunu həqiqət, gerçəklik kimi qəbul eləyəcəklər." Başqa cür ola da bilməzdi, mütləqi-aləmin hesablamaları, dedikləri həmişəki kimi yüzdə-yüz düz çıxdı... Qədim insanlar əslində çox şeyə nail oldular, inkişaf o qədər sürətləndi ki, indi sizin ağlınıza belə gətirmədiyiniz texnologiyaya yiyələndilər, başqa planetlərə də yol tapdılar, fəqət bununla da kifayətlənməyib, qadağan olunmuş halənin içinə girməyə cəhd göstərdilər. Çünki qazandıqları ilə kifayətlənə bilmirdilər, daim irəli cumurdular. Onda da qadağa, özünümüdafiə şifrəsi elə öz-özünə işə düşdü.

– Özünümüdafiə şifrəsi işə düşdü?

– Hə... Mən biləni, iki dəfə işə düşüb o şifrə, birində elmdə çox kamilləşən, ancaq nəfsinə hakim ola bilməyən, ucsuz-bucaqsız adanın sakinləri bir an içində tamam tələf olub...

– Uşaqdan-böyüyəcən?.. Axı necə?..

– Heç necə, ada göz qırpımında gedib suyun, okeanın dibinə, heç kəs sağ-salamat qala bilməyib... İkincidə çox az bir qismi gəmiyə mindirib, qoruya bilib seçilmiş bir müdrik...

– Nuhu deyirsən?

– Hə... Onda da çox şey məhv olub yer üzündə, məlum məsələdi ki, bir gəmi ilə dünyanı xilas eləmək dəryadan damla da deyildi, fəqət, hər şeyi yenidən başlamağa bəs eləyirdi... Belə hesablanıb ki, üçüncü kərə o şifrə işə düşsə, daha heç kəs salamat çıxmayacaq, hər şeyə yenidən başlamaq olmayacaq, qiyamət qopacaq, məhşər günü yetişəcək, Adəm övladlarının "Atalar üçdən deyib" deyimi boş-boşuna sözgəlişi işlədilən kəlam deyil, yerlə göyün əlaqəsi bulud kimi zərif, dəmir kimi möhkəm olanda, yaradanın hesablayıb möhlət verdiyini bildirən sirli-sehirli səmaların üç sözə sığışdırılan formulu, düsturudu, yəni siz ikiayaqlılara üç ölçüdən uzağa getmək heç vaxt nəsib olmayacaq, özünüzü aldadıb elə biləcəksiniz ki, çoxvektorlu sistemlərin bilgisinə nail olmusuz, fəqət bir də ayılacaqsız ki, əlinizdə heç nə yoxdu, elə çıxdığınız yerdəsiz... Ona görə ki, həqiqi bildiyiniz nağıldı, illüziyadı, xülyadı, xəyaldı, toxunduğunuz, ələ dəyən nə varsa quramadı, yoxdu, əslində... Üçüncü şifrə işə düşəndə Adəm övladlarının kökü kəsiləcək... Qiyamət başlayacaq...

– Uşaqlıqdan mən də hesablamalara, dəqiq elmlərə meyilli idim...

– Özünü Allaha tay tutursan?..

– Əstəğfürulla... Söhbətimiz maraqlı oldu, sövq-təbii yeniyetməliyimi, cavanlığımı yadıma saldım...

– Sizin qədim alimlərdən biri rəqəmlərin əzəmətini göstərmək üçün demişdi ki, insan gündə on saat saysa, bir milyarda çatmaqdan ötrü ona əlli il vaxt lazımdı. Səhvi hardadı bu deyimin?..

– Sürət, sayma sürəti nəzərə alınmayıb... Biri tez-tez sayır, digəri yavaşcadan, ölə-ölə, can çəkə-çəkə...

– Əhsən!.. Görünür, mən yanılmamışam, səninlə söhbət eləməyə dəyər... Nə isə, əsas deməyim odu ki, Adəmin övladları bir-birləri ilə evlənməyiblər. Nəfslilərlə nəfs nədi bilməyənlərin qanları qarışıb, beləcə, yaxşı adamlar, pis adamlar dünyaya gəlib... Nəfssiz adamlar uzunömürlü idilər, demək olar ki, ölüm nədi bilmirdilər, qocaldıqca balacalaşırdılar, əriyib gedirdilər, yox olurdular. Ona görə qəbir-filan yox idi. Məlum qız-qadın məsələsinə görə Adəmin oğullarından biri digərini öldürəndə öldürən qardaş bundan ötrü öz qardaşını neçə vaxt dalına alıb gəzdirmişdi, bilməmişdi ki, ölü ilə neyləsin, məhz Allahın izni ilə quş çıxış yolu göstərmişdi yolu itirənə. Beləcə, yaranmışdı basdırılma məsələsi, qəbirlər-filan... İlk qan da elə o vaxt tökülmüşdü. Yoxsa, Adəmdən qabaqkı nəfssiz sakinlər, qocaldıqca balacalaşıb əriyənlər qan tökmək nədi bilmirdilər... Qardaş-qardaşı öldürüb torpağa göməndə İblis kədərli-kədərli ah çəkib demişdi: "Hayıf buranın nəfssiz məxluqatından, cənnətməkan yerindən, Adəm övladının dağıntısı başladı, nəfslilər başa düşmür, qanmır ki, çanaq öz soyunun, öz kökünün, öz nəslinin başında çatlayacaq... Hər şeyin sonu çatır..."

– İblis doğrudan-doğruya kədərlənmişdi...

– Hə... Çox kədərlənmişdi...

– Niyə, istədiyi elə bu deyildi?..

– Əlbəttə, yox... İblis acıyırdı həm nəfssizlərin, həm də nəfslilərin halına... Onun təkəbbürlük eləyib Allaha qarşı çıxmağı uydurmadı, nağıldı. Dedim axı... Kim əbədiyə, sonsuza qarşı çıxa bilər, kim bunu ağlına sığışdırar?..

– Bəs "hər şeyin sonu görünür" nə deməkdi?.. Axı, gör nə qədər keçib, nə qədər vaxt ötüşüb, İblisin dediyi o son hələ də gəlməyib?..

– Vaxt, zaman anlayışı çox fərqlidi axı... Ordakı bir göz qırpımı bizim əsrlərdən qat-qat uzundu... Ya bəlkə də gəlib, bizim xəbərimiz yoxdu... Bəlkə Ay, ulduzlarqarışıq gördüyümüz hər şey yalandı, şəkildi, illüziyadı?.. Heç nə yoxdu, heç nə mövcud deyil, heç biz də yoxuq bəlkə?..

– Hər halda, dediklərin həqiqətdisə, İblisin kədərinin başqa səbəbi olmalıdı. Allahına güvənən, Allahın ən sevimli mələyi necə qəmlənə bilərdi?.. Axı Onun bildiyini heç kim, heç nə, heç İblis də bilmirdi...

– Bəlkə, İblis də öz sonunun uzaqda olmadığını anladığına görə kədərlənirdi? Hər şeyin sonu elə onun da axırı demək idi axı...

– Belə çıxır ki, İblis də ölümdən qorxurdu?..

– Nə bilim... Yəqin ki, cəmi məxluqat yox olmaqdan qorxur. Yəqin ki bütün hallarda varlıq yoxluqdan yaxşıdı...

– Onu kim bilir?..

– Gəldiyimiz nəticə belədi...

– Sən də qorxursan yox olmaqdan...

– Əlbəttə... Qorxmasam, neçə əyyamdı yerin altında gizlənmərəm ki...

– Maraqsız deyil ora...

– Xatirələr bol olanda hər yan maraqlı olur...

– Amma mən day qorxmuram... – lovğalandım. – Hər gecə Allaha yalvarıram ki, əgər mənim buralarda bir işim qalmayıbsa, apar məni yanına...

– He...He...

– Nədi, nəyə gülürsən?..

– Əzrayılın nəfəsini duyanda anlayarsan ki, yox olmaq, keçid, ölüm qorxusu nədi... İndi ona görə qorxmursan da... Bu əminlik səndə hardandı?

– Hansı əminlik?..

– İştahın pis deyil... Hardan bilirsən ki, yox olsan, ərisən, külə dönsən, gömülsən, yaradan səni yanına aparacaq?.. Bəlkə, doğrudan-doğruya, heç-puç olacaqsan?..

– Bax, canlıları qorxudan, vahiməyə salan elə budu da... Qeyri-müəyyənlik... Görəsən, cansızı diriltmək çətindi, ya qətiyyən mümkün deyil?

– Bir göz qırpımında bunu eləyə bilər yaradan... Min il qabaq ovulub tökülmüş sapsarı yarpağı da yamyaşıl, gömgöy eləyər, istəsə, məni də əvvəlki kimi, bir tərəfi göy, bir tərəfi qırmızı almanın içinə salıb torpağın altındakı əzabdan qurtarar, hərənin bir şifrəsi də var axı bədənində, toxumunda, tumunda, giləsində, bayaq dedim sənə... Fəqət dirilmək, cavanlaşmaq, keçib getdiyin yolu bir də qayıtmaq geriləməkdi. Bütün yaşantıların dönə-dönə təkrar olunması nəyə gərəkdi axı?.. Başqa fazaya adlamağa çalışmaq daha maraqlı, daha önəmli deyilmi?.. Bu dünyada sənin, mənim bilmədiyim çox şeylər var...

– Bunu sən deyirsən – torpağın altında gizlənib xatirələrlə baş-başa qalan?..

– Mənim başqa çarəm yoxdu, çevrilmə məqamını gözləyirəm...

– Məhv olsan, çevrilməyəcəksən kiməsə, nəyəsə?.. Dediyin kimi, başqa fazaya keçməyəcəksən?..

– Nə bilim...

– Sən də bilmirsən?..

– Əlbəttə, bilmirəm... Mən Allah-zad deyiləm ki... Qeyb aləminin sahibi odu...

– Bilmədiyimiz çox şeylər var məsələsi yüzdə-yüz doğrudu. Bax, mən balaca olanda atam evimizə cavan bir dayə gətirdi mənə baxmağa, qulluq eləməyə. Özü işdə olurdu axı... Day bilmirəm həmin qadınla atamın arasında yaxınlıq var idi, ya yox, imanımı yandırıb babal yuya bilmərəm, indi bunun heç əhəmiyyəti də yoxdu. O arvad da ölüb gedib bəlkə... Ölübsə, Allah rəhmət eləsin, sağdısa, elə diriyə də rəhmət düşür... Bir gün qabağımdakı dolu stəkanı aşırıb sındırdım, arvad deyinə-deyinə çilik-çilik olmuş şüşəni yerdən yığanda barmağını kəsdi, hirslənib mənə bir şillə vurdu. Mən ağladım, amma birdən göz yaşları içində baxdım ki, kimsə dayəni salıb ayağının altına, durmadan təpikləyir... Ağ kəlağayılı incə bir qadınsa məni qucağına alıb başımı sığallayır. Mən dayəni təpikləyənin yalnız ayaqlarını görürdüm, qucağında xumarlandığım qadınınsa üzünü bircə dəfə sezə bildim. Anicə... Sarışın, cavan bir qadındı, upuzun saçlı... Üzündəki nur gözümü qamaşdırdığından, qeyri-ixtiyari kirpiklərimi bir-birinə sıxdım. Hiss eləyirdim ki, sarışın qadın ehmalca mənim göz yaşlarımı silir, yanağımdan öpür. Mən bu yaxınlığı, xoş təması da hiss eləyirdim, otağa yayılan bihuşedici ətri, qoxunu, rayihəni də duyurdum, ancaq yerə yıxılıb təpiklənənin səsi, cınqırı çıxmırdı, sanki zərbələrə dözməyib huşunu itirmişdi, ya da lap o yanlıq idi; canını tapşırmışdı. Beləcə, mən şirin yuxuya getdim, ta o vaxtacan ki, atam işdən qayıdıb məni oyatdı heyrət içində. Onun nəyə təəccübləndiyi yadımdan çıxıb. Amma o gündən dayə bizə gəlmədi, ümumiyyətlə, demək olar ki, day heç kəs gəlmədi bizə. Böyüdükcə, bu hadisəni xatırlayanda dini kitabları oxumağa girişdim, dinlərlə yaxından maraqlanmağa başladım. Uşaqlıqdan kitab oxumağa, öyrənməyə meyilli idim, həm də kitabı kor-koranə oxumurdum, nəsə götürürdüm bitirdiyim kitablardan, nəsə verirdim, yəni bəzən müəlliflərlə razılaşmırdım, özlüyümdə deyirdim ki, gərək kitabın filan yeri başqa cür yazılaydı, filan

fəsil inandırıcı deyil, filan bölmədəki hesablamalarda uyarsızlıq var. Dinə, səmavi kitablara aludə olduğum vaxtlarda yalnız bir şey düşündürürdü məni; görəsən, kimin qucağında idim o dəm, o ipiri kəlağayıya az qala üç-dörd dəfə bürünən, aparıq, mələksima kim idi?.. Yaxşı, deyək ki, o, anamın ruhu idi, bəs, dayəni təpikləyən, nəinki üzü, beldən yuxarı görünməyən ayaqların sahibi kimdi?.. Bircə bunu qanırdım ki, kişi ayaqlarıdı, hər halda, qadın elə hirs-hikkə ilə, elə bərk, zərblə təpik vura bilməzdi. Bəri başdan birinci ehtimalım da düz çıxmadı, məni qucağına alan qadın sarışındı, anamsa qarabuğdayı, ətli-canlı, toppuş idi, qadınsa ağappaq kölgə kimi, ruh kimi, mələk kimi, lələk kimi çəkisiz... Anamın üzü kədərli idi, elə bil öləcəyini qabaqcadan bilirmiş, hamıdan, hər şeydən küskündü baxışları, cizgiləri də, bilmirəm necə deyim ki, rəhmətliyin ruhu inciməsin, qaba, kobud, qucağında yuxuya getdiyiminsə üzündə ifrat incəlik vardı. Anamın albomdakı şəkli ilə xəyalımda canlandırdığım qadının arasında heç bir oxşarlıq, uyğunluq, bənzərlik yox idi. Yəqin ki o qadını xəyalıma çox gətirdiyimdəndi – nəydisə, bir gecə yuxuma da girdi. Yenə üzündə nur, simasında təbəssüm... Hayıf ki "Sən kimsən?" soruşmağa imkanım olmadı, imkanım oldu e, soruşa bilmədim, yuxunu, daha doğrusu, yuxumu idarə eləyə bilmirəm axı... Bəlkə ona görə ki, utandım, axı yuxuda böyüməmişdim hələ, dayə mənə şillə vurduğu yaşdaydım. Əvəzində o, başımı ehmalca sığallayıb mənə öyüd-nəsihət verdi: "Heç kəsə güvənmə, heç nədən qorxma, heç kəsə bağlanma". Belə deyib getdi, yox oldu, ya da mən yuxudan oyandım. Amma sonralar onun nəsihətinin mənə çox köməyi oldu, yoxsa oğlumqarışıq bütün doğmalarımdan xəyanət görəndə ağrını rahat, nisbətən yüngül adlada bilməzdim, ürəyim durduğum yerdəcə partlayardı. Hərdən fikirləşirəm ki, bəlkə yuxular bizi gələcək qəzavü-qədərlərə hazırlamaqdan ötrüdü?.. Bir də bəzən ağlıma gəlir ki, bəlkə qucağında məni ovudan, mənə öyüd-nəsihət verən qadın elə anamdı, intəhası, dünyasını dəyişəndən sonra üzünə gözqamaşdıran nur gəlib rəhmətliyin, dünyasını dəyişdiyi kimi, elə simasını da dəyişib, ruhunun sifəti tamam başqalaşıb, necə bilirsən, hə?.. Belə şey ola bilər?..

– He, he, he...

– Nədi, yenə nə gülürsən, nəyə gülürsən, gülməli şey danışıram?

– Yox... Bircə ruhun sifəti məsələsi gülməli idi...

– Gül, gül, sənə nə var ki... Bizdə belə deyirlər, üçdə alacağın yox, beşdə verəcəyin...

– Sənə elə gəlir, bu lənətəgəlmiş dünyada heç kimin, heç nəyin işi rəvan getmir... Nəfslilər bu dünyaya ayaq açandan qan, yaxşı-pis qarışıb bir-birinə... Mənə həsəd aparma, gör canımı qorumaq üçün haralardan hara gəlib çıxmışam, kimin, nəyin kölgəsinə, kökünə sığınmışam...

– Sənin də canın var?..

– Dedim axı, nəinki yer üzündə, kainatda cansız heç nə yoxdu...

– Sən ki, dünyanın altını-üstünü görmüsən, Adəmdən-Hatəməcən hər şeydən xəbərdarsan, de görüm, məni qucağına alan qadın kim idi?

– Kim sənə dedi ki, mən hər şeydən xəbərdaram?..

Ağacın altında oturan əl çəkmədi:

– Anamın ruhu idi?..

– Əl çəkin bu ruh məsələsindən!.. Qanmadığınız qorxulu şeyə, qadağan olunan məsələlərə burnunuzu soxmayın!.. Qanmazlığınızdan dünyanın axırını gətirəcəksiz, ay bədbəxtlər!..

– Qorxulu?..
– Qadağa olan yerdə qorxu da var...
– Yaxşı, dünya dağılır-dağılsın da, sən nədən ötrü özünə əl qatmısan?..
– Çünki... çünki mən də öz sonumdan qorxuram... Hamı, hər şey qorxur...
– Yaxşı, məni qucağına alan kəlağayılı, çəlimsiz qadın kim idi?..
– Bilmirəm...
– Sən ha... Anamın ruhu idi?
– Yox...
– Amma çox şəfqətli qadındı... Mələk kimi şəfqətli... Mən onun qucağında yuxuya gedəndən sonra aparıb məni yerimə də salmışdı ehmalca ki, oyanmayım. Atam evə qayıdanda mən elə yerimin içindəcə ayıldım...
– İnanmıram...
– Nəyə inanmırsan?..
– O qadının şəfqətli olmağına... Burda bir uyğunsuzluq var...
– Niyə inanmırsan, nədədi uyğunsuzluq?..
– O necə şəfqətlidi ki, gözünün qabağında bir qadını təpikləyirlər, cınqırı da çıxmır, heç nə olmayıbmış kimi, qucağındakı uşağın başını sığallayır gülümsünə-gülümsünə, uşağın göz yaşlarını silir...
– Axı təpiklənən dayə mənə, köməksiz uşağa şillə vurmuşdu?..
– Deməli, əvəz-əvəz?.. Nə qəddarmış sənin şəfqətli dediyin qadın?..
– Düzü, burası ağlıma gəlməyib, bəlkə mən yalnız ayaqlarını sezdiyimi yerli-dibli görməyib məni qucağına alan qadın?.. Onun, yaxud onların evimizə, mənzilimizə, sonuncu mərtəbəyə necə gəldikləri heç, mənzildən nə təhər çıxdıqları da təəccüblüdü... Sanki eyvandan uçub gediblər, yaxud sakitcə aşağı eniblər?..
– Ağlına gəlməməyi təəccüblü bir şey deyil, əslində tanrı insanı mükəmməl yaratdı, bütün kainatı xırdalaşdırıb, kiçildib, balacalaşdırıb onun bir kilo yarımdan az olan beyninə yerləşdirdi, di gəl, üstəlik, qəlbinə də nəfs qoydu ki, beynindən istifadə eləyə bilməsin, fikri daima nəfsinin yanında qalsın, gözü də əsas incəlikləri görməsin, yalnız əli ilə toxuna bildiyi əşyalara baxsın, beynin qapısı surquclu olanda göz neyləyə bilər ki?..
– Yaxşı, bunlar bir qırağa, doğrudan, görəsən, dayəni təpikləyən ayaqların sahibi kim idi?..
– Bilmirəm, bu mənə maraqlı da deyil, istəsən, özün hər şeyi öyrənərsən...
– Özüm öyrənərəm?
– Əlbəttə... Sən ki zor-xoş bura gəlib, bu alma ağacının altına sığınmısan, nəfslilərdən gizlənmək istəyirsən, bəndələrdən, yaxından-yaddan əl üzüb umudunu yaradana bağlamısan, deməli, düzgün yoldasan, axtardığın gizlinlər açılacaq sənin üçün...
– Bütün gizlinlər?.. Yəni virtual olaraq qəbirlərin içinə də girə biləcəm, sonra göy üzünə, uzaq-uzaq ulduzlara da uçacam?..
– Nə var axı qəbirlərin içində, nəfəsin gedib-gəlirsə, min il orda yatsan da, heç nə öyrənə bilməzsən, əsrlərdi yerin altındayam, yenə bir şey öyrənə bilməmişəmsə, sən o əcaib maşınınla nə öyrənəcəksən axı?..
– Sən də öyrənmək istəyirdin?
– Yox... Sözgəlişi dedim, sənin bilmək istədiyin bizlik deyil, yaradana aiddi, onun işinə qarışmaq, böyük sirri faş eləmək cəhdidi... Şifrə hökmən işə düşəcək onda... Ona görə yaxşısı budu heç buna cəhd də göstərmə, bəri başdan nə özünə əzab-əziyyət ver, nə də təzədən qurmaq istədiyin o maşınına...

– O nə təhər özünümüdafiə, özünüqoruma şifrəsidi ki, üçüncü kərədən bütün yer üzünü yerlə-yeksan eləyir, cəmi canlıların sonunu gətirir?..

– Burda nə var ki?.. Yer yerliyində qalır, canlıların, sənin-mənim məhv olmağım nə yerdən bir şey əskildər, nə ucu-bucağı ağlasığmaz kainatdan, nə də ki, yaradandan...

– Deyirsən, canlılar belə dəyərsizdi?..

– Həm dəyərsizdi, həm də dəyərli...

– Bu necə olur?.. Yəni qiymət verənlər də haça-paça qalıb?..

– Onsuz da, gec-tez, nəfslilər yerdəki bütün canlıların axırına çıxacaq... Fəqət bəzilərinə onların dəyəri göstərilir. Əlaqələr yaradılır... Hər halda, bəzi yuxularda, vaqeələrdə insana nələrə sahib, nələrə qadir ola biləcəyi başa salınır, hayıf ki, hələ adamlar bir şey başa düşmür...

– Hə?.. Deyirəm axı, böyük əmimin burdakı qəbrini tapandan sonra tez-tez ziyarət eləyirdim onun məzarını... Bir gecə atamı gördüm yuxuda, rəhmətlik mənə dedi ki, əmin səndən şikayət eləyir, deyir ki, bəsdi, bir də gəlməsin mənim qəbrimin üstünə... Çaşıb qaldım ki, axı, siz küsülü idiz, danışmırdız, burda mənim günahım nədi axı, əmim nədən əndişəlidi?.. Atam fikirli-fikirli qayıtdı ki, əmin əlacsızlıqdan burda mənnən barışıb ki, səndən şikayət eləsin... Qan-tər içində yuxudan oyandım, o gündən əmimin qəbrinin üstünə getmədim. Amma fikirləşirdim ki, qurduğum aparatı istədiyim kimi təkmilləşdirə bilsəm, birinci elə böyük əmimlə əlaqə yaradım. Ondan çox şey soruşacaqdım, ona sorğu-sualım çox idi. Bəlkə, buna görə narahat olmuşdu rəhmətlik əmim?..

– Bax, görürsən, yenə mən deyənə gəldin, bir şey ki, peyğəmbərlərə belə, rəva görülməyib, oralara əl atma... Sən bundan sonra beş ömür yaşasan da, mənim bildiklərimi ağlına belə gətirə bilməzsən...

– Ancaq bildiklərinin çoxunu demədin yəqin, dediklərinin çoxunusa elə mən özüm də bilirdim...

– Heç kəsi qaldıra biləcəyindən artıq yükləmək olmaz... Bax, sənə sağda görünən önündə əyləşənə solda görsənir, yaxud əksinə... Yuxarıdan baxansa deyir ki, hər ikiniz haqlısız, ikiniz də düz deyirsiz... Yəni bir olan həqiqətə çatmağın sonsuz yolu var...

– Əlbət ki... Məktəbdə "Fizika" müəllimimizin həll eləyə bilmədiyi məsələnin cavabını tapınca, bir kitablıq yazı yazdım mən... Sonra instituta girəndə öyrəndim ki, demə, həmin məsələni həll eləməyin sadə bir yolu, adi bir düsturu varmış... Cəmi ikicə sətir... Başağrısız-filansız... Amma əsas o düsturu bilməkdi, öyrənməkdi, o sadə, adi yolu tapmaqdı ki, boş yerə özünü yorub cəngəlliyə girməyəsən...

– Deməli, əvvəl-axır gəldik mən deyənə, sən goreşənlikdən, məzarlıqda ölüləri narahat eləməkdən, bir də üzünü sonsuz səmaya tutmaqdan vaz keçirsən... Başa düş, hər şey sənin özündə gizlənib, içinə açar tapa bilsən, qarşısında durduğun bütün qapılar öz-özünə açılacaq...

– Yox, heç nəyə gəlib-eləmədik, sənin dediklərin nağıldı, ya da çox dolama, uzun-uzadı bir yoldu, elə bir yol ki, insan bəşərin sonunacan onu tapa bilməyəcək. Mənsə, düzəltdiyim aparatı mükəmməlləşdirib ömrümün axırınacan axirətin, səmavi yolun sirrini axtaracam, gec-tez məni qucağına alıb nəvaziş göstərən o qadının, beldən yuxarısı görünməyən ayaq yiyəsinin kim olduğunu da tapmağa çalışacam...

– Onları tapmaq önəmlidi?..

– Mən ana nəvazişi görməmişəm, ata adamın başını çox sığallaya bilər, amma ana, qadın təması bambaşqaymış... Bəlkə buna görə indiyəcən o qadını axtarıram, məni qoruyan, mənə həyan olan başsız-bədənsiz ayaq sahibini də həmçinin...

– Gəl bu işdən əl çək, yoxsa boş yerə ötürəcəksən günlərini, havaya külüng vura-vura...

– Ömrümün axırınacan axtarışda olacam... Tapdım-tapmadım, axtaracam... Bir də, bilmədiyini öyrənməyə çalışmağın, axtarmağın, yeni-yeni kəşflər eləməyin nəyi pisdi, nəyi günahdı, nəyi suçdu axı?..

– İstəyirəm boşuna axtarmayasan, axtardığın tək sənə yox, cəmi bəşərə hazır veriləcək...

– Haçan?..

– Ruhun bədənindən çıxanda, gözün bərələ qalıb, baxışların bir nöqtədə donanda... Bax, onda, o donuq gözünün qabağındakı pərdə çəkiləcək, ömrün boyu görə bilmədiyin həqiqətlər gələcək gözünün qabağına...

– İstəyirəm sağ ikən görə bilim sən deyənləri, nisyə söhbətə inanmıram... Kəmsavad bilmə məni, o qədər kitablar oxumuşam ki... Dinlərdən də az qala dəqiq elmlər qədər haliyəm...

– Sağlığında necə görə bilərsən axı?.. İçi sənqarışıq, cəmi bəşərin gözü kəlləmayallaq görür, beynin-şüurun düzəldib nizama salır baş-ayaq gördüklərini... Gözlərinin umuduna qalsa, adamları ayaqları göydə, başı yerdə, kəlləmayallaq görərsən... Yaradan belə istəyib, belə məsləhət bilib, belə yaradıb sizin gözünüzü...

– Necə yaradıb-yaratsın, mən ömrümün axırınacan axtarışlardan əl çəkən deyiləm...

– Onda... Deməli... Sənin sonuna da az qalıb...

– Day o, sənlik deyil...

– Niyə?..

– Çünki qədər Allahındı...

– Orası şəksizdi, amma mən də nələrdənsə xəbərdaram axı...

– Bizlərdə “ağıl yaşda yox, başdadı” deyirlər, sənsə adi alma toxumusan. Bəs, sənin ağlın hardadı?.. Başı olmayanın ağlı harda, harasında olur, bilmirəm...

– O, yalan sözdü... Ağıl həmişə yaşdadı, onu işlədib-işlədə bilməməksə, başqa söhbətdi...

## *EPİLOQ*

...Günün günortasında, günəş həmişəki yerindən yorulmadan boylananda lapdan göy elə guruldadı ki, ağacın altında başını masaya qoyub mürgüləyən dik atıldı. Bir anlığa gözlərini ovuşdurub ətrafa baxsa da, heç nə kəsdirə bilmədi. Əsnəyib gərnəşdi, başını sağa-sola əyib boynunu xırçıldatdı. Qalxıb ensiz cığırla ağacın altından evə gedənəcən göy iki dəfə də guruldadı, ayağının altındakı quruyub cadar-cadar olmuş, suya həsrət torpaq ehmalca titrədi. Adətən ev sahibəsi alma ağacı olan tərəfə az su verirdi, yəqin ürəyindən keçirdi ki, ağac öz-özünə, insan əli, bəni-Adəm fitnə-fəsadı olmadan qurusun. Beləcə, hər şey yoluna düşsün. Alma ağacının umudu həqiqətən göylərə qalmışdı.

Qəfil gurultudan hürkən heyvanların səsi bir-birinə qarışdı, hardasa, deyəsən, zərgər Qulamın həyətində idi, itlər ağız-ağıza verib hürüşdü, yarıuçuq evin kölgəliyində xumarlanan pişiklər qorxudan miyoltu da yox, balaca pələngsayağı uzun, qəzəbli, vahiməli bir səs çıxararaq göz qırpımında yan-yörəsini yulğun bürüyən hasardan tullanıb əmin-aman bir yer axtardı, qonşunun xoruzu toyuqlara ürək-dirək vemək istəyirmiş kimi, qanadlarını çırpıb bir-iki ağız banladı, Sənəmin

inəkləri də bir-birlərinə həyan olub, yeknəsəqliklə uzun-uzadı səs-səsə verdi, qazlar, ördəklər də bənzər qaqqıltı saldı, yalnız qoyunlar mələmədi; yeyən sakitcə yedi, gövşəyən gövşədi, xumarlanan, heç nə olmayıbmış kimi, dinməzcə mürgülədi, xumarlandı kölgəlikdə...

Həyətdən evə gedən, nədənsə, birdən-birə üşənsə də, elə bil qorxduğunu büruzə verməməkdən ötrü etinasızlıqla dodaqlarını büzüb fit çalmağa başladı. Ev yiyəsi etinasız-etinasız həyətə göz gəzdirə-gəzdirə iri eyvandakı masanın arxasında əyləşib çay içirdi.

– Bir çay da sənə süzüm?.. – deyib yerində qurcalanaraq qalxmaq istədi qadın.

– Süz... – dedi onunla qabaq-qənşər, arxası həyətə oturan.

– Amma bu dəfə həyətə atdı yoxdu a, süzdüm, gərək içəsən...

– Süz, süz, bu dəfə zəhər də versən içəcəm, qoy isti bir çay içim ki, canım yaxşıca qızsın...

Qadın ona çay gətirdi və yenə keçib yerində oturdu:

– Xeyir ola, yayın bu cırlama vaxtı nədi sənin canına üşütmə salan?.. Sənin-mənim nədənsə qorxub çəkinən vaxtımız ötüb day...

– Görmürsən ki hava açıqdı, gün aləmi yandırır, ancaq göy öz-özünə dalbadal necə guruldayır?.. Elə bil bu dəqiqə qopub yerə düşəcək...

– Qurbanolduğumdu da, bəndələrinə barmaq silkələyir...

Kişi gülümsünüb çaydan bir qurtum almaq istədi, lakin stəkandakının isti olduğunu görüb götürdüyünü yerinə, nəlbəkiyə qoydu:

– Sənə bir söz demək istəyirəm axı... – fağır-fağır dedi, əslində, qəsdən özünü belə göstərirdi, gülməyini güclə saxlamışdı.

Qadının nazik, sarımtıla çalan bəyaz qaşları çatıldı, fikili-fikirli kişinin ağzına marıtladı:

– Nolub yenə? – birdən-birə nə üçünsə önündəkinə yazığı gəldi. – İşin mənə düşübsə, elə bil ki, düzəlib... Nə məsələdi, bəlkə kimsə xətrinə-zadına dəyib sənin buralarda?..

– Yox, sənin qorxundan kim məni incidə bilər burda?.. – kişi qadını yalandan tərifləsə də, müsahibi aldanıb əməlli-başlı forslandı.

– Bəs nədi, mən ölmüşəm bəyəm, kimsə mənim qonağıma “gözün üstə qaşın var” deməyə cürət eləsin?..

– Sağ ol, sən olmasan, mən əldən getmişdim...

Qadın bu dəfə ayıq tərpəndi, deyəsən, kişi “doza”nı artıq, “barıtı” çox eləmişdi:

– Gopa basıb yalandan qoltuğuma qarpız vermə, ədə, cavan qız-zad deyiləm sənin üçün. Açıq de görüm, nə istəyirsən, qarnının ağrısı nədi?..

– Deyirəm yay qurtarır, mənim də işim çoxdu... Bəlkə elə payızı-qışı da qalım burda?.. Necə bilirsən, hə?.. Sənin etirazın yoxdu ki?..

– Qalırsan qal da, onsuz da soyuqlar düşəndə buralarda “qu” deyirsən, qulaq tutulur... Mənim üçün lap yaxşı... Nə qədər kefindi burda yaşa... Qorxma, payız-qış aylarında pulun yarısını alacam səndən... İnsaf dinin yarısıdı axı...

– Qorxmursan?

– Nədən? – qadın tutulub çaşqın-çaşqın soruşdu. – Mən nədən qorxub çəkinməliyəm, mızıldanma, açıq de görüm, nolub, qapısına elçi gələn qız kimi yalandan özünü naza qoyub, əzilib-büzülmə, neçə ildi gəlib-gedirsən bura, evimin adamısan day... Su girdi qaba, oldu içməli...

– Birdən gecələr... Heç bilmirəm nə təhər deyim... Utanıram da... Qorxuram xətrinə dəyər... Deyirəm birdən şeytan məni yolumdan azdırar, dinc durmaram e...

– kişi dili dolaşa-dolaşa qımışıb məzələndi. – Gecələr şirin yuxuna haram qataram sənin... Baxma da, pis-yaxşı, kişiyəm axı... Dedim, bəri başdan xəbərdarlıq eləyim ki, sonra yorğanda davamız düşməsin... – atalar məsəlini də özünəsərfəli dəyişdirib dilinə gətirdi.

Qadın gülümsündü:

– Pah!.. Kişi a?!. Qorxudan lap ürəyim əsdi!.. Yavaş ye, boğazında qalar... Dinc durmayan fəsilə-məsilə, yaya-qışa baxmır e... Elə dil pəhləvanısan sən, boş-boş zarafatlaşıb hırıldamaqdan, basıb-bağlamaqdan başqa əlindən heç nə gəlmir, nə deyim, yəqin qismət beləymiş, nə səndə o kəramət var, nə də məndə o bəxt... Çayını iç görüm, gör ağlından nələr keçir bunun... – qadın zarafatyana ona yüngülcə şapalaq ilişdirmək istəsə də, masa enli olduğundan və kişi də cəld tərpənib qeyri-ixtiyarı başını arxaya çəkdiyindən zərbə vurmaq istəyənin əli boşda qaldı, silləsi havada, boşluqda qövs cızdı. – Hələ birtəhər su başına gedə bilirsənsə, Allahına şükür elə, papağını göyə at... Sənnən gözüm su içmir mənim... Get işinə, ədə... Mənim kavalerimə bax... Yəqin qürrələndiyin yerin day peşov eləməkdən başqa heç nəyə yaramır... Həmişə özündən razı, yekə-yekə danışanları elə sənin kimi yel-buraxan gördüm... Hürən it tutmaz... Hırıldama, çayını iç, dur get yerinə, sənin ayıbını örtən elə o ağacdı... – kişidən qabaq stəkandakı yarımçıq çayını götürüb bir udquma hortuldatdı, deyəsən, uzun-uzadı danışıb müsahibini ələ salmaqdan, onun fərsizliyini qabartmaqdan yoruldu.

...Gülüşdülər, kişi də stəkanı nazik dodaqlarına yaxınlaşdırdı. Çay soyuyub içməli olmuşdu...

Kişi:

– Məndən deməkdi... Hər halda, sən ehtiyatı əldən vermə... Çörək yeyənin acizi olmaz... – mızıldanıb qadınla zarafatlaşa-zarafatlaşa çayını içdi, sonra ayağa durub yenə fit çala-çala, özündənrazılıqla, qəsdən ləngər vura-vura, sərxoş kimi, onsuz da ensiz cığırın enini-uzununu dolaşa-dolaşa, kefikök-kefikök qayıtdı "kabinetinə", alma ağacının altına....

...Alçaq kətildə təzəcə əyləşmişdi ki – hərdən işdən, fikirləşməkdən, uzun-uzadı düşünməkdən yorulanda, masanın arxasındakı yumşaq stulun yanındakı rəngi getmiş kətildə otururdu, dabanlarını torpağa bərk basıb qəddini əyirdi, dirsəklərini ayaqlarına dirəyib əllərini çənəsinin altına qoyurdu, gözlərini naməlum nöqtəyə dikib elə gözüaçıq mürgüləyərək dincəlirdi, arabir stulda oturub yalın ayaqlarını kətilin üstünə qoymağı da xoşlayırdı – dalbadal tappıltı ilə yerə üç alma düşdü. Özü də kənara-zada diyirlənmədi, elə düşdükləri yerdəcə yan-yana fırlanıb düz onun ayaqlarının ucunda dayandı... Sanki göydən düşüb yerə yapışmışdı üçü də... Kişinin üzündəki təbəssüm kölgələndi, qədd-qamətini düzəldib fikirli-fikirli başını qaldırdı, sımsıx yarpaqlı ağaca baxdı, buluddan, qaraltıdan xali, tərtəmiz, bəmbəyaz günəşli asimanı düz-əməlli görə bilməsə də, ona elə gəldi ki, almalar salxım söyüdə oxşayan göbələyəbənzər ağacdan yox, lap yuxarıdan, göyün yeddinci qatından düşüb...

...Belini azca büküb almanın birini yerdən, ayağından bir-iki qarış aralıdan götürmək istəyəndə ürəyi sancdı, ağrı birdən-birə arxaya vurub şiddətlənəndə, bütün kürəyinə yayılanda qəflətən ağlına gəldi ki, görünür, almanın elə ağacda qalmağı məsləhətmiş, onu nəinki dərməyin, heç əyilib yerdən götürməyin də axırı xeyirliklə qurtarmır...

***2023-2024***

# Alıkul poeziyasında Vətən sevgisi, yurd məhəbbəti



XX əsr qırğız yazılı poeziyasının görkəmli simalarından biri Alıkul Osmonovdur (1915-1950). Çox qısa bir ömür yaşayıb: erkən yaşda valideynlərini itirib, uşaq evində böyüyüb, 35 yaşında ağır xəstəlikdən vəfat edib.

Alıkul Osmonov Toktoqul Satılqanovdan sonra qırğızların ən görkəmli milli şairi sayılır. Şeirlərindəki humanizm xətti – yurda-yuvaya, millətə doğma dilə, təbiətə, insanlığa insani münasibəti hər zaman şairin mənəvi ömrünü uzatmaq iqtidarında olub. Əbəs yerə ona «qırğızların Puşkini» deməyiblər. O, qırğız poeziyasına yeni düşüncə, təzə ifadə tərzi gətirdiyinə görə ədəbi yaddaşda yenilikçi şair kimi qalıb.

Alıkul Osmonov həm də istedadlı tərcüməçi olub. O, Nizami Gəncəvinin, Puşkinin, Şota Rustavelinin, Şekspirin əsərlərindən bəzi nümunələri qırğız dilinə çevirib.

Doğru deyirlər ki, vətən doğulduğun kənddən, auldan başlayır. Günəşi, Ayı, yaz yağışını, qış şaxtasını, göy qurşağını, durna qatarını ilk bu məkandan görürsən. Alıkul Osmonov bu duyğuları belə yaşayır:

***Çox sevirəm aulumu, kəndimi,****
***Dadlı axan sularına heyranam.***
***Gündoğanım, günbatanım burdadır,***
***Bu kənd mənim həm atamdır, həm anam.***

Bəli, həqiqətən, insanlar doğulduğu məkana çox cazibəli qüvvə ilə bağlı olurlar. Bəzən o məkan ata, ana statusu daşıyır. Bir qırğız məsəlindəki «El içi altun beşik» deyiminin reallığına, sakrallığına inanırsan. Lakin yerin, torpağın vətən, yurd olmağı üçün də bəzi şərtlərin mövcudluğunu inkar etmək olmaz. A.Osmonov «Yer nədir» şeirində bu məsələyə bir aydınlıq gətirir:

***Yer nədir?***
***Yer dediyin – boz torpaq.***
***Əgər yoxsa yaşıl zəmi, bağça, bağ,***
***Yetişmirsə sinəsində min barı,***
***Qaynamırsa buz nəfəsli suları,***

---

** Mətndə istifadə olunan bütün şeir parçaları A.Osmonovun Adil Cəmilin tərcüməsində nəşr olunmuş «Zamandan-zamana» kitabından götürülmüşdür.*

***Başı üstdə oxumursa quşları,***
***Göyərmirsə ağacları, daşları,***
***Görünmürsə onun arpa, buğdası***
***Yer dediyin bu torpağın harası?***

Məhz buna görə də babalarımız axarlı-baxarlı, barlı-bərəkətli, münbit yerləri özlərinə yurd yerləri seçiblər.

Qırğız xalqının etnik atributlarından biri zaman-zaman sığındığı yurtalar olub. Azərbaycan türkləri yurtaya «alaçıq» deyiblər və alaçığın qurulduğu yeri «yurd yeri» adlandırıblar. Qırğızlar il boyu (yayda sərin, qışda isti) bu yurtalarda yaşadıqları halda, Azərbaycan türkləri yalnız yay mövsümündə belə alaçıqlardan istifadə ediblər.

Yurda məhəbbət bu yurtalardan və yurd yerlərindən başlayıb. Vətən, torpaq sevgisini Alıkul sözün sehri ilə belə canlandırır:

***Əgər bir gün səfər etsəm qürbətə,***
***Nə deyərdi yurdum məntək yurddaşa?***
***İl keçməmiş ayrılığa dözməyib***
***İssık-Gölə qayıdardım birbaşa.***

***Yalnız burda tapardım mən dincliyi –***
***Doğma elim, təmiz hava, təmiz su…***
***Şirin olur ana yurda qayıtmaq –***
***Mən günəşi ilk gördüyüm yerdi bu.***

s Alıkul Osmonovun yurd sevgisi, vətəndaş mövqeyi onun yaradıcılığından qırmızı xətt kimi keçir. Hansı mövzuda yazırsa-yazsın, şair bu ruhdan kənarda qala bilmir. «Ata Yurd» şeirinin aşıladığı sevginin gücünə baxın:

***Yaz əridər bu soyuğu, zülməti,***
***Yer üzünə nur çiləyər ağ bulud.***
***Hər ağrını öz çiynimə alaram,***
***Sən ağrıma, mən ağrıyım, Ata Yurd.***

Körpə yaşlarından ana nəvazişindən, ata məhəbbətindən məhrum olan Alıkul Ata Yurdunun timsalında atasını, anasını görür və bu sevgini yurddaşlarına aşılayır.

Şairin «Ana dili» şeirində oxuyuruq:

***Ana dilim, layla dilim – varlığımsam,***
***Nəğmən ilə qanadlanıb mənəm uçan.***
***Başqa dillər öyrənməyim öz yerində,***
***Unutmaram mən bu dili məzaracan!***

Göründüyü kimi, şair ana dilini haqlı olaraq «Layla dili» adlandırır. Beşiyimiz başında dil açan laylalar əslində ana dilimizin şüuraltımıza yönələn ilk fraqmentləridir. Hələ dil açmadığımız zamanımızda bu nəğmələr ana dilimizdə danışmağımıza vəsilə olur.

Alıkulun müxtəlif mövzularda yazdığı şeirlərin vətənsevərlik duyğusu, vətəndaşlıq missiyası ümumiləşdirilmiş şəkildə özünü büruzə verir:

***Utanan deyiləm, bu vaxta kimi***
***Evimdə arvadım, övladım yoxdur.***
***Mən bütün gücümü vətənə verdim,***
***Vətənsiz adım yox, soyadım yoxdur.***

*«Mən nədən utanıram».*

Belə misralarda insanın doğulduğu yurdun, vətən torpağının bir zərrəsi olduğuna bir daha inanmalı olursan. Bu məqamda rus şairi E.Baqritskinin sözlərini də xatırlamaq yerinə düşərdi: «Şeir – insan vücudunun prototipidir. Onun bütün əzaları yerində, bütün üzvləri məqsədəuyğun olub, müəyyən vəzifə daşıyırlar. Mən deyə bilərəm ki, şeirin hər bir hərfi orqanizm hüceyrəsinə bənzəyir; o, nəbz kimi atmalı və döyünməlidir.» (Baqritski E. Stixi i poemı. M., 1955, s.15).

Yurd yerlərinin hər qarışına sönməz sevgi ilə diqqət kəsilən şairin lirik məni bəzən də gördüyü mənzərələrə dolayısı yolla öz etirazını bildirir. 1940-cı illərdə Qırğızıstanda Orto-Tokoy su dəryaçasını inşa edərkən bir neçə dağ suyun altında qalır. Anoloji vəziyyət Sovetlər birliyinin müxtəlif respublikalarında, o cümlədən Azərbaycanın Mingəçevir şəhərində də baş verir. Orto-Tokayda dağlar suyun altında qaldığı halda, Mingəçevirdə Samux rayonu dəryaçanın dibində qalır. (Əlbəttə, rayon köçürüləndən sonra). Orto-Tokoyu belə görən şair yazır:

***Mən Frunze şəhərindən***
***Balıqçıya gedən çağı***
***Görəmmədim on beş dağı.***

***…Bizim elin yurd yeriydi,***
***İndi olub talan dağlar.***
***Su altından mənə baxır***
***Xəyalımda qalan dağlar.***
*«İtirdim».*

Qırğızlar təbiətin qoynunda – təmiz dağ havasında, allı-güllü çəmənliklərdə qurulan yurtalarda yaşamağa üstünlük verən, mal-heyvanla dolanışığını tapan qədim türk xalqlarından biridir. Bu gün də o yurtalar bu xalqın məişət atributu kimi Qırğızıstanın alp çəmənlikləri boyunca durna qatarı kimi düzülməkdədir. Şair ona görə təəssüf hissi ilə deyir ki, «Bizim elin yurd yeriydi, indi olub talan dağlar». Bəli, yurd yeri qan yaddaşına hopan sakral məkan deməkdir.

Alıkul Osmonov Ana Yurdun füsunkar təbiətinə bütün ruhu ilə bağlı şairdir. Onun «Durnalar», «Yeddi oğuz», «Təbiət və musiqi», «Qırğız gölü», «Frunze», «Ağ qayın», «Ata yurd», «İssık-Göl», «Ulduz şəhəri» kimi şeirlərində bu esackar təbiətin əlvan palitrası gözlərimiz önündə sərgilənir. Şair hətta son mənzil yeri kimi çox sevdiyi İssık-Gölün sahilini seçir:

***Ləpəsini şappıldatsın İssık-Göl,***
***Yeddi rəngə yenə çalsın zahiri.***
***Söyləsin ki, sahilimdə əbədi***
***Uyutmaqda qırğızın bir şairi.***
*«Qələmimə».*

Şairin «İssık-Göl»ün tərənnümünə bağlı bir neçə şeiri var ki, onların hər birində vətənə, onun təbiətinə sonsuz sevginin şahidi oluruq:

***Mənim İssık-Gölüm, dağlar gözəli,***
***Qırçın ləpələri duzlu, məzəli.***
***Məni məst eləyir hər görüşəndə***
***Ana təbiətin bu şah əsəri.***
*«İssık-Göl».*

Dəniz səviyyəsindən 1600 km hündürlükdə yerləşən, 700 metr dərinlikdə olan bu dağ gölünün gözəlliyinə heyranlıqla nəğmə qoşanlar az olmayıb. «İsti göl» mənasını daşıyan «İssık-Göl» haqqında əfsanə və əsatirlər də az deyil. «Qırğızlar» kitabının müəllifi Kanıbəy İmanəliyev yazır: «Çox əsrlərdir ki, bu gölün mənşəyi haqqında mübahisələr səngimək bilmir. Və gələcək nəsillərə də bunun açılmamış tapmacaları veriləcək. Həqiqətənmi onun zümrüd dalğaları altında əski bir şəhər uyuyur?» Əlbəttə, bu mövzuda fərziyyələr, ehtimallar və versiyalar çoxdur. Əski şəhər deyəndə kimsə Makedoniyalı İsgəndərin «dəfinələr dolu» qəsrlərini, kimsə Teymurləngin yenilməz saraylarını gözünün qabağına gətirir. Lakin bunların elmi sübutu hələ ortada olmadığından «suyun altındakı əski şəhər» mövcudluğu irreal olaraq qalır.

1987-ci ildə Qırğızıstana ilk səfərim zamanı yol qeydlərimi «Tyan-Şanın zümrüd qaşı» sərlövhəsi altında elə həmin il «Ulduz» jurnalında dərc etdirmişdim. Qırğız torpağına, əzəmətli dağlara, xüsusən İssık-Gölə olan sevgim şeir və məqalələrimdə mütəmadi yer almağa başladı. Bir əfsanə əsasında İssık-Gölə həsr etdiyim «Zirvədə göl» poeması da kitabımda yer almaqla oxucuların diqqətini çəkdi. Sonradan «Manas» eposunu araşdırmağımla bağlı Qırğızıstana tez-tez səfər etməyim, İssık-Gölü tez-tez görməyim ona yeni şeirlər həsr etməyimə vəsilə oldu:

***Hava soyuq, göl istidir,***
***Suda Tanrı nəfəsi var.***
***İnanmıram göllər içrə***
***İssık-Gölün əvəzi var.***

***Atılmışam ağuşuna,***
***İssık-Gölüm – isti gölüm.***
***Deyirlər ki, bir gün sənə***
***Qovuşana yoxdur ölüm...***

*«İssık-Göldə», 18.09.2014, Qırğızıstan (Adil Cəmil. «Anama layla» kitabı, səh.61).*

Alıkul Osmonov paytaxt şəhəri Frunzeni (Bişkek) dünyanın bütün şəhərlərindən üstün tutur. Çünki o, bu şəhərin hər küçə-prospektinə, tin-dalanına uşaqlıq çağlarından yaxşı bələddir və bu bələdçilikdə alovlu bir yurddaş, vətəndaş sevgisi var.

Yer, yurd, əzəmətli dağlar – Yeddi Oğuz, Ala-Too, Tenqir-Too, allı-güllü yaylaqlar, buz bulaqlar, dəli çaylar Alıkul Osmonovun poeziyasında əsas tərənnüm predmetləri kimi diqqəti cəlb edir. Hiss olunur ki, şair Ana Yurdun qarlı qışına da, güllü yazına da eyni dərəcədə vurğundur.

Alıkul Osmonovun poeziyasındakı təsvir və tərənnümlərin gözəlliyi məhz real həyat materialından qidalandığı üçün təbii və səmimi təsir bağışlayır. Ona ilham verən ana təbiətin təkrarsız gözəllikləri, saf ürəkli yurddaşlarının qonaqpərvərliyi, bütövləşən Vətən obrazıdır. V.Belinski haqlı olaraq ilhamı ruhun enerjisi adlandırır. Alıkul Osmonovun ilham adlı «ruh enerjisi» doğma Qırğızıstanın zümrüd qaşı İssık-Göldən, zirvəsi qarlı-qartallı Ala-Too, Yeddi-Oğuz, Tenqir-Too dağlarından, Talas, Çuy vadilərindəki alp çəmənliklərindən, içində xallı balıqları şütüyən Çu çayından qaynaqlanır desək, yanılmarıq. Yeddi-Oğuz dağının gözəllik və əzəmətini şair belə tərənnüm edir:

***Qara-qara buludların ardından***
***Yeddi bölük dağ ucalır səmaya.***
***Onun adı Yeddi-Oğuz dağıdır,***
***O yaxındır həm günəşə, həm aya.***

***...Ay batanda o batmayıb zülmətə,***
***İşıq saçıb onun qarlı zirvəsi.***
***Zaman-zaman səsimizə qarışıb***
***Yeddi-Oğuz dağlarının öz səsi.***

***Yeddi-Oğuz, ürəyində qorxu yox,***
***Bu şöhrətə, bu qüdrətə min əhsən!***
***Yenilməyən vüqarından güc alıb,***
***Biz də sənə oxşamışıq deyəsən!***

Göründüyü kimi, türk dünyaduyumunda və təfəkküründə məxsusi yer alan Dağ kultu bu şeirdə də özünü qabarıq göstərir. Dağ təkcə gözəllik rəmzi deyil, eyni zamanda vüqar, yenilməzlik, əzəmət simvoludur. Ümumtürk folklorunun «Manas», «Dədə Qorqud», «Koroğlu», «Maaday Qara» kimi dastanlarında Dağ bahadırı və onun döyüşçülərini mühafizə edən əlverişli, strateji məkan kimi kult səviyyəsinə qaldırılır. «Koroğlu» dastanında Çənlibel, «Manas» eposunda Azo-Bel eyni missiyanı yerinə yetirir. Alıkul Osmonovun bu qəbildən olan şeirləri sadəcə peyzaj görüntüsündə qalmır, ictimai-siyasi məzmun daşıyır. Şair deyəndə ki, «Yenilməyən vüqarından güc alıb. Biz də sənə oxşamışıq deyəsən» – bu təşbehin sətiraltı mənası oxucusunu düşünməyə vadar edir.

Şairin lirik qəhrəmanı bəzən də özünü təbiətlə vəhdətdə, üzvi bağlılıqda görür. «Ağ qayın» şeiri bu baxımdan olduqca maraqlıdır:

***Gözəl olur hər ayın –***
***Gözəllikdə var payın.***
***Uşaqlıqdan əkizsən***
***Mənimlə sən, ağ qayın.***

Şairin lirik «mən»i təbiətin qoynunda özünü xoşbəxt hiss edir. Təbii gözəllikdən – çayın şırıltısından, bulağın pıçıltısından, quşların nəğməsindən, meşənin nəfəsindən canlı musiqi kimi qidalanır:

***Bu mənim günümdür səadət dolu,***
***Bir dəli eşq ilə döyünür ürək.***
***Təbiət yaydıqca musiqisini,***
***Ömür çiçəkləyir yaz çəmənitək.***

*«Təbiət və musiqi»*

Məcaz və metaforalardan tez-tez istifadə edən Alıkul Osmonovun misal gətirdiyimiz bu bəndindəki «Ömür çiçəkləyir yaz çəmənitək» misrası da onu göstərir ki, istedadlı şairin şeir dili rəvan, axıcı olduğu qədər də obrazlıdır. Bu xüsusda professor N.Şəmsizadə doğru deyir ki, metafora, məcazilik obrazın təkcə poetik-forma əlaməti deyil, həm də məzmun göstəricisidir...

Əslində poeziya fikir və düşüncənin məcaz və metafora, təşbeh və mübaliğə qiyafəsində üzə çıxan bədii ədəbiyyat məhsulu, yaxud, ədəbi janrdır.

A.Osmonov təbiətə xitabən ictimai məzmun daşıyan şeirlərində sözügedən obrazlılığı saxlaya bilir. 1942-ci ildə – Böyük Vətən Müharibəsinin qanlı-qadalı günlərində yazdığı «Yaza nə olub» şeirində şair ana yurda gec gələn yazın «bəlkə faşist gülləsi ilə yaralandığını» vurğulayır. Lakin, şeirin son bəndində böyük inam və nikbinliklə «yaralı yazın» tezliklə doğma yurda gələcəyinə şübhə yeri qoymur.

***Baharın eşqiylə güləndə ürək,***
***Qar-buz əriyəndə, açanda çiçək,***
***Bilin ki, sağalıb yazın yarası,***
***Qələbə sorağı yetişib demək.***

A.Osmonov bəzən də milli məişət zəminində özünün vətəndaş mövqeyini ifadə edir. «Beşbarmaq», «Süfrə nəğməsi», «Bizə qonaq gəl» kimi şeirlərində qırğız xalqına məxsus qonaqpərvərlik və milli epeitetlər bütün koloriti ilə açıqlanır:

***Beşbarmaq çox dadlı, ləziz yeməkdir,***
***Bu yeməyə zaman-zaman var tamah.***
***Qırğızın bir adəti var əzəldən –***
***Qoyun soyub, beşbarmaq hazırlamaq.***

Lakin, şair «əziyyətin bəhrəsi» olan, «yeməklərin şahı» sayılan bu yeməyi dost-tanışla birgə yeməyi, tək yeməməyi məsləhət bilir:

***Əziyyətin bəhrəsidir beşbarmaq,***
***Yeməklərin bizdə şahı adlanır.***
***Dadı-tamı nə bilinər tək yesən,***
***Dost-tanışla birgə yesən, dadlanar.***
*«Beşbarmaq»*

Türk xalqlarının etnokulturoloji cizgilərindən biri də onun qonaqpərvərliyidir. Kökü çox qədimlərə dayanan bu adət indi də öz mövcudluğunu saxlamaqdadır. Orta Asiyada, Türkiyədə, Kıbrısda, bizim doğma Azərbaycanda, həmçinin, İran Azərbaycanında mən zaman-zaman bu qonaqpərvərliyin şahidi olmuşam. Manas yurdu Qırğızıstana müxtəlif səfərlərim zamanı bu xalqın qonağa ehtiramı məni kövrəldib. Yadıma dünyadan vaxtsız getmiş, əslən Kəlbəcərli – mənim yurddaşım, istedadlı şair-alim Ənvər Rzanın bir şeirindən bu misralar düşüb:

***…Yerini soruşdum mehmanxananın,***
***Hərə öz evini göstərdi mənə.***

Alıkulun bu mövzuda yazdığı şeirlərdə əslində mənsub olduğu xalqın milli kimliyi və vətəndaş məfkurəsi aydınlanır:

***Qonaq yoxsa, sevinməyin adı yox,***
***Qonaq yoxsa, yeməklərin dadı yox.***
***Qonaq yoxsa, demək, yoxdur kefim də,***
***Çox darıxır yol üstdəki evim də.***
***Biz qonağa yəhərli at verərik,***
***Əziz yoldaş, sən bizlərə qonaq gəl.***

Qonağa təkcə yemək-içmək yox, həm də hədiyyə vermək də bu adətin tərkib hissəsidir. Şairin yazdığı kimi, qonağa hətta «yəhərli at» bağışlamaq belə mümkündür, təki o, gəlib ev sahibini sevindirsin. Axı bu adət ululardan qalıb, onu yaşatmağa borcluyuq:

***Ulularrın qalıb bizə adəti,***
***Bu adəti dəyişmərik biz qəti.***

***Ev sahibi sərf edər ki, bir əmək –***
***Yolçu bilsin türk təamı nə demək,***
***Qəlbimiztək qapımız da açıqdır –***
***Əziz yoldaş, sən bizlərə qonaq gəl!***
*«Bizə qonaq gəl».*

Gələn qonağı ağırlayıb (qarşılayıb) ən hörmətli yerdə əyləşdirmək, yola salarkən hədiyyə, bəxşiş vermək bizim epik təfəkkürümüzdə – «Dədə Qorqud»da, «Manas»da, «Koroğlu»da da mövcuddur. Qonağa at, qılınc bağışlamaq, yoluna azuqə qoymaq bizim türklərin dəyişməz adəti, əbədi ənənəsi olub.

Alıkul poeziyasını xalqa sevdirən məhz elin bağrından qopan dünyaduyumunun, milli düşüncənin obrazlı şəkildə millətə qaytarılmasıdır. Lakin bu poeziya nə qədər xəlqi olsa da, bir o qədər də intellektual və moderndir. Şairin rus, Avropa və Şərq ədəbiyyatına yaxından bələd olması onun bədii təfəkkür və idrak parametrlərini müəyyənləşdirir.

Öz dövrünün şairlərindən (söhbət qırğız şairlərindən gedir – A.C.) Alıkulu fərqləndirən digər bir cəhət də onun kommunist ideologiyasından uzaq olması, sovetizmin tərənnümçüsünə çevrilməməsidir. Təbii ki, Alıkul 37 repressiyasını və 1941-1945 müharibəsini də görüb yaşamış bir qələm adamı idi. Müasirləri Leninə, Stalinə, Kommunist Partiyasına hərarətli şeirlər həsr etsə də o, belə mövzuları məddahlıq nümunəsi sayaraq özünün əbədiyaşar mövzularına sadiq qalmışdır. Yurdunu və xalqını tərənnüm etmişdir:

***Ömür satılsaydı bir gün bazarda***
***Gücüm çatan qədər alardım onu.***
***Paylayıb yurdumun adamlarına***
***Deyərdim yaşasın, gec gəlsin sonu.***
*«Adamlıq»*

Bəli, o, belə düşünüb, belə yazmışdır. Ona görə də tez bir zamanda həm xalq, həm də ədəbiyyatşünaslar, görkəmli filoloqlar tərəfindən yenilikçi, novator şair kimi yüksək dəyərləndirilmişdir. Həqiqətən də A.Osmonov milli qırğız poeziyasında modern düşüncə və axtarış meyilləri ilə yeni səhifə açmışdır.

Alıkul Osmonovu A.Puşkinlə müqayisə edən qırğız ədəbiyyatşünası Satılbaldı Mamitov belə yazır: «Hər iki şair son dərəcə xəlqidirlər. Onlar dəbdəbəli məzarlar sevmirlər, üstündə ot bitən, torpağından palıd göyərən və o ağacın yarpaqları titrəyib səs salan sadə kəndli qəbirlərini daha çox sevirlər». Əlbəttə, bu məqamda dahi Tolstoyun da sadə – üstündə ot göyərən, ətrafında meşə ağaclarının yarpaqları xışıldayan məzarını xatırlamaq yerinə düşərdi…



Qeyd edim ki, mən Bişkekə 2024-cü ildəki səfərim zamanı Alıkul Osmonovun məzarını ziyarət edərkən bu sadəliyin şahidi oldum.

***Adil CƏMİL***



*Faiq BALABƏYLİ*

## BU DƏNİZİN LİMANLARI YAZIQDIR

Körfəz boyu səpələnən yosunlar
Balıqların qumla dolan qulağı...
Əgər məni incitsəniz, gedərəm,
görünmərəm gözünüzə, uzağı.

Bir qağayı lələyini götürüb
Qum üstrünə bircə misra yazaram.
Külək dolmuş ağ yelkənə bürünüb
Bir adaya qayıtmağa hazıram.

Balıqların gözlərinə su dolmur,
Qulaqları duzlu sudan göynəyir.
Zəncirləri tarım duran gəmilər
Lövbərlərin ağrısına dözməyir.

Yamyaşıldı duzlu suyun köynəyi,
Qayaların üzü cızıq-cızıqdı.
Gəmiləri üzüb gedib, göynəyir
Bu dənizin limanları, yazıqdı...

Qağayı dəstəsi başımın üstə,
Dalğalar arxamca əl eləyir, əl.
Yelkəni küləklə dolan gəmilər,
Sahil nigarandı, geri qayıt, gəl.

Nə vaxtdı hicranla verib baş-başa
Vüsala çatmayan ürəkdi sahil.
Nə olsun qayalar tutub əl-ələ
Sərt olduğu qədər də ürkəkdi sahil.

## UZAQLARDA ÜZƏN GƏMİ

Uzaqlarda üzən gəmi
Bizim sahilə gəlmədi.
Açdı suda yelkənini,
Üzdü, sahilə gəlmədi.

Bir zamanlar yaxınmışıq,
Ləpə-ləpə axınmışıq,
Gördü ki, biz darıxmışıq,
Sezdi, sahilə gəlmədi.

Üzdü, gözdən oğrun düşdü,
Lövbər saldı, durğun düşdü.
Çox üzməkdən yorğun düşdü,
Bezdi, sahilə gəlmədi.

## LİMANLAR GÖZLƏYƏR, GƏMİLƏR GƏLMƏZ

Uzaq bir adadan uğultu səsi
dənizin üstüylə sürüşüb keçər.
isti bir xatirə səmt küləyitək
dünənlə, bu günlə görüşüb keçər.

Yosunlar qıvrılar, qız saçlarıtək
dağılar dənizin üzünə necə.
Qaya oyuğunda gündüzlər yatan
Yarasa sürüsü oyanar gecə.

Limanlar gözləyər,
Gəmilər gəlməz.
Fit səsi bürüməz körfəz boyunu.
O nadinc, o vecsiz, günahla dolu
Ləpələr nə edər,
Bitməz oyunu.

Sönər işıqları
Yorğun gəminin,
Ömrünü yaşayar dor ağacında.
Qağayı lələyi ilişib qalar
Günahsız məhkumtək dar ağacında.

Qoca dənizçinin lövbər sayağı
əlləri sükandan yapışıb durar.
Ləpələr gəminin gövdəsin döyər,
Döydükcə qocanın nəbizi vurar.

## DƏNİZ BİR GÖZƏL ÜZDÜ

Dəniz bir gözəl üzdü,
xaldı tənha adaları.
Dəniz xallı gözəl kimi
Hey aldadır adamları.

Nöqtə kimi ağ kağıza
qoyulubdur bəlkə ada.
Adalar çılpaqdı, ya da
göy paltardı yosunları.

Nə qayıq var, nə də qayğı,
sakinləri tək qağayı.
Bir gün axır tənhalığı
yox edəcək ovsunları...

## YAŞADIM

Yorğun ayağımla yorğun canımı
astaca daşıdım, yorğun daşıdım.
Çaş qoydum, aldada bildim hamını,
İllər xəstəsitək yorğun yaşadım.

Daşı daş üstünə qoydum guya ki,
Təntidim, səngidim, doydum guya ki.
Hər şeydən, hər kəsdən soydum guya ki,
Guya ki, don vurdu, solğun yaşadım.

Tərs dedi, tərs tutdu, tərsə gətirdi,
Ürək nə istədi, tərsa gətirdi.
Xəlvəti bir ömrü başa gətirdim,
Aşikar ömrümü oğrun yaşadım.

## QAYITMAQ OLMUR

Daha dağlarda da dağlıq qalmayıb,
Bulaqlar daşları yuyub - aparıb.
Küləklər başının üstündən əsib,
Şimşəklər qorxuzub, zəhrini yarıb.

Daha dağların da üzü dönükdü,
geniş sinəsinə sığınmaq olmur.
Tüstüdən boğulub, odu sönükdü,
hisli ocağında isinmək olmur.

Daha dağların da qəlbində dağ var,
Söz deyib qəlbini ovutmaq olmur.
Yuxusu heç bir vaxt çin olmur nəsə,
İncik ayrılıbdır, qayıtmaq olmur.

## SOYUQ İDİ BAXIŞLARIN...

Soyuq idi baxışların, buz kimi,
Dalayırdı ürəyimi, bilmədin.
Çox istədim mən tərəfə gələsən,
Ha çağırdım, əl elədim, dönmədin.

Göy buludun göyərmişdi dodağı,
Göz yaşını hey səpirdi aşağı.
İstisində qızmadığım ocağın
Tüstüsündə kor olurdum, görmədin.

Boylanırdım səmt küləyi tərəfə,
Baxışlarım tuş gəlirdi kələfə.
Duman çəkdi üstümə ağ mələfə,
Saçlarını üç tel edib hörmədin.

Belə idi bu dağların havası;
Üşüyürdü torağayın yuvası.
Bu yerlərin ən pisi, ən yavası
yaxşıların yaxasında, silmədin.

## ALMA DÜŞMƏDİ

Mən də çox gözəldim, uşaqdım o vaxt
Amma ki, göylərdən alma düşmədi.

Ulduzlar sönərək töküldü yerə,
amma ki göylərdən alma düşmədi.

Yeddi rəng olurdu göyün qurşağı,
Ulduzlar – göylərin yanan çırağı.
Nağıllar çox şeydən verdi sorağı,
amma ki göylərdən alma düşmədi.

İldırım çaxardı, vurardı naxış,
Göyə zillənərdi neçə cüt baxış.
Göylərdən nur kimi ələndi yağış,
amma ki göylərdən alma düşmədi.

Böyüdüm noğulla, nağılla onda,
Öyüdlə, duyayla, ağılla onda.
Göydən başıma od yağdı onda,
amma ki, göylərdən alma düşmədi.

## QIŞ LÖVHƏSİ

Dağların o üzündən
boylanır oğrun-oğrun,
bir az xoşbəxt görünür,
bir az da susqun, yorğun,
Günəş gözünü sıxır.

Qırov olub sürünür
Ayaq altda soyuqlar.
Kolların arasından
Baxıb qaratoyuqlar
Yuvalarından çıxır.

Ağacların budağı
heydən düşüb, deyəsən.
Gücü çatmır yarpağı
Qucağında saxlasın.
Balta vuranı yoxdur,
Allah üzünə baxır....

## BU MEŞƏDƏ...

Bu meşədə ağacların budaqları
Saxlamayır xəzan olan yarpaqları.
Ağrım-acım ürəyimə toxum səpir,
Dərd boy atır, dərd cücərir – yaşıl, sarı.

Tutma mənim əllərimi, qoy əlinə
toxunmasın əllərimin günahları.
Gün göstərər, işıq saçar, aşkar edər,
gün gizləməz işlədiyim günahları.

O qədərdir işim gücüm, barmaqlarım
daraq olub, vaxt eləyib baş qaşımaz.
Ürəyimdən o qədər ki, daş asılıb
sel çaylarla heç bu qədər daş, daşımaz.

Gözlərini nə qıyırsan,
Nə baxırsan matdım-matdım
Tanış gəlməz sənə mənim içim-çölüm.
Mənə tərəf dərd-qəm gəlir addım-addım,
Yox oluram parça-parça,
Azalıram bölüm-bölüm.

Bu meşədən gül dərməyə, su içməyə
Yaz gələcəm – qış quş olub uçan zaman.
Yaşıl-yaşıl yarpaqlara, tər ləçəyə
Şeh damlası kəpənəktək qonan zaman.

## BARI DÜŞÜNDÜNMÜ?

Nə qədər boylanım sən gedən yola qədər,
gələrsən, deyə düşünüm.
Nə vaxt son qoyarsan bu qeylü-qala,
Ay məndən inciyim, məndən küskünüm,
Barı düşündünmü mənim halımı.

Barı düşündünmü mənim halımı,
Dedinmi nə çəkir çəkingən oğlan.
Kimsə bağışlamaz məntək zalımı,
Gecətək qaralan, buludtək dolan,
sim-sım sızıldayan, gömgöy göynəyən
yetim oğlanı.

Sım-sım sızıldayan, gömgöy göynəyən,
dodağı çatlayan, üzü göynəyən,
qaşı düyunlənən, dili dolaşan,
ayağı burxulan, qəlbi döyünən,
bir udum sevincə boynumu qısdı,
Barı düşündünmü mənim halımı.

Bir udum sevincə boynunu qısan,
yaralı qəlbini ovcuna sıxan,
bütün ağrılara dözüb də asan,
bütün günahları özündə görən,
bütün günahlara ürək qızdıran
Asana çevirən çətin olanı...
Barı, düşündünmü həmin oğlanı...

## VƏ SUSDU

Ağına baxmadı, bozuna baxdı,
yalın ayağının tozuna baxdı,
tutqun sifətimə, gözümə baxdı...
Baxdı və susdu.

Alnı qırış oldu, sıxıldı qaşı,
Hər biri birtəhər saxladı başın,
sifətə iz saldı gözünün yaşı,
axdı və susdu.

Yelləndi çiynində hörüyü, saçı,
Dəyirdi elə bil belinə qamçı.
Göz yaşı kirpikdə elədi muncuq,
Taxdı və susdu.



# QƏNİMƏT ADAM

Yol gedirəm, ürəyimdə Mustafa Çəmənliylə danışıram, onun dilinin şakəri olan bəzi sösləri təkrar edirəm, aramızdakı söhbətlərdən biri yadıma düşür, fikir məni yaddaşımın dolanbaclarında fırladır, labirintində azdırır, bu dəm telefonum ərköyün uşaq kimi çığırır, deyir məni götür! Baxıram, zəng eləyən kim olsa yaxşıdı? Bizim Mustafa Çəmənli! Əminəm ki, burda mistik bağ var. Telepatik duyum dövrəyə girib, eyni dalğaya köklənmişik. Yadıma Səməd Vurğunun misraları düşür:

***Gözüm gözünüzdən uzaq olsa da,***
***Könüldən könülə yollar görünür.***

Bu da könül yolunun sübutu!



Salamdan sonra nə desə yaxşıdı? "Otaqda oturmuşdum. Bilirsən də, mən tək otururam. Fikirləşməyə vaxtım olur. Beynimdən keçdin. Dedim, zəng eləməsəm, danışmasam, nə biləcək ki, o, mənim beynimdən keçib..." Söhbətimiz elə bu minvalla davam elədi. Şirin-şirin danışırdıq, birdən hiss elədi ki, yol gedirəm, dedi: "Qoy bunu da deyim, yol gedirsən, sənə mane olmuyum..." Bir baməzə xatirəsini bölüşdü mənimlə, ikimiz də güldük. Sağollaşmadan əvvəl dedi ki, sən mənim cavan həmkarımsan də, gərək səni mən axtaram. Bu sözdəki kinayəni də, gileyi də, ərki də, sevgini də, qayğını da hiss eləyirəm. O, məni yenə qabaqlamışdı.

Fürsət tapıb deyirəm: "Mustafa müəllim, siz də mənim ürəyimdən keçirdiz..." Bəlkə də, bu etirafımı nəzakət xətrinə verilmiş cavab kimi qəbul elədi. Mən inandırmağa çalışmadım, bilirəm ki, günlərdi beynimdə Mustafa Çəmənli obrazı yazıya çevrilmə anını gözləyir. Alışmağa bir qığılcım lazımdı. Bulud dolub, şimşəyini gözləyir yağsın. Sən demə, mənim elə bu zəngə ehtiyacım varmış. Buna görə deyirəm: könül körpüsündə mistik güc var.

Məni heyran eləyən Mustafa müəllimin həssaslığıdı. Onu tanıyanlar bilir ki, Mustafa Çəmənli son dərəcə həssas adamdır. Məncə, bu həssaslıq onun fitri istedadıdır. Ağacdan düşən yarpağa da, görüşəndə əlini sıxdığı adamın barmaqlarına da, qarşısındakı həmsöhbətinin sözünə də, vaxtına da son dərəcə hassaslıqla yanaşır. Adətən, söhbətinə "Yox" deyib başlayar. Məsələn: "Yox, birdən elə bilərsən mən özümü tərifləmək üçün bunu deyirəm...". "Yox, adamın gərək abrı-həyası olsun də...", "Yox,

sən Allah səhv başa düşülməsin..." Bu inkar “yox”larının hamısı Mustafa Çəmənlinin xarakterini, əxlaqını təsdiqləyir. Amma bu duyğulu, həssas adamın nitqində bir də daha çox işlətdiyi "üzr istəyirəm" sözü yer alıb. Ünsiyyət qurduğu adamın yaşına-başına baxmaz, sözünün ortasında, axırında "üzr istəyirəm" möhrünü vurar. "Üzr istəyirəm, mən axı həm də muğamları yaxşı bilirəm. Yox, özümü sənə tərifləmək fikrim yoxdu...", “Vaxtını alıram, üzr istəyirəm, qoy bunu da deyim... " Mustafa müəllimə baxanda əmin oluram ki, hər bir insanın Mustafa Çəmənli qədər əxlaqlı, abırlı, həssas olmaq qədər imkanı var. Yəni mənim aləmimdə Mustafa Çəmənli bu üstün insani keyfiyyətlərin, dərininə getsən, dibidi, yoxuşuna qalxsan, zirvəsi. Oyanası-buyanası yoxdur. Məncə, cərəyanın şiddəti (A) Andre Mari Amperin, “Arrov paradoksu” Kennet Arrovun şərəfinə adlandırıldığı kimi, insanın həssaslıq duyğusu proyeksiyasını da (M) Mustafa Çəmənlinin adıyla bağlamaq ədalətli qərar olardı.

Hələ bu günə qədər Mustafa Çəmənlinin kimisə söydüyünü, azarladığını, kimisə adına, şöhrətinə, vəzifəsinə görə qısqandığını eşitməmişəm. Bu mötəbərin özünə məxsus mövzuları var: musiqi, muğamlar. “Yox, sən nə danışırsan, Xan əmidə belə şey ola bilməzdi...” Nümunəvi misallar çəkməyi, xatirəsini danışdığı adamın şəxsiyyətini sevdirmək məqsədilə onun haqqında danışır.

“Yazıçı” nəşriyyatında redaktor, böyük redaktor, klassik ədəbiyyat və folklor redaksiyasının müdiri işlədiyi illərə qayıtmağı sevir. Təbii ki, keçdiyi bu yolda hər dünəni bir ömürlük xatirəyə çevrilib. Onu da deyim ki, Mustafa müəllim hafizəsindən, yaddaş arxivindən şikayətçi deyil. “Üzr istəyirəm, mən, “Gənclik” nəşriyyatında da baş redaktor işləmişəm axı. Bu adamları şəxsən görmüşəm...” Bu adamın sözü-söhbəti tükənər? Mövzusu bitər? Adam papağını günə yandırmayıb. Ona görə də zəngin daxili dünyası var.

Hələ bir dəfə eşitməmişəm ki, Mustafa müəllim deyə: “Filankəsə ad verdilər, döşünə nişan taxdılar, məni görən yoxdu”. O deyir: “Yaşayırıqsa, bacardığımız kimi xidmət eləməliyik. Yazılan qalır. Bir gün yazdığın sabah kiməsə lazım olacaq.”

Bu fikirlə, bu məqsədlə təxminən 62-63 kitaba gözünün nurunu, ürəyinin odunu verib. Bir mənbəni dəqiqləşdirmək üçün onun izinə düşüb, axtarıb tapıb, dəqiqləşdirib, sonra mövzudakı yerinə qoyur. Yeri gəlmişkən bunu da deyim ki, Mustafa müəllimə zəng eləyib, ondan axtardığını soruşsan, onu tapıb sənə verməyənə qədər rahat olmaz. Bir mənbə, bir ünvan, nə bilim, bir hadisəni dəqiqləşdirmək istəyərsən, üz tutarsan Mustafa müəllimə, “bilmirəm”, “məndə yoxdur” deyib keçməz, “bu dəqiqə baxaram” deyər. Vaxtını, səbrini araşdırmağa sərf eləyər, mümkündürsə onu mütləq sənə çatdırar.

Düzünü deyim ki, Mustafa müəllimi nə vaxtdan, necə tanıdığımı, ilk ünsiyyətimizin necə başladığını xatırlamıram. Mənə elə gəlir ki, gözümü açıb Mustafa müəllimi görmüşəm. Adam əmisini, dayısını necə görürsə, elə. Yox, özümü tərifləmirəm, üzr istəyirəm, bunu ona görə deyirəm ki, yəni mən bu kişini içdən tanıyıram. Bilirəm ki, abırlı olduğundan bir çox uğur köhləni onun yanından yorğa keçib, birinin də yüyənindən tutub yəhərinə qalxmayıb.

Bir dəfə muğama marağının necə yarandığını soruşdum, lap başdan danışdı. “Mənim iki dünyam” adlı kitabında eyni adlı bir xatirəsi var, dediklərini orda belə yazıb: “Ağlım söz kəsəndə babam Teymur oğlu Məhəmməd Ağdam bazarından mənim üçün purijinli patefon, bir də çoxlu qrammafon valları almışdı. Bu o vaxtlar idi ki, hər evdə radio olmazdı. Bəlkə buna görə də patefonun qapağını qaldırıb valı diskin üzərinə qoyub, onu səsləndirərkən elə bilirdim ki, böyük bir dünyam var: musiqili, nəğməli bir dünyam!”

Axırda da dedi ki, mənim çox yaxşı səsim vardı, xanəndə olmaq istəyirdim, amma çıxıb adamların qarşısında oxumağa utandım... Hərdən heç kim olmayanda özüm üçün oxuyuram.

Mustafa müəllim pilləkən qalxan qadının arxasınca heç vaxt ayağını pilləyə qoymaz, liftə qadın girəndə, dayanıb onun mənzil başına çatmasını gözləyər. Qarşılaşanda, görüşəndə qadına birinci əl uzatmaz. Bunu da qarşısındakı adama hiss elətdirməz. Yəni, bu qədər həssas davranar.

Açar qəzeti, ya jurnalı, varaqlayar görər ki, hansısa unudulmuş mərhum haqqında vəfalı, vicdanlı bir müəllif isti bir xatırtlama yazıb, müəllifi tanıdı-tanımadı, telefon nömrəsini tapacaq, mərhumun doğması kimi ona minnətdarlıq edəcək. Hələ şəxsən tanışlığı olubsa, bir xatirə də danışıb müəllifin əhvalını oyadacaq, ovqatına şəkər qatacaq. Bu məqamda onu da deyim ki, Mustafa müəllim danışmağı çox sevir. Onunla istənilən mövzunu açmaq olar. Adam canlı kitabxanadı. Eşidib bildiklərindən, görüb gəldiklərinə qədər, xatirə cildləri yaddaşının rəflərində sıralanıb. Heç vaxt boş danışmaz, təbii ki, danışanda "üzr istəyirəm, vaxtını aldım" deyər, amma sən başa düşürsən ki, bu, vaxt almaq deyil, qazanmaqdır. Çünki, bu söhbətlərdən qidalanırsan, öyrənirsən, üfüqlərin genişlənir. Ümumiyyətlə, Mustafa müəllim çalışır ki, bildiklərini kimlərəsə ötürsün, ya bunu kitabların vərəqlərində yayır, ya da simsarının yaddaşına qoyur. Bunu da həssaslıqla eləyir.

Mustafa Çəmənli sözün həqiqi, geniş mənasında yazıçıdır. O, bir abzası düzəltmək üçün üfürə-üfürə seçdiyi sözlərdən dəstə bağlayır. Onu səhifəyə elə yerləşdirir ki, nə vərəq inciyir, nə abzas. Mustafa müəllim, əsasən, tarixi mövzuları işləyir, xüsusən də xanlıq, bəylik dövrlərini... Qaradağ xanları... "Xallı gürzə", "Ölüm mələyi" romanları dəfələrlə çap olunub. Əsərlərinin dilinin koloriti, saflığı, musiqisi oxucunu mövzuya bağlayır. Necə? Həssaslıqla. Onun sətirləri həyalıdır, sözləri ismətlidir, mövzusu abırlıdır. Qəhrəmanları namusludur. Mətni oxuyanda hiss eləyirsən ki, müəllif oxucusunu düşünüb. Özündən heç bir tarixi hadisə uydurub azdırmır, hansısa tarixi hadisəni sənə xoş gəlsin deyə sürtüb parıldatmır, malalayıb gizlətmir, təhrif eləmir. Araşdırıb biçənəkdəki çiçəklərin içindən lazım olan gülü dərib, sənə uzadır. Bu, həssaslıq deyilsə, bəs nədir?

"Ürəyimdən kimlər keçdi" adlı xatirələr kitabı var, orda elə adamların elə xatirələrini yada salıb ki, oxuyanda o kişilərə rəğbətin artır. Sənə şəxsiyyətləri sevdirir. "Söz həmişə diridir" adlı tərtib etdiyi kitabda sənət adamlarının xatirələri, sözləri toplanıb. Niyə? Unudulmasınlar. Dəyərləri, dəyərliləri qorumaq nə gözəl xidmətdir! Məşhur xanəndələrin sənət dünyalarından yazdığı kitablar muğam sənətinin sirlərini, incəliklərini qoruyub saxlayır. "Leyli və Məcnun" – 100 il səhnədə" sənədli bədii ensiklopediyası fundamental bir işdir. Bir əsrlik səhnə tarixini yığmaq kollektiv əməyin işidir, amma Mustafa Çəmənli bunu təkbaşına sənətə, sənətkara olan sevgisiylə eləyib.

Hər dəqiqəsi bir kitab olan Mustafa Çəmənlinin bütün kitablarını burda sadalamağa, dəyərlərini ayrı-ayrı təqdim etməyə istedadım çatmaz, amma deməyim budur ki, Mustafa müəllim fitilini yandırdığı ömrünün ağ işığında oturub, əlinə aldığı qələmlə bu məmləkətin mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına faydalı olan əsərlər yazıb. Bu kitabların hər biri ayrı-ayrılıqda mənbədir.

Bu qənaətimi Mustafa müəllimə deyəndə, deyir: "Elə deyib məni utandırma". Bir kitabxanalıq kitaba müəllif olan, bir elmi-tədqiqat universitetinin işini təkbaşına görən adama gördüyü işin hələ gözlə görünən dəyərini deyirsən, ahıl yaşında utanır, təriflənmək istəmir, sözdən yayınır. Bu adama necə heyran olmayasan? Şəxsiyyətiylə yaradıcılığını, yaradıcılığıyla şəxsiyyətini tamamlayan Mustafa Çəmənli bizim üçün qənimət adamdır.

***Vüsal NURU***



*Xuraman HÜSEYN*

## KİLİDSİZ QAPI KİMİ

Heç kimin görmədiyi
gözdən uzaq,
könüldən iraq
bir küncünə sürgün
olunmaqdır həyatın
unudulmaq.
Xarabaya dönər,
bayquşa məskən olar,
xatırlanmaz
nankor adama edilən
yaxşılıq kimi.

Bir çiçək solar, quruyar
çiçəklər arasında.
Bir sülh göyərçininin
qanadı qırılar,
daşıya bilməz sülh sevgisini.
Və unudular beləcə.
Gözləmədiyin
zamanların birində
sən də unudularsan.

Xatirələrin tozunu silərsən
ömründən

göz yaşlarını sildiyin dəsmalla.
Yağış yağanda
baxarsan pəncərədən.
Bilirsən ki, sənin kimi
pəncərədən yağışa baxıb
xatırlayanın yoxdur.
Bilirsən ki, yağış da
çoxdan unudub səni.

Külək əsdikcə
unudulmuş xatirələrini
bir az da toz basar.
Atılar tarixin arxivinə
o bəxtsiz xatirələr.
Üşüdər səni
soyuq insanlar.
Hər külək əsəndə
kilidsiz qapı kimi
tir-tir əsər dodaqların.
Bir az da çox
unudularsan...

## TƏSƏLLİ

“Gedənin arxasınca danışmazlar”, – deyiblər,
Danışıram özümlə. Soruşuram: “Bilmədin,
niyə tərk etdi səni? İllərin getdi hədər”.
Demə: “Elə ağladın, gülənlə də gülmədin.”

Ağladım e, nə olsun, qədrimi kim bildi ki?
Gedən qayıtmaz oldu, gələn yolunu azdı.
Elə bildim gələcək, hara gəlir, gəldi ki?
Qismətimə fələklər belə bir yazı yazdı.

İnan, elə yoruldum, getsin yolun soluyla,
Bəlkə səndən ayrılıb arzuya, kama çatdı.
Daha sil göz yaşını, qoy getsin öz yoluyla,
Yenə üzmə qəlbimi, bir də gördün, qayıtdı.

## ÜMİDİM

Fidan ümidim, tumurcuq ümidim
solur həyata keçməyən
arzularımın kölgəsində.
Günəşin qarşısını buludlar kəsir,

çarəsiz qalır ümidim,
yenə xəyallarıma dönür.
Sənə çox inanıram,
səndən əlimi üzmürəm,
ümidim...
Yenə yaz gələr, yay gələr,
Günəşin qarşısını kəsməz buludlar,
fidan ümidim, tumurcuq ümidim.

## DÜNYADAN BAŞQA

İqlim dəyişir,
günəş əsirgəmir səxavətini
qarlı, şaxtalı qışdan,
göstərir adamlara
onlardan güclü olduğunu.
Soyuq evdə yalnızlığına sığınan,
xəyal qatarı ilə
uzaq ümid aləminə gedənlər var.

Kor taleyin eynəyinin şüşəsindən
həyatın tozunu silib
xatirə dəftərini oxuyurlar,
yaşayırlar istədiklərinə uzaqdan
baxa-baxa,
itirdikləri zamandan ötrü
darıxa-darıxa.

Ömür tilovu ilə
yayda qışı tutub çəkirlər,
qışda da yayı.
Günləri sayırlar
kredit borcları kimi.
Yay da gələcək, günəş doğacaq,
işıqpulu, qazpulu dərdini
qışdakı kimi çəkməyəcəklər.

Sonra yenə qış gələcək
və üzlərində bir qırış da artacaq,
qara tellərinin biri də ağaracaq,
düşmək üçün bir yorğun dişləri də
ağrıyacaq, tərk etmək istəyəcək
yorğun damaqlarını
sevdikləri
onları tərk edən kimi.

İqlim də sevgilər kimi
dəyişir.
Yenilik istəyəndə,
darıxmaqdan yorulanda
adamlar da dəyişir.
Nə varsa,
dəyişsin, eybi yox,
dünyadan başqa.

## GECƏ

Günəş batır, yenə ay, ulduzlar qonaq gəlir,
Yenə ana təbiət qara dona bürünür.
Gecənin lal sükutu asimana yüksəlir,
Uzaqlarda buludlar tüstü kimi sürünür.

Ay yuxudan oyanır, gülümsəyir ulduzlar,
Gecə zalım dünyanın sirrini yaxşı bilir.
Dərdini bölüşməyə dost tapmayır yalnızlar,
Pəncərələr onların sirdaşına çevrilir.

Gecə düşəndə yenə uzaqlardan boylanır
Keçmişin xatirəsi, gələcəyin arzusu.
Yalqızların ümidi yalnız onda oyanır,
Pəncərədə oxunur bəzən alın yazısı.

## HƏYAT

Qaranquşlar baharda
Vətənə qanad açır.
Günlər bezirmi bizdən?
Bezmirsə, niyə qaçır?

Göylər ana torpağın
Keşiyində dayanır.
Gecə yumulan günəş
Səhər yenə oyanır.

Həyat belə həyatdır,
Çıxmaq olmaz əmrdən.
Elə bu dəqiqə də
Keçib getdi ömürdən.

## HƏSRƏT YAĞIŞI

Sevmək belə asanmı? Necə ayrıldın məndən?
Qaldı göz yaddaşımda sənin o lal baxışın.
Sevgini soruşummu indi çöldən, çəməndən,
Yanan qəlbə su səpir yenə həsrət yağışı.

Tənhalığın önündə boynum yenə büküldü,
Əzaba, iztiraba yenə də möhtac oldum.
Sevinən ürəyimdən sevinc göyə çəkildi,
Susuz qalan çiçəktək artıq saraldım, soldum.

Həsrət yağışı döyür pəncərəmi bu axşam,
Ayrılıq əzabını saf sevgiyə bağışla.
Selə dönür göz yaşım, yenə sənsiz qalmışam,
Mənim də gözlərimin payı var bu yağışda.

## ÜMİD YOLU

Nur ələnir göydən,
İşıq saçır günəş.
Gecə düşəndə də
ay, ulduzlar işıq saçacaq,
yol gedirəm yorulmadan.
Dərd çəkməyin
nə olduğunu bilməyən
arsız namərdlər
bu yola sərhəd çəkər,
quyu qazar,
hərəkəti, hərəkətsizliyi ilə
maneəyə çevrilərlər.
Su əvəzinə bir ovuc səbr lazımdı
gedənin arxasınca atmağa,
arzusuna çatıb
şükr edə-edə geri dönsün.
Bu yolun sonunda
sönməyən işıq görünəcək,
nuru ilə zülmət həyatı
aydınlığa qərq edən işıq.
Qoynunda yeriməkdən
yorulmadığım
ümid yoludur
bu yol.

## AĞ SƏHİFƏ

Tənhayam,
görmürəm
həyat kitabımın yeni səhifəsini.
Fikirlər yorub məni,
dəyməyin həyatımın
küskün könlünə,
eşidilməyən səsinə,
qəlb kimi sınıq
pəncərəsinə.
Yaşamaq çətindir,
çalınır uzaqlarda
həyatımın saundtreki.
Dünya belə olmayaydı kaş ki.
Son evi qara torpaq olan dünyanın
ömür kitabında
ağ səhifə açdım
qovsun göz yaşlarımla dolan buludları,
günəşi gətirsin
könlüm kimi yorğun göylərimə.
Dağılsın qara buludlar,
zülmətdən çıxsın ömür kainatım,
ağ günlər görsün həyatım.

## ÖZÜN OL

Bilirəm, xatirə yurdundan
bu günə boylanmaq
yormur səni.
Ordan bura nə qədər yol gəldi
xəyal qatarı?
Arzuların keçdimi
həyatın qarmağından?
Neçə dəfə yıxıldın ümid pilləkənindən?
Çırp üstünün yorğun tozunu,
qalx ayağa, unut
unuda bilmədiklərini.
Xatirələr qul kimi işlədir yaddaşı,
haqqını da ödəmir.
Qədrini bil, özünə de ki,
Özün ol,
özüm!



*Oktay ŞAMİL*

## ALLAHA MÜRACİƏT

Mənim ağrılarımdan
yuxarıda olan Allah,
şükr olsun birliyinə!
Mənim acılarımdan
kənarda olan Allah,
şükr olsun dirliyinə!
Mənim arzularımda
sirr olub qalan Allah,
şükr olsun sirliyinə!...

Adımın üstündə sənin adındır;
Başımın üstündə
söz qanadındır...
Dilimin ucunda
"bismillah"ım,
İlahi,
Bağışla, varsa günahım...
Mən səndən sidq uman
sadə Oktayam;
Adəmdən
bu günə
gələn bir sayam!..
Fəqət,
nəfəsindir nəfəsimdəki;
Ulu varlığındır
qəfəsimdəki!..

Hər gəlib qəlbimə dolanda
vallah,
Ruhum qanad açıb çağırır
Allah!!!
Bir işıq selisən, say-say dəyişən,
Bircə telin yoxdu
dəyişik düşən...
İşıq – yolgöstərən, qaranlıq – qənim,
Sən qənim olsaydın olmazdım yəqin!
Şükr olsun o evim,
o üç uşağım,
İşıqdır
hər səhər gələn qonağım...
Taleyim nə desə sən deyənlərdir,
Taleyindən küsən
qəm yeyənlərdir.
Harda söz arasam
aramım sənsən!
Gizlidə saxlanan məramım
sənsən!..
Sənsən ağlımdakı, kamalımdakı!
Sənsən xilqətimdə, xəyalımdakı!..
Qüdrət səninkidir, cürət
səninki,
Heçdən nazil olan sürət
səninki!..
Zamanı haqlayıb döndərən də sən,
Bəlanı saxlayan,
göndərən də sən!..
Dünya dinşək durur sənin səsinə,
Heç kəs gedə bilməz
onun bəhsinə!..
Durmuşuq
Zamanla Məkan üstündə,
Hərə bir qonaqdı
tikan üstündə...
Bir yuxu pərdədir gördüklərimiz,
Axı biz nəçiyik,
nəkarəyik biz?!
Dünya fırlandırır, fırlanır hamı,
Hər bəşər
əlində bir əcəl camı!..
Mən də növbə tutub durmuşam deyə,
Hər gün üz tuturam müqəddəs göyə...

Göylər həm yendirən, həm döndərəndir,
Göydən gələnlər də
sən göndərəndir...
Yerdən haqq-hesabı nizamlananlar
Göydən göz qoyanı çətin ki, anlar...
Onunçun "ağ"-"qara" dəyişik düşür,
Yaxşılıq yol gedə,
gedib ilişir...
Onunçün yamanlar olur "başbilən",
Yalana çevrilir torpaq,
daş bilən!..
Torpaq daşa dönsün,
varı birində,
Əllisi qəm yonur
daş səbrində...
Naqislik önündə mərdlik sualdır,
Ya Rəbbi,
görəsən bu hal nə haldır?
"Cənnət"dən gələnlər "cəhənnəm" çəkir,
"Cəhənnəm" cinləri "cənnət"dən vəkil...
Şükr,
söz yaranıb varidatımız,
Məna sirləridir
yeddi qatımız...
Şükr,
biz seçənik qaranı ağdan,
Yaxşını yamandan,
haqqı nahaqdan...
Şükür,
hər məqamda bəşəriyik biz!
Bəşəri olduqca yaşarıyıq biz...
Şükr olsun, ya Rəbbi,
o birliyinə!..
Şükr olsun, ya Rəbbi,
o dirliyinə!..
Şükr olsun, ya Rəbbi,
o sirliyinə!..
Amin!...

## KÜLƏKLƏR

Evimizin başı üstən
vıyıl-vıyıl vıyıldayan küləklər
Xəlvət yerdə avaradı,

veyil-veyil kağızları gəzdirir...
Dənizlərdə dalğa-dalğa
guruldayan küləklər
Dalanlarda yer süpürüb
adamları bezdirir...
Bir kəsin ki, yasağı yox;
Atası yox, anası yox;
Beləsindən inciməyin,
küsməyin də mənası yox...
Nə dost kimi
dostluğu var, biləsən;
Nə düşməndi
öhdəsindən gələsən;
Yelbeyindi,
nə deyəsən yelə sən?!

## GECƏ İTLƏRİ

Qoşulub bir-birinə
Səhərə kimi hürüşən itlər;
Yuxusunu buraxıb
qaranlığa, gecəyə
girişən itlər;
Yuxunun bu şirin vaxtında
Mən də
yata bilmirəm baxtımdan...
Nə görmüsünüz eləcə
qaranlığa hürürsünüz?!
Yoxsa
bu dünyadakı
haramlığa hürürsünüz?
Hürür, hürür, hürkürsünüz,
Hürkürsünüz, hürürsünüz!..
Bəlkə bu da
bir oyundu –
Siz də özgə tülküsünüz –
Hürüşə-hürüşə yarışan itlər,
Özləri özüylə danışan itlər?!
Qatar keçir...
Sus, kiri, səs salma!
Səs salma! Səs salma! Səs salma!
Gör yoldan neçənci qabar keçir,
Səhv salma, səhv salma, səhv salma!
Siz həyətdə, bağda,

Mən dörd divar arasında,
otaqda!
Kef çəkirsiniz, ay zalım,
“sərbəst”-“sərbəst” hürürsünüz.
Bu dünyada
bəlkə elə
özünüzü bilirsiniz.
Sərbəstəm mən də bu gecə;
Oturub
sərbəst şeir yazıram.
Heyif, dilinizi bilmirəm,
Yoxsa
cərgənizə qoşulmağa hazıram!..

# DİNİ ETÜDLƏR

## 1. XRİSTİANLIQ

Xristianlığın fonu qaradı!
Özü də zil qaradı!
“Cənnət”-“cəhənnəm”ləri
qaranlıq olduğuna
bilinmir hara-haradı...
İşıqlı ayinləri
sistemlə axır amma,
Keçir insanın
qəlbindən, fikirlərindən.
Qaranlıqda yaşayan bir işıqdı o,
baxanda dərindən...

## 2. MÜSƏLMANLIQ

Müsəlmanlıq –
fonu işıq,
İşığı
kölgə misallı bir qaranlıq!
Müsəlmanlıq həm də
çətiriylə
dünyanı qucaqlayıb bürüyən
qaraman Tuba ağacıdı...
Üstü meyvəli,
altı kölgəli...
Amma, Məhəmməd ümmətinin

əli çatmır,
acdı...
Şırıl-şırıldı
Cənnətdəki zümzüməli “Zəm-zəm” suyu.
Bəh-bəh,
evində ölməyəsən, a kasıb,
İç bu sudan ac qarına,
bihuş ol, uyu...

## YAXŞI Kİ...

Yaxşı ki, insanlar doğulur, ölür,
Yaxşı ki, əbədi verilmir ömür...

Qarğalara yaraşır uzun həyat,
qarğalara yaraşır!
Heç olmasa ona görə ki,
öz “qarğa” dilində danışır...
Nə bir kəsi incidir,
nə nəslini dəyişib
başqalarına qarışır!...

Əcəb olub üç yüz ili
qara qarğa yaşayır!
Qarğa qarğanı didmir –
Nə Əhmədə oxşayır,
nə Məmmədə oxşayır,
nə Nəhmətə oxşayır...

Lap belə götürəndə də
qarğaya verilməliydi
üç yüz illik ömür,
darğaya yox!
Bir də görürsən bir nadan
budur ey
“bəh-bəhlə” çəkilir başa,
Di gəl indi üç yüz il yaşa?!

Yaxşı ki, palıda düşüb min il,
paxıla düşməyib;
yoxsa bezərdik!
Heç “əlli”ni tablamırıq,
min ili necə dözərdik?!

Yaxşı ki, "yek kəlmə"dir,
"dəmirdir qanunu" təbiətin.
Özü də
nə insan əli yetir ora,
nə senat-parlament-dövlətin!

Yaxşı ki, ZƏHMƏTLƏ qazanılır İNSAN ömrü,
ancaq ZƏHMƏTLƏ!
Qazanılmır vəzifəylə,
zənglə,
pulla,
rüşvətlə!...
Yaxşı ki, insanlar doğulur, ölür,
Yaxşı ki, əbədi verilmir ömür!

## MƏNİM O ADAMNAN NƏ İŞİM QALIB?!..

"Danışan" adamsa, "deyən" adamsa,
Sonra da barışıb "yeyən" adamsa,
Öyünən, döşünə döyən adamsa,
Mənim o adamnan nə işim qalıb?!

Papağı başında altı minlikdi,
Yerişi, duruşu, səsi dim-dikdi.
Özü quşbeyindi, ağlı çimdikdi,
Mənim o adamnan nə işim qalıb?!

Nə bir "söz" qanandı, nə bir "göz" qanan,
Qarğadı,
gördüyü şeyi qoz qanan...
Tulatək iy bilən, yalı tez qanan
Mənim o adamnan nə işim qalıb?!

"Görən" adamsa o, "girən" adamsa,
"Ver" desən, hər şeyin verən adamsa,
Yallanan, şullanan, hürən adamsa
Mənim o adamnan nə işim qalıb?!

## SƏKSƏNİMDƏN SONRA

Səksənimdən sonra
bu şərəfsiz və gərəksiz qocalıq

Və yaşadığım
korrupsiyalı dünya
hovur-hovur
qabağına qatıb məni
qovur...
Mürgülü
və mürgünəli qocalıq
Pullu adamlar kimi
hərdən yalanmışdan
kişiləşir,
ciddiləşir...
Çıxıb çiynimdə əyləşir.
Boynumdan asılır
qalstuk kimi,
gecəbəgündüz
mənimlə əlləşir...
Bir gün, iki gün, beş gün belə...
Sonda
insafa gəlib "əhliləşir!"
Gördüyüm o azad sevdalı dünya
azad dərddi artıq,
azad qəmdi.
Yeməyim-yatmağım-gəzməyim kəmdi,
yazmağım kəmdi...
Hərdən-birdən elə bilirəm
altım nəmdi,
üstüm nəmdi.
Dərdim deşir ürəyimi,
Evin içində
arvad-uşaq da çəm-xəmdi...
Dərdi duyan dərdin alım
Bir balaca
və ballıca Baydimdi,
bir dəftərdi,
bir qələmdi...

## BECİD VİDALAŞMA

Çirkli qazanc çirkabında
sərələnib səllimi yatan,
Ədəbiyyata
dal qapıdan daxil olub
"qoz-fındıq" satan,
Zəhər dişi ancaq

abırlı-səbrli
ziyalılara batan
şər-şarlatan həsədçilər,
Blogerlər-qəzetçilər,
Zəhmət çəkib səksənməyin,
səkkiz aydı səksənimin içindəyəm.
“Nida” vaxtım artıq ötüb,
Ömrün vida bürcündəyəm...
Cibimdəki manat kimi
dəyərim itib,
köçümdəyəm...
Şəhid ruhlar ölkəsində,
Avro, dollar kölgəsində
iyrənc şəkil çəkdirənlərdən iyrənmişəm...
Mən bu ömrün
örnək dəyər ölçüsünü
pullulardan yox,
ulılardan öyrənmişəm.
“Darul-ədəb” ərkanımla
qocafəndi,
addım-addım
son mənzilə gəlib çatdım.
Azadlığın cani-cinlər,
cin-şeytanlar dərəsində,
hərə öz başı çarəsində...
Mən qərib də
qürbətelli cərgəsində
ölümsüz söz sevdasıyla
başımı qatdım.
İndi heç kəsi eşitmirəm,
heç kəsi görmürəm,
Dünyanın qart sifətinə
küfr edib bir dəfə
tüpürmüşəm deyə
çevrilib bir daha tüpürmürəm.
Dünən sübh çağı
həyətə enib
əbədi sevgi qataları oxuyan
qara geyimli
qaratoyuqlarla vidalaşdım.
Sonra
əsilli-nəsilli itim
balaca Baydimlə vidalaşdım.
Daha sonra

Sanqalanı aşdım,
kəndimizlə qucaqlaşdım,
Kəndimizin başındakı
qəbirlərlə halallaşdım.
Sonra dönüb o yerlərdən
dəvəsi ölmüş ərəb kimi
uzaqlaşdım...
Küsmə, könlüm, incimə də,
bu robotlar erasıdı...
Eşitdiyin özgürlüyün adı qalıb,
ortadakı
yeni tipli sümürgünlər seriyasıdı...
O tərəfdə
"anqlosaks" sarsaqları,
Bu tərəfdə erməni-rus marfaqları
Özümüzdə yada yalaq
Qoca Şərqin yaltaqları...
Qovğa pulun qovğasıdı!
Araqatanlar ara qatır,
adamsatanlar adam satır,
Dəhşət bundan sonrasıdı...
Dünya pərən-pərənlikdi,
Qer-qeybətdi, çərənlikdi,
Hər yan mənəm-mənəmlikdi.
Səbr evində
Oktay Şamil artıq ölüb,
kəfənlikdi...

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"**

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalın bir nüsxəsinin qiyməti 2 manat, illik abunə qiyməti 24 manatdır.**
**İNDEKS: 76300**



*Zöhrab MEHDİ*

## QAR ŞEİRİ

Bağışla, dostum, bağışla,
Qara şeir yazmamışam.
Nə yazmışamsa ağ çıxıb,
Qara şeir yazmamışam.

Qara şeir yazmamışam...
Canımız sağ olsun, dostum.
Təki dost yanında qartək
Üzümüz ağ olsun, dostum.

Qara şeir yazmamışam...
Ki, ağlığına xal düşər.
O məndən küsər, mən ondan,
Sonra da qalmaqal düşər.

Qara şeir yazmamışam...
Qar özü – şeirdi, dostum!
Qar üstündə o şah misra:
Yar izi – şeirdi, dostum...

...Qara şeir yazmamışam,
Qardı da, yağır, qoy yağsın!
Torpağın canı dincəlsin,
Göyün də sancısı çıxsın!

## ANAMIN DUASI YETİR

Hərdən qılığına girib birtəhər,
Ölümün başını sözlə qatıram.
Him-cim eləyirəm, guya nə xəbər,
Tovlayıb qaş ilə, gözlə qatıram.

Gün gəlir saçını tumarlayıram,
Gün gəlir ağzını boza verirəm.
Bəzən də ölümlə qol-boyun olub,
Selfi də çəkirəm, poz da verirəm.

Möhlət istəyirəm, qaşqabaq töküb
Yemirəm, içmirəm... dərd eləyirəm.
– Qəfildən əlindən bir xəta çıxar!
– Hərdən gözlərimi dörd eləyirəm.

Bəzən də həddini aşmasın deyə,
Könlünü bir-iki həblə – alıram.
Zümzümə edirəm, ritm tuturam,
Ovqatla alıram, təblə alıram.

(...Hərdən gizlənirəm Ay işığında,
Hərdən də bir sərçə yuvası yetir...)
Ölümlə üz-üzə qalanda – bir də,
Dadıma Anamın duası yetir!

## AYRILIQ

Bu qədər ayrılıq olarmı, Allah?!
Bu Yer ayrılıqdı, o Göy ayrılıq.
Nəyə toxunursan, hara baxırsan,
Hər şey ayrılıqdı, hər şey ayrılıq!

Dənizə baxırsan, dəniz ayrılıq,
Çölə boylanırsan, çöl ayrılıqdı.
Bu cığır ayrılıq, bu iz ayrılıq,
Ovcunda tutduğun əl, ayrılıqdı!

Bu dağ ayrılıqdı, daş ayrılıqdı,
Bu ağac ayrılıq, quş ayrılıqdı.
Gün gündən ayrılır, il ildən, Allah,
Üst-üstə qalanan yaş, ayrılıqdı!

Dost da ayrılıqdı, yar da ayrılıq,
Yox da ayrılıqdı, var da ayrılıq.
Ocaq ayrılıqdı, qor da ayrılıq,
Burda ayrılıqdı, orda ayrılıq!

...Bu qədər ayrılıq olarmı, Allah?!
Hər tərəf... arxa da, ön də – ayrılıq!
Nə illah etsəm də, Yahu, nə illah,
Baxıram büsbütün mən də ayrılıq!

## ELƏ İSTƏYİRƏM

Elə istəyirəm – bir külək əsə,
Əsə şıltaq külək, kür külək əsə.
Diksinə, titrəyə Yer, külək əsə,
Elə istəyirəm, elə – İlahi!

Elə istəyirəm – bir yağış yağa,
Yağa leysan kimi, gur yağış yağa.
Təpə gözlərinə Yer, yağış yağa,
Elə istəyirəm, elə – İlahi!

Elə istəyirəm – bir günəş doğa,
Doğa üzümüzə nur, günəş doğa.
Gərnəşə, əsnəyə Yer, günəş doğa,
Elə istəyirəm, elə – İlahi!

...Hələ ümidim var, hələ, İlahi!
Beləyəm mən də, bax, belə, İlahi!
Neyləyim, özümdən asılı deyil –
Elə istəyirəm, elə – İlahi!

## GÖRMÜŞƏM

Mən bir çölün necə darıxdığını,
bir yolun necə qəribsədiyini görmüşəm.
Mən bir quşun necə kədərləndiyini,
bir ağacın necə gülümsədiyini görmüşəm.

Necə ağladığını görmüşəm bir itin,
Necə üşüdüyünü görmüşəm bir böcəyin.
Necə sevindiyini görmüşəm bir arının,
Necə nazlandığını görmüşəm bir çiçəyin.

Mən bir yurd yerinin necə kövrəldiyini,
bir ocaq daşının necə "qovrulduğunu" görmüşəm.
Mən bir nisgilin necə qövr elədiyini,
Mən bir canın necə "qıvrıldığını" görmüşəm...

Görmüşəm atam, qardaşım – görmüşəm –
görməsəm niyə, nədən söyləyim, amma...
Torpaq haqqı, Od haqqı, görmüşəm,
İnanırsan inan, inanmırsan inanma...

## GETMİŞƏM

Yığışdırın əşyalarımı, yığışdırın,
Üzünüzə, gözünüzə bulaşmasın.
Heç nəyim qalmasın ortalıqda,
Əlinizə, ayağınıza dolaşmasın.

Ordan çəkmələrimi yığışdırın,
Ordan da pencəyimi, köynəyimi...
Ordan fırçamı, darağımı yığışdırın,
Ordan da saatımı, eynəyimi.

...Açın pəncərəsini, açın,
Dəyişdirin havasını otağımın.
Yığışdırın güllü yorğanımı,
Qara örtün üstünə yatağımın.

...Önəmli olan nəyim vardısa,
Onsuz da sinəmə yığıb getmişəm.
Axtarmayın məni, gəzməyin –
Getmişəm, çoxdan çıxıb getmişəm.

## SƏN BİR AZ FƏRQLİYDİN

Sən bir az fərqliydin, sən bir az fərqli,
Yerişin, duruşun, boyun fərqliydi.
Sən bir az fərqliydin, bir az eyy... bir az,
Baxışın, gülüşün, huyun fərqliydi.

Sən bir az fərqliydin, nə bilim, bəlkə,
Tək mənim anlayıb, duyduğum qədər?!
Hamıdan, hər şeydən fərqli bir yerə –
Fərqli bir köşəyə qoyduğum qədər!

Sən bir az fərqliydin, bir az, lap bir az,
Demirəm təpədən-dırnağa – bütün...
(Nə deyim, bir az da mən "fərqli" oldum
Fərqli olduğunu fərq etdiyim gün.)

Sən bir az fərqliydin; bax, canım-gözüm,
...Görürsən, o bir az nə "qan" elədi?!
Səni "Sultan", məni – bu səltənətə,
Bu boyda taxt-taca "Xaqan" elədi!



*Eldar HƏSRƏT*

## SÖYLƏDİ

Üç telli sazımı basdım sinəmə,
Ana yurdum mənə "gəl-gəl" – söylədi.
Haçandır getmisən? – dedi Qazağım,
Bir gəl qucağımda dincəl, söylədi.

Şeirlə yoğrulub ulu torpağım,
Şairlər beşiyi olmuş qucağım.
Ruhuna can versin gəl bu növrağım,
Sənət göylərinə yüksəl, söylədi.

Hər cür əyləncəni bir tərəfə at,
Yoxsa quştək uçar əlindən həyat.
Sənət heykəlini sözünlə yarat,
Səni ucaldar iş, əməl, söylədi.

Qürbətdən əl çəkib, qoynuma köçsən,
Saf havamdan udub, suyumdan içsən,
Doxsanı adlasan, yüzü də keçsən,
Sənə yaxın düşməz əcəl, söylədi.

Mənimlə ilhamın heç zaman dönməz,
O tərlan xəyalın göylərdən enməz.
Qoynumda yaşasan, bir daha sönməz
Köksündə alışan məşəl, söylədi.

Bir gör, sən gedəli neçə il olub,
Verdiyin vədə də lap çoxdan dolub.
Hicrindən gül kimi saralıb, solub
Sevdiyin o məsum gözəl, söylədi.

Həsrət, sonu yoxmu intizarımın?
Sən ki şərəfisən düz ilqarımın.
Dünyanı dolanır balalarımın
Yazdığı hər qoşma, qəzəl, söylədi.

## AD GÜNÜM

***26 fevral – Xocalının soyqırımı günü mənim ad günümdür***

Vətən torpaqları zəbt olan gündən
Olmayıbdır mənim bircə şad günüm.
O vaxtdan ad günü keçirmirəm mən,
Xocalıyla bitib mənim ad günüm.

Artıq yaşımı da unutmuşam mən,
Bilmirəm əllidi, yüzdü, ya mindi.
Mütləq cəzasını alacaq düşmən,
Ürəyim adımtək buna əmindi.

Az qalıb, inanın, bax, bu baharda
Qələbə müjdəsi alınacaqdır.
Bütün yurdumuzda – ulu dağlarda
Koroğlu cəngisi çalınacaqdır.

Bax, o gün mənimlə doğacaq ölkə,
Kimsəsiz yurdlara köç gedəcəkdir.

Mənim ad günümü mənimlə birgə
Vətən Xocalıda qeyd edəcəkdir.

## BİLMİRƏM

Azmışam taleyin labirintində,
Sən gedən yolları tapa bilmirəm.
Hüsnünə yazılmış sevgi şeiriyəm,
Qəlbinə, qanına hopa bilmirəm.

Sevgi dəryasında eşqin bir inci,
Qəvvası olmuşam özüm birinci.
Ümidin əlindən alıb sevinci
Kədərin gözünə təpə bilmirəm.

Məni hər bir bəla vurub dişinə,
Doğrayıb ətimi, çəkib şişinə.
Bu dəli sevdanın düşüb peşinə
Gedirəm, dağ, dərə, təpə, bilmirəm.

Məsihtək ələyib nurun selini,
Nəfəs ver, canlandır aciz ölünü.
Ayrılıq dərdini yaxıb, külünü
Dibsiz dəryalara səpə bilmirəm.

Dözümüm, təpərim tamam gərilib,
Sən keçən yollara ruhum sərilib,
Hər gecə min kərə ölüb-dirilib,
Əcəlin əlini öpə bilmirəm.

Göylərmi uçular, görüşsək bir gün?
Həsrətin həsrətdən ölüb büsbütün.
Sonsuz əzabından qurtulmaq üçün
Niyə gümanım yox ipə, bilmirəm?







**MƏMMƏD ORUC**
**KÖÇÜRÜLMƏ**
**BAKI, “ÇARDAQ” NƏŞRİYYATI, 2025**

Yazıçı Məmməd Orucun bestseller olan “Köçürülmə” romanı beşinci dəfə nəşr olunub. “Köçürülmə” romanında İkinci Dünya müharibəsindən sonra Azərbaycanın qərb bölgəsində yerləşən Vedibasardan əhalinin vaqonlara doldurularaq Azərbaycanın İranla sərhəd ərazilərinə mühacirəti təsvir olunur. Köçün iştirakçısı olan yazıçı valideynlərinin, eləcə də digər qonşu ailələrin el-obalarından sürgün olunaraq yaşadıqları əzabları, faciələri ustalıqla qələmə alıb, real səhnələr yaradıb. Roman Azərbaycanın qərb bölgələrinin sürətlə erməniləşdirilməsinin sübututur.




**ORXAN İSAYEV**
**“KƏRKÜKLÜ NÖVRƏS QƏDİM”**
**BAKI, “AFPoliqrAF” NƏŞRİYYATI, 2025**

Kitabda müəllifin XVIII əsr İraq-türkman ədəbiyyatının görkəmli şairi və mütərcimi Əbdürrəzaq Növrəs Qədimin həyat və yaradıcılığı, eləcə də qədim Azərbaycan şəhəri olan İrəvan haqqında yazdığı “Tarixçeyi-Növrəs” əsəri ilə bağlı araşdırmaları yer almışdır. Kitabın II hissəsində “Tarixçeyi-Növrəs” əsəri, türkdilli “Divan”ından seçilmiş qəzəllər təqdim edilib.

Kitabın elmi redaktoru və məsləhətçisi Əməkdar elm xadimi, professor Qəzənfər Paşayevdir.




**BARAT VÜSAL**
**“QƏLƏM BÖYÜDƏNİ KİÇİLTMƏK OLMUR”**
**BAKI, “QANUN” NƏŞRİYYATI, 2025**

Kitaba AYB Qazax filialının rəhbəri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsalın haqqında yazılan məqalələr, şeirlər, verdiyi müsahibələr, göndərilən mesajlar, avtoqraflar, mətbu qeydlər və keçirilmiş müxtəlif ədəbi tədbirlərdən fotolar daxil edilmişdir.




**VAQİF BƏHMƏNLİ**
**"SÖZÜN CANI"**
**BAKI, "İMZA" NƏŞRLƏR EVİ , 2025**

Şair Vaqif Bəhmənli bu kitabında şair Adil Cəmilin ədəbi portretini oxuculara təqdim edir. Məqalədə Adil Cəmilin poetik yaradıcılığı incələnir. Şairin şeirlərindən nümunələr verilir:

***Heç bilmirəm bu vaxtacan***
***Daş qoydummu daş üstünə?***
***Ad günləri bayram deyil,***
***Yaş gətirir yaş üstünə.***




**NƏZAKƏT MƏMMƏDLİ**
**"KÖHNƏLMƏYƏN XİFFƏT"**
**BAKI, "ZƏRDABİ NƏŞR" MMC MƏTBƏƏSİ , 2025**

Nəzakət Məmmədlinin təqdim olunan kitabında son dövrlərdə yazdığı şeirlər toplanmışdır. Şeirlərin əsas mövzusu ana hissləri, duyğuları, Vətən sevgisidir. Müəllif bədii nümunələrlə Qarabağın azadlığına, qəhrəman əsgər və zabitlərimizə, şəhidlərimizə həsr olunmuş ülvi hissləri tərənnüm edib.

***REDAKSİYA HEYƏTİ:***
**Ağasəfa, Afaq Məsud, Azad Yaşar, Asim Yadigar, Elçin, Emin Piri, Elşad Barat, Əli Əmirli, Firuzə Məmmədli, Firuz Mustafa, Firudin Qurbansoy, Məmməd Oruc, Mustafa Çəmənli, Nərgiz Cabbarlı, Novruz Nəcəfoğlu, Paşa Qəlbinur, Rafael Hüseynov, Rəfail Tağızadə, Rəhilə Qeybullayeva, Rüstəm Kamal, Seyran Səxavət, Südabə Ağabalayeva, Vahid Əziz, Vaqif Yusifli, Vaqif Bəhmənli, Vilayət Quliyev, Vüsal Nuru**